AЗƏP CƏFƏROV
HÜSEYN İSGƏNDƏR

# AZƏRBAYCANDA DİNLƏR VƏ MƏZHƏBLƏR BİR ÜMUMİ DİN İŞIĞINDA

BAKI -2011

**Elmi redaktor**: **Robert Mobili** (Alban-Udi kilsəsi)

**Məsləhətçilər:** **Ramil Əliyev** (Krişna Şüuru cəmiyyəti)
**Şahlar Quliyev** ("Nehemiya" əllincilər xristian icması)
**Dilarə Əliyeva** (xilaskar Evangelik-Lüteran icması)

**Azər Cəfərov, Hüseyn İsgəndər. Azərbaycanda dinlər və məzhəblər Bir ümumi din işığında**. Bakı, «Тящсил» НПМ, 2011, 184 сящ.

**Azer Jafarov, Huseyn Isgandar.** Religions and confessions in Azerbaijan in the light of One common Faith – Baku, 2011.

Kitabda ilahiyyat, elmi ateizm və dinşünaslığın əsasları təhlil edilmiş, "Bir Ümumi Din" konsepsiyasına əsaslanan müasir dinşünaslığın prinsipləri irəli sürülmüşdür.Dinlərin mövcud təsnifat sistemi təhlil edilmiş, Azərbaycanda fəaliyyət göstərən dinlər və məzhəblər haqqında ətraflı məlumat verilmişdir. Kitabda həmçinin Bir Ümumi Din konsepsiyası açıqlanmış, onun "tolerantlıq" anlayışından daha yüksəkdə durduğu və bu konsepsiyanın dövlət və cəmiyyət tərəfindən qəbulunun vacibliyi vurğulanmışdır.

$A\frac{0033302}{700122}$ 2011

© «Тящсил» НПМ, 2011.

# MÜQƏDDİMƏ

*Bu prinsiplər və qanunlar, bu möhkəm bərqərar olmuş və qüdrətli sistemlər, bir Mənbədən gəlmişdir və bir İşığın şüalarıdır. Onların birinin digərindən fərqlənməsi onların bəyan edildikləri dövrün müxtəlif tələblərinə görədir.*

***Həzrət Bəhaullah***



İnsanların ruhani həyatında əsrlər boyu Din qədər böyük rol oynamış amil tapmaq mümkün deyildir. Din, insan həyatını yaradıldığı gündən Əbədi Olana bağlayaraq, ona yüksək məna vermişdir. Daş dövründən tutmuş müasir informatika əsrinə kimi, dərin dəyişikliklərə və metamorfoza məruz qalsa da, o, insan ruhunda və dünya mədəniyyətinin daxilində yaşamaqda davam etmişdir. Misir piramidalarının və Babil himnlərinin, Bibliya və Parfenonun, Qurani – Kərim və Avestanın, Qot stilində tikilmiş vitrajların və rus ikonalarının, Nəsimi və Dostoyevskinin yaradıcılığının, Platon, əl-Biruni, Farabi və Lev Tolstoyun düşüncələrinin, Maraği və Baxın musiqisinin, Martin Lüter, Əbdül-Bəha və Şovqi Əfəndinin, Qandi və Xomeyninin sosial ideyalarının əsası Dindədir. Din bir çox tarixi hərəkatlarda həlledici impuls olmuşdur. Asiyada Buddizmin və antik dünyada Xristianlığın yayılması, İslam furuatları, Avropada Reformasiya, İranda babilər hərəkatı və yeni dövrdə Bəhailiyin ortaya çıxması, bəşəriyyətin həyatında əsil dönüş nöqtəsi olmuşdur. Etika və metafizika, incəsənət və təbiətşünaslıq öz yaradılışına görə Dinə borcludurlar: incəsənət ayin kimi dünyaya gəlmiş, elm və fəlsəfə dünyaya dini baxışı dərk etmək cəhdi kimi

yaranmış, mənəviyyat, hüquq, ailə Dinin göstərişlərinə əsaslanmışdır. Din keçmişdə olduğu kimi, bu gün də istənilən mədəniyyətə daxili vəhdət gətirən təməl rolunda çıxış edir. Tanınmış rus alimi V.İ.Vernadskiy hələ keçən əsrin 20-ci illərində aşağıdakıları söyləmişdir: "Elm də insan şəxsiyyətinin bütün başqa təzahürləri kimi Dindən törəmişdir".

İstənilən cəmiyyətdə Dinə münasibət bir mənalı deyildir. İnsanlar çox qədimdən Dinin nə olması sualına cavab verməyə çalışmışlar. Müasir dövrdə bəziləri onun tərəqqiyə zidd olduğunu sayır, digərləri isə əksinə, onu tərəqqinin və bütövlükdə sivilizasiyanın əsası hesab edirlər. İnkar olunmaz həqiqətdir ki, Din Yerdə mövcud olmuş mədəniyyətlərin əsasını təşkil etmişdir. Dünya xalqlarının tarixi sübut edir ki, Böyük Dinlər hər zaman sivilizasiya prosesinin əsas hərəkətetdirici qüvvəsi kimi çıxış etmiş, cəmiyyətin və fərdin ruhani aləmini, əxlaqi-mənəvi dəyərlərini formalaşdırmışdır.

Həzrət Əbdül-Bəha buyurur:

"*Din – iman toplusu, adətlər yığını deyildir; din Allahın təlimidir, elə bir təlim ki, bəşər həyatının əsas təməlini təşkil edir, çünki o yüksək düşüncələr törədir, xasiyyəti təkmilləşdirir və insanın əbədi şərəfi üçün təməl qoyur*".

Din hər bir əsrdə xeyirxahlıq tərbiyə etmiş, şəri pisləmiş və həqiqəti görmək istəyənlərin nəzərinə indiyədək görünməmiş imkanların mənzərəsini açmışdır. Xarakterin nəcibləşdirilməsi və insanlararası münasibətlərin ahəngdar edilməsi baxımından Din bütün tarix boyunca həyata məna verən əsas qüvvə olmuşdur. Din ictimai şüurun ən ali formasıdır. O, insanın mənəvi həyatının substansiyası və əsasıdır. O, mədəniyyəti qidalandırır və ona məna verir. Dinin məsləhəti ilə düşünən insan qəlbi dünyanın onun üzərinə qoyduğu məhdudiyyəti aşmaq və öz potensialını açmaq üçün ilham almışdır. Uca Ədalət Evinin "Bir ümumi din" kitabında deyilir:



*“Bütün tarix boyu din fərdin və cəmiyyətin ruhani inkişafının əsas hərəkətvericisi olmuşdur. Minilliklər boyu İlahinin göstərişlərinə cavab verən insanlar musiqidə, memarlıqda və başqa incəsənət növlərində heyrətamiz nailiyyətlər qazanmağa ilhamlanmışlar.Dünyada başqa elə bir güc insanlarda müqayisə olunan qəhrəmanlıq, fədakarlıq və pəhrizkarlıq keyfiyyətlərini üzə çıxarmağa qabil deyil. Sosial sahədə, dindən çıxan mənəvi prinsiplər dəfələrlə universal qanunlar kodeksinə çevrilərək insani münasibətləri tənzimləmiş və kamilləşdirmişdir”.*

Bu gün müasir cəmiyyətdə mənəviyyatın sarsılması, ailə ənənələrinin zəifləməsi, hədsiz varlanma və yoxsulluğun qütbləşməsi, cinayətkarlığın, HİV\AİDS və digər qorxunc xəstəliklərin, narkomaniya və əxlaqsızlığın yayılması dini dəyərlərin ictimai, siyasi, iqtisadi münasibətlər sistemindən sıxışdırılıb çıxarılması ilə əlaqədardır.

Ötən 80-90 ildə dinsizləşmənin törətdiyi ictimai-psixoloji mühit, son illər isə din adı altında mövhumatlar və xurafatlar toplusundan ibarət “ilahi biliklərin” insanlara təqdim olunması geniş hal almışdır. Dinə dönüş adı altında orta əsrlərin ictimai, iqtisadi, sosial qaydaların bərpasına çağırışlar eşidilməkdədir. Dinin ruhani və əxlaqi əsasları kənara atılaraq, onun zahiri cəhətləri, geyim qaydaları, mərasim və ayinləri, dövrünü keçirmiş sosial qanunları ön plana çəkilir və məhz bu məsələlərin “Din” olması vətəndaşların düşüncəsinə aşılanır. Bu da Azərbaycan xalqını tərəqqi yolu ilə deyil, əksinə, tənəzzül yolu ilə aparmağa xidmət edir.

Bu gün dini dözümsüzlük, fanatizm, və onun təzahürü kimi ortaya çıxan terrorizm bir xəstəlik kimi dəhşətli nəticələrlə bəşəriyyəti bürüməkdədir. Vaxtilə İnsanlığa ziyan vuran irqi, siyasi, etnik təəssübkeşliklərə münasibətdə olduğu kimi, dinlərarası bu böhrana bütün dünyada olduğu kimi, Azərbaycanda da ciddi yanaşılmalıdır. Bundan ötrü mövcud dinlər və dini məzhəblər ilk növbədə özlərində cəsarət tapıb uzaq keçmişdən miras qalan ətalətə batmış köhnə ilahiyyat sistemlərindən kənara çıxmalı, dini liderlər səmimiyyətlə o faktı etiraf etməlidirlər ki, Allah birdir və mədəniyyətdəki təzahürlərinə və insan şərhlərinə, həmçinin ayin, mərasim, qanunlarında və digər zahiri cəhətlərindəki fərqlərə baxmayaraq, Din də birdir. Məhz bu həqiqətin dərk edilməsi XIX əsrin sonlarında dünya miqyasında insanları dinlərarası hərəkata başlamağa ruhlandırmış və sonrakı yüz illiyin məşəqqətindən keçirərək onu saxlamışdı. Allahın nazil etdiyi böyük dinlərdən heç birinin səlahiyyətliliyini şübhə altına almadan, Dinin bir olması prinsipi, onların reallığa davamlı uyğunluğunu təmin etmək potensialına malikdir. Bəşəriyyətin bugünki reallığı isə dünyanın böyük dinlərinin bir-birilə münasibətlərində fundamental dəyişikliklər etməsini tələb edir. Həzrət Bəhaullah xəbərdarlıq edir:

*"Ey Yer kürəsinin ədavət aparan xalqları və insanları! Öz nəzərlərinizi birliyə tərəf çevirin və qoy onun işığı sizi nurlandırsın. Bir yerə yığılın, aranızda çəkişmələrə səbəb olan nə varsa, Allah xatirinə onu məhv etməyə çalışın. Ey insanlar, oyanın! İnam qüdrəti ilə silahlanaraq sizin aranızda didişmələr salan təsəvvürlərinizin mənasız bütlərini sındırın. Sizin Mərhəmətli*

*Rəbbiniz istəyir ki, dünyada olan bütün insanlar vahid ruh və vahid bədən kimi olsunlar*".

XX əsrin Bəşəriyyətə mirası budur ki, o, dünya xalqlarını, özlərini vahid insan nəslinin üzvləri kimi görməyə və yer kürəsinin bütün insanların Ümumi Evi olduğunu anlamağa məcbur etdi. Həmin əsrdə Dünyanı lərzəyə gətirən davamlı münaqişələrə və zorakılıqlara baxmayaraq, nə vaxtsa insan təbiətinin ayrılmaz xüsusiyyəti kimi təsəvvür olunan dini, irqi, milli təəssübkeşliklər artıq hər yerdə geriyə çəkilməkdədir. Faciə burasındadır ki, mövcudluğunun səbəbi məhz qardaşlıq və sülh olan dinlər çox vaxt bu yolda çox çətin aşılan maneələrə çevrilirlər. Lakin formalaşmaqda olan Qlobal Təfəkkürün təsiri altında XX əsrdə onlar da öz mövqelərini nəzərdən keçirməyə və zaman-zaman əldən verməyə məcbur olmuşlar. Nəticədə xalqların tərbiyələndirilməsi mühafizəkar və fanatik ruhanilərin, "din xadimlərinin"əlindən çıxmağa başlamışdır. İndi liberal ideyaların hətta ən mühafizəkar dini və teokratik dairələrə daxil olmasına heç nə mane ola bilmir.

Artıq XIX əsrin sonları və XX əsrin başlanğıcında dini təəssübkeşliyin də digər təəssübkeşliklər kimi geri çəkilməsi müşahidə olunurdu. 1893-cü ildə Çikaqoda keçirilən Ümumdünya Sərgisi məşhur "Dinlərin Parlamenti"nin yaranmasına səbəb oldu. Parlamentdə xristian məzhəbləri, İslam, Buddizm, Hinduizm, Konfuziaçılıq, Caynizm, Zərdüşti və Bəhai dininin ardıcılları təmsil olunmuşdu. Din sahəsində nüfuzlu tədqiqatçıların fikrincə, bu toplantı "dünya tarixində bərabəri olmayan", misilsiz bir toplantı idi. Parlament, onun təşkilatçısının sözlərinə görə, "dünyanı kor-koranə dini təəssübkeşlikdən, dözümsüzlükdən azad etmişdi". Beləliklə, bu dövrdən etibarən bu cür müxtəlif növ dinlərarası hərəkatlar kök atmağa və çiçəklənməyə başladı. Müxtəlif dillərdə ədəbiyyat geniş ictimaiyyətə böyük dinlərin prinsiplərini təqdim edir, dünyanın bir çox ölkələrində ali təhsil müəssisələri dinləri müqayisəli öyrənmək üçün akademik proqramlar hazırlayıb tətbiq edirdi.

Əlbəttə, dünyanın əsas dini cərəyanlarının sosial qanunları və ibadət formaları arasında geniş fərqlər açıqca görünürdü. Min illər ərzində İlahi Vəhylərin ardıcıl olaraq həmişə inkişafda olan sivilizasiyanın dəyişən tələblərinə ünvanlandıqları nəzərə alınarsa, bu, çətin ki, başqa cür ola bilərdi. Bununla belə, getdikcə insanlar daha çox bu fikrə gəlirdilər ki, bütün dinlərin əsasında duran həqiqət mahiyyətcə birdir və araşdırmalar dinlərin Vahid Mənbədən qaynaqlandığını və ruhani əsaslarının bir olmasını göstərirdi. Bu isə dinlərarası hərəkatın yeni inkişaf mərhələsinə qalxmasına kömək etməyə bilməzdi.



1993-cü ildə Çikaqoda, sonra isə 1999-cu ildə Cənubi Afrikada dünya dinlərinin nümayəndələrinin iştirakı ilə "Dünya Dinlərinin Parlamenti" növbəti dəfə toplanır. Bu görüş 1893-cü il Çikaqo toplantısının bir əsrlik yubileyinə həsr olunsa da, Parlamentdə Dinlərarası münasibətlərlə bağlı geniş problemlər nəzərdən keçirilmişdi. Cənubi Afrika toplantısından bir il sonra Dünyanın dini liderlərinin 2000-ci il Nyu-York sammitində dinlərarası münasibətlərin dərinləşdirilməsinin zəruriliyi bir daha təsdiq olundu. Göründüyü kimi, dinlərarası hərəkatın böyüyüb genişlənməsində, şübhəsiz ki, əsas amil müasir reallıqların təsiri altında dünya dinlərinin mühafizəkar mövqelərdən geri çəkilb, dinlərarası dialoq və əməkdaşlığa can atması olsa da, dinlərin *Əzəli Birliyini* sübuta yetirən baxışların və akademik araşdırmaların da burada rolu kifayət qədər idi.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da Dinlərarası hərəkata son illər həm dövlətin, həm də müxtəlif dini icmaların böyük həssaslıqla yanaşması öz bəhrəsini verməkdədir. Lakin bu gün bu sahədə daha çox işlərin görülməsi tələb olunur. Çünki İslam, müxtəlif Xristian, Yəhudi, Bəhai, Krişna Şüuru dini

icmalarının bir araya gəlib, dostluq və əməkdaşlıq istiqamətində konkret addımlar atmaq istəyi Azərbaycan cəmiyyətinin ənənəvi baxışlı insanları tərəfindən bir mənalı şəkildə qarşılanmır. Söhbət burada dinlərarası hərəkatın inkar edilməsindən deyil, onun "ənənəvi" dinlərlə (İslam, Rus provoslav, yəhudi) məhdudlaşdırılmasından gedir. Halbuki dinlərarası hərəkatın fəlsəfəsi bu məsələyə daha geniş aspektdə yanaşılmasını tələb edir. Bu sahədə dinşünaslığın köməyi ilə maarifləndirmə işlərinin aparılmasına daha çox ehtiyac vardır. Lakin bu gün Azərbaycanda müasir dinşünaslığın dinlərarası əməkdaşlıq və dostluğa xidmət edən konsepsiya irəli sürmək imkanında olması şübhə doğurur. İlahiyyat elmlərinin arxasınca addımlayan, "son həqiqət"ə iddia edən dini təlimlərin müstəsnalığa olan iddiasını bəzən açıq, bəzən isə örtülü şəkildə dəstəkləyən bu təlim bu cür məsul missiyanın öhdəsindən gəlmək iqtidarında deyildir. Halbuki bu günün reallıqları müasir dinşünaslıqdan dar məqsədlərə xidmət edən dini dünyagörüşlərdən uzaq olub, Bəşəriyyətin Birliyi və Dinlərin Əzəli Birliyi konsepsiyasına xidmət etməyi tələb edir.

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş bu kitabçada müəlliflərin əsas məqsədi Azərbaycanda mövcud dinlərin teoloji əsaslarını *Dinlərin Əzəli Birliyi – Bir Ümumi Din* prizmasından keçirməklə, onların bir İlahi Mənbədən olmasını göstərməkdir. Eyni zamanda Azərbaycanda mövcud dinlər və dini məzhəblərin Müqəddəs Yazılarına və digər obyektiv mənbələrə istinadən onlar haqda düzgün məlumat vermək və uzun illər bu məsələdə mövcud olmuş məlumatsızlığa son qoymaqdır.

Müəlliflər əmindirlər ki, Azərbaycan xalqının birliyi onun mövcudluğunun, milli təhlükəsizliyinin və tərəqqisinin yeganə şərtidir. Dinlər və dini məzhəblər arasında mövcud ayrılma və yadlaşmanın aradan götürülməsi, onlar arasında Bir Ümumi Din konsepsiyası əsasında əməkdaşlıq və birliyin yaradılması Azərbaycan xalqının milli birliyinin əsaslarından biridir.

Həzrət Əbdül-Bəha yazır: "*Bütün dinlərdə həqiqət birdir və onun vasitəsi ilə bəşəriyyətin birliyi mümkündür. O zaman ki,*

*insanlar həqiqəti axtarmağa başladılar, aşkar edəcəklər ki, birləşmişlər*".

Azərbaycanda vətəndaş cəmiyyəti ildən - ilə möhkəmlənməkdədir. Bununla əlaqədar müxtəlif dini əqidəli insanlar arasında, həmçinin onların cəmiyyət və dövlətlə qarşılıqlı münasibətlərində normal sivil münasibətlərin yaradılması aktuallıq kəsb edir. Azərbaycanda *vicdan azadlığı prinsipinin* əsas götürülməsi bu problemlərin həllinin əsasını təşkil edir. Ən ümumi şəkildə vicdan azadlığı prinsipi insanın sərbəst əqidə və dini etiqad forması seçmək və onu insanlara və bütövlükdə cəmiyyətə ziyan vurmadan hərəkət və davranışda göstərmək hüququnun tanınmasıdır. Buradan belə görünür ki, vicdan azadlığının tanınması insanın ruhani azadlığının tanınması deməkdir. Bu insan varlığının elə bir hissəsidir ki, heç bir şəxsin, bütövlükdə cəmiyyətin və dövlətin ora müdaxilə etməyə ixtiyarı yoxdur. Vicdan azadlığı prinsipinin reallaşdırılması müxtəlif əqidəli və dini etiqadlı insanlar, həmçinin dövlət və cəmiyyətin müxtəlif əqidəli insanlarla qarşılıqlı münasibətində *tolerantlıq (dözümlülük) prinsipinin* tətbiqini tələb edir. Bundan ötrü etiqad azadlığının təminatçısı olan aşağıdakı prinsiplərin gözlənilməsi tələb olunur:

- Dinə münasibətindən asılı olmayaraq, vətəndaşların hüquq bərabərliyi;
- Dini və ateist birliklərin dövlətdən ayrı olması;
- Dövlət təhsil sisteminin dünyəviliyi;
- Dini birliklərin qanun qarşısında bərabərliyi;
- Əqidə azadlıqlarının reallaşdırılmasını və onların pozulmasına görə məsuliyyətləri təyin edən xüsusi qanunvericilik aktların mövcudluğu.

Yalnız bu prinsipləri gözləmək və Bir Ümumi Din konsepsiyası əsasında dinlərin və dini məzhəblərin qarşılıqlı münasibətlərini, həmçinin onların dövlət və cəmiyyətlə sivil münasibətlərini yaratmaqla Azərbaycan cəmiyyətində həqiqi birlik və harmonik münasibətlər formalaşdırmaq mümkündür.

# I FƏSİL. DİN ÜÇ TƏLİMİN PREDMETİ KİMİ

*“Dini fanatizm və nifrət dünyanı yandıran oddur
və onun şiddətini heç kəs söndürə bilməz.
Ancaq İlahi Qüdrətin Əli bəşəriyyəti bu
viranedici bəladan qurtara bilər...”*

***Həzrət Bəhaullah***

## § 1. Cəmiyyətdə ilahiyyat, ateizm və dinşünaslığın rolu



Dini tədqiq edən təlimlərin mahiyyəti və onların müasir cəmiyyətdə rolunu nəzərdən keçirək. Bu bizə nə üçün lazımdır? Əvvəla, Din - fərdin və insan cəmiyyətinin “daxili” həyatının ayrılmaz hissəsidir və dinsiz cəmiyyətlər əvvəl-axır ağır mənəvi, sosial, iqtisadi, hətta siyasi problemlərlə üzləşməli olurlar;

İkinci, Dinin kimin tərəfindən öyrənilməsinin və hansı formada təqdim edilməsinin həm adi vətəndaş, həm də dövlət üçün böyük əhəmiyyəti vardır. Ona görə də Dini tədqiq edib, onu fərdlərə, dövlət və cəmiyyətə təqdim edən təlimlərin üzərində bir qədər ətraflı dayanaq.

Dinin tədqiqi ilə *üç əsas təlim* məşğul olur: ilahiyyat, ateizm və dinşünaslıq. Bununla da Din üç təlimin predmeti hesab olunur**.** Hər üç təlimin tədqiqat obyekti eyni olsa da, Din və onun formalarına münasibətdə, tədqiqat üsullarında, əldə etdikləri biliklərin təqdimat formasında oxşar və fərqli cəhətlərə malikdirlər. Bunlar aşağıdakılardan ibarətdir:

- hər üç təlim Dini tədqiq etməyə, dini məzhəblərin teoloji əsaslarını müqayisəli şəkildə öyrənməyə çalışır;

- hər üç təlimin Din və onun müxtəlif formalarına münasibəti, əldə etdikləri nəticələr və nəhayət onların fərdlərə və dövlətə verdiyi biliklərin xarakteri bir-birindən əsaslı şəkildə fərqlənir;
- ilahiyyat və ateizm müxtəlif cəmiyyətlərdə ictimai şüurun forması, və cəmiyyətin dünyagörüşü formasında çıxış etdiyi halda, Dinşünaslıq müasir dövrdə elmi təlim olaraq qalır və onun dövlət və cəmiyyətə təsiri zəifdir.

Müasir dövrdə hər üç təlim dövlətin siyasi və ideoloji təməlindən, o cümlədən cəmiyyətin Dinə münasibətindən asılı olaraq ictimai şüurun elementi kimi çıxış etməyə, fərd və dövlətin Din və onun müxtəlif formaları ilə bağlı baxışlarına hakim olmağa, Dinə münasibətdə fəaliyyətini istiqamətləndirməyə çalışırlar.

Kommunist təmayüllü dövlətlərdə, məsələn, keçmiş Sovetlər İttifaqında, ateizm dövlətin rəsmi ideologiyası hesab olunurdu. Bu tip dövlətlərdə ilahiyyatın bir təlim kimi cəmiyyətə, ayrı-ayrı fərdlərə çıxışı ya qadağan idi, ya da dövlətin nəzarəti altında hakim ideologiyanın məqsədlərinə uyğun şəkildə çərçivəyə salınmışdı. Dinşünaslıq isə elmi ateizmin əlavəsinə çevrilərək, onun məqsəd və vəzifələrinə xidmət edirdi.

Teokratik rejimlərdə (dini dövlətlərdə) ilahiyyatçılıq, yəni hakim dinin ilahiyyat sistemi aparıcı mövqedədir. Bu cür dövlətlərdə ateizmin hər hansı bir formada təzahürünə, həmçinin başqa dinlərin ilahiyyatçılığının ölkə vətəndaşları arasında yayılmasına yaxşı halda yol verilmir, pis halda isə təqib olunur. Məsələn, İranda Bəhai dini ardıcıllarının vətəndaş hüquqlarından məhrum edilməsi, Səudiyyə Ərəbistanında ateizmin və başqa dinlərin təbliğinə qadağalar buna nümunədir.

Qərbin demokratik açıq cəmiyyətlərində hər üç təlim bərabər hüquqludur. Fəaliyyətləri üçün azad və bərabər imkanlara malikdirlər. Bununla belə, bu cəmiyyətlərdə cavan dini məzhəblərin (əllincilər, adventistlər, Yahova şahidləri, Krişnaizm

və s.) ilahiyyat sistemləri və həmçinin dinlərə "neytral mövqedən" yanaşmağa çalışan Dinşünaslıq ortodoksal dinləri (katolisizm, pravoslavlıq, lüteranlıq) sıxışdırmağa, cəmiyyətdə aparıcı mövqe tutmağa, dövlətin və vətəndaşların Din və onun müxtəlif formalarına münasibətini formalaşdırmağa çalışırlar.

XIX əsrdə dünyanın bir sıra ölkələrində dinlərarası hərəkatın geniş vüsət alması Din və dini məzhəbləri elmi əsaslarla müqayisəli şəkildə öyrənən təlimin – Dünşünaslığın bir elm kimi formalaşmasında əhəmiyyətli rol oynadı. Dinşünaslığın ilahiyyat sistemləri və ateizmlə müqayisədə son dövrün hadisəsi olması və onun hazırda dinə münasibətdə cəmiyyətdə baxışların formalaşmasında rolunun azlığına baxmayaraq, yaxın gələcəkdə qloballşmaqda olan insan cəmiyyətini onsuz təsəvvür etmək mümkün olmayacaqdır.

Tarixə nəzər yetirsək görərik ki, ilahiyyatçılıq və ateizmin cəmiyyətdə tutduğu mövqe tarixin müxtəlif mərhələlərində fərqlidir. Bu, Ruhaniyyət və Maddiyatın "münasibətindən" asılı olmuşdur. Ayrı-ayrı dövrlərdə gah dini həyatın, gah da dünyəviliyin cəmiyyətdə üstün mövqe əldə etməsi müşahidə edilmişdir. Zaman-zaman insan cəmiyyətinin dindən uzaqlaşması, əvvəlcə azadfikirlilik, sonra da materializm və ateizmin ictimai düşüncə formasında üzə çıxması, maddi dəyərlərin hakim olduğu həyat tərzinə üstünlük verilməsi, dini dəyərlərin unudulması, əxlaq və mənəviyyatın aşağı düşməsi, sonra isə dini hakimiyyətin sarsılması, səhnədən getməsi baş verirdi. Və yaxud əksinə, Allahdan yeni Dinin nazil olması ilə insanların yenidən Dinə qayıtması və ya ənənəvi dinlər daxilində "reformasiya" hərəkatının və təriqətçiliyin baş qaldırması, Dinin cəmiyyətdə yenidən hakim mövqe əldə etməsi və buna oxşar digər proseslərin səbəbi insanları qədim vaxtlardan düşündürmüşdür. Son 200 ildə bəşəriyyətin materializm və ateizmə gönüş etməsi, bütövlükdə dindən sürətlə uzaqlaşması, lakin XX əsrin sonlarında - XXI əsrin əvvəllərində

yenidən Dinə maraq göstərməsi buna bariz nümunədir. Bu məsələ üzərində bir qədər ətraflı dayanaq.

Qədim dünyada Din min illər ərzində insan cəmiyyətinin ayrılmaz hissəsi olmuşdur. Dinin insanların qəlbinə həkk olunduğu, gündəlik həyatın dini qanunlara tabe edildiyi və ilahiyyatın dövlətlərin yeganə ideologiyası olduğu qədim cəmiyyətlərdə ateizm və ona yaxın baxışların açıq ifadəsindən söhbət gedə bilməzdi. Bu dövrdə meydana çıxan azadfikirlilik və ateizmdə din birbaşa inkar edilmirdi. Hətta demokratiya və materializmin vətəni Qədim Yunanıstanda Zevs və digər allahlardan ibarət panteonun inkar edilməsi və ya onların həqiqiliyinin şübhə altına alınması qeyri-mümkün idi. Bu işə cəsarət etmiş şəxs həyatı ilə fidalaşmalı olurdu. Qədim yunan filosofu Sokratın kafirlikdə ittiham olunaraq, Areopaqus qarşısında mühakimə edilməsi və zəhərlə ölümə məhkum edilməsi faktı bunu təsdiq edir. Antik dövrdə allahları, ayinləri və ya sadəcə xalq inanclarını inkar edən hər bir kəsi ateist adlandırırdılar. Onları təqib edir və öldürürdülər. Allahlara inamı şübhə altına almaq mövcud quruluşa qəsd kimi qəbul edilirdi. Platon ateizmi "ən böyük şər", özbaşınalığın və mənəviyyatsızlığın mənbəyi adlandırmışdı.

Qədim Dünyada Din və onun qanunları toxunulmaz, ruhanilərin və dini təsisatların cəmiyyət və hökmdarlar üzərində nüfuzu sarsılmaz idi. Dini hakimiyyəti sarsıtmaq cəhdləri öncədən uğursuzluğa məhkum idi. Miladdan əvvəl XIV əsrdə Misir fironu IV Amenhotepin –Exnatonun (baxmayaraq ki, bütün Misir fironları kimi o da canlı allah hesab olunurdu) ölkədə min illər ərzində mövcud olmuş çoxallahlığı ləğv edib, tək Günəş allahı Atona etiqadı bərqərar etmək cəhdi, qədim Misir cəmiyyətində təsvirəgəlməz sarsıntılar törədərək, kahinlərin və sadə insanların müqaviməti ilə qarşılaşmış və uğursuzluqla nəticələnmişdi. Exnatonun bu cəhdini dünya tarixində dini təsisatların mütləq hakimiyyətinə qarşı yönəlmiş ilk "reformasiya" hərəkatı kimi qiymətləndirmək də olar.

Qədim Yunanıstan və Romada bir qədər fərqli proseslər baş verirdi. Bu cəmiyyətlərdə kölə istehsal üsulunun törətdiyi iqtisadi və ictimai böhranlar din və mənəviyyata da sirayət edirdi. Allahlar panteonu ətrafında formalaşmış mifoloji təsəvvürlər və yanlış baxışlar sistemi insan təfəkkürünün Allah və Kainatla bağlı ortaya qoyduğu suallara cavab vermək iqtidarında olmaması, kahinlərin ciddi müqavimətinə baxmayaraq, azadfikirliliyin inkişafına güclü təkan verirdi. Bu cəmiyyətlərdə antik ateizmin, yəni dinin fəlsəfi tənqidinin əsası qoyulurdu. Təbiətin fövqəltəbii qüvvənin iştirakı olmadan dialektik inkişafı ideyasını irəli sürən Heraklitin (b.e.ə.540-480), dünyada hər şeyin, o cümlədən insan ruhunun da atomlardan ibarət olduğunu, buna görə də ruhun ölməzliyini inkar edən Demokrit (b.e.ə.460-370) və Epikürün (b.e.ə.341-270) baxışları belə idi. Lukresi Kar (b.e.ə.99-55) "Şeylərin təbiəti haqqında" poemasında dünyanın allahların iştirakı olmadan təbii yolla meydana gəldiyini qətiyyətlə iqrar edirdi. Bununla da, ortada həqiqi Dinin olmaması səbəbindən, insan idrakının ortaya qoyduğu suallar cavabsız qalır və ateizmin inkişafı üçün əlverişli zəmin yaranırdı. Antik dünyanın mütəfəkkirləri öz idrakı axtarışları ilə ateizmin materialist fəlsəfə ilə qırılmaz əlaqəsini təmin edirdilər.

Qərb ölkələrində Orta Əsrlər və İntibah dövründə Xristian ilahiyyatı (katolisizm) hakim mövqedə, azadfikirlilik və ateizmin müxtəlif formaları isə örtülü formada ona qarşı müxalif mövqedə olmuşdur. Qərbdə həmin dövrlərdə antik dövrün filosoflarından əxs olunmuş materializm, ateizm və ona yaxın baxışlar, hakim ilahiyyatla uyğun gəlməyən adi azadfikirlilik, hətta hakim dinin daxilində zaman-zaman ortaya çıxan təriqətçilik meyilləri kilsə və cəmiyyət tərəfindən təqib olunurdu; XII-XIII əsrlərdə mənəvi "Allah dünyasını" maddi "şeytan dünyasına" qarşı qoyan və katolik kilsəsini "şeytan qüvvəsi" adlandıran, Allahın üçlük vəhdətini, məhşəri, cəhənnəmi, kilsə mərasim və ayinlərini, xaça, ikonolara, müqəddəs cəsədlərə sitayişi rədd edən, papa hakimiyyətini qəbul etməyən albiqoyçular hərəkatının

yayıldığı Cənubi Fransaya səlib yürüşlərinin təşkil edilməsi, şəhər və kəndlərin dağıdılması, insanların kütləvi şəkildə məhv edilməsi, kilsənin fitfası ilə XIII-XIV əsrlərdə demək olar ki, bütün Avropa ölkələrini bürümüş yəhudi talanları və qırğınları təriqətçiliyə, bidət təzahürlərinə və yabançı dinlərə dini dözümsüzlük ilə əlaqədar idi. Bu dövrlər üçün dünyanı dindən asılı olmadan tədqiq etmək hüququnu elan edən – azadfikirliliyin təqib edilməsi də səciyyəvi idi; Dünyanı vahid, maddi, əbədi və sonsuz hesab edən intibah dövrünün mütəfəkkiri Cordano Buruno (1548-1600) tonqalda yandırılmış, eksperimental-nəzəri təbiətşünaslığın əsasını qoymuş Qalileo Qaliley (1564-1642) bir müddət həbsxanada saxlanmışdır. Bir neçə yüz il ərzində on minlərlə insan bu cür təqiblərə məruz qalmış, onlardan bəziləri tonqalda yandırılmışdı. Dini təsisatların şiddətli müqavimətinə baxmayaraq, yalnız elmlərin əsaslı şəkildə ilahiyyatın təsir dairəsindən uzaqlaşıb materializm mövqeyinə keçməsindən, xüsusən də XIX əsrdə Darvinizmin təbiət elmlərində bərqərarından və Qərb cəmiyyətində baş verən ictimai dəyişikliklərdən sonra materializm və ateizm hakim mövqeni ələ alaraq Din və onunla bağlı olan ilahiyyat sistemlərini cəmiyyətin həyatından çıxarmağa başladı. Bu proses 1789-cu il Fransa inqilabından sonra həyata keçirilən sekulyarizasiya, dinin dövlətdən və təhsilin dindən ayrılması nəticəsində daha sürətlə inkişaf etdi. XIX və XX əsrlər ərzində sekulyarizasiya xristian dünyasının hər yerinə yayılaraq insanların ictimai və məişət həyatını əsaslı şəkildə dünyəviləşdirdi. Artıq XX əsrin ilk dövrlərində Qərbdə çox insanlar üçün əsrlərlə əsas hidayət mərkəzi funksiyasını daşımış dini hakimiyyət və onun ideoloji təməli olan ilahiyyat sadəcə olaraq çökmüş və aradan qalxmışdı.

İslam Şərqində hakim ilahiyyat sisteminə qarşı çoxsaylı müxalif baxışlar sistemi, hürrəmilik, hürufilik, qərmətilik, işraqilik və s. zaman-zaman ortaya çıxsa da, onlar ateizmə deyil, İslam daxilində təriqətçilik anlayışına və yaxud azadfikir-

liliyə daha yaxın olmuşlar. İslam Şərqində XX əsrə kimi azadfikirlilik ayrı-ayrı düşüncə sahiblərinin, əsasən də filosofların (Mənsur əl-Həllac, X əsr; Eynəlqüzat Miyanəçi, XII əsr; Şihabəddin Sührəvərdi, XII əsr; İbn-Rəşd, XII; Fəzlullah Nəimi və İmadəddin Nəsimi, XIV əsr və b.) baxışlarında sezilsə də, Allahın varlığını inkar edən ateizm dünyagörüşü Qərbdə olduğu kimi açıq formada, ictimai baxışlar sistemində, fəlsəfi məktəblər və ya ictimai düşüncənin başqa formalarında müşahidə olunmamışdır. Bu uzun dövr ərzində İslamın insanların düşüncəsinə hakim kəsilməsi, Allah, Kainat, İnsan və digər məsələlərlə bağlı ortaya çıxmış suallara İslamın bir müddət cavab vermək imkanında olması, nəticədə dünyəvi elmlərin və sekulyarizasiyanın cəmiyyətdə özünə yer tapmaması ilə əlaqədar idi. Orta əsrlər Avropasında olduğu kimi, burada da dini təsisatların və ruhanilərin bidətə, azadfikirliliyə və yadfikirliliyə dözümsüzlüyü mövsud idi. Allahın cisim və əşyalarda, insan və digər canlılarda təzahür etməsi haqqında panteist nəzəriyyənin müəllifi Eynəlqüzat Miyanəçi (1099-1131) bidətdə ittiham olunaraq edam olunmuş, eyni tale işraqiliq fəlsəfəsinin banisi Şihabəddin Sührəvərdinin (1154-1191) və Mənsur əl-Həllacın (858-922) qismətinə düşmüşdür. Mənsur əl-Həllac Allahın insanda və digər məxluqatda təcəlli etdiyini iddia edən hüluliyyə etiqadda ittiham edilərək əvvəlcə çarmıxa çəkilmiş, sonra cəsədi yandırılaraq külü Dəclə çayına atılmışdır. XIV əsrdə hürufilik nəzəriyyəsinin daşıyıcıları Fəzlullah Nəimi (1340-1401) və İmadəddin Nəsimi (1369-1417) "kafir" və "dinsiz" elan olunmuş, birinci şaqqalanmış, ikincisinin dərisi diri-diri soyulmuşdur. Yalnız XIX-XX əsrdə qlobal proseslərin, ilk növbədə Bəşəriyyətin ümumi tərəqqisinin təsiri altında İslam Şərqində də sekulyarizasiya ictimai fikirdə özünə yer eləməyə başladı. Türkiyədə Mustafa Kamal Atatürkün "türk millətini mədəni dünyada layiq olduğu mövqeyə yüksəltmək" üçün irəli sürdüyü sarsılmaz təməllərdən biri də dünyəvilik prinsipi idi ki, bu prinsip əsasında dövlət

dinə münasibətdə son dərəcə sərt mövqe tutur, dini zəmində hər cür təşkilatlanma cəhdlərinin qarşısını qətiyyətlə alır, təriqətlərin fəaliyyətini qadağan edir, təkkə və zaviyələri bağladır, dini təhsilə icazə vermir, şəriət məhkəmələrini mülki məhkəmələrlə əvəz edirdi.

Bəşər tarixinin son yüzilliklərində (XVIII əsrdən etibarən) Dinin cəmiyyət həyatının müxtəlif sahələrindən sıxışdırılıb çıxarılması, materializm və onun "yol yoldaşı" olan ateizmin insanların düşüncəsinə hakim kəsilməsi son dövrün hadisəsi deyildir. Bəşəriyyətin müxtəlif tarixi dövrlərində bu hal tez-tez müşahidə edilmişdir. Müxtəlif dinlərin Müqəddəs Yazılarında da insan cəmiyyətlərində baş verən bu cür hallarla bağlı kifayət qədər məlumat vardır; daşqın ərəfəsində Nuhun yaşadığı cəmiyyətdə törədilən cinayətlər, allahsızlıq təzahürləri və əxlaqsızlıqlar və ya Lotun Sodom və Homorra şəhərlərində rast olduğu hadisələr (Tövrət), Hud və Salehin (Qurani-Kərim) ad və səmud qəbilələrində üzləşdikləri –bütpərəstlik halları və digər təsvir edilən hekayətlər qədim cəmiyyətlərdə dindən uzaqlaşmanın, dinsizləşmənin, maddi və mənəvi "bütlərin" Həqiqi Dini əvəz etməsinə əyani sübutdur. Allahın zaman-zaman yolunu azmış İsrail xalqını haqqın yoluna qaytarmaqdan ötrü nəbilər göndərməsi Tövrətin əsas süjet xəttini təşkil edir. Cahiliyyət dövründən əvvəl ərəblərin tövhid-əhli olmasına, ulu babaları İbrahim və İsmail peyğəmbərin dininə itaət etməsinə və sonradan çoxallahlılığa, maddiyat və əxlaqsızlığa yuvarlanmalarına dair Qurani-Kərimdə kifayət qədər dəlillər vardır.

İnsan cəmiyyətinin ayrı-ayrı dövrlərində dindən uzaqlaşmanın və ateizmin geniş yer almasının dərin ictimai, psixoloji və ən əsası isə ruhani səbəbləri vardır. Bu səbəbləri insan cəmiyyətində və Dinin tarixində və dini təlimlərin özündə axtarmaq lazımdır. Şübhəsiz ki, Allah insanı xəlq etmiş və ona Allaha ibadət etmək, Onun tərəfindən göndərilmiş Peyğəmbərləri tanımaq və bu İlahi Zühurların çatdırdığı ilahi qanunları qəbul etmək qabiliyyətini vermişdir. Bu özünü Allahın bəşəriy-

yətlə bağladığı Əhddə öz əksini tapmışdır. Bu haqda Qurani-Kərimdə deyilir:

*"Biz dedik: "Buradan yer üzünə enin! Mənim tərəfimdən sizə doğru bir yol göstərən gəldiyi zaman Mənim yol göstərənimə tabe olanlara heç bir qorxu yoxdur və onlar qəmgin olmazlar".*

Lakin insanlar, Müqəddəs Kitablardakı konsepsiyaya görə, hər dəfə əhdlərindən dönmüş, dünyaya nə üçün gətirildiklərini unutmuş, maddi və mənəvi bütləri Allaha şərik qoşmuşlar. Bu işdə ruhanilərin xüsusi rolu olmuşdur. İlahi Zühurların –Peyğəmbərlərin nazil etdiyi Dini təlimlərin saflığı ardıcılları, ilk növbədə ilahiyyat elmlərini öz nəzarətləri altına almış ruhanilər tərəfindən zaman - zaman təhrif olunmuşdur.

Hər dinin zahiri, maddi cəhətləri - yaranma, yüksəlmə və tənəzzül mərhələlərindən keçir. Vaxt keçdikcə insanlar dinin ruhani, mənəvi-əxlaqi məsələlərlə bağlı hissəsini unudub, onun zahiri, maddi cəhətlərindən (ayin, mərasim və digər sosial qanunlar və s.) möhkəm yapışır, onları mütləq həqiqətlərə çevirirlər. Lakin insan cəmiyyəti bir yerdə durmur, o daim inkişafdadır. Biliklər artdıqca və ictimai-iqtisadi münasibətlər təkmilləşdikcə və mürəkkəbləşdikcə insanların dünyagörüşü dəyişir və kamilləşir. Bu zaman inkişaf etmiş insan cəmiyyəti dinin dondurulmuş sosial qanunlarına sığmır, sosial, siyasi və iqtisadi proseslərin idarəedilməsi və tənzimlənməsi yeni qaydalar tələb edir, fərd isə onun ruhunu və düşüncəsini narahat edən suallara cavab tapa bilmir. Xurafat və mövhumatlar yükü altında əyilmiş din ictimai tərəqqiyə, sosial-iqtisadi dəyişikliklərə, idrakın inkişafına açıq-aşkar əngələ çevrilir. Nəticədə elmi ədəbiyyatlarda "antiklerikalizm" adı altında tanınan – siyasi və mənəvi həyatın, elmin, mədəniyyətin və təhsilin dinin və dini təsisatların hakimiyyətindən azad edilməsinə yönəlmiş ictimai hərəkatlar və ona bənzər hadisələr baş verir ki, bu da fərdlərin və bütövlükdə cəmiyyətin dindən uzaqlaşmasına, nəticədə isə ruhaniyyətin aşağı düşməsinə, ateizmin cəmiy-

yətdə hakim mövqe əldə etməsinə, “maddi və mənəvi bütpərəstliyin” yaranmasına gətirib çıxarır.

Müqəddəs Yazılarda qeyd edildiyi kimi, Din və cəmiyyətin tənəzzül mərhələsi yüksək həddə çatanda Allah yerə Yeni Din və Yeni Peyğəmbər göndərir, insanların ürəyinə yeni inam toxumu atılır, unudulmuş ruhani prinsiplər yenidən bərpa edilir, inkişaf etmiş yeni cəmiyyətin tələblərinə uyğun qanun və hökmlər elan edilir və bununla da növbəti yüksəliş başlayır. Həzrət Krişna buyurur:

*“Din tənəzzülə uğradıqda, dinsizliksə artaraq üstünlük təşkil etdikdə, Mən Özüm nazil oluram...Möminləri xilas, cinayətkarları məhv, dini prinsipləri bərpa etmək üçün Mən hər minillikdən-minilliyə zühur edirəm”.*

Lakin bu mərhələdə də dövrün din xadimləri köhnə ilahiyyat təlimlərini əllərində silah edərək, yeni Peyğəmbərə və Dinə qarşı amansız mübarizəyə qalxmış, bəzən Allah Elçilərinə olmazın zülmlər etmiş və qətlə yetirmişlər. Əgər biz Peyğəmbərliklər tarixini nəzərdən keçirsək, Nuh peyğəmbərdən tutmuş Həzrət Bəhaullaha kimi bu cür dramatik hadisələrin şahidi olarıq. Bu haqda Həzrət Bəhaullah yazır:

*“Bütün tarix boyu insanların əbədi qurtuluş dənizinin sahillərinə çatmasına əngəl törədənlər zamanın din alimləri olmuşlar. Xalqı idarə etmək cilovu bu sinfin əlində olmuşdur. Onların bəziləri ya hakimiyyət hərisliyindən, ya biliksizlik üzündən xalqı daim haqdan uzaq saxlamışlar.Onların izni və fitvaları ilə Allahın hər bir Peyğəmbəri şəhidlik şərbətini içərək uca İzzət Üfüqünə uçmuşdur. Onlara zamanın hökmdarları və əsrin din xadimləri tərəfindən nə zülmlər edilməmişdir?..*

Bu gün biz sekulyar cəmiyyətdə yaşayırıq. Bu proses Avropada başlamış və dünyanın qalan yerlərinə yayılmışdır. Onun nəticəsi olaraq, cəmiyyətdə dinin mövqeyi əsaslı şəkildə dəyişmişdir. Müasir cəmiyyət dini rəmzlərdən və ehkamlardan azad elmi dəyərlərə əsaslanan öz dünyagörüşünü formalaşdırmağa meyillidir. Sekulyar münasibətlər və baxışlar dinin

bilavasitə təsirindən azaddır. Bu müasir cəmiyyətin vacib sahələrinə, onun təsisatlarına, qanunvericilik, icra və məhkəmə sistemlərinə aiddir, hansı ki, din təfərindən qanunişdirilməyə ehtiyac duymurlar. Bu həmçinin təbiətşünaslıq və texniki, sosial və humanitar elmlərə, incəsənət və bütövlükdə mədəniyyətə də aiddir. Bununla yanaşı cəmiyyətin birləşdirici qüvvəsi, onun "ümumi sintezi" rolunda çıxış edən dinin özü də cəmiyyətin bir əlavəsinə çevrilmişdir. İndi o, incəsənət, elm, fəlsəfə və s. ilə bir sırada durur. Sekulyarizasiya təkcə ictimai həyatın müxtəlif sahələrində deyil, fərdi insanların düşüncə, davranış və həyat-tərzlərində də baş verir.

Bütün bu deyilənlərə baxmayaraq, sekulyarizasiya dönməz proses deyildir və onun genişlənməsi dinin tamamailə insan cəmiyyətindən sıxışdırılıb çıxarılması ilə sona çatmayacaqdır. Artıq bu gün dünyanın müxtəlif guşələrində dinsizliyin törətdiyi fəsadların aradan qaldılımasından ötrü dinin dirçəldilməsi çağırışları eşidilməkdədir. Lakin belə bir sual ortaya çıxır: dinlərin artıq dövrünü başa vurmuş, müasir insan cəmiyyətinin ölçülərinə uyğun gəlməyən orta əsrlər və ya ondan da qədim qanun-qaydalarından ibarət "örtüyü" yenidən insan cəmiyyətinə qaytarılması onu tənəzzül və dağılmadan, mənəvi düşkünlükdən xilas edə bilərmi? Beləliklə, ilahiyyat və ateizmin mübarizə tarixi dinlərin böhran və ya tənəzzül mərhələsində dünyəvilik və ateizmin qələbəsi ilə başa çatmış, ateizm ictimai şüurun forması kimi cəmiyyətdə sərbəst mövcudluq hüququ almış, insanların düşüncəsinə hakim kəsilmişdir.

Əvvəlki təlimlərlə müqayisədə dinşünaslığın tarixi bir qədər cavandır. Ona görə də onun həm cəmiyyətə, həm də əvvəlki təlimlərə (İlahiyyat və ateizmə) təsiri zəifdir. Bu haqda bir qədər sonra. Hər üç təlimi indi də ayrı-ayrılıqda nəzərdən keçirək.

## § 2. İlahiyyat

*İlahiyyatın (teologiyanın) – məqsədi yalnız bir dinin (məzhəb və ya təriqətin) haqq din və ya "səmavi" din olduğunu, qalan dinlərin haqq olmadığını, yaxud haqq dinin gəlişi ilə öz ilahi ("səmavi") mahiyyətini itirdiklərini insanlara çatdırmaqdır.* Bu zaman "haqq dinin" sonuncu İlahi həqiqət kimi təqdim olunması və Allahdan daha heç bir dinin göndərilməyəcəyinə zəmanət verilməsi ilahiyyatın səciyyəvi cəhətidir.

Hər dinin (məzhəb və ya təriqətin) öz ilahiyyat sistemi vardır. İlahiyyat sisteminə Allah haqqında (Onun sifətləri, keyfiyyətləri və atributları haqqında) təlim, Peyğəmbərlərin gətirdiyi Müqəddəs Yazıların şərhi (məsələn, yəhudilikdə Talmud və ya İslamda Quran təfsirləri və s.), dini təlim və qaydaları izah edən müxtəlif biliklər toplusu daxildir. Burada dindarların və ruhanilərin həyat tərzini dini əxlaqi və davranış baxımından müəyyən edilmiş qayda və normaları, dini hüquq məsələləri (məsələn, İslamda fiqh), təsərrüfat həyatını, ayin və mərasimləri, həmçinin əlamətdar günləri (bayramlar, mövlud və süud günləri) tənzim edən qanun və göstərişlər və s. vahid sistem halında birləşdirilmişdir. İstənilən dində istər gündəlik dünyəvi məsələlər, istərsə də dini məsələlər həmin dinin ilahiyyat sisteminə uyğun olaraq həll edilir.

İlahiyyat Müqəddəs Yazıların öyrənilməsi, söhbətlərin (rəvayətlər, hədislər, qissələr və s.), təbiət və cəmiyyət hadisələrinin rasional və ya mistik izahı əsasında insanlarda yalnız bir dini təlimə inam yaratmaqla onun digər dini etiqadlardan üstün olduğunu sübut etməyə çalışır.

Din və ilahiyyat sistemləri eyni vaxtda yaranmamışlar. Müqəddəs Kitabları nazil etmiş Peyğəmbərlər və Onların təyin etdiyi canişinlər (şagirdlər, həvarilər, imamlar və eyni zamanda Müqəddəs Yazıların səlahiyyətli şərhçiləri və s.) bu dünyanı tərk etdikdən sonra ruhanilər Müqəddəs Yazıların şərh və təfsir məsələlərini öz əllərinə alaraq mövcud ilahiyyat məktəblərini

yaratmışlar. Beləliklə, vaxt keçdikcə, ruhanilər böyük dinlərdən hər birinin içərisində onun əsaslandığı nazil olmuş təlimlərə paralel, hətta bəzən ruhuna zidd olan bir hakimiyyət qurmuşlar.

Hər bir dinin daxilində müxtəlif ilahiyyat məktəbləri mövcuddur. Bir çox dinlərdə parçalanmalar, məzhəb və təriqətlərə ayrılmalar ilahiyyat məktəbləri arasındakı fikir ayrılıqlarından törəmişdir. Araşdırmalar göstərir ki, bu fikir ayrılıqları, parçalanmalar əsasən, dinin zahiri məsələləri (canişinlik, ayinlər, mərasimlər, ibadət qaydaları, dinin atributları və rəmzləri, sosial məsələlər, dinin bu və ya digər hökmlərinin – şəriət qaydalarının izahı) ilə bağlı olmuşdur. Yəhudilikdə ortodoksal yəhudilik, karaimlik, xasidizm, islahedilmiş yəhudilik, Xristianlıqda katolisizm, pravoslavlıq, protestantlıq (protestantlıq daxilində daha 28 məzhəbin ilahiyyat məktəbləri), İslamda şiəlik, sünnilik (İslamın bu məzhəbləri də öz daxillərində çoxsaylı ilahiyyat məktəblərinə parçalanmışdır), ismailik, Buddizmdə Hinayama və Mahaya məzhəblərinin ilahiyyat sistemləri bir-birindən fərqlənirlər. Bütün Müqəddəs Kitablar kimi Qurani -Kərimdə də bu cür parçalanma və ayrılmaları pisləmişdir:

*“ Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Allah sonra onlara nə etdiklərini xəbər verəcəkdir !” (əl-Ənam, 159).*

*“Amma insanlar din barəsində öz aralarında firqələrə bölünüb parçalandılar. Onların hamısı Bizim hüzurumuza qayıdacaqlar” (əl-Ənbiya, 93).*

Bəzi ilahiyyat sistemlərində dini məzhəbin modernist və ya təməlçi yönümlü olmasından asılı olaraq, dini təlimin əsaslandırılmasının rasional üsul və vasitələri, digərində isə mistik üsul və vasitələri üstünlük təşkil edə bilər; birində köhnəlmiş anlayış və təsəvvürlərin yenidən liberal şəkildə mənalandırılmasına, digərində isə ortodoksal ənənəyə əməl edilməsinə üstünlük verilə bilər. Üsul və vasitələrindən asılı olmayaraq, əksər dini təlimlərdə ehkamçı ilahiyyatçılığın dərin kök atması, həmin təlimlərə məxsus həqiqətlərin zaman daxilində və bir sıra obraz və şərhlərdə

dondurulması dinlər və dini məzhəblər arasında ayrılma və konflikt divarlarına çevrilmişdir. Məhz bu kontekstdə Həzrət Bəhaullah ehkamçı ilahiyyatı Allahın İradəsini başa düşmək istəyənlərin yolunda yaradılmış ən böyük maneə olduğunu söyləmişdir:

*"Ey din başçıları! Allahın Kitabını sizin aranızda olan meyarlar və elmlərlə çəkməyin, zira Kitabın özü insanlar arasında qurulmuş qüsursuz Tərəzidir."*

Göründüyü kimi, ilahiyyat sistemləri arasında mövcud ziddiyyətlər keçmişlərdə olduğu kimi, müasir dövrdə də Dinlərin Əzəli Birliyinin tanınması və son nəticədə Bəşəri Birliyin yaranması yolunda olduqca çətin keçilən maneəyə çevrilmişdir. Həzrət Şövqi Əfəndi yazır:

*"Əgər keçmişdə könüllərdə bəslənilən ideallar, zaman-zaman müqəddəs sayılan təsisatlar, bəzi sosial fərziyyələr və dini qanunlar bu gün Bəşəriyyətin böyük hissəsinin rifahının yaxşılaşmasına təsir göstərmirsə, əgər onlar daim inkişafda olan Bəşəriyyətin mənafeyinə xidmət etmirsə, onları süpürüb dövrünü başa vurmuş və unudulmuş təlimlər zibilxanasına atmaq lazımdır. Nə üçün ümumi dəyişkənlik və dağılma qanununa tabe olan dünyada onlar ümumi qanundan kənarda qalmalıdır? Axı, hüquqi standartlar, iqtisadi və siyası nəzəriyyələr yalnız Bəşəriyyətin bütövlükdə maraqlarını gözləməkdən ötrü təsis edilmişdir, ona görə də ayrı-ayrı qanun və ya ehkamların qorunması naminə Bəşəriyyət əzab çəkməməlidir".*

İlahiyyat sistemlərinin mürtəce xarakteri, onların dinlər, məzhəblər və təriqətlər arasında ayrılma və yadlaşma səddi kimi oynadığı rol hələ qədimlərdən mütəfəkkir insanların, həqiqət axtarıcılarının etiraz və tənqidinə məruz qalmışdır. Zaman-zaman ayrı-ayrı müstəqil dinlərdən, məzhəb və təriqətlərdən və ya onların ilahiyyat sistemlərindən "simbioz təlim" və ya "vahid din" yaratmaq və yaxud din daxilində mövcud təriqətləri barışdırmaq və birləşdirmək cəhdləri dünya tarixində dəfələrlə olsa da, onların təcrübəsi uğursuzluqla nəticələnmişdir; İranda V əsrdə zərdüşti və xristian təlimləri əsasında manilik təlimini yaratmaq istəyi, XVI

əsrdə Hindistanda İslam, brahmanizm, sufilik, xristianlıq, zərdüştilik əsasında Əkbərin (Babur sülaləsinin üçüncü hökmdarı) sinkretizmi, XVI əsrdə (1596-cı il) Ukraynada pravoslav və katolik kilsələrinin zorla birləşdirilməsi – Brest kilsə uniyası, XVIII əsrdə Nadir şahın İranda şiəliklə sünniliyi birləşdirmək cəhdi, XX əsrin əvvələrində protestantlıqda xristian kilsələrinin birləşdirilməsi uğrunda meydana gəlmiş hərəkat - ekumenikçilik ilahiyyat sistemlərinin dinlər və məzhəblər arasında yaratdığı sədləri uçurmaq üçün edilmiş uğursuz cəhdlər silsiləsi idi.

Bu gün də dinləri, dini məzhəb və təriqətləri bir-birindən ayıran sədlərin dağıdılması, onları ayıran deyil, əksinə birləşdirən ruhani həqiqətlərin üzə çıxardılması daha çox əhəmiyyət kəsb edir. Bu gün də bu istiqamətdə cəhdlər edilməkdədir. Bu problem dinlərarası hərəkatın və müasir dinşünaslığın nail olmağa çalışdığı məqsədlərdən biridir.

Din və onun ilahiyyat sistemi dəyişilməz qaldığı halda, ictimai həyat və insanın özü, onun təcrübəsi dəyişir. Nəticədə din və onun ilahiyyat sistemi insan üçün yad, onun suallarına, maraqlarına və tələblərinə cavab verməyən düşüncə formasına çevrilir. Özü ilə dəyişməkdə olan dünya arasında getdikcə yüksəlməkdə "yadlaşma divarını" aşmaqdan ötrü ilahiyyat sistemləri güzəştə getməyə, dəyişmiş şəraitə uyğunlaşmağa, təlimində, sosial və etik doktirinalarında, təşkilatı quruluşunda və fəaliyyətində dəyişiklilklər etməyə məcburdur. İlahiyyat bu dəyişiklikləri ya modernizmə, ya da təməlçiliyə əsaslanaraq həyata keçirməyə çalışır. Bu proseslər dövrümüz üçün daha çox səciyyəvidir. Qlobal tərəqqinin təsiri altında dini təlimlərdəki ilahiyyat sistemləri dərin böhran keçirməkdədir. Bu özünü külli miqdarda ziddiyətli teoloji konsepsiyaların meydana gəlməsində, bəzi ənənəvi təsəvvürlərdən imtina edilməsində və ya müasir elmi nəzəriyyələri və kəşfləri Müqəddəs Yazılara uyğunlaşdırmaq və ya bu yazılarda elmi həqiqətləri axtarmaq cəhdlərində göstərir. Buna dində

*modernizm* hərəkatı, yəni ilahiyyat sistemlərini dövrün tələblərinə uyğunlaşdırılması deyilir. Yeni dövrdə bütün ortodoks dinlərdə modernizm təzahürlərini görmək mümkündür.

Başqa dinlərdə olduğu kimi müasir İslamda da modernizmə meyl güclənməkdədir. İslamda bütün istiqamətlərdə - ehkamçılıq, sosial doktirinalar, ayin və şəriət qaydalarlında müxtəlif xarakterli arxaik elementlərdən, hədsiz məhdudiyyət və qadağalardan qurtulmaq istiqamətində müəyyən addımlar atmağa cəhdlər edilir. Modernistlər reformalar, "yeniləşdirmək", Qurani-Kərim və Sünnəni yenidən mənalandırmaq yolu ilə İslamın təkamülünə nail olmağa cəhdlər edirlər. Onlar din və elmin barışdırılmasını təklif edir, elmi və texniki yeniliklərdən İslam cəmiyyətində geniş istifadə edilməsini alqışlayırlar. Müasir modernistlər Qurani-Kərimi elm dəryası, bilik və texniki yeniliklərin mənbəyi kimi təqdim edirlər. Modernistlər iddia edirlər ki, Qurani-Kərimdə bəşəriyyətin maddi-texnoloji inkişafı üçün gərəkli ola bilən bütün elmi kəşflər haqqında məlumat əldə etmək mümkündür.

İlahiyyat sistemlərini sürətlə dəyişən dünyaya uyğunlaşdırmaq bəzən özünü dinin bəzi arxaik, əhəmiyyətini itirmiş və müasir dövrün tələbləri ilə uzlaşmayan hökmlərinin, adət və ənənələrinin dirçəldilməsində və zorla cəmiyyətə qəbul etdirilməsi yollarının axtarılmasında göstərir. Bu cür yanaşma ilahiyyatda *təməlçilik (fundamentalizm)* olub, bəzən *dini fanatizm* və onun daha ağır forması olan *dini qəddarlıq* və *terrorizm* üçün ideoloji zəmin yaradır. Bu özünü "həqiqi dinin" ətrafdakı insanlara zorla qəbul etdirilməsində, başqa dinlərin nümayəndələrinə nifrətin qızışdırılmasında, "dini müharibələrə" hazırlıqda, "kafirlərə", "mürtədlərə", ateistlərə, alimlərə, dünyəvi cəmiyyətin adamlarına divan tutulmasında göstərir.

Tarixi baxımdan götürdükdə ilahiyyatda vaxtaşırı modernizmin və təməlçiliyin baş qaldırması dinlərin ana budağında yeni təlimlərin, yeni ilahiyyat məktəblərinin yaranmasına gətirib çıxarmışdır. XVI əsrdə Martin Lüterin Roma –katolik

kilsəsini tənqid etməsi və xristianlığın Məsih zamanındakı "saflıq" dövrünə qaytarmaq haqda çağırışları Lüteranlığın, XVI əsrdə Con Smitin bu cür çağırışları Baptizmin, XIX əsrdə Vilyam Millerin vaizçiliyi Adventizmin, Çarlz Rasselin moizələri "Yahova şəhidləri" təliminin yaranması ilə nəticələnmişdir. Vəhhabilik və sələfilik İslamda, Krişna Şüuru hərəkatı (Veda təliminə qayıdış) isə Hinduizmdə dini təlimlərin "saf" və insanlar tərəfindən "korlanmamış" ilkin variantlarına qayıtmaq cəhdi, yəni təməlçilik kimi qiymətləndirilə bilər.

## § 3. Ateizm

Ateizmin (yun. a-inkar etmək, theos-allah) ideoloqları öz təlimlərini əqli tərəqqinin, elm, mədəniyyət və bütövlükdə insan cəmiyyətinin inkişafının zəruri nəticəsi kimi ortaya çıxmış dünyagörüş, ictimai şüurun forması kimi təqdim edirlər.

Bizim irəli sürdüyümüz baxışa görə, ateizm ikili mahiyyətə malikdir. Öncə Ateizm və Din "əkiz qardaşlar" kimi eyni vaxtda yaranmışlar. Ateizm və dinin əsasında Allahın insana verdiyi iradə, Xaliqə "inanmaq" və ya "inanmamaq" azadlığı durur. Başqa sözlə, ateizm və din Allahın insana bəxş etdiyi iradə azadlığının ifadəsi, insanın onun qarşılığında etdiyi seçimdir. Belə görünür ki, insan ona verilmiş azadlıqdan istifadə edib, hətta İradə Azadlığının mənbəyi olan Allahın Özünü inkar etmək hüququna malikdir. Lakin Allahın mövcudluğunun bir mənalı şəkildə inkarı fərdlər səviyyəsində mütləq formada insan düşüncəsində özünə yer eləməsi mümkünsüzdür. Çünki Allahı tanımaq, Ona inanmaq, Onu sevmək hissi və Ona etiqad etmək istəyi bütün insanların fitrətinə Allah tərəfindən qoyulduğundan, fərdin bir mənalı şəkildə Mütləq olana inamsızlığı mümkün deyildir. Bu inam insanın həyatı müddətində nə vaxtsa ortaya çıxmalı və onun, hətta son nəfəsində belə, ruhuna hakim kəsilməlidir. Adları tarixə qatı ateistlər, Allahı inkar

edənlər kimi düşmüş insanların həyatlarının son illərində və ya anlarında imana gəlmələri haqqında yüzlərlə faktlar vardır. Beləliklə, ictimai şüurun forması kimi ateizmin uzun ömürlü olması və ya cəmiyyətdə hakim mövqe tutması mümkün olsa da, fərd səviyyəsində o, mütləq və ya qəti qərarlaşmış formada deyildir.

Həzrət Bəhaullah buyurur:

“ *O (yəni imanlı insan-* qeyd müəlliflər*), günahkarların günahı üzərindən əfv qələmi çəkməli və onlara həqarətlə baxmamalıdır, çünki heç kəsin aqibəti məlum deyildir. Nə çox günahkarlar ölüm anında iman çövhərinə yetişib əbədiyyət şərabını içər və Uca Mələkuta tərəf pərvaz edər...*”.

İkincisi, bizim nəzərimizcə, Ateizm, istər fərdi, istərsə də ictimai formalarında, Allahın mövhumat və xurafatlara batmış və ruhanilər zümrəsinin inhizarına keçmiş dini təlimlərlə mübarizə silahıdır. Bu cür yanaşma oxucuya bir qədər qəribə görünə bilər: Allah ateizmdən Özünün yerə göndərdiyi dinlərə qarşı necə silah kimi istifadə edə bilər? Bu məsələyə məntiqlə yanaşaq: hər bir çay başlanğıc götürdüyü bulaqda saf və şəffaf, sağlamlıq və şəfa, lakin dənizə töküldüyü yerdə bulanlıq və xəstəlik mənbəyidir. Allahın yerə göndərdiyi dinlər də belədir; başlanğıcda cəmiyyətə və fərdə mayak, yol göstərən, hidayət edən, sonda xurafat və mövhumatlar çirkabına bulaşmış, cəmiyyəti inkişafdan saxlayan, onu çaşdıran. Hər bir din yaranma, yüksəlmə və tənəzzül mərhələlərindən keçir. Zaman keçdikcə insanlar dinin mənəviyyatla bağlı hissəsini unudub, onun zahiri, maddi cəhətlərindən (ayin, mərasim və s.) möhkəm yapışırlar. Lakin insan cəmiyyəti daim inkişafdadır. Biliklər artdıqca və ictimai-iqtisadi münasibətlər təkmilləşdikcə, insanların dünyagörüşü dəyişir və kamilləşir. Bu zaman inkişaf etmiş cəmiyyət dinin dondurulmuş sosial qanunlarına sığmır. Bu da fərdlərin və bütövlükdə cəmiyyətin dindən uzaqlaşmasına səbəb olur. Tənəzzül mərhələsi son həddə çatanda Allah Yerə yeni Peyğəmbər göndərir və unudulmuş ruhani prinsiplər yenidən bərpa edilir, inkişaf etmiş yeni cəmiyyətin tələblərinə uyğun qanunlar

elan edilir və bununla da Dinin başqa ad altında növbəti yüksəlişi başlayır. Həzrət Bəhaullah yazır:

*"Allahın dini dünyanın libasıdır, elə ki, köhnəldi, Allah onu təzə libasla bəzəyir. Allahın dini həmişə həmin dövrə uyğun şəkildə zahir və aşkar olur.."*

Həzrət Krişna "Bhaqavat-Qita"da buyurur: *"Din tənəzzülə uğradıqda, dinsizliksə artaraq üstünlük təşkil etdikdə, Mən Özüm zahir oluram... dini prinsipləri bərpa etmək üçün..."*.

Əgər dinin yaranma mərhələsində ruhani və mənəvi məsələlər daha çox qabarırsa, yüksəliş dövründə fəlsəfə, incəsənət, memarlıq, tənəzzül mərhələsində isə ayinçilik, xurafat və mövhumatlar ortaya çıxır. Belə olan halda Allah nə etməlidir? Cavab məlumdur, insanlara yeni Peyğəmbər və yeni dini təlim göndərməlidir. Lakin Allah bilir ki, ruhanilərin təsiri altında olan insanlar Onun Elçisini rahatlıqla qəbul etməyəcək, əsrlərlə qəlblərində bəslədikləri "köhnə din"dən asanlıqla əl çəkməyəcəklər. Əlbəttə, Allahın əlində Peyğəmbərlərin yolunu təmizləməyin, ruhanilərin nüfuzunu sarsıtmağın və insanların düşüncəsini köhnəlmiş ehkam və baxışlardan azad etməyin müxtəlif üsulları vardır. Onlardan biri də azadfikirlilik və ateizmdir.

İlahiyyat kimi ictimai şüurun forması olan ateizmin də tarixi qədimdir. Əslində ateizm zaman-zaman cəmiyyətdə ruhani kasadlığın, mənəvi tənəzzülün və ənənəvi ilahiyyat sistemlərinin böhranı zamanı ortaya çıxır. Bu hal keçmiş dövrlərdə də olmuş və indi də belədir. Artıq sivilizasiyanın ilkin mərhələlərində biz dinin tənqidi, onun ayrı-ayrı ehkam və müddəalarını şübhə altına almaq və inanmamaq halları ilə rastlaşırıq. Dünyada hökm sürən zülm və ədalətsizliklər, ruhanilərin riyakarlığı allahların qüdrətini şübhə altına alır, allahlamübarizçilik əhval-ruhiyyəsinə, rəsmi ayin və mərasimlərinə tənqidi yanaşmaya, sonralar isə Allahın inkarına təkan verirdi.

Müxtəlif dövrlərdə ateizmin çoxçeşidli formaları olmuşdur. Hələ Qədim Misir, Şumer, Hind və Antik mədəniyyətlərdə bəzi azad düşüncə sahibləri, filosoflar dinə qarşı ateizm ruhunda kifayət

qədər kəskin fikirlər söyləmişlər. Yeni dövrdə ateizm burjua inqilablarının baş verməsi və təbiətşünaslığın yaranması ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Fransız materialistləri, Didro, Holbax, Helvesiy din və kilsəyə despotizm və istibdadın dayağı kimi baxırdılar. Onlar dini təlimləri bəşəriyyəti nadanlığa və köləliyə sürükləyən xurafat və mövhumatların mənbəyi, cəhalətin təcəssümü sayırdılar. Onlar dini əxlaqi riyakarlıq, dini elm və sağlam düşüncə ilə bir araya sığmaz hesab edirdilər. Lakin burada da tənqidin əsas obyekti əsasən cəmiyyətdə təşəkkül tapmış dini mövhumat və xurafatlar, hakim dairələrlə daim sövdələşmədə olan dini təsisatlar, ruhanilər, kilsə və məbədlər idi. Holbax yazır: "Gözünü açmaq kifayətdir ki, ruhanilərin bəşəriyyət üçün nə qədər böyük təhlükə olduğunu görəsən. Ruhanilər insan ruhunu əsarət altına almağa can atırlar, ona görə də elm və əqlə müharibə elan etmişlər. Ruhanilər bəşəriyyətin düşmənləridir, öz həmvətənlərini itaətdə saxlamaqdan ötrü onları cəhalət və ehtiyacda saxlayırlar. Onlar xalqın mənəviyyatını pozur, onun istedadını və hərəkət etmək qabiliyyətini məhv edirlər. Onlar insanların sadəlövhlüyündən istifadə edib, zənginləşirlər. Ona görə də kilsə dünyəvi hakimiyyətdən məhrum edilməlidir".

Ateizm XVI-XVIII əsrlərdə geniş yayılmağa başlamış sekulyarizasiya prosesinin – incəsənət, hüquq, elm, fəlsəfə və siyasətin kilsənin nəzarətindən və dini ehkamların diktatından azad olmasına yardım etmişdir. Qərbi Avropada İntibah dövründə qüvvə toplayan, XVI və XVIII əsrlərdə sürətlə inkişaf edən ateizm, nəhayət, XIX –XX əsrlərdə marksizm fəlsəfəsində və elmi ateizmdə özünün ən yüksək zirvəsinə çatmışdır. Ona görə də bu kitabda sonrakı sətirlərdə ictimai şüurun forması kimi ateizm haqqında danışarkən marksist ateizmə, yəni "elmi ateizmə" istinad edilmişdir.

*Elmi ateizmin məqsədi Allahın mövcud olmadığını, bütün dinlərin yanlış və ya uydurma olduğunu, yalnız öz tədqiqatında elmi metodlara, sosial, qnoseoloji, psixoloji, təbii və ictimai dəlillərə istinad edən materializmin və elmi ateizmin haqq olması*

*fikrini insanlarda aşılamaqdır.* Elmi ateizm də ilahiyyat və dinşünaslıq kimi insanlara Din haqqında məlumat verir. Lakin bu məlumat onun üçün vasitə olub, məqsəd insanlarda bütövlüktə Dinə və ya onun hər hansı formasına (yəhudiliyə, xristianlığa, islama, buddizm və s.) qarşı mənfi münasibət yaratmaqdan və ondan uzaqlaşdırmaqdan ibarətdir.

Elmi ateizm materialist dünyagörüşünün mühüm tərəflərindən birini təşkil edir. Bu təlimə görə din gerçəkliyin saxta, fantastik inikası, ayrı-ayrı adamlar (peyğəmbərlər) tərəfindən düşünülmüş bir ideologiyadır. Bu münasibət elmi ateizmin banilərindən F.Engelsin aşağıdakı tərifində daha aşkar görünür: "Hər bir din, insanların gündəlik həyatında onlara hökmranlıq edən xarici qüvvələrin insanların beynindəki fantastik inikasından, yer üzərindəki qüvvələrin səma qüvvələri şəkli aldığı inikasından başqa bir şey deyildir".

Beləliklə, elmi ateizm nəzəriyyəsinə görə, dinin yaranması insanın təbiət və cəmiyyətin kortəbii qüvvələri qarşısında acizliyi və bu qüvvələrin insan düşüncəsində fantastik inikası səbəbindən baş verir. Tarixi inkişafın gedişində insanlar bu qüvvələrin təsir dairəsindən çıxdıqca din də bir tarixi kateqoriya kimi tədricən aradan gedəcəkdir. Lakin elmi ateizm etiraf edir ki, obyektiv qanunlarla qabaqcadan müəyyən edilmiş "dinin ölüb getməsi" prosesi kortəbii surətdə baş verməyəcəkdir. Burada ateizm tərbiyəsi həlledici amil kimi çıxış edir. K. Marks yazmışdır: "...bizim fikrimiz belədir: sosializmin inkişaf dərəcəsinə uyğun olaraq din də yox olub aradan çıxacaqdır. Dinin yox olması tərbiyəyə çox böyük rol veridiyi ictimai inkişaf nəticəsində baş verəcəkdir". Bu təlimdə daha bir yanlış fikir, insanların dindən uzaqlaşdırılmasında, onlarda ateizm əqidəsinin formalaşmasında əsas vasitə onların fəal istehsalat və ictimai fəaliyyətə cəlb edilməsi ideyasıdır.

Elmi ateizm üçün ilahiyyatdan fərqli olaraq, "haqq din" və ya "səmavi din" anlayışı mövcud deyildir. Onun üçün bütün dinlər eyni mövqedədir. Onun üçün yaxşı halda "ənənəvi və qeyri-ənənəvi" və ya "dünya və milli" dinlər mövcuddur. Elmi ateizm

də öz məqsədinə çatmaqdan ötrü Dinlərin Müqəddəs Yazılarına, dini söhbətlərə, hədislərə, müqəddəs rəvayətlərə, təbiət və cəmiyyət hadisələrinin elmi təhlilinə və həmçinin ona məxsus bir sıra tədqiqat metodlarına istinad edir. Lakin onun əldə etdiyi nəticələr İlahiyyatın əldə etdiyi nəticələrin tam əksidir, yəni din uydurma, fantaziya, insanın təbiət və cəmiyyət hadisələri qarşısında acizliyindən doğan ictimai şüur forması, mövhumat və xurafatların mənbəyi, tərəqqinin düşməni, istismarçı siniflərin istismar olunan siniflər üzərində hakimiyyətini əbədiləşdirməkdən ötrü xalq kütlələrini sakitləşdirən, onları "yuxuya verən tiryəkdir" və s.

Beləliklə, ateist olmaqla insan nə qazanır? Bu suala dövrümüzün ateistləri aşağıdakı cavabı verirlər:

1. *Ateizm hər bir insana öz şəxsi həyatını istədiyi kimi yaşamaq azadlığı verir*: Dinlərin çoxu öz tərəfdarlarından onların qoyduqları tələblərə uyğun davranış tələb edirlər. Dinlər həmçinin öz tərəfdarlarının istəklərini nəzərə almadan onlara kimi dinləməli, nə cür geyinməli, hətta "nəyi yeməli" kimi məhdudiyyətlər qoyurlar. Bununla müqayisədə ateizmdə belə yasaqlar yoxdur. Ateizmin əsas mahiyyəti hər bir şəxsə azad seçim verməkdir. Əlbəttə bu o demək deyil ki, ateist istədiyi hərəkəti edib, başqalarına ədəbsizlik edə bilər – heç kim əxlaq prinsiplərindən istisna ola bilməz. Əksinə, bu o deməkdir ki, ateist həyatda öz məqsədini seçməkdə tamamilə azaddır.

2. *Ateizm hər bir insana öz qərarında azadlıq verir*: Adətən dinlərin çoxu öz tərəfdarlarına nə haqda və necə düşünmələri ilə yanaşı hansı sualı soruşub soruşmamaq kimi məhdudiyyətlər qoyurlar. Ateizm bu qadağalar fonunda hər bir insana istədiyi kimi düşünmək, inanmaq və istədiyi sualı soruşmaq azadlığı verir. Ateist üçün qadağan olunmuş bilik, kitablar və ya sual vermək məhdudiyyəti yoxdur. Dinlərdən fərqli olaraq ateistlər bütün mövzuları öyrənməkdə və istədikləri şeylərə inanmaqda tamamilə azaddırlar.

3. *Ateizm fərqli düşünən insanlara qarşı dözümlülük deməkdir*: Dinlərin çoxu öz tərəfdarlarının düşüncələrinə, həyatdakı məqsədlərinə nəzarət etməklə yanaşı, onlara fərqli düşünən

insanlarla ünsiyyət qurmağı və ya dostluq etməyi yasaqlayırlar. Məsələn, Bibliyada xristianlara qeyri-xristianlardan ayrı yaşamaq əmr edilir; eyni şey İslamda da var. Quran müsəlmanları ancaq müsəlmanlarla dostluq etməyə və qeyri müsəlmanlardan hətta, ata və ya qardaşı olsa belə uzaq durmağı tələb edir. Ateizmdə isə əksinə belə qadağalar yoxdur. Ateist istədiyi və özü seçdiyi insanla dinindən, irqindən və düşüncəsindən asılı olmayaraq dostluq etməkdə tamamilə azaddır.

4. *Ateizm bütün insanlara özlərini digərləri ilə bərabər görmək imkanı verir*: Dinlərin çoxunda bərabərliyə zidd bəzi qanunlar var. Onlardan biri də istər qadın-kişi münasibətlərində, istərsə də digər sosial qrup və təbəqələrə qarşı mövcud olan bərabərsizlikdir. Bəzi dinlərin (Islam, Yəhudi) tərəfdarları onların Allah tərəfindən seçilmiş və başqalarından üstün olduqlarını vurğulayır, öz Dinlərini haqq, digərlərini yanlışlıqda ittiham edirlər. Ateizm isə bu növ mövhumatdan uzaq olub, bütün insanların bərabər olduğunu iddia edir. Ateizm dinlərin insanlar arasında yaydığı nifrəti aradan qaldırır və dindarlardan fərqli olaraq ateist bir insan digərlərinə günahkar və ya yolunu azmış kimi baxmır. Ateist üçün nə "o biri dünyada vəd olunmuş nemətlərə" çatmaq yolunda terror törədərək şəhid olma zirvəsi, nə də ki fərqli düşünənlərə qarşı elan edilən müqəddəs müharibə anlayışı yoxdur. Əksinə ateistlərin başlıca vəzifəsi insanlar arasında bütün bu dini ayrı-seçkiliyə son qoymaq və bəşəriyyətə sülh gətirməkdir.

5. *Ateizm tənqidi düşüncəyə sahib olmaq deməkdir*: Dinlər öz tərəfdarlarını skeptik və tənqidi düşüncə prinsiplərindən uzaqlaşdırır, əvəzində kor-koranə inanmağı təklif edirlər. Öz tərəfdarlarından həqiqəti ancaq onların müqəddəs saydıqları kitablardan öyrənməyi və bunu da yalnız, şübhəsiz və sorğusuz həyata keçirməyi tələb edirlər. Sual vermək və şübhə etmək dinlərdə böyük günah sayılır.Ateistlər isə əksinə, bütün dəlilsiz iddialara skeptik yanaşır, şübhə edir və həqiqəti öyrənirlər. Sirr deyil ki bəşəriyyət məhz kor-koranə inananların

deyil, şübhə edən insanların hesabına inkişaf edir. Hətta inanclı elm adamları belə öz elmi sahələrində ateist olurlar. Çünki, bu insanlar dini kitablarda yazılanlarla kifayətlənmir və onları qəbul etmirlər. Onlar elmi axtarışlarda Allahı yox, baş verən təbiət hadisələrinin təbii səbəblərini axtarır və tapırlar. Allah məfhumu isə həmişə elmi kəşflərin qarşısında böyük maneə olmuşdur.

Elmi ateizmə dair ədəbiyyatlarda Qədim Dünya və Orta əsrlər dövrü üçün səciyyəvi olan *azadfikirlilik* yanlış olaraq ateizmin sələfi kimi qiymətləndirilir: "Azadfikirlilik – zəkanın dinin müddəalarını azad tənqidi şəkildə nəzərdən keçirmək, həmçinin bizi əhatə edən dünyanı dindən asılı olmadan tədqiq etmək hüququnu elan edən ideya cərəyanıdır". Lakin azadfikirliliyin müxtəlif növlərinin təhlili göstərir ki, onların hamısının arxasında heç də Allahın inkar edilməsi durmur. Şübhəsiz ki, həqiqət axtarıcılıq yolunda təfəkkürün keçdiyi mərhələlərdən biri də azadfikirlilikdir. Azadfikirliliyin yaranması qanunauyğun prosesdir. Onun ortaya çıxmasında qarşılıqlı əladə olan iki proses iştirak edir:

1) İnsan tərəfindən maddi dünyanın dərk edilməsi və bu baxışın ilahiyyat sistemlərinin təklif etdiyi dünyagörüş ilə ziddiyyət təşkil etməsi;

2) ilahiyyat sistemlərinin tənəzzülü və dinin sonuncu, tənəzzül mərhələsinə qədəm qoyması ilə öz dövrünü başa vurmuş dini təlimlərin cəmiyyətin sosial, iqtisadi, mədəni, ən əsası isə ruhani tələblərinə cavab verə bilməməsi.

Dinə tənqidi münasibət dini təlimlərin xurafat və mövhumatlarla hədsiz yükləndiyi, dini rəhbərlərin və təsisatların nüfuzdan düşdüyü, siyasət və maddiyyata qoşulduğu dövrlərdə özünü daha qabarıq şəkildə göstərir.Tarix azadfikirlilik və ateizmin təkcə yüksəliş deyil, zəifləmə dövrlərinin də şahidi olmuşdur. Allahdan yeni din nazil olanda, insanlar onları narahat edən sualların cavabını onda tapanda dinin tənqidi, adətən, zəifləməyə doğru gedir.

Ədəbiyyatlarda azadfikirliliyin müxtəlif formalarının adı çəkilmişdir: allahlamübarizçilik, skeptizim, antilerikalizm, indifferentizm, panteizm, deizm, niqilizm, aqnostisizm və s.. Burada biz onun bəzi növlərinin yaranma səbəbləri üzərində ətraflı dayanacağıq. Onların hər birinin həm fərdin, həm də cəmiyyətin ruhani axtarışında öz yeri və rolu vardır.

*Allahlamübarizçilik* – azadfikirliliyin fərdi və ictimai formalarının ən erkən və zəif formasıdır. Allahlamübarizçi Allahın varlığını inkar etmir, lakin Onun yaratdığı dünyanı amansız və ədalətsiz hesab edir. Allahlamübarizçilik sosial ədalətsizlikdən, ümidsizlikdən, qəfil bəlalardan, ruhanilərin riyakarlığını müşahidə edən insanların düşdüyü vəziyyətdən, şəxsi taledən narazılıqdan törəyir. Yerdəki bəlalar, allahla mübarizçiyə görə Allahın ali mərhəmət ideyasına uyğun gəlmir, o, Allaha amansız və ədalətsiz və ya ədalətsizliklərə laqeyd yanaşan varlıq kimi baxır. Allahlamübarizçilər Xrisrianlıq təlimində Adəm və Həvvanın ilkin günahını onların deyil, Allahın öz səhvi olduğunu düşünürlər. Müasir dövrdə də Allahlamübarizçiliyin fərdi və ictimai formalarına rast gəlmək mümkündür. Bu forma ruhanilərin nüfuzdan düşdüyü, dinin ruhani əsaslarının unudulduğu və zahiri cəhətlərinin – ayin və mərasimlərin qabardıldığı, ilahiyyatçılığın böhran mərhələsinə qədəm qoyduğu zamanlarda kütləvi hal kimi ortaya çıxır. O, insanın düşdüyü ruhani vəziyyətdir. Lakin o, dönərli prosesdir və onun ateizmə çevrilməsi mütləq deyildir.

*Skeptizm* (yun.skeptikos – nəzərdən keçirən, tədqiq edən) – dini və ya onun ayrı-ayrı müddəalarını şübhə altına almaqdır. Azadfikirliliyin bu formasında da Allahın inkarı əsas deyildir. Şübhə dərketmənin metodoloji prinsipi kimi – həqiqətə çatmaq üçün vasitədir. Dinin skeptizm mövqeyindən tənqidinə artıq qədim cəmiyyətlərin mədəniyyətində görmək mümkün idi. Şərqdə - Misir, Babil və Fələstində o özünü axirət dünyasına, dini ayinlərin təsirliliyinə inamsızlıqda göstərirdi. Qədim Yunanıstanda sofistlər və filosoflar allahlarla bağlı əfsanələrin

həqiqiliyini şübhə altına alırdılar. Skeptizmin də fərdi və ictimai formaları mövcuddur. Orta əsrlərdə skeptizm ictimai formaları folklor nümunələrində, bədii ədəbiyyat və fəlsəfədə, həmçinin ikonoborçuluqda (xristianlıqda ikonolara, müqəddəs cəsədlərə sitayişi rədd edən hərəkat) təzahür edirdi. X-XII əsrlərdə Bolqarıstanda boqomillərin, XI-XIII əsrlərdə Fransa və İtaliyada katarların və albiqoyçuların, XIV əsrdə Rusiyada Markian "küfrü" skeptizmə aid edilir. Skeptizm də dini təlimlərin və ilahiyyat sistemlərinin böhranlı dövrlərində üzə çıxır.

*Antiklerikalizm* (lat.anti-əleyhinə, clericalis – kilsə) - kilsə və ruhani təbəqənin cəmiyyətdə hakimiyyət iddiasına qarşı çevrilmiş ideya və sosial hərəkatdır. Orta əsrlər Avropasında antiklerikalizm ruhani hakimiyyətin dünyəvi hakimiyyət üzərində üstünlüyü barədə xristian kilsəsi tərəfindən yayılan ideyaya qarşı mübarizənin forması olmuşdur. Antifeodal burjua inqilabları ideologiyasında antiklerikalizm zəruri element kimi çıxış etmişdir. Antiklerikalizm bütövlükdə kütləvi, lakin yekcins olmayan hərəkatdır. Antiklerikalizm hərəkatında müxtəlif fəlsəfi, siyasi, dini əqidədə olan adamlar iştirak edirlər. Özünün istiqamətinə və nəticələrinə görə antiklerikalizm dünyəvi və dini ola bilər. Məsələn, XIX əsrin ortalarında Haribaldinin İtaliyada Roma papasının hakimiyyətini məhdudlaşdırması və ya elə həmin əsrdə Almaniyada Bismarkın katolik kilsəsinə qarşı apardığı mübarizə, XX əsrin 20-30-cu illərində Türkiyədə və SSRİ-də, 50-60-cı illərdə bir sıra sosialist dövlətlərində dini təsisatlara və ruhanilərə qarşı aparılan mübarizə dünyəvi antiklerikalizmə bariz nümunədir. İntibah dövründə Yan Qus, Martin Lüter və digər din xadimlərinin fəaliyyəti katolik kilsənin, ruhanilərin və dini təsisatların hakimiyyətini məhdudlaşdırılmaq şüarı altında keçmişdir. Bunlar isə dini antiklerikalizmə aiddir. Dünyəvi antiklerikalizmin arxasında allahsızlığın durmasını iddia etmək çətindir. Onu həyata keçirən şəxslərin niyyətində (kommunist ideoloqlar burada istisna

olmaqla), şübhəsiz ki, dini cəmiyyətdən silib atmaq deyil, dini təsisatları sarsıtmaq, onların siyasi və iqtisadi imkanlarını ələ keçirmək məqsədi durur.

*İndifferentizm* (lat.indifferens- etinasızlıq) – din və onun ayrı-ayrı ideyalarına etinadsızlıq, laqeydlikdir. Sekulyar cəmiyyətlərdə fərdi və ictimai şüur formasında ədəbiyyat, incəsənət və ictimai həyatın müxtəlif sahələrində, insanların həyata baxışlarında, dünyagörüşlərində özünü göstərir. İndifferentizmə sekulyar cəmiyyətlərdə və ya dinin tənəzzül mərhələsinə qədəm qoyduğu tarixi dövrlərdə ruhun allahlamübarizçiliklə ateizm arasında düşdüyü aralıq vəziyyət kimi də baxmaq mümkündür. Fərdi və ictimai formalarda o da dönərlidir. İnsan ürəyinə iman toxumunun düşməsi onun dinə qayıtmasına səbəb ola bilər.

*Panteizm* (yun.pan – hər şey, theos- allah) - Allah və dünyanı bərabərləşdirən, onların vəhdətini elan edən azadfikirliliyin formasıdır. İlk dəfə panteizm yaxud panteist termini ingilis dilində 1705-ci ildə irland yazıçısı John Toland tərəfindən işlədilmişdir. O, bu sözdən Spinozanın ideyalarını izah etmək üçün istifadə etmişdir. Orta əsrlərdə panteizmin geniş yayılmış formalarından biri təbiət və insan ruhlarının Allahda fane olması haqqında təsəvvürlər idi. Məsələn, hürufilikdə və İslami məzhəb olan İsmailikdə də panteist baxışları sezmək mümkündür. Panteizmin digər forması təbiət və Allahı bir vəhdətdə, vahid substansiyada birləşdirən naturalist panteizmidir. Bu nəzəriyyəyə görə Allahın ilkin olması rədd edilir, O, təbiətin bir hissəsi, təbiətin ruhu kimi qəbul edilir. Bu cür baxış İntibah dövrünün və yeni dövrün bir sıra filosofları üçün səciyyəvi idi. Teizm və panteizmi birləşdirməyə çalışan *Panenteizm* (yun.panentheos- hər şey Allahladır) nəzəriyyəsinə görə isə dünya Allahın daxilindədir, Allah isə özünü dünyada təzahür etdirir.

Həzrət Bəhaullah buyurur:

“ *Tövhid – bütün şeylərdə Əbədi Haqqın təzahürünün əlamətini görməkdir, xilqəti Xaliqə bərabər tutmaq deyil*”.

Həzrət Əbdül-Bəha yazır:

“*Allah nə enir, nə də ki, özünü parlayan cisimlərə çevirir; O, şeylərin xüsusiyyətləri və fərdiyyəti vasitəsilə onların matriyasından təzahür etmir; Əzəli Mövcudluq fani təzahürə çevrilmir; müstəqil zənginlik zəncirlənmiş yoxsulluğa çevrilmir; tam kamillik mütləq qeyri-kamillik olmur*”.

Panteizm təzahürlərinin fərdi formalarını da müşahidə etmək mümkündür. Birinci halda, O, özünü ateizm mövqeyindən Allaha dönüş istiqamətində fərdin keçdiyi mərhələlərdən biri kimi göstərir. Mütləqin mövcudluğu inkar etməkdə aciz olduğunu dərk edən, lakin Allahı maddi və ruhani dünyaların fövqündə görməyə hələ gücü çatmayan fərdin, Onu öz xəyalında təbiətlə eyniləşdirməsi təbii hal kimi qəbul edilməlidir. Panteizmin fərdi forması uzun illər ateizm mövqeyində olmuş, lakin həyatının müəyyən dövründə allahaxtarıcılıq yoluna düşmüş təbiətşünas alimlər və filosoflar üçün səciyyəvidir. Bu keçici mərhələ olub, Allaha və Dinə gedən yolda fərdin irəli atdığı bir addımdır. İkinci halda, panteizm əvvəlcə dinə bağlı olub, lakin sonradan müxtəlif səbəblərdən imanı sarsılmış fərdin bu dəfə ateizm istiqamətində hərəkəti zamanı düşdüyü vəziyyətdir. Bu proses də dönərlidir.

*Deizm* (lat.deus-allah) - materiyanın inkişafına təkan vermiş hansısa qüvvənin mövcudluğunu tanısa da, fövqəltəbii qüvvələrin təbiət və cəmiyyətin işlərinə qarışdığını inkar edir. Deizmə görə Allah təbiətdən kənar şəxssiz şüur, ilkin təkanvericidir. O, materiyaya təkan, hərəkət, qanunlar vermişdir. Lakin O, indi təbiətin və cəmiyyətin işlərinə qarışmır. Dünya insan əqlinin dərk etmək qabiliyyətində olduğu ciddi qanunlar əsasında inkişaf edir. İnsan Allahın iradəsindən asılı deyildir. O, sərbəst olmaq və fəallıq göstərmək hüququna malikdir. Lakin elə deistlər də olmuşdur ki, Allahın hələ də hadisələrə müdaxilə etdiyini, lakin onu bütövlükdə idarə etmədiyini düşünürdülər. Deizm, təkamül nəzəriyyəsinə qarşı deyil. Deizmə görə insan, Allahın meydana gətirdiyi qaydalar

çərçivəsində, ibtidai canlıların təkamülü nəticəsində meydana gəlmişdir.

Deizm orta əsrlərdə ortaya çıxsa da, onun ən yüksək inkişaf dövrü XVII-XVIII əsrlərdə, Kainatı hərəkətə gətirmiş ilkin mexaniki hərəkətin mövcudluğunu iddia edən mexanikanın inkişafı ilə bağlı olmuşdur. Deizmin yaradıcısı Herbert Çerberi (1583—1648) hesab edilir. Onun çiçəklənməsi "Maariflənmə dövrü"nə təsadüf edir (18-ci əsr). Yayılmasında İllüminatlar (lat. *İlluminati* - ziyalılar, biliklilər və s.) ordeninin böyük xidməti olmuşdur.

Deizm İlahi Vəhy ideyasını inkar edir, dini ehkamçılığı və ayinçiliyin zəruriliyini şübhə altına alır. Deizm Tövrat, İncil, Quran və digər dini kitabların ilahiliyini inkar etsə də Allahın mövcudluğu ideyası ilə elmi qarşı-qarşıya qoymur, onları harmoniyaya salmağa çalışır.

Deizmin daxilində çoxlu cərəyanlar olmuşdur. Deizmin sərt qanunları olmadığına görə onun sərhədlərini də müəyyən etmək çətindir. Deizm təklif edir ki, düşüncə, məntiq və təbiəti müşahidə Allahı və onun iradəsini qavramağın yeganə yoludur. Deizm insan düşüncəsini və azadlığını yüksək qiymətləndirir. Deistlər tarix ərzində dini dözümlülüyü və etiqad azadlığını alqışlamışlar. Onlar elm və fəlsəfəni dini təsisatların təsirindən, zəkanı xuraf və mövhumatlar toplusundan ibarət "etiqad"dan azad etməyə çalışmışlar. Deizm öz xüsusiyyətlərinə görə Panteizm və Allahlamübarizçiliyə oxşardır. Deizm də fərdi formalarında dəyişkən və dönərlidir. Ona da ateizmin məngənəsindən qopub, Allahaxtarıcılq yoluna düşmüş fərdin düşdüyü ruhani vəziyyət kimi baxmaq lazımdır. Bəzi tədqiqatçılar deizmə dinlə təbiətşünaslıq arasında saziş forması kimi baxırlar.

Azadfikirliliyin müxtəlif formalarının təhlilindən göründüyü kimi, onların bəziləri istər ictimai, istərsə də fərdi formalarında (allahlamübarizçilik, antiklerkalizm) Allah və Dinə qarşı deyil, ilk öncə dini təsisatlara (iri torpaq və mülikiyyət sahiblərinə çevrilmiş məbədlərə, kilsələrə), din xadimlərinə (kahinlər, ruhanilər və s.), dində uzun illər ərzində, zaman-zaman toplanmış mövhumatlara,

xurafatlara və cəhalətə qarşı çevrilmişdir. Digər formaları (panteizm, deizm) isə Allahı özlərinə məxsus şəkildə dərk etmiş, dinin cəmiyyətdə funksiyalarını ruhanilərin insanlara çatdırdıqlarından fərqli şəkildə görmüşlər: Şərq azadfikirliliyinin görkəmli nümayəndəsi Əbu-Reyhan Biruni (973-1048) Allahı varlığın ilk səbəbi kimi qəbul etmiş, lakin müsəlman ruhanilərinin təbliğ etdiyi mövhumatlara qarşı mübarizə aparmışdır. Əli İbn –Sina (980-1037) elmin dindən ayrı olmasını tələb etmiş, Ömər Xəyyam (1040-1123) öz rübailərində Həqiqi Dinlə əlaqəsi olmayan dini ehkamları müdrikliklə tənqid etmişdir.

İlahiyyat kimi elmi ateizm də bu gün dərin böhran içindədir. Bu həmin təlimin istinad etdiyi marksizm-leninizm fəlsəfəsinin öz tarixi missiyasını uğursuz başa çatdırması, Allah, xəlqetmə və fövqəldünyanın mövcudluğuna dair istər rasional, istərsə də mistik üsullarla inkar edilməz dəlillərin əldə edilməsi və nəhayət son on illiklərdə Dinin dünyanın ictimai-siyasi proseslərində daha fəal amil kimi ortaya çıxmasıdır. Kommunizmin dünya miqyasında sarsılması bir çoxları tərəfindən təkcə “elmi ateizmin” sonu kimi deyil, şürun istənilən qeyri-dini formasının məhvi kimi qəbul edilmişdir. Lakin bölmənin əvvəlində deyildiyi kimi, ateizmin kökləri Allah tərəfindən insanın ruhunda iradə azadlığı formasında əbədi qoyulduğundan onun hər zaman əlverişli şəraitdə (dinin böhran mərhələsində) özünü ateizm formasında göstərməsi mümkündür.

Həm ilahiyyat, həm də ateizm insanlara din haqqında bir-birinə zidd məlumatlar versələr də onlarda bəzi oxşar cəhətlər görmək mümkündür. Hər iki təlimdə (müasir ateizm bunu inkar etsə də) açıq, bəzən isə örtülü formada yadfikirliliyə, başqa təlimlərə qarşı dözümsüzlük, inkarçılıq, bəzən isə fanatizm və düşmənçilik təzahürləri vardır.

## § 4. Dinşünaslıq

Dünşünaslığa dair ədəbiyyatlarda bu təlimin predmeti haqqında baxışlar fərqlidir. Əksər müasir mənbələrdə (qərb dinşünaslığında) o, dinin yaranma qanunauyğunluğunu, inkişaf mərhələlərini və funksiyalarını, onun quruluşunu və müxtəlif komponentlərini, onun çoxcəhətli fenomenlərini, dinin mədəniyyətin müxtəlif sahələri ilə qarşılıqlı əlaqə və təsirini öyrənən təlim kimi qəbul edilir. Bir sıra mənbələrdə isə dinşünaslıq fəlsəfə elmində bir istiqamət kimi götürülür və təbii ki, bu təlim daxilində bölmələr (dinin fəlsəfəsi, dinin sosiologiyası, dinin psixologiyası, dinin fenomologiyası, dinin tarixi) ayırarkən ona bu cəhətdən yanaşılır.

İlahiyyat və ateizm təlimlərindən fərqli olaraq dinşünaslığın tarixi qədim deyildir. Özünün ilkin formalarında o, XVIII-XIX əsrdə ateizmin tərkib hissəsi kimi ortaya çıxmışdır. Elmi ateizm təlimində dinşünaslıq ateizmin dörd tərkib hissəsindən (dinşünaslıq, ateizm təliminin tarixi, dini dünyagörüşün tənqidi, dinin aradan qaldırılması problemləri) biri hesab olunurdu. Bu təlimdə dinşünaslıq "nəzəri dinşünaslıq" və "tarixi dinşünaslıq" adı altında iki bölməyə ayrılırdı. Nəzəri dinşünaslıq dinin öyrənilməsinin fəlsəfi, sosioloji və psixoloji problemlərini, tarixi dinşünaslıq isə dinin müxtəlif formalarının yaranması və təkamülü xüsusiyyətlərini tədqiq edirdi. Yuxarıda qeyd edildiyi kimi, elmi ateizmin tərkib hissəsi kimi, klassik və ya ənənəvi dinşünaslığın əsas məqsədi Din və onun formalarını tənqid etmək, onların aradan götürülməsi yollarını araşdırmaq idi.

Elmi ateizmdən fərqli olaraq, ənənəvi dinşünaslığın qərb ölkələrində XVIII-XIX əsrlərdə yaranmış formalarında, yaxşı halda onun dinə və ateizmə münasibətdə mütləq neytrallıq (yəni dini təlimləri ədalət naminə proporsional şəkildə tərifləmək və tənqid etmək) mövqeyində durmasına, əksər hallarda isə dinin formalarını bəzən açıq, bəzən də örtülü şəkildə xristian təəssübkeşliyi mövqeyindən öyrənilməsinə və tənqidinə üstünlük verilirdi.

Dinşünaslığın məqsədi dinlərin teoloji əsaslarının, yayılmasının, tarixi və digər cəhətlərinin öyrənilməsi ilə məhdudlaşırdı. Müasir dövrdə də bu təlim dini dözümlülüyün formalaşmasına yardım etmək, insanlara başqa dini etiqadlara ehtiram göstərməyi öyrətmək və bununla da, cəmiyyətdə *Bir Ümumi Din* və ya *Dinlərin Əzəli Birliyi* konsepsiyasını formalaşdırmaq ideyasını qəbul etmir və bu ideyanı mütləq neytrallıq prinsipinə zidd hesab edir.

Bu gün dinşünaslığın predmeti, məqsəd və vəzifələri haqqında baxışlar özünün formalaşma mərhələsindədir. Elmi ateizm çərçivəsində mövcud olmuş dinşünaslıq öz "tarixi missiyasını" başa vurduqdan sonra, onun yerinə gəlmiş dinşünaslıq haqqında baxışları iki qrupa bölmək mümkündür:

1. Qərbdə yayılmış "ənənəvi dinşünaslıq" məktəblərinin prinsipinə uyğun olaraq müasir dinşünaslığı mütləq neytrallıq mövqeyində görən baxışlar;

2. Dinşünasılığın məqsəd və vəzifələrini açıq və örtülü şəkildə ilahiyyata (hər hansı bir dinə üstünlük verən təlim) bağlayan və ya ona xidmətdə görən baxışlar. Məsələn, məşhur tədqiqatçı dinşünas alim və ilahiyyatçı Aleksandr Men dinlərin tarixini Xristianlığa gedən yolda mərhələlər adlandırmışdır;

Dinşünaslığa bu iki baxış cəmiyyətdə Bir Ümumi Din konsepsiyasının yaradılmasına, şübhəsiz ki, xidmət edə bilməz. İndi də müasir Dinşünaslığın məqsədlərini müəyyənləşdirməyə çalışaq. Bunlar bizim nəzərimizcə aşağıdakılardan ibarətdir:

1. *Dinşünaslığın məqsədi* –insanlara, dövlət və cəmiyyətə din və onun müxtəlif formaları (dinlər, dini məzhəblər, cərəyanlar və başqa inanclar), onların teoloji əsasları, tarixi və formalaşma mərhələləri, yayılması, təşkilatı və s. haqqında "bərabər ölçülərdə" vahid anlayışlardan istifadə etməklə obyektiv məlumat verməkdir;

2. *Dinşünaslığın məqsədi* – elmi və teoloji araşdırmalar vasitəsi ilə dinlər və dini məzhəbləri biri-birindən ayıran cəhətləri deyil, onları birləşdirən, onlarda ümumi ruhani həqiqətləri, cəhətləri ortaya çıxarmaqdır;

3. *Dinşünaslığın məqsədi* - insanların düşüncə və baxışlarında dini dözümlülüyün formalaşmasına yardım etmək, onlara başqa dini etiqadlara ehtiram göstərməyi öyrətmək və beləliklə də, cəmiyyətdə və insanların düşüncəsində Bir Ümumi Din konsepsiyasını formalaşdırmaqdır;

4. *Dinşünaslığın məqsədi* - Bir Ümumi Din konsepsiyasından çıxış edərək, dinlər, dini məzhəblər arasında dostluq, əməkdaşlıq və birliyin, həmçinin dövlətlə dini icmalar arasında harmonik münasibətlərin yaradılması yollarını müəyyənləşdirmək və cəmiyyətdə tətbiqinə nail olmaqdır.

Öz məqsədlərinə çatmaqdan ötrü Dinşünaslıq da ilahiyyat və elmi ateizm kimi Müqəddəs Yazılara, söhbətlərə (rəvayətlər, hədislər, qissələr və s.), təbiət və cəmiyyət hadisələrinin rasional və ya mistik izahına, həmçinin təbiətşünaslıq, sosioloji, psixoloji və digər araşdırmalara müraciət etməlidir. Lakin onlardan istifadə etməklə Dinşünaslıq din və məzhəbləri biri-birindən ayıran, qarşı-qarşıya qoyan cəhətləri deyil, onları birləşdirən cəhətləri üzə çıxarmalı, möhkəm dəlillər əsasında Dinlərin Əzəli Birliyi – Bir Ümumi Din konsepsiyasını sübut etməyə və cəmiyyətə çatdırmağa çalışmalıdır.

Müasir cəmiyyətdə Din və onun ayrı-ayrı formalarının öyrənilməsinin, onlar haqqında obyektiv informasiyanın əldə edilməsinin istər ayrı-ayrı fərdlər, istərsə də bütövlükdə cəmiyyət və dövlət üçün böyük əhəmiyyəti vardır. Respublikamızda müxtəlif dinlərə və dini məzhəblərə mənsub dini icmalar fəaliyyət göstərir və müxtəlif dini əqidələrə mənsub insanlar yaşayırlar. Bəzən Azərbaycan cəmiyyətində dini məzhəblərə və onların daşıyıcılarına münasibət birmənalı olmur. Elə dini məzhəblər də vardır ki, onların ardıcıllarının yaşadıqları cəmiyyətə münasibəti müsbət deyildir. Dinlərin Əzəli Birliyi konsepsiyası ilə silahlanmış Dinşünaslığın həmin insanların etiqad etdiyi dinlər haqqında verdiyi obyektiv informasiya, əvvəla, onlara qarşı cəmiyyətdə tolerant münasibətin yaranmasına köməklik göstərə bilər. Digər tərəfdən özünütəcridə can atan, müstəsnalığa iddia edən, fanatizm mövqeyindən çıxış edən və ya müasir cəmiyyətin

qaydalarına qarşı çıxan inanc sahiblərinin mövqeyinin yumşaldılmasında müasir Dinşünaslığın maarifləndirici rolu böyük ola bilər.

Dinşünaslığın müasir cəmiyyət üçün əhəmiyyət kəsb edən bəzi prinsipləri bizim nəzərimizcə aşağıdakılardan ibarət olmalıdır:

- dinşünaslıq dinin dövlətdən ayrı olması və dinin siyasətə qoşulmaması prinsipini qəbul edir;
- dinşünaslıq bütün dini etiqadların qanun qarşısında bərabərliyini, hər kəsin vicdan azadlığını, hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibət ilə bağlı əlaqəsini ifadə etmək və yaymaq hüququnu tanıyır;
- dinşünaslıq dini müstəsnalığı, dini dözümsüzlüyü, fanatizmi təbliğ edən, insanlar arasında dini mənsubiyyətinə görə ayrı- seçkilik salan dini təlimləri ictimai şüurun primitiv forması kimi qiymətləndirir və bu təlimlərin qlobal proseslərin təsiri altında tarixin səhifəsindən silinəcəyinə inanır;
- dinşünaslıq din pərdəsi altında insanları qeyri-insani davranışlara, düşüncə və həyat tərzinə təhrik edən, terrorizmi təbliğ edən, mövcud siyasi rejimləri zorakı vasitələrlə devirməyə və totalitar teokratik hakimiyyət qurmağa can atan dini qruplaşmaları, hərəkatları, cərəyanları və inancları Dinə aidiyyatı olmayan siyasi, ictimai, psixi hal kimi qiymətləndirərək onları öyrənmir;
- dinşünaslığın əsas prinsipi - fəal neytrallıq prinsipidir. Bu prinsipin mahiyyəti, mütləq neytrallıq prinsipindən fərqli olaraq, bu və ya digər din və ya dini məzhəbin xeyrinə və ya əleyhinə sübutlar və inandırma sistemindən imtina etməkdən ibarətdir. Dinşünaslıq *“Allahın Dini sevgi və birlik üçündür, Onu düşmənçilik və ya nifaq vasitəsinə çevirməyin”* prinsipindən çıxış etdiyi üçün din

və onun formalarına qarşı açıq və örtülü formada da olsa tənqidə yol vermir. Dinşünaslıq üçün dünyada mövcud dinlərin "səmavi" və ya "qeyri-səmavi", "ənənəvi" və ya "qeyri-ənənəvi", "həqiqi" və ya "uydurma" olması anlayışı mövcud deyildir. O, bütün dinlərə, dini məzhəblərə eyni prizmadan baxır və onları ayıran deyil, birləşdirən məqamları tapmağa çalışır.

- dinşünaslıq Allahın Birliyi (Vahidliyi), bəşəriyyətin birliyi və Dinlərin əzəli Birliyi prinsipindən çıxış edir. O, cəmiyyətdə dini dözümlülüyün yaradılmasına kömək edir, Dinlər və dini məzhəblərin dialoquna çalışır, onlar arasında əməkdaşlıq, dostluq və nəhayət Bir Ümumi Din anlayışının yaradılmasında bilavasitə iştirak edir. Dinşünaslıq üçün dünyada Bir Ümumi Din mövcuddur, mövcud dinlər isə onun müxtəlif təzahürləridir. Bu təlimə görə ən yuksək ruhani səviyyədə bütün dünya dinləri arasında tam harmoniya mövcuddur. Fərq özünü yalnız sosial səviyyədə, dini mərasim və ayinlərdə, qanun və sərəncamlarda göstərir. O, dinlərin İlahi əsaslarını öyrənmək və müqayisəli təhlil etməklə onların Əzəli Birliyini sübut edir və bununla da müxtəlif dini əqidəli insanlar arasında birliyin yaranmasına nail olur.

Həzrət Əbdül-Bəha buyurur:

*"Allah –Vahiddir. Allahın nuru da Vahiddir və bəşəriyyət bütövlükdə Vahid Allahın təəbələrindən ibarətdir. Lakin biz insanlar Allahın istək və xoş məramına zidd hərəkət etmişik. Biz düşmənçilik və ayrılığın səbəbi olmuşuq. Biz bir-birimizdən uzaqlaşmışıq və bir-birimizə qarşı qarşıdurma və mübarizəyə qalxmışıq. Ən dəhşətlisi odur ki, uydurduğumuz fərqləri və ziddiyyətləri Dinin adına çıxarırıq, düşünürük ki, əsas dini borcumuz ayrılmaq, bir-birimizdən qaçmaq və bir-birimizə səhv yolda olan və kafir kimi baxmaqdır. Əslində bütün İlahi Dinlərin əsası birdir. Fərqlər isə ehkamlara kor-koranə təqliddən və ayin və mərasim formalarına bağlılıqdan törəyir".*

Dinlərin Əzəli Birliyi və Bir Ümumi Din konsepsiyası ilə silahlanmış Dinşünaslığın təhsil sisteminə daxil edilməsi müxtəlif dini və qeyri-dini dünyagörüşlərin nümayəndələri arasında insani münasibətlərin harmonizasiyasına, qarşılıqlı anlaşmanın ruhani mühitini yaratmağa, cəmiyyətdə vətəndaş razılaşmasının və sosial sabitliyi formalaşdırmağa yardım edəcəkdir.

# II FƏSİL. AZƏRBAYCANDA DİNLƏR VƏ DİNİ MƏZHƏBLƏRİN BİR ÜMUMİ DİN PRİZMASINDAN TƏSNİFATI

*" Allahın bizim mədəni əsrimizə olan hədiyyəsi – bəşəriyyətin birliyi və dinlərin əzəli birliyi haqqında bilikdir"*

***Həzrət Əbdül-Bəha***



Nə vaxtsa dindən tamamilə məhrum olmuş xalq tarixə hələ ki, məlum deyildir. Bütün zamanlarda dini hiss insanın daxili aləminə hakim olmuşdur. İnsan ruhu, onu daşıyanın irqindən, dilindən, mədəni səviyyəsindən, peşəsindən asılı olmayaraq, həmişə gözəlliyə, xeyirxahlığa və pərəstişə layiq Yüksək olana can atmışdır. İnsan bədəni maddi dünyaya bağlı olduğu kimi, onun ruhu da Gözəgörünməz Reallığa bağlıdır. Çünki bütün Dinlərin Müqəddəs Yazılarında bildirildiyi kimi, Bəşəriyyət – öz Yaradanını tanımaq, Ona ibadət etmək və Onun Ali məqsədinə xidmət etmək üçün yaradılmışdır. Özünün ən yüksək ifadə formasında, bu məqsədə cavab vermək üçün insanda olan daxili impuls sitayiş formasını alır, belə bir vəziyyət ki, insan özünü büsbütün bir qüvvəyə təslim edir, elə bir qüvvə ki, belə bir sitayişi haqq edir.

Allah da hər zaman insanların istəyini cavabsız qoymamış, Öz zühurları - peyğəmbərləri vasitəsi ilə insan ruhuna rahatlıq gətirən, onun ruhani və fiziki tələblərinə cavab verən ilahi təlimləri - Dinləri insanlara çatdırmışdır. Dinlərin hamısı müxtəlif yerlərdə və vaxtlarda xalqların ehtiyacına uyğun olaraq Allahın Vəhyi vasitəsilə çatdırılmışdır. Heç bir dövr

İlahi rəhbərliksiz qalmamışdır və Bəşəriyyət durduqca göndəriləcək peyğəmbərlərin ardıcıl sırası vasitəsilə bu rəhbərlik də davam edəcəkdir. Allah Bəşəriyyəti bu formada xəlq etmiş və insan sivilizasiyasını Öz böyük Planı əsasında sonu görünməyən gələcəyə doğru aparmaqdadır. Təkamülün, inkişafın bu formasında Din başlıca hərəkətverici qüvvə kimi çıxış etdiyindən, insan cəmiyyətini onsuz təsəvvür etmək mümkün deyildir. Həzrət Bəhaullah buyurur:

*"Bütün insanlar tərəqqi edən sivilizasiyanı irəli aparmaq üçün yaradılmışlar. Allahın insanlara Peyğəmbər göndərməkdə məqsədi ikidir. Birincisi, insan övladını cəhalət qaranlığından azad etmək və onları irfan işığına doğru yönəltməkdir, ikincisi, Bəşəriyyətin sülh və əminamanlığına zəmanət vermək və onları yaradıcılığı üçün vasitələrlə təmin etməkdir".*

Deyilənlərdən aydın olur ki, Allahın yerdə yalnız Bir Dini mövcuddur. Mövcud dinlər isə onun tarixi mərhələləri və yaxud onun məkan və zamandan asılı olaraq təzahür formalarıdır. Bir Ümumi Din – Dinlərin əzəli birliyi mövqeyindən mövcud dinlərə yanaşılma və yaxud onların bir mənbədən olması konsepsiyası onlar arasında "qohumluq", "oxşarlıq", "yaxınlıq" və "ardıcıllıq" əlaqələrinin aşkarlanmasını, onları ayıran deyil, məhz birləşdirən məqamları üzə çıxarmağı tələb edir. Dinlə bağlı aparılmış tədqiqatlarda bu məsələ ilə bağlı müxtəlif baxışlar mövcud olmuşdur. Ona görə də Dinşünaslıqda ən əhəmiyyətli məsələlərdən biri Azərbaycanda mövcud din və dini məzhəblərin Bir Ümumi Din –Dinlərin Əzəli Birliyi konsepsiyası mövqeyindən təsnifləşdirilməsi məsələsidir. Hazırda dinlərin təsnifləşdirilməsi ilə bağlı bir neçə yanaşma mövcuddur. Bu yanaşmaları araşdırmağa çalışaq.

***Dinlər və dini məzhəblərin xronoloji təsnifatı.*** Ənənəvi olaraq bu təsnifat əsasında dünya dinləri zaman baxımından yaranma ardıcıllığına görə və ya xronologiya üzrə qruplaşdırılırlar. Hazırda dünyada mövcud on üç əsas "canlı" dindən yalnız İslam (VII əsr), Sihhizm (XVI əsr) və Bəhai Dininin (XIX əsr) tarixi yüz

illiklərlə, qalan dinlər – Hinduizm, Krişna Şüuru, Buddizm, Caynizm, Daosizm, Konfusiçilık, Sintoizm, Zərdüştilik, Yəhudilik və Xristianlığın tarixi isə min illiklərlə ölçülür. Azərbaycanda on üç "canlı" dindən yalnız beşi (Krişna Şüiri, Yəhudilik, Xristianlıq, İslam, Bəhai dini) mövcuddur. Dünyanın 200 – dən çox ölkəsində, o cümlədən Azərbaycanda ardıcılları olan Krişna şüuru Cəmiyyəti (bu kitabda monoteist xarakterinə və ona məxsus teoloji əsaslarına görə müstəqil din kimi verilmişdir) təşkilatı baxımdan 1966-cı ildə təşəkkül tapsa da, Qədim Veda dini təliminə və miladdan 5000 il əvvəl zühur etmiş Həzrət Krişnanın nazil etdiyi kitablara istinad etdiyi üçün qədim din hesab edilə bilər. Beləliklə, yalnız Bəhai dini bu dinlərlə müqayisədə çox cavandır (166 il). Onun formalaşmasında sonuncu tarixi mərhələ yalnız 1963-cü ildə Bəhai dininin ruhani və inzibati mərkəzi olan Uca Ədalət Evinin qurulması ilə sona çatıbdır.

Dinlərin xronoloji təsnifatı sistemindən dinlərin tarixi ilə bağlı ədəbiyyatlarda daha çox istifadə olunur. Bu kitabın III fəslində Respublikamızda mövcud dinlər, dini məzhəblər haqqında məlumat verilərkən bu təsnifat sistemindən istifadə olunmuşdur. Yəni Azərbaycanda "qədimliyinə" görə Krişna Şüuru Cəmiyyəti, "cavanlığına" görə isə Bəhai dini bu sıranın əvvəlini və sonunu təşkil etmişdir. Əlbəttə, söhbət burada bu dinlərin Azərbaycana gəlmə tarixindən getmir. Çünki, belə olan halda ən qədim din "Azərbaycan meyarları" ilə "ən cavan" dinlərdən birinə çevrilərdi. Məhz Krişna Şüuru hərəkatı o dinlərdəndir ki, XX əsrin 80-ci illərinin sonuna kimi Azərbaycanda onun ardıcılları olmamışdır. İkincisi, bu cür yanaşma bizi Azərbaycanda dinlər və dini məzhəblərin, mahiyyətinə görə ədalətsiz qruplaşması olan, "ənənəvi və qeyri-ənənəvi dinlər" bölgüsünə gətirib çıxarardı. Halbuki yuxarıda qeyd edildiyi kimi, Bir Ümumi Din konsepsiyasına istinad edən Dinşünaslıq dinlər və dini məzhəblərin bu cür bölgüsünü qəbul etmir və bu cür bölgüdə ayrı-seçkilik və müstəsnalıq təzahürlərini görür.

Hazırda Azərbaycanda dinlərin "ənənəvi"-"qeyri-ənənəvi" qruplaşdırılması ədəbiyyatlarda və mətbuat səhifələrində daha çox işlədildiyindən onun üzərində bir qədər ətraflı dayanaq.

Bu anlayışı ortaya atan və onu dəstəkləyən kəslərin nəzərincə, "ənənəvi din" anlayışı, həmin dinin Azərbaycan ərazisində tarixi dövrdən, yəni əvvəldən mövcud olduğunu, "qeyri-ənənəvi din"in Azərbaycan ərazisində tarixi dövrdən mövcud olmadığını, sonralar, çox güman ki, "missioner" təşkilatlar vasitəsilə gətirildiyini göstərir.

Sual olunur: rəsmən Azərbaycanda hansı dinlər və dini məzhəblər "ənənəvi", hansılar isə "qeyri-ənənəvi" hesab olunur? Bu sualın cavabı aşağıdakı kimidir: İslam (onun Azərbaycanda əvvəldən olmuş sünni və şiə məzhəbləri), Rus provaslav və bütün yəhudi məzhəbləri, Roma katolik kilsəsi (son illər bu məzhəb ənənəvi dinlər sırasına daxil edilmişdir) "ənənəvi", qalan dinlər isə "qeyri-ənənəvi"dir. Bu sırada nədənsə Alban-Udi kilsəsi ənənəvi dini məzhəb kimi unudulubdur. Çünki heç bir yazılı mənbədə onun adı ənənəvi dinlər sırasında yoxdur.

Azərbaycanda din və dini məzhəblərin "ənənəvi və qeyri-ənənəvi" bölgüsü ilə yanaşı, onların ikinci bölgü sistemi də mövcuddur. Bu sistemlə dinlər və dini məzhəblər iki qrupa bölünürlər: "səmavi" və "qeyri-səmavi". Bu bölgü hətta orta məktəb şagirdləri üçün əlavə oxu vəsaiti kimi nəzərdə tutulmuş "Din əxlaqa aparan yol" (Bakı, 2004) kitabında da verilmişdir. Burada da İslam, Rus pravoslav, Roma katolik və yəhudi məzhəbləri səmavi, Allahdan nazil olmuş, həqiqi din, qalan dinlər və dini məzhəblər isə qeyri-səmavi, Allahdan nazil olmamış, bəşər övladının uydurması kimi təqdim olunur. Heç bir obyektiv dəlillərə istinad olunmadan bu cür bölgü dini ayrı-seçkiliyin kobud təzahürü olub, Azərbaycan Konstitutsiyasına və Dini Etiqad haqqında qanuna zidd olmaqla yanaşı, Respublikamızda dinlərin, dini məzhəblərin dostluq, əməkdaşlıq və birliyinə xidmət edə bilməz. Çünki bu bölgü ilə dinlərin Bərabərliyi və Əzəli Birliyi prinsipi pozulmuşdur. Digər tərəfdən, bu bölgü ümumiyyətlə, öz əsaslarına

və arqumentlərinə görə səhvdir. Bu cür bölgü yeni kəşf olunmuş materik və adalarda missioner-müstəmləkəçilərin apardığı bölgüyə - "həqiqi" və "uydurma" dinlər təsnifatına daha çox oxşardır.

Əgər nəzəri baxımdan xronologiyanı əsas götürməklə dinlərin "ənənəvi" və "qeyri-ənənəvi" qruplara bölünməsini qəbul etsək Azərbaycanda hansı dinlər "ənənəvi", hansılar "qeyri-ənənəvi" hesab edilə bilər? Əgər bu bölgü tarixlə bağlıdırsa, onda xronologiyanın tarixi hansı vaxtdan götürülməlidir? Bu sualın cavabını tapmağa çalışaq. Bundan ötrü Azərbaycanın son iki yüzillik tarixinin üç əlamətdar hadisəsini xronoloji bölgünün başlanğıc nöqtəsi, tarixi meyarı kimi götürək və onları tarixi hadisələrin adı ilə işarələyək. Bunlar aşağıdakılardır:

1. *Türkmənçay müqaviləsi*. Əgər xronologiya Türkmənçay müqaviləsindən (1828-ci ildən), yəni Azərbaycanın Rusiyanın tərkibinə daxil edildiyi vaxtdan götürülürsə, həmin dövrə qədər Azərbaycan ərazisində İslam (ənənəvi sünnilik və şiəlik), Alban kilsəsi (1836-cı ildə xüsusi fərmanla ləğv edilib), yəhudilik (söhbət burada ortodoks yəhudilikdən – dağ yəhudilərindən gedir, çünki islah edilmiş yəhudilik və digər məzhəblər hələ Azərbaycana gəlməmişdi), Zərdüştilik (o dövrdə bu dinin ardıcılları çox kiçik qruplar şəklində hələ mövcud idi) var idi. Qalan dinlər, o cümlədən Rus provaslav, Roma katolik kilsəsi, lüteranlıq və baptist məzhəblər Azərbaycan ərazisində öz fəaliyyətini hələ qurmamışdı. Əlincilər, adventistlər, yahovaçılar, Krişna şuru və Bəhai dinindən söhbət belə gedə bilməzdi, çünki bu dinlər və məzhəblər hələ "dünyaya gəlməmişdilər". Nəzərə alsaq ki, hazırda Zərdüştilik artıq Azərbaycanı tərk edib, rəsmən yalnız üç din - İslam (ənənəvi sünnilik və şiəlik), Alban-Udi kilsəsi və ortodoks yəhudilik "ənənəvi", qalan dinlər isə "qeyri-ənənəvi" hesab edilməlidir;

2. *Azərbaycanda Sovet hakimiyyətinin qurulması*. Əgər bu tarix 1920-ci ilin aprelindən, yəni Azərbaycanın ikinci dəfə Rusiyanın tərkibinə daxil edilməsindən götürülürsə, həmin dövrə qədər də Azərbaycanda hazırda mövcud olan dinlərin böyük əksəriyyəti, o cümlədən rus provaslav, Roma –katolik, protestant

təmayüllü bütün cərəyanlar (“Yahova Şahidləri”cəmiyyətindən başqa), Bəhai dini icması fəaliyyət göstərirdi. Yalnız vəhhabilik, Krişna şüuru Cəmiyyəti (bu din 1963-cü ildə yaranıbdır) və “Yahova şahidləri” Azərbaycanda hələ məlum deyildi. Demək, bu sonuncular “qeyri-ənənəvi”, qalanları isə “ənənəvi” hesab olunmalıdırlar;

3. *Azərbaycanın müstəqillik əldə etməsi*. Əgər bu tarix 1991-ci ildən, yəni Azərbaycanın müstəqilliyə qədəm qoyduğu ildən götürülürsə, həmin ilə kimi respublikamızda nurçuluqdan başqa qalan bütün dinlər, dini məzhəb və cərəyanlar artıq mövcud idi. Demək, yalnız bir dini məzhəb – nurçuluq “qeyri-ənənvi”, qalan dinlər, dini məzhəblər və cərəyanlar “ənənəvi” hesab edilməlidir.

Yuxarıdakı təhlildən göründüyü kimi, Azərbaycanda din və dini məzhəblərin “ənənəvi” və “qeyri-ənənəvi” bölgüsü heç bir obyektiv dəlillərə əsaslanmır. Bu cür bölgünün törətdiyi fəsad odur ki, Azərbaycanda bütün dinlər və dini məzhəblər dövlət və cəmiyyətin onlara olan münasibətinə görə üç qrupa bölünürlər:

1) mövcudluğunu və fəaliyyətini dövlətin və cəmiyyətin alqışladığı dinlər və dini məzhəblər (ənənəvi şiəlik və sünnülik, yəhudi məzhəbləri, rus pravoslav kilsəsi);

2) mövcudluğuna və fəaliyyətinə yol verilə bilən (dözülən) dinlər və dini məzhəblər (katoliklik, lüteranlıq, əllincilik, bəhailik, krişna şüuru, yeddinci günün adventistləri, baptizm, alban-udi),

3) mövcudluğuna və fəaliyyətinə dözülməz yanaşılan dinlər və dini məzhəblər (vəhhabilik, yahova şahidləri, nurçuluq, munçuluq və s.).

Lakin müşahidələr göstərir ki, bu bölgü də sabit deyildir. Bir sıra səbəblərdən yerdəyişmələrin baş verməsi mümkündür. Məsələn, Roma papasının Azərbaycana səfərindən və Vatikanla Azərbaycan arasında diplomatik əlaqələr yarandıqdan sonra katoliklik ikinci qrupdan çıraxılıb birinci qrupa daxil edilmişdir. Yeddinci günün adventistləri, baptistlər, nurçular, yahova şahidləri ölkədə siyasi, ictimai, psixoloji durumdan asılı olaraq vaxtaşırı ikinci və üçüncü bəndlər arasında daim yerdəyişmələr edirlər.

***Dinlər və dini məzhəblərin coğrafi yayılmasına görə təsnifatı.*** Bu təsnifata görə mövcud dinlər coğrafi yayılmasına və əhatə etdiyi xalqların, millətlərin və etnik qrupların sayına görə iki qrupa bölünür:

- milli dinlər;
- dünya dinləri.

Milli dinlərə Yəhudilik, Hinduizm, Sihhizm, Caynizm, Daosizm, Konfusiçilık, Zərdüştilik, Sintoizm aid edilir. Bu dinlərin səciyyəvi cəhəti odur ki, onlar, bir qayda olaraq, müəyyən etnik qrupdan xaricə çıxmır. Onlardan bəzilərinin (məsələn, Hinduizm, Daosizm, Konfusiçilık) yüz milyonlarla tərəfdarı olmasına baxmayaraq, bir və ya bir neçə xalq və etnik qrupu əhatə etdiyinə görə milli dinlər siyahısına salınmışdır. Azərbaycanda milli dinlərdən yəhudiliyin müxtəlif məzhəbləri yayılmışdır. Azərbaycanda yaranmış xristian məzhəbi Alban – Udi kilsəsi də bir etnik qrupu əhatə etdiyinə görə milli dinlər kateqoriyasına aiddir.

Dünya dinləri həm sayına, həm də əhatə dairəsinə görə milli dinlərdən fərqlənir. Bu dinlər yüzlərlə xalq, millət və etnik qrupu əhatə edir. Dinşünaslığa dair müasir ədəbiyyatlarda yalnız üç din – Xristianlıq, İslam və Buddizm dünya dini hesab olunur.

Adətən, dinlər milli din kimi yaransalar da zaman-zaman yeni xalqları və etnik qrupları əhatə edərək dünya dinlərinə çevrilirlər. Hətta yüz milyonlarla insanı əhatə edən Xristianlıq, İslam, Buddizm kimi nəhəng dinlər əvvəlcə "yəhudilərin", "ərəblərin", "hindlilərin" (Buddizm Hindistanda nazil olmuşdur) milli dini kimi ortaya çıxmış və sonradan yüzlərlə millət, xalq və etnik qrupu əhatə edən dünya dinlərinə çevrilmişlər. Vaxtilə dünya dini statusu qazanmış Zərdüştilik (VI-VII əsrlərə kimi Yaxın və Mərkəzi Asiyada ən nəhəng dinlərdən biri) İslamın Yaxın Şərqdə və Mərkəzi Asiyada yayılması nəticəsində öz mövqeyini əldən verərək az saylı milli dinlərdən birinə çevrilmişdir.

Oxucuya təqdim edilən bu kitabda Azərbaycanda fəaliyyət göstərən daha iki dini təlim – Krişna Şüuru Cəmiyyəti və Bəhai dini dünya dinləri kimi təqdim edilmiş və əsaslandırılmışdır.

Hinduizm Krişnaizmin yarandığı əsas dini-mədəni mühit, Hindistan isə bu dini təlimin vətəni olmasına və nəhayət, hər iki dini təlimin çoxlu oxşar cəhətlərinə baxmayaraq, bir-birindən tamamilə fərqlidirlər. Hinduizn milli din olub yalnız hindli mənşəli insanlara yönəlibdir. Bu dində çoxallahlılıq qəbul olunmuşdur. Hinduizmdən fərqli olaraq, Krişna Şüuru hərəkatı (cəmiyyəti), tanrıçaların və digər fövqəltəbii varlıqların mövcudluğunu qəbul etsə də yalnız Tək Allahın – Krişnanın Xaliqliyini təsdiq edir və öz sıralarına bütün millətlərdən olan insanları dəvət edir. Ona görə də bu cəmiyyətin yerli icmaları 200 – dən çox ölkədə olmaqla yüzlərlə xalq və etnik qrupu əhatə edir.

Eynilə, Bəhai dini də bütün dinlər kimi Şərqdə, İranda yaransa da, o ayrıca götürülmüş xalq və ya etnik qrupa yönəlməyib və yaxud hansısa bir mədəniyyətlə məhdudlaşmır. Heç kim Xristianlığı yəhudi mühitində yarandığına görə "yəhudi milli dini" və ya İslamı ərəblər arasında formalaşdığına görə "ərəblərin dini" adlandırmır. İlk ardıcılları iranlılar olduğuna görə Bəhai dinini də "iranlıların dini" hesab etmək düzgün deyildir. Bunu bu dinin banisi Həzrət Bəhaullahın yazısından da görmək mümkündür:

"*Bizim qaldırdığımız bu nida və bu müraciət heç vaxt bir ölkə və ya bir xalqın faydalanması məqsədi daşımamışdır. Bütün bəşər ona nazil olanlardan və lütf edilənlərdən möhkəm yapışmalıdır*".

Hazırda Bəhai dininin 6 milyon ardıcılı arasında iranlılar çox az hissə təşkil edir. Bəhai dini icmaları dünyanın 187 müstəqil dövlətində və 45 asılı ərazisində 2100-dən çox millət, xalq və etnik qrupu əhatə edir (cədvəl 1).

Bəhailərin Ali inzibati və Ruhani orqanı - Uca Ədalət Evi 1963-cü ildə qurulduqdan sonra Bəhai dini Asiya, Afrika, Cənubi Amerika və Okeaniya adaları ölkələrində sürətlə yayılmaqdadır."Britanika" ensklopediyasının məlumatına görə, Bəhai dini 60-80-ci illərdə dünyada ən sürətlə yayılan din olmuşdur. Bu dinin ardıcıllarının sayı qısa vaxt ərzində 400 min nəfərdən (1963) 6 milyona (2003) çatmışdır.

**Cədvəl 1**

**Ardıcıllarının sayına, artım sürətinə və yayıldıqları ölkələrin sayına görə dinlərin sırası**

| Dinlərin adı | Ardıcıllarının sayı | Illik artım, %-lə | Ölkələrin sayı |
|---|---|---|---|
| Xristianlıq | 1,5 mlrd. | 1,36 | 238 |
| İslam | 1,3 mlrd. | 2,13 | 204 |
| Hinduizm | 870 mln. | 1,69 | 114 |
| Buddizm | 600 mln. | 1,09 | 126 |
| Konfusiçılık | 300 mln. | - | - |
| Sintoizm | 100 mln. | - | - |
| Daosizm | 30 mln. | - | - |
| Sihhizm | 20 mln. | 1,87 | 34 |
| Yəhudilik | 14 mln. | 0,91 | 134 |
| Bəhai | 6 mln. | 2,28 | 218 |
| Caynizm | 3 mln. | 0,87 | 10 |
| Krişna Şüuru | 0,5 mln. | - | 200 |
| Zərdüştilik | 0,3 mln. | 2,65 | 22 |

***Dinlər və dini məzhəblərin teoloji əsaslarının oxşarlığına görə təsnifatı.*** Bir Ümumi Din konsepsiyasına əsaslanan dinşünaslıq öz tədqiqatında o mövqedən çıxış edir ki, hansısa dini təlimin müstəqil olması onun boş yerdə yaranması demək deyildir. Bir dinin özündən əvvəlki dinin teoloji əsasları üzərində yaranması və yaxud özündən sonra gələn dinlər üçün teoloji əsas olması bütün dinlər üçün ümumi qanunauyğunluqdur.

Buddizmin ənənəvi Hinduizmin (Brahmanizmin) teoloji əsasları üzərində yaranması və bu təlimin artıq müstəqil din şəkilində Tibet, Çin, Yaponiya, Cənubi-Şərqi Asiyaya yayılaraq, bu ölkələrin xalqları üçün çox güclü mədəni amilə çevrilməsi buna əyani misal ola bilər. Eynilə Hinduizm özündən

əvvəl nazil olmuş Brahmanizmin, o isə daha qədim din olan Veda inancının teoloji əsasları üzərində formalaşmışdır. Cavan dinlər hesab edilən Caynizm və Sihhizim isə Hinduizmin artıq formalaşmış teoloji əsasları üzərində yaranmışdır. Yalnız Krişna şüuru cəmiyyəti son on illiklərin (XX əsr) hadisəsi olmasına baxmayaraq, Buddizm, Hinduizm və Brahmanizmi inkar edərək yenidən Veda təliminin teoloji əsaslarına qayıtmışdır.

İlkin xristianlıq dövründə də (I-II əsrlər) İsa Məsihin şagirdləri və ardıcılları Onun dini təlimini Yəhudilik çərçivəsində təbliğ edirdilər və təqribən iki əsr ərzində müasirləri Xristianlığa yəhudilikdən ayrılmış qol kimi baxmışdır. Xristianlıq yalnız Müqəddəs Yazıları (İncil), təşkilatı strukturu, ayin və mərasimlər sistemi formalaşdıqdan və nəhayət, qeyri-semit mənşəyli xalqlar və etnik qruplar bu təlimi qəbul etdikdən sonra müstəqil din kimi tanınmışdır.

Hər bir dinin Allah və fövqəltəbii varlıqlar, İlahi Vəhy, dünyanın yaradılışı və sonu, insanın yaradılışı, insanın ruhu və axirət həyatı, Əhd (Allahla insan arasında razılaşma), Müqəddəs kitablar və peyğəmbərlər, Cənnət və Cəhənnəm, Qiyamət və axır-zaman və digər təsəvvür və anlayışlarlardan ibarət ruhani biliklər sistemi və ya teoloji əsasları vardır. Teoloji əsaslarının oxşarlığına görə dünyada mövcud dinləri dörd qrupa bölmək mümkündür:

– İbrahimi (Yəhudilik, Xristianlıq, İslam) dinlər;
– Brahmani (Hinduizm, Buddizm, Caynizm və Sihhizm, Krişna Şüuru) dinlər;
– Şərqi Asiya (Daosizm, Konfusiçilik, Sintoizm) dinləri;
– Zərdüştilik;
– Bəhai dini;

Bu qruplaşmada iki qrupun – “Zərdüştilik” və “Bəhai dini” qruplarının hər biri yalnız bir dinlə (Zədüştilik və Bəhai dini) təmsil olunmuşlar. Respublikamızda bu beş qrupdan dördü, biri tarixi (Zərdüştilik), üçü müasirlik (İbrahimi – Yəhudilik, Xristianlıq və İslam; Brahmani – Krişna şüuru;

Bəhai dini) baxımından mövcuddur. Azərbaycanda Zərdüştilik hazırda mövcud olmadığına görə bu kitabda ona xüsusi yer ayrılmamışdır.

İbrahimi dinlər məzhəb baxımından Respublikamızda daha geniş təmsil olunmuşdur. Bu haqda sonrakı bölmələrdə daha ətraflı məlumat veriləcəkdir. İbrahim Əhdində Allah İbrahim peyğəmbərə çoxlu sayda xalqların atası olacağını vəd edir. Tövrətdə oxuyuruq:

"*Durduğun yerdən şimala və cənuba, şərqə və qərbə bax. Gördüyün bütün torpaqları əbədi olaraq sənə və sənin nəslinə verəcəyəm. Səndən xalqlar və şahlar törədəcəyəm. Özümlə sənin və səndən sonra sənin nəslin və onların nəsli arasında Əhd qoyuram..." ( Varlıq, 13:14-16, 15:1-69, 17:15-16).*

Hazırda məlumdur ki, qeyd edilən Əhd təkcə yəhudilərə və xristianlara (yəni İbrahimin birinci arvadı Saradan olan oğlu İshaqın nəslindən) deyil, İbrahim Peyğəmbərin Həcər və Hetturadan olan övladlarının nəslinə də aiddir. Belə ki, Həzrət Məhəmməd (s) Həzrət İbrahimin Həcərdən olan oğlu İsmayılın nəslindən olduğu üçün müsəlmanlar özlərini İbrahim Əhdinin həmvarisi hesab edirlər. Eynilə Həzrət Bəhaullah da İbrahimin üçüncü arvadı Hetturanın övladının nəslindən olduğu üçün bəhailər də özlərini bu Əhdə bağlı görürlər. Beləliklə, İbrahim Əhdi Allahın beş nəhəng Elçisinin zühur etməsinə təkan vermişdir: Musa, İsa, Məhəmməd (s), Bab (Seyid Əli Məhəmməd Həzrət Məhəmmədin (s) nəslindəndir) və Bəhaullah. Qurani-Kərimdə deyilir:

"*Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini məxluqat üzərində seçilmiş etdi" ( Ali-İmran, 33*).

İbrahimi dinlər bəzi fərqli cəhətlərinə baxmayaraq, çox oxşar teoloji əsasa malikdirlər. Bu Allahın maddi dünyanı (materiyanı) altı gündə yoxluqdan yaratması, Adəm və Həvva, Cənnət və Cəhənnəm, mələklərlə bağlı hekayətlər, Allahın insanları Tövhidə və əməlisalehliyə dəvət edən Peyğəmbərlər göndərməsi (hər üç dində İbrahim peyğəmbərin məqamı xüsusi

vurğulandığına görə İbrahimi dinlər adlanırlar), axır-zaman Peyğəmbərinin (yəhudilikdə-Musa, xristianlıqda-İsa Məsih, İslamda-Məhəmməd) və Xilaskarın (yəhudilikdə-Maşiax, xristianlıqda-İsanın ikinci zühuru, İslamda-Mehdinin) gəlişi, Qiyamət ilə bağlı fövqəlhadisələrin (Günəşin qaralması, Ayın parçalanması, ulduzların yerə tökülməsi, ölülərin qəbirlərdən qalxması və s.) baş verməsi, insanların əməllərinə görə bir qisminin Cənnətə, digər qisminin isə Cəhənnəmə göndərilməsi ilə bağlı təsəvvürlərdir.

Bəhai dini öz teoloji köklərində İbrahim Əhdinə bağlı olsa da İbrahimi dinlərdə - Yəhudilik, Xristianlıq və İslamdakı anlayışlar (dünya və insanının yaradılması, fövqəltəbii varlıqlar, Cənnət və Cəhənnəm, Qiyamət, axır-zaman və s.) burada tamam başqa məna kəsb edir.

Müsəlman ölkəsi İranda yaranmasına baxmayaraq, Xristianlıq İudaizmdən və ya İslam Xristianlıqdan fərqləndiyi kimi, Bəhai dini də İslam və digər İbrahimi dinlərdən fərqlənir. Hələ yüz il əvvəl ingilis tədqiqatçısı Edvard Braun Bəhai dininin müstəqil dini təlim olması fikrini söyləmişdir. Şübhəsiz, Bəhai dini İslamın teoloji bazisində formalaşmış dini təlimdir. Onun İslamın ruhani və mədəni mühitində yaranması, bir çox cəhətlərinə - tarix, terminologiya və qismən teologiya məsələlərində bu dinə yaxınlığını müşahidə etmiş ilk tədqiqatçılar (Mirzə Kazımbəy, A. Masse) onu yanlış olaraq İslam təriqətləri sırasına daxil etmişlər. Bununla belə, teoloji mahiyyətinə görə Bəhai dinini nə İslamın, nə də başqa İbrahimi dinlərin məzhəb və təriqətlərinə aid etmək mümkün deyildir. Bu müddəanı, yəni Bəhai təliminin İslam təriqəti deyil, müstəqil din olmasını və müstəqil qrup yaratmasını şərtləndirən bəzi cəhətlər aşağıdakılardır:

I. Bu təlim, bəzi tədqiqatçıların (A.Masse, 1963) təkidinə baxmayaraq, İslamı inkişaf etdirmək və ya onu müasirləşdirməyi bir məqsəd kimi qarşısına qoymamışdır. Ona görə də Bəhai təlimini Martin Lüterin "Reformasiya hərəkatı" (XVI əsr) ilə eyniləşdirmək və yaxud onu İslam daxilində reformasiya

hərəkatı kimi təqdim etmək obyektivlikdən uzaqdır. Bəhai dinində ruhanilərin (molla, axund, keşiş və s.) olmaması, bu təlimin yalnız ona məxsus bir sıra anlayışlar və başqa dinlərdə analoqu olmayan nadir İnzibati Sistem və digər əlamətlərdən ibarət teoloji əsaslar ilə ortaya çıxması, onun İslamda hansısa dəyişikliklər etmək və ya ona hansısa yeniliklər gətirmək marağında olmadığını, əksinə, Bəhai təliminin bütövlükdə din anlayışında və insanların dini baxışlarında köklü dəyişiklər etmək istədiyini göstərir.

II. Bəhailər Quranı-Kərimi Allahın nazil etdiyi Müqəddəs Vəhy kitabı hesab etsələr də, O, Bəhai dini üçün qanunlar mənbəyi deyildir. Bəhai dininin əsasını və onun qanunlarının mənbəyini Bəhai dininin banisi Həzrət Bəhaullahın nazil etdiyi Vəhy Kitabı (Kitabi-Əqdəs) və digər Müqəddəs Yazılar təşkil edir. Bəhai dini təliminə görə, Həzrət Məhəmməd (s) Əhdinin zamanı hicri tarixi ilə 1260-cı ildə (miladi 1844-cü il) bitmiş, Həzrət Bəhaullahın zühuru ilə bəşəriyyətin tarixində Yeni Era başlamışdır. Hələ 1848-ci il Bədəşt konfransında bu yeni təlimin tərəfdarları yeni Vəhyin mahiyyətini dərk edərək İslam qanunlarının ləğv edildiyini bəyan etmişdilər (Azərbaycanın tanınmış şairə qadını Tahirə xanımın konfransa cadrasız gəlməsi buna bariz nümunədir). Beləliklə İslamın ən böyük ehkamı - Məhəmməd (s) Əhdinin bəşəriyyət üçün sonuncu olması - bəhailər tərəfindən qəbul edilmir. Ona görə də Bəhai dinində mərkəzi mövqedə Həzrət Məhəmməd (s) deyil, Həzrət Bəhaullah durur. Beləliklə, Həzrət Bəhaullahın vasitəçiliyi ilə yeni İlahi Əhdin (Bəhaullah Əhdinin) bağlanması və Bəhai dini ardıcıllarının öz inanclarını hansısa din daxilində təriqət deyil, müstəqil din, özlərini isə Yeni Əhdin sazişçisi hesab etməsi bəhai inamının əsasını təşkil edir;

III. Bu dinə məxsus xüsusi təqvimin (19 gün və 19 aydan ibarət) və vaxt hesabının (tarix 1844-cü ildən hesablanır və həmin il Bəhai Erasının başlanma ili hesab edilir), müqəddəs

yerlərin, bayramların, həmçinin özünəməxsus kəbin və dəfn qaydalarının olması;

IV. Namaz, oruc və digər ibadət qaydalarının İslamdan fərqli şəkildə icra edilməsi. Namaz zamanı üzün qiblə kimi xüsusi səmtə (İsrail ərazisində yerləşmiş Bəxçiyə-Həzrət Bəhaullahın bu dünyada sonuncu Vəhy məkanına) yönəldilməsi;

V. Bütün dinlərin teoloji əsaslarını təşkil edən Dünya və insanın yaradılışı, fövqəltəbii varlıqlar, Vəhy konsepsiyası və peyğəmbərlərin gəlişi, “Zamanın sonu”, “Qiyamət”, “Dirilmə” və digər anlayışların Bəhai dini təlimində tamamilə fərqli mənada anlaşılması (bax: “§ 9.Bəhai Dini”).

Bütün bu deyilənlər Bəhai dininin İbrahimi dinlərin teoloji əsasları üzərində yaranmış, lakin müstəqil qrup daxildə müstəqil din kimi formalaşdığını iddia etməyə imkan verir.

# III FƏSİL. AZƏRBAYCANDA DİNLƏR VƏ DİNİ MƏZHƏBLƏR

## § 5. Krişna şüuru cəmiyyəti



Bu Dinin ardıcılları öz təşkilatlarını Beynəlxalq Krişna Şüuru Cəmiyyəti, öz dinlərini –Krişna Şüuru Hərəkatı, özlərini isə *vayşnav* adlandırırlar. Lakin "krişnaizm" və "krişnait" terminlərini də səhv hesab etmirlər. "*Vayşnav*" sözü "Ən Uca Rəbbin bəndəsi" mənasını bildirir.

Krişna şüuru Cəmiyyəti yaşı min illərlə ölçülən Veda təliminə bilavasitə bağlıdır. Sanskrit dilinə mənsub olan *veda* sözünün mənası bilik deməkdir. Bu Dinin (bundan sonra Krişna Şüuru Cəmiyyətinə müstəqil din kimi baxılacaq) istinad etdiyi bir neçə yazılı mənbə vardır ki, onlar içərisində "Bhaqavat – Qita olduğu kimi" daha nüfuzlu hesab olunur. Kitaba "Bhaqavat – Qita" adlanan Müqəddəs Yazı və bu mətnə şərh daxil edilmişdir. "Bhaqavat – Qita" nın müəllifi Alllah, şərhin müəllifi isə Svami Prabxupadadır. Bu kitab Rus dilinə 1986-cı il, Azərbaycan dilinə isə 1991-ci ildə tərcümə edilmişdir.

**Tarixi məlumat.** Vayşnavların birinci icması 1966-cı ildə Nyu-Yorkda yaranmışdır. Həmin il bu Dinin yaranması tarixi kimi də götürülə bilər. Bəzi mənbələrdə Krişna təliminin bir neçə min il tarixinin olması göstərilir (biz də bu fikirlə razıyıq). Düzdür, həmin mənbələrdə bu  təlimdə hələ qədim "Veda" ədəbiyyatında adları çəkilmiş allahlarla əlaqələndirilir. Lakin "Veda" ədəbiyyatına müxtəlif dinlər Veda Dini, Brahmanizm, sonralar Hinduizm istinad etmişdir. Elə Buddizm dini də Veda təliminə istinad edən Brahmanizmin (Hinduizmin) teoloji əsaslarında formalaşmışdır. Bu

dinlərin heç birini Krişnaizmlə eyniləşdirmək olmaz. Digər tərəfdən, Krişnaizm təlimi "Veda"nın ilkin təliminə daha çox yaxındır, sonrakı təlimlərdə (Brahmanizm, Hinduizm, Buddizm) bu, ciddi şəkildə təhrif olunmuşdur. "Veda"nın monoteizmi politeizmlə (çoxallahlılıq) əvəz olunmuşdur. "Veda"larda adları çəkilən tanrıçalar, sonrakı təlimlərdə "allahlara" çevrilmişlər.

Belə bir fikir də vardır ki, Krişnaizmin tarixi XV-XVI əsrdən, Çaytanya adlı din xadiminin Krişna adlı Tək Allahın olması ideyasını vaizçilik etdiyi dövrdən götürülməlidir. Şübhəsiz, Çaytanyanın fəlsəfəsi də Krişnaizmin ideya mənbəyidir. Lakin ədəbiyyatlarda onun vaizçiliyi nəticəsində kütləvi hərəkatın yaranması və Krişnaizmin din kimi ortaya çıxması haqqında məlumat yoxdur. Ona görə də bir sıra tədqiqatçıların nəzərincə, XVI əsrdə Krişnaizmin Din kimi formalaşmasından söhbət gedə bilməz. Lakin Krişna Şüuru Cəmiyyətinin istinad etdiyi Veda dini Yazılarının qədimliyini nəzərə alaraq, oxucuların müzakirəsinə verilmiş bu kitabda Krişna Şüuru təlimi tarixi baxımdan qədim dövrə aid edilmişdir. Əlbəttə, bu məsələdə başqa fikirlər də ola bilər.

Bu qədim təlimin yeni "təqdimatının" banisi Onun İlahi Mərhəməti A.Ç.Bhaktivedanta Svami Prabhupadadır. Svami Prabhupada 1896-cı ildə Hindistanın Kəlküttə şəhərində anadan olmuşdur. Nyu-York şəhərində birinci krişna icmasını yaradan zaman onun artıq 70 yaşı var idi. Svami Prabhupada 1977-ci ildə dünyasını dəyişmişdir. Dünyanın hər yerində vayşnavlar Ona özlərinin dahi müəllimi kimi ehtiram göstərirlər. Bütün aşramlarda (vayşnavlar öz məbədlərini belə adlandırırlar) Svami Prabhupadanın şəkli və ya skulpturu vardır.

**Təşkilatı.** Vayşnav icmaları dünyanın 200-dən çox ölkəsində mövcuddur. Bu icmalar vahid təşkilatda, yuxarıda qeyd edildiyi kimi, "Beynəlxalq Krişna Şüuru Cəmiyyəti"ndə birləşmişlər. Beynəlxalq Krişna Şüuru cəmiyyətinin başında tərkibi 45 nəfərdən ibarət Ali Şura durur. Ali Şuranın (AŞ) üzvləri ildə bir dəfə mart ayında bir yerə toplanırlar. İlin qalan vaxtı AŞ üzvləri məktublaşma

vasitəsilə əlaqə saxlayırlar. Ali Şuranın iqamətgahında AŞ-nın İcraiyyə Komitəsinin üzvləri qalırlar. İqamətgah isə Hindistanda, Qərbi Benqaliyada Mayyapuri adlı yerdə (Qanq çayındakı adaların birində) yerləşmişdir.

Azərbaycanda vayşnav icması keçən əsrin 80-ci illərində yaranmışdır. Hazırda bu dinin ardıcıllarının sayı 300 nəfərə qədərdir. İcma şəklində yalnız Bakı şəhərində fəaliyyət göstərirlər. Respublikamızın qalan yerlərində ayrı-ayrı fərdlərdən ibarət ardıcılları vardır.

**Teoloji əsasları.** Bu Dində altı təlim ayırmaq mümkündür:

- Allah Ali şəxs Krişna haqqında təlim;
- Fövqəltəbii varlıqlar haqqında təlim;
- Ruh haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- İbadət haqqında təlim;
- Davranış haqqında təlim;
- Qida haqqında təlim.

*Allah Ali Şəxs – Krişna haqqında təlim.* Krişna təliminə görə dünyada üç qrup fövqəltəbii varlıqlar mövcuddur: Allah, tanrıçalar və iblislər. Hinduizmdən fərqli olaraq, Krişnaizm monoteist din olub, Allahın Təkliyini qəbul edir. Onun çox sayda adları vardır. Onun əsas adı – Krişnadır (sanskrit dilində "Hər şeyi cəzbedən"). Onun başqa adı Ramadır.

Krişna əbədi və əzəli Allahdır. O, iki növ enerjinin sahibidir: ruhani və maddi. Krişna bütün səbəblərin səbəbidir. O, həm hərəkətdədir, həm də hərəkətsizdir. O, həm uzaqda, həm də yaxındadır, o, hər şeyin daxilində, həm də xaricindədir. Kainatdakı bütün canlılar və cansızlar Allahın nəzarəti altındadır və Ona məxsusdurlar.

Krişna rəsmlərdə fleyta çalan qarayanız yeniyetmə şəklində təsvir edilir. Krişna fövqəltəbii dünyanın Krişna-loka planetindəki mənzilində yaşayır. Lakin, öz enerjiləri vasitəsilə O, dünyanın istənilən nöqtəsindədir. "Bhaqavat – Qita" da Allah Ali Şəxs-Krişna Öz Mahiyyətini belə təsvir edir:

*"Mən bu dünyadakı həm maddi, həm də ruhi şeylərin hamısının əvvəli və sonuyam. Məndən yüksək həqiqət yoxdur. Sapa düzülmüş mirvarilər kimi hər şey Mənim üzərimdə durur. Mən - suyun dadı, Günəşin və Ayın işığı, Mən-torpağın ilkin ətiriyəm, Mən-odun istisiyəm. Mən yaşayanların həyatıyam, Mən bütün canlıların ilkin toxumuyam, dərrakəli adamların dərrakəsi, qüdrətli insanların şücaətiyəm. Mən hər şeyəm, lakin eyni zamanda heç nədən asılı deyiləm. Bu maddi dünyanın keyfiyyətləri Mənə heç vaxt təsir etmir, əksinə onları Mən idarə edirəm. Mən təzahür etməmiş formada bütün Kainata nüfuz edirəm. Bütün varlıqlar Mənim daxilimdə olsalar da, Mən onların daxilində deyiləm. Mən hər yerdəyəm, lakin Mən bu Kainatın hissəsi yox, Mən onun mənbəyiyəm. Həm ruh, həm də materiya Mənim daxilimdədir. Hər şey məndən törəyir. Eləcə də Mən hüdudsuz zamanam. Mən hər şeyi məhv edən ölüməm və Mən bütün gələcək şeylərin yaradıcısıyam. Sənə söylədiklərim Mənim sonsuz Əzəmətimin yalnız cüzi bir hissəsidir".*

Krişnanın çoxlu sayda avatarı vardır. Avatar Allahın başqa vücududur, Onun başqa şəklə düşməsi, yeni forma qəbul etməsidir. Avatar ideyası Hinduizmdə də vardır. Hinduizn təliminə görə allahların ruhani mahiyyəti yalnız ölümə məhkum bədənlərdə təcəllə edir. Krişna təliminə görə isə avatar həm ölümə məhkum bədən, həm də Allahın ölümsüz bədəni ola bilər. Allah başqa fani bədənlə birgə başqa ad da alır. Bu təlimə görə Krişnanın başqa avatarı Vişna və İsa Məsihdir. Burada Vişna Allah kimi, Məsih isə insan kini başa düşülür.

Krişna öz əsas adı altında sonuncu dəfə 5000 il əvvəl zühur edib. O, Devaki adlı qadının övladı kimi dünyaya gəlib. Bu dünya həyatında O, şahzadə, çoban, sonra isə Arcuna adlı döyüşçünün gərdunəsinin sürücüsü olub. Krişna "Bhaqavat-Qita"da zaman-zaman zühur edəcəyini vəd etmişdir:

*"Din tənəzzülə uğradıqda, dinsizliksə artaraq üstünlük təşkil etdikdə, Mən Özüm nazil oluram...Möminləri xilas, cinayətkarları*

*məhv, dini prinsipləri bərpa etmək üçün Mən hər minillikdən-minilliyə zühur edirəm".*

*Fövqəltəbii varlıqlar haqqında təlim.* Fövqəltəbii varlıqların ikinci qrupu tanrıçalardır. Tanrıçaları Krişna xəlq etmişdir. Bu tanrıçalardan biri Brahmadır. Brahma Krişnanın göstərişi ilə materiyanı, Kainatı yaratmışdır. Krişna təliminə görə Brahma ikinci dərəcəli xaliqdir. Çünki O Allahın yaratdığı xaliqdir. Brahmanın adı *Yaradılış* ilə bilavasitə bağlıdır. Maddi Kainatın yaranması, saxlanması və məhv olması Allah –Ali Şəxsin (Krişnanın) ali iradəsindən asılıdır. Krişna təlimində *"Zamanın Sonu*" ifadəsi Brahmanın ölümündən sonra deməkdir. Brahma yüz il ömür sürür və onun ömrünün bir günü yer üzündəki 4 milyard 300 milyon ilə bərabərdir. Yüz il, yəni 311 trilyon 40 milyard ildən sonra Brahma öləndə Kainat dağılır; bu o deməkdir ki, Allahın təzahür etdirdiyi enerji yenidən Onun Özünə qayıdır. Sonra yenidən maddi kainata ehtiyac olduqda, o, Allahın -Krişnanın hökmü ilə yenidən təzahür etdirilir.

Hinduizmdə tanrıçaları səhvən allahlar hesab edirlər. Krişna təliminə görə isə tanrıçalar canlı varlıqlar olub, eyni zamanda Krişnanın qulluqçuları və Onun bədəninin (Kainat formasının) ayrı-ayrı hissələridir. Onların sayı 33 milyondur. Onlar içərisində ən məşhuru Brahma (Kainatın Xaliqi və Brahma-lokedəki cənnətin hökmdarı), Şiva (kainatın dağıdıcısı), Varuni (su tanrıçası), Kama (məhəbbət tanrıçası), İndra (şimşək və ildırım tanrıçası, İndra-lokedəki cənnətin hökmdarı), Yama (ölüm tanrıçası) və s. Tanrıçalara maddi işlər aparmaq vəkaləti verilmişdir. Hər bir canlı məxluqun bədənini və ruhunu saxlamaq üçün onun hava, işıq, su və digər nemətlərlə təchiz olunması Allah-Ali Şəxs Krişnanın bədəninin müxtəlif hissələrində yerləşən və Onun köməkçiləri olan tanrıçalara həvalə edilmişdir. Tanrıçalar qüdrət sahibi olsalar da (məsələn, Brahman Kainatı xəlq etmişdir) Krişna təlimində onlara sitayiş qadağandır. "Bhaqavat – qita"da buyurulur:*" Tanrıçalara sitayiş edənlər ən qatı cəhalət məskəninə düşəcəklər...".* Krişnaya sitayiş edən insan Onun bədəninin müxtəlif hissələri olan

tanrıçalara da sitayiş etmiş olur; ona görə də tanrıçalara ayrıca sitayiş etməyə ehtiyac yoxdur.

Üçüncü qrup fövqəltəbii varlıqlar iblislərdir (şeytanlar). Onlar şər törətməklə məşğuldurlar. İblislər müxtəlif görkəmdə, gözəl döyüşçü və ya əjdaha ola bilərlər. İblislərin bədəni fanidir, ruhları isə ölümsüzdür. Ölümdən sonra onların ruhu başqa bədən əldə edir. Krişna təlimində mənəviyyatsız ömür keçirən, maddi bağlılıqlarda yaşayan, Allahı inkar edən insan da "iblis" adlanır.

*Ruh haqqında təlim.* Ruhla bağlı Krişna təlimində altı əsas anlayışı ayırmaq mümkündür:

- ruh (civa) insanın fövqəltəbii hissəsidir;
- ruh bədəndən asılı deyil;
- ruh tam törəmədir (buddizm təliminin öyrətdiyi kimi, xırda hissəciklərdən ibarət deyildir);
- ruhlar həmişə mövcud olmuşdur;
- ruhlar ölümsüzdür, əbədidir;
- ruhun ölçüsü tükün ucunun on mində biri qədərdir.

*Axirət həyatı haqqında təlim.* Krişna təliminə görə axirət həyatı iki mərhələdən ibarətdir. Birinci mərhələ samsara – ruhun bir bədəndən digərinə köçməsidir. Bir bədəni tərk edib, başqa bədən alma prosesi müəyyən qanuna əsaslanır. Sonrakı həyatında hansı bədən alacağı hökmü verildikdən sonra insan ölür. İnsanın ucalıb – enməsi həyatda etdiyi əməllərdən asılıdır. Onun İlahi Mərhəməti A.Ç.Bhaktivedanta Svami Prabhupada buyurur:

*"Bədən paltara bənzəyir. Paltarı dəyişərkən kədərlənmək nəyə gərək? Əbədi ruhla müqayisədə maddi bədənin həqiqi mövcudiyyəti yoxdur. Onun mövcudluğu yuxuya bənzəyir. Yuxuda göydə uçduğumuzu, yaxud da şah kimi taxtda əyləşdiyimizi görə bilərik, lakin oyandıqda, aydın olur ki, nə göydəyik, nə də taxtda. Beləliklə, insan ruhunun mövcudluğuna inanıb-inanmamağından asılı olmayaraq, bədənin itirilməsindən ötrü kədərlənməməlidir".*

Bu ömür sonrakı ömrə hazırlıqdır. Əgər insan bu ömürdə Allahın səltənətinə qayıtmağa hazır olsa, ikinci mərhələdə, bu maddi bədəni tərk etdikdən sonra Allahın bədəninə bənzər ruhi

bədən alacaqdır. Bədəninin dəyişikliyə uğraması insanın özündən asılıdır. Həyatı boyu yaratdığı təsəvvürü onu ölüm anında başqa bədənə keçirir. Əgər onun şüuru it, donuz, yaxud pişik şüuruna bənzəyirsə və yaxud ölüm anında onlar haqqında fikirləşirsə o hökmən it, donuz və ya pişik bədəni alacaq. Maharaca Bharata adlı bir nəfər böyük şəxsiyyət olsa da, ölüm anında ceyran haqqında fikirləşmiş və buna görə də növbəti həyatında o, ceyran bədəninə keçmişdi. Ceyran olarkən öz keçmiş fəaliyyətini xatırlasa da, o, bu heyvan bədənini qəbul etməli olmuşdu. Lakin, insan diqqətini ilahi keyfiyyətlərə yönəldərsə, hazırki bədənini tanrıça bədəninə dəyişəcək. Əgər o, Krişna Şüurundadırsa, ruhi dünyadakı Krişnalokaya köçəcək və Krişna ilə ünsiyyətdə olacaqdır. İnsan oraya yetişdikdə bir daha maddi dünyaya qayıtmır.

*Krişna Şüurunun əxlaq kodeksi (davranış haqqında).* Krişnanı tanımış və ona xidmətə qalxmış şəxs Onun İlahi Mərhəməti A.Ç.Bhaktivedanta Svami Prabhupadanın sözlərinə görə aşağıdakı əxlaq qaydalarını gözləməlidir:

- insan alicənab olmalı və başqalarına lazımı ehtiram göstərməyi öyrənməlidir;
- dindarlığı şan-şöhrət qazanmaq naminə etməməlidir;
- öz hərəkətləri və sözlərilə başqalarını narahat etməməlidir;
- başqaları fitnəkarlıq etdikdə səbrli olmağı öyrənməlidir;
- başqaları ilə münasibətdə ikiüzlülük etməməyi öyrənməlidir;
- onu tədricən ruhi gerçəkləşdirmə səviyyəsinə qaldıra bilən ruhani ustad tapmalı, ona xidmət etməli, ağıllı suallar verməli və onun dediklərinə əməl etməlidir;
- özünügerçəkləşdirmə səviyyəsinə çatmaq üçün müqəddəs kitablarda göstərilmiş nizamlayıcı prinsiplərə əməl etməlidir;
- Müqəddəs kitablarda göstərilən prinsipləri pozmamalıdır;
- özünügerçəkləşdirməyə mane olan hərəkətlərdən imtina etməlidir;

- bədəni üçün zəruri olan şeylərdən başqa heç nə qəbul etməməlidir;
- özünü qaba maddi bədənlə eyniləşdirməməli, qan qohumlarını şəxsən özününkü hesab etməməlidir;
- nə qədər ki, maddi bədəndədir, doğuluş, qocalıq, xəstəlik və ölüm iztirabları ilə rastlaşacağını unutmamalıdır;
- ruhi inkişafa lazım olan işlərdən savayı heç nəyə bağlanmamalıdır;
- arvad-uşağa, ev-eşiyə müqəddəs kitablarda deyiləndən artıq bağlanmamalıdır;
- arzuladığı, yaxud arzulamadığı şeylərə görə özünü nə xoşbəxt, nə də bədbəxt hesab etməməlidir;
- Allah-Ali Şəxs Krişnanın pak fədaisi olmalı, bütün diqqətini Ona xidmətə yönəltməlidir;
- ruhi inkişaf üçün əlverişli olan sakit və tənha yerdə yaşamağa meyl etməli, materialistlərin yaşadığı yerdən gen durmalıdır; alim və filosof olmalı, ruhi biliyi tədqiq etməli, ruhi biliyin əbədi olduğunu, maddi biliyin bədənlə birgə öldüyünü dərk etməlidir.

Başqa dinlərdə olduğu kimi Krişna şüurunda da öldürmək (təkcə insanı deyil, ümumiyyətlə bütün canlıları), oğurluq, yalan danışmaq, zina, siqaret çəkmək, spirtli içkilərdən və narkotik maddələrdən istifadə qadağandır. Lakin burada iki spesifik cəhət vardır ki, bu yalnız Krişna şüuruna məxsusdur. Birincisi: krişna şüurunun əxlaq kodeksinə görə ər və arvad intim münasibətə yalnız dünyaya uşaq gətirmək məqsədi ilə girə bilər, yəni əksər hallarda bütün həyatları boyu yalnız 3-4 dəfə. Bu qaydanın pozulması əxlaqsızlıq hesab olunur. İkincisi: azart oyunlarda iştirak etməmək, bura müasir kinofilmlər, teatr tamaşaları, konsertlər, həmçinin idman yarışları və s. da aid edilir.

*Qida haqqında hökmlər***.** Krişna təliminə görə ət, balıq və yumurtadan, tərkibində heyvan mənşəli yağlardan istifadə olunmuş qidadan, həmçinin çay, kofe, sarımsaq, şokoladdan

istifadə qadağandır. Ərzaq məhsulları kimi süd məhsullarına, qənd, düyü, buğda, paxlalılar və meyvə-tərəvəzdən istifadə olunur. Qidanı yalnız o vaxt yemək olar ki, o əvvəlcə Allah-Ali Şəxs Krişnaya təklif edilmiş, yaxud ilk növbədə müqəddəs şəxslər, xüsusilə, ruhani ustad tərəfindən yeyilmiş qidanın qalığı olsun. Əks tədqirdə, qidanın qalıqları zülmət *qunasına* mənsub hesab edilir və xəstəliklərə gətirib çıxarır.

## § 6. Yəhudilik




Yəhudilik yəhudilərin milli dini olub onun başqa adı “Yəhudi Dini” dir. Bu din Allahın Musa peyğəmbər vasitəsilə İsrail oğullarına göndərdiyi dindir. Bəzən Musanın dini mənasında musəvilik də adlandırırlar.İsrail İbrahim peyğəmbərin nəvəsi Yaqub peyğəmbərin adıdır. Bir rəvayətə görə o, Allahla güləşdiyi üçün “İsrail” – “Allahla güləşən” (Varlıq, 32:28) adını almışdır, başqa bir rəvayətə görə isə o, Mesopatamiyadan qayıtdıqdan sonra Allah ona görünmüş və bu adı vermişdir (Varlıq, 35:9-10).

**Tarixi məlumat.**Yəhudi ilahiyatçılarının fikirincə, artıq ilk insanlar, Adəm və Həvva yəhudiliyə etiqad edirdilər. Tarixçilərin fikrincə, yəhudilərin rəsmən yəhudiliyi qəbul etməsi miladdan əvvəl 621-ci ildə baş vermişdir. Həmin il yəhudilərin çarı İosinin fərmanı ilə Fələstin torpağında Tək Allahdan, başqa qalan tanrılara sitayiş qadağan edilmiş, çoxallahlılığın bütün atributları, bütlər, tanrıların təsviri, məbədlər dağıdılmışdır. “Yəhudilik” (uvrit dilində “yaadut”) sözü Tövrətdə adı çəkilən “Yəhuda” Yaqub peyğəmbərin 12 oğlundan birinin nəslindən olan yəhudi qəbilə birləşməsinin adından götürülmüşdür. Tarixi dövrlər ərzində Yəhudilik yəhudilərin milli dini kimi tanınmışdır.

Yəhudiliyin yalnız bir etnik qrupu - yəhudiləri əhatə etməsinin səbəbləri vardır. Hələ bizim eradan əvvəl 444-cü ildə yəhudi ruhaniləri yəhudilərin başqa xalqlarla nigaha girməsini qadağan edən "dini qanun"un qəbuluna nail olurlar. Artıq həmin vaxt bu qadağa Babil əsirliyi dövründə (e.ə.586-538) başqa xalqlarla qaynayıb-qarışmış, lakin öz dinlərini qoruyub saxlamış samarilərin yəhudilərdən ayrılmasına səbəb olur. Ortodoksal yəhudilikdə indi də yəhudilərin qeyri-yəhudilərlə nigahı qanunsuz sayılır. Yəhudi dininin tarixi ərzində yalnız Cənubi Ərəbistanda yaranmış əhalisi etnik yəhudilər olmayan Himyar padşahlığı (517-525) və VIII əsrdə Xəzər xaqanlığı Yəhudiliyi özlərinin dövlət dini elan etmişlər. Digər tərəfdən Yəhudiliyin etnik qapalılığı onun yaşama qabiliyyətinin əsas amillərindən biri olmuşdur. Yəhudilərin dini təliminə görə, bu din yəhudiləri sadəcə Tək Allahlılığa çağırmamışdır, onları həmçinin başqa xalqlardan ayırmış, onları yerdə sülh və ədalət səltənətini qurmaq missiyasını yerinə yetirən Allahın seçilmiş xalqı elan etmişdir. Müasir dövrdə də yəhudilərin böyük əksəriyyəti özlərinin seçilmiş xalq olduğuna inanırlar.

**Təşkilatı.** Məlumata görə dünyanın 125 ölkəsində 14 milyon Yəhudiliyə etiqad edən insan yaşayır. Lakin yəhudilərin 83 faizi altı ölkədə yaşayır: ABŞ (40%), İsrail (30%), Fransa (4,5%), Rusiya (4,5%), İngiltərə (2%), Kanada (2%). Qalan 17% kiçik qruplar şəklində dünyanın hər yerinə səpələnmişlər.

İsrail rəsmən dünyəvi dövlət olub, Yəhudilik bu ölkədə dövlətin rəsmi dini kimi sənədlərdə öz əksini tapmasa da, bu dinin təsisatları dövlət büdcəsindən maliyyələşdirilir. Ali Ravvinlər məclisi təkcə dini müəssisələrə nəzarət etmir, eyni zamanda dövlətin dünyəvi işlərində də fəal şəkildə iştirak edir: İsrailin şəhər və qəsəbələrində 200-ə qədər dini şura fəaliyyət göstərir; dövlət qulluqçusu hesab olunan 450 ravvin ölkə miqyasında kaşrutaya (qidanın hazırlanması və saxlanmasının dini qaydalar sisteminə) nəzarət edirlər. Ölkədə 24 Ali ravvinlər məhkəməsi fəaliyyət göstərir. Ali ravvinlər məclisinin İsrailin təhsil sisteminə təsiri daha böyükdür. Dini məktəblər (yeşibot) ümumtəhsil məktəblərinin

17%-ni təşkil etməsinə baxmayaraq, bütün məktəblərdə dini dərslərin keçirilməsi məcburidir.

Yəhudi dinində dörd əsas məzhəb vardır: Ortodoksal yəhudilik, Karaimlik, Xasidizm, İslahedilmiş Yəhudilik. Ortotoksal yəhudiliyin tarixi Yəhudi dininin tarixi ilə eynidir. Sonrakı bölmələrdə yəhudilik deyəndə "*ortodoksal yəhudilik*" nəzərdə tutulacaq.

*Karaimlik* VIII əsrdə İraqda yaranmışdır. Hazırda karaimlər İsrail, Polşa, Litva və Ukraynada yaşayırlar. "Karaim" sözünün mənası "qiraətçi" deməkdir. Karamliyin əsas əlaməti – Talmutu müqəddəs saymaqdan imtinadır.

*Xasidizm* Polşada XVIII əsrin əvvəllərində yaranmışdır. Xasidlər yəhudilərin olduğu hər yerdə vardır. "Xasid" sözü "mömin", "nümunəvi" deməkdir. Xasidlər sidqi-ürəklə, göz yaşları ilə müşahidə olunan ibadətə daha çox diqqət verirlər.

*İslahedilmiş Yəhudilik* XIX əsrin əvvəllərində Almaniyada yaranmışdır. İslahedilmiş Yəhudiliyin də tərəfdarları dünyanın hər yerində, yəhudilərin yaşadığı ölkələrdə vardır. Azərbaycanda onlar "Əskinazi yəhudiləri" adı altında tanınırlar. Ortodoksal yəhudilikdən fərqli olaraq islaholunmuş yəhudilikdə mərasimlərin keçirilməsi qaydası islah edilmişdir. Bu dəyişikliklər aşağıdakılardan ibarətdir:

1) ravvinlərin mərasim geyimlərini adi vətəndaş geyimləri ilə əvəz edilmiş;

2) mərasimlər zamanı ibadətlər ortodoksal yəhudilikdə olduğu kimi ivrit dilində deyil, yerli dillərdə (İngiltərədə ingilis, Fransada fransız) keçirilir;

3) ortodoksal yəhudilikdə ravvin olmaq hüququ yalnız kişilərə məxsusdursa, İslahedilmiş Yəhudilikdə bu vəzifəni qadınlar da daşımaq hüququna malikdirlər.

Azərbaycanda üç yəhudi icması - dağ yəhudiləri, əşkinazi yəhudilər və gürcü yəhudiləri icmaları mövcuddur. Bütövlükdə ölkədə yəhudilərin sayı 16000 nəfərdir. Bunlardan 11000-i dağ yəhudiləridir ki, təxminən 6000-i Bakıda, 4000-i Qubada, min

nəfəri isə başqa şəhərlərdə yaşayır. Əşkinazi yəhudilər 4,3 min nəfərdir. Onların əksəriyyəti Bakı və Sumqayıt şəhərlərində yaşayırlar. Gürcü yəhudiləri təxminən 700 nəfərdir. Dağ yəhudiləri hazırda ölkədəki bütün yəhudi diasporu arasında çoxluq təşkil edir. Onların dili tat dilidir, lakin nitqlərində çoxlu türk, fars və rus sözləri vardır.

Dini əqidələrinə görə, dağ yəhudiləri ortodoksdurlar. Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin bir neçə sinaqoqu fəaliyyət göstərir. Qubadakı Krasnaya Slobada qəsəbəsi bütün postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadıqları yeganə yerdir. Qəsəbədə üç sinaqoq və ayinçilik məqsədilə tikilmiş mikva vardır. Əşkinazi yəhudilər Avropa yəhudiləridir, əslən orta əsrlər Almaniyasındandırlar. Gürcü yəhudiləri icması sayca kiçik olsa da, fəaldır. 1997-ci ildə "Coynt" yəhudi komitəsinin maliyyə yardımı ilə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir.

Azərbaycanda müstəqillik bərpa etdikdən sonra buradakı yəhudi icmaları daha da fəallaşmış, beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini-iyeşivalarını, mədəniyyət mərkəzlərini (məsələn, yəhudi icmasının mədəniyyət mərkəzi), cəmiyyətlərini (məsələn, Həvva qadın cəmiyyəti, Hesed-Herşon xeyriyyə cəmiyyəti), klublarını (məsələn, Əlef, Kilel gənclər klubları, Mişpaha videoklubu), qəzetlərini (məsələn, Az-İz, Başnya, Amişav) yaratmışlar. Soxnut yəhudi agentliyi, Coynt və Vaad-l-Hetzola yəhudi komitələri Azərbaycandakı yəhudi diasporu arasında yəhudi ənənələrini qoruyub saxlamaq, sinaqoqlara yardım göstərmək və müxtəlif mədəniyyət tədbirləri keçirməklə məşğuldur. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir.

**Teoloji əsasları.** Bu Dini təlimdə yeddi əsas təlim ayırmaq mümkündür:

- Allah haqqında təlim;
- Fövqəltəbii varlıqlar haqqında təlim;
- Müqəddəs Kitablar haqqında təlim;

- Peyğəmbərlər haqqında təlim;
- On nəsihət haqqında təlim;
- Ruh haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- Maşiax haqqında təlim;
- Qida qadağaları haqqında təlim;
- Şənbə haqqında təlim

*Allah haqqında təlim*. Yəhudi təliminə görə Allahın adı Yahvedir (mənası "Öz-özünə var olan", "Mövcud olan"). Lakin dini ədəbiyyatlarda bu ada təsadüf olunmur. Əslində Allahın adı Maşiaxın zühuruna və Yerusəlim məbədinin bərpasına kimi insanlardan gizlədilmişdir. Yalnız zamanın sonunda Allahın adı insanlara nazil ediləcəkdir. Ona görə də Yəhudilikdə Allaha –Rəbb, Xaliq, Qüdrətli və s. adlarla və yaxud "qa-Şem" (mənası "bu ad") deyə müraciət olunur.

Yəhudi təliminə görə, Allah bütün ilahi atributlara malikdir. O, dünyanı yaratmışdır; O, dünyanı idarə edir; O, Hər şeyi Biləndir, Ona keçmiş, indiki və gələcək bəllidir. Allah cisimsiz olduğuna görə onun şəkli yoxdur və ola da bilməz. Tövrət, Tanah və Talmudda Allahın antropomorf təsvirləri rəmzidir.

*Fövqəltəbii varlıqlar*. Yəhudi təliminə görə dünyada Allahın xəlq etdiyi üç qrup fövqəltəbii varlıqlar mövcuddur: mələklər, iblislər (şeytanlar) və fövqəltəbii heyvanlar. Fövqəltəbii varlıqların birinci qrupu, Allahın xəlq etdiyi mələklərdir. Onlar fiziki bədəni və cinsi olmayan varlıqlar olub, əsas funksiyası Allaha köməkçi olmaq və xeyir işlər görməkdir. Onların bir qismi əbədi, digər qismi isə müvəqqəti həyata malikdir. Mələklər içərisində Metatron (mənası "taxtın yanında duran") adlı mələk daha yüksək məqama malikdir. O, Musa peyğəmbərə dağın zirvəsindən Kənan torpağını göstərmiş, 40 illik səfər zamanı səhrada yəhudilərin önündə hərəkət etmişdir.

İlk mələklər Xəlqetmənin ikinci günü işıqdan yaradılmışlar. Mələklər daşıyacaqları vəzifədən asılı olaraq təkcə işıqdan deyil, sudan, küləkdən, oddan və başqa şeylərdən də törədilir. Məsələn,

xəbər çatdıran mələklər küləkdən, dənizlərə sahib mələklər isə sudan yaradılmışlar. Talmudda deyilir ki, Allahın nazil etdiyi hər kəlamla yüzlərlə mələk törəyir, yerdə elə ot, elə bir yarpaq yoxdur ki, onun göydə öz mələyi olmasın. Heyvanların, quşların, balıqların, hətta dərmanların belə öz mələkləri vardır. Allah hər gün minlərlə mələk yaradır. Onlar Allahı mədh edir və bir anın içində yox olurlar.

İkinci qrup fövqəltəbii varlıqlar iblislərdir (şeytanlar və ya cinlər). Onların əsas funksiyası Allaha müxalif olmaq və şər törətməkdir. Mələklər kimi iblislərin də sayı yüz minlərlədir. Onların fiziki bədəni olmasa da, cinsləri vardır. Mənşəyinə görə iblislər üç qrupa bölünür. Birinci qrup iblislər Allah tərəfindən xəlq edilmişlər. İblislərin ikinci qrupu onların öz aralarındakı seksual əlaqədən törəmişlər. İblislərin üçüncü qrupu insanların iblislərlə əlaqəsindən yaranmışdır, belə ki, Talmudda deyilir ki, Həvva iblislərlə cinsi əlaqəyə girmiş ilk insan olmuş, bu əlaqədən iblis-qızlar dünyaya gəlmişdir. Sonra Adəm Lilit adlı iblis qadınla əlaqədə olmuş, bu əlaqədən iblis –oğlanlar törəmişdir. İblislər də insanlar kimi ölümə məhkumdurlar. Mələklər kimi iblislərin də dərəcəsi vardır. Şeytan (İblis) onlar içərisində ən qüdrətlisi hesab olunur.

Üçüncü qrup fövqəltəbii varlıqlar fövqəltəbii quşlar, buğalar və balıqlardır. Bunlar xüsusi cənnət heyvanlarıdır. Onlar adi heyvanlardan qeyri-adi dadlı əti ilə seçilirlər. Allah onları cənnətdə möminləri yedirtməkdən ötrü yaratmışdır. Onlar içərisində uzunluğu 500 kilometr olan Leviafan adlı balıq haqqında Talmudda daha ətraflı məlumat verilir. Bu balığın dişisi Allah tərəfindən öldürülmüş, əti duzlanmışdır. Erkəyi isə iri su hövzəsində qalmışdır.

*Müqəddəs kitablar.* İudaizmdə müqqəddəs kitablar üç qrupa bölünür. Birinci qrup yalnız bir kitabdan –Tövrətdən (ivrit dilində "Qanun") ibarətdir. Tövrət yəhudiliyin birinci ən Müqəddəs Kitabı hesab olunur. Tövrətin bütün nüsxələri qədimlərdən bizim dövrə qədər yalnız əllə dəri üzərinə yazılır. Yəhudi ilahiyyatına görə

Tövrət Allah tərəfindən Musa peyğəmbərə diktə edilmişdir. Tövrət beş kitabdan ibarətdir: Bereşit ("başlanğıc"), Veelle Şemot ("budur adlar"), Vayikra, Bemidbar ("budur çağırdı"), Elle –qadebarim ("budur sözlər"). Bu kitablar Bibliyaya başqa adlar ("Yaradılış", "Cıxış", "Levililər", "Saylar", "Qanunun Təkrarı") altında daxil edilmişlər.

İkinci qrup da yalnız bir kitabdan – Tanahdan ibarətdir. Tanaha 24 kitab- əsər daxildir. Tanah üç hissədən ibarətdir. Tanahın birinci hissəsinə beş kitab daxildir və bu hissə Tövrət adlanır. Beləliklə, Yəhudiliyin birinci kitabı Tövrət həm də ikinci müqəddəs kitab, Tanahın birinci hissəsini təşkil edir. Tanahın ikinci hissəsinə yeddi kitab daxildir və bu hissə Neviim ("Nəbilər") adlanır. Tanahın üçüncü hissəsi – Xtuvim ("Yazılar") on iki kitabdan ibarətdir.

Tanah da xristian Bibiliyasına daxil edilmişdir. Lakin bu, dəyişikliklərlə edilmişdir: birincisi, xristianlar Tanahı Əhdi-Ətiq adlandırmışlar; ikincisi, xristianlar Tanahın 24 kitabını 39 kitab etmişlər və nəhayət üçüncüsü, bəzi xristian məzhəbləri, o cümlədən pravoslavlar 39 kitaba daha 11 kitab (onlar Tanahın daha qədim variantlarına daxil idi) əlavə etmişlər.

Üçüncü qrupa müqəddəs kitablar toplusu "Talmud" daxildir. Talmudun da müəllifi Allah hesab olunur. Yəhudi təliminə görə, Talmud Allah tərəfindən Musa peyğəmbər vasitəsilə insanlara çatdırılmışdır.Talmud Qemara və Mişna olmaqla iki hissədən və 19 cild kitabdan ibarətdir. Məzmununa görə Mişna (mənası "təkrar etmə") Tanahın şərhindən ibarətdir. Belə hesab edilir ki, Mişnanı ilk dəfə III əsrdə Tiveriada şəhərində yaşamış İyehuda Hanasi adlı baş kahin qələmə almışdır.

Qemara Mişnaya şərh olub, "tamamlama", "qurtarma" mənasını bildirir. Burada Tövrət və Tanaha şərhlərin bitdiyi nəzərdə tutulur.

*Peyğəmbərlər haqqında təlim.* Bu təlimin hökmünə görə möminlər Peyğəmbərlərə ehtiram göstərməlidirlər. Peyğəmbərlər Allahın göstərişi ilə insanlara həqiqəti çatdıran Kəslərdir. Onların

insanlara çatdırdığı həqiqət isə üç hissədən ibarətdir: düzgün din haqqında həqiqət (Allaha necə inanmaq), düzgün həyat haqqında həqiqət (necə yaşamaq) və gələcək haqqında həqiqət (insanları gələcəkdə nə gözləyir). Tanahda 78 peyğəmbər və 7 öncəgörənin adı çəkilir. Peyğəmbərlər içərisində böyük peyğəmbər İlyas və ən böyük peyğəmbər Musa xüsusilə seçilir.

Peyğəmbər kimi İlyas insanlara həqiqəti çatdırmaqla yanaşı bir sıra möcüzələr də göstərmişdir. Bu təlimə görə zamanın sonunda yenidən İlyas zühur edərək, Maşiahın – Xilaskarın gəlişı müjdəsini insanlara çatdıracaqdır.

Yəhudi təlimində Musa peyğəmbərə xüsusi ehtiram göstərilir. Hesab edilir ki, Allah Musa peyğəmbər vasitəsi ilə yəhudi xalqına Tövrəti vermiş, Misir əsirliyindən xilas etmiş, onları Kənan torpağına çatdırmışdır. Bu hadisənin xatirəsi Pesax ("Pasxa") bayramı adı altında xüsusi təmtəraqla qeyd edilir.

*On nəsihət haqqında təlim*. Bu təlimə görə, Kənan torpağına səfəri zamanı Musa dağa qalxır və orada Allah onunla danışır. Orada Allah ona On Nəsihət vəhy edir. Bu On Nəsihət yəhudi həyat tərzinin və dünyagörüşünün məhək daşıdır. Orada deyilir:

- Məndən başqa sənin özgə tanrıların olmasın;
- Özünə büt götürmə;
- Rəbbin Allahın adını boş yerə çəkmə, zira Rəbb Onun adını boş yerə çəkəni cəzasız qoymaz;
- Şənbə gününü yadda saxla. Altı gün işlə, bütün işlərini gör; yeddinci gün isə heç bir iş görmə - şənbə günü Rəbbin Allah üçündür;
- Atanın və ananın hörmətini saxla;
- Öldürmə;
- Zinakarlıq etmə;
- Oğurluq etmə;
- Öz yaxın adamlarına qarşı yalan şahidlik etmə;
- Öz yaxın adamının evini istəmə; öz yaxın adamının arvadını, köləsini, kənizini, qatırını, ulağını istəmə; öz yaxın adamında olan bir şeyi istəmə.

*Ruh haqqında təlim.* Ruhla bağlı yəhudi təlimində altı əsas anlayışı ayırmaq mümkündür:

- birincisi, ruh insanın fövqəltəbii hissəsidir, yəni bədəndən fərqli olaraq ruh təbiət qanunlarına tabe deyildir;
- ikincisi, ruh bədəndən asılı deyil, yəni ruh bədənsiz də yaşaya bilər;
- üçüncüsi, ruh tam törəmə və xırda hissəciklərin vəhdətidir;
- dördüncüsi, ruh (hər bir insanın ruhu) Allah tərəfindən xəlq edilmişdir;
- beşincisi, ruhlar ölümsüzdür, əbədidir;
- altıncısı, ruhlar insanlar yuxuda olarkən Allah tərəfindən səmaya aparılır, səhər bəzi adamlara ruhu qaytarılır, bəzilərinə isə yox. Ruhu qaytarılmayanlar ölmüş hesab olunur. Ona görə də yuxudan durarakən, yəhudilər xüsusi dualar vasitəsi ilə Allaha qaytarılmış ruhlarına görə təşəkkür edirlər.

*Axirət həyatı haqqında təlim.*Yəhudi təliminə görə, möminlərin ruhu bədəndən ayrıldıqdan sonra Allahın rizası ilə səma cənnətinə (“qan eden”), günahkarların ruhu isə əzab yerinə cəhənnəmə (“şeol”) düşür. Bədəni tərk etmiş ruh həmin an axirət dünyasına düşmür. Birinci yeddi gün ərzində o, əvvəlki yaşayış yerinin ətrafında dolanır. Yeddi günün tamamında bədəndən ayrı düşmüş ruh yeraltı səltənətin hökmdarı mələk Dumanın sərəncamına keçir. Mələk Duma mömininin ruhunu İlahi səltənətə, günahkarın ruhunu isə cəhənnəmə göndərir.

Səma cənnətini təkcə yəhudiliyi qəbul etmiş şəxs deyil, başqa din və millətdən olan şəxslər də qazana bilər. Bundan ötrü onların düzgün mənəvi həyat yaşaması kifayətdir. Yəhudilərin səma cənnətinə daxil olmasından ötrü düzgün mənəvi həyat yaşaması kifayət deyildir. Bundan ötrü onlar Yəhudi dininin bütün qaydalarına tam ciddiliyi ilə əməl etməlidirlər. Başqa din və millətdən olan şəxslərin cəhənnəm həyatı əbədi olduğu halda, yəhudilər üçün bu müvəqqəti xarakter daşıyır.

Nadir halllarda bu 12 aydan çox olur. Yəhudilər əvvəl-axır yenə də cənnətə daxil olurlar. İnsanı cəhənnəm əzabından xilas etməkdən ötrü yəhudiliyi qəbul etməsi vacib deyildir. Bundan ötrü Allahın yeddi ən vacib Qanununa əməl etməsi kifayətdir. Bu qanunlar bütün bəşəriyyət üçündür:

- bütpərəstliyə yol verməmək;
- küfrə yol verməmək;
- qan axıdılmasına yol verməmək;
- oğurluq etməmək;
- əxlaqsızlığa yol verməmək;
- heyvanlara qarşı qəddar münasibətə yol verməmək;
- məhkəmədə ədaləti və insanların qanun qarşısında bərabərliyini gözləmək.

*Maşiah haqqında təlim.* Maşiah ("Messiya", "Xilaskar", "Mehdi") Allah tərəfindən gələcəkdə yerə göndəriləcək, xüsusi qüdrətə malik Şəxsdir. Yəhudi təliminə görə, Maşiahın vəzifəsi dünyanın sonunda zühur etmək və Yerdə Ədalət səltənətini qurmaqdır. Yəhudi təlimində "Dünyanın Sonu" həyatın sonu deyil, zamanın sonu, şərin sonu kimi başa düşülür. Maşiahın gəlişi ilə ölülər qəbirlərdən qalxmalı, yəhudilər Fələstin torpağına toplanmalı, Yerusəlim məbədi bərpa olunmalı, İom-Kipur bayramında ölülərdən qalxmış Birinci Kahin bu ana kimi insanlardan gizli qalmış Allahın adını dilə gətirməlidir. Yəhudi təliminə görə, Maşiahın gəlişi təkcə İsrailin nicat tapması deyil, bütün dünyanın mənəvi-ruhani dirçəlişinə, xilasına səbəb olacaqdır. Maşiahın zühur edəcəyi vaxt ilə bağlı Yəhudi təlimində iki nöqteyi-nəzər mövcuddur:

birinci nöqteyi-nəzərə görə, o artıq insanlar arasındadır və hələ Özünü aşkarlamır və bu tezliklə baş verəcəkdir;

ikinci nöqteyi-nəzərə görə, Onun gəliş vaxtı yalnız Allaha məlumdur.

*Qida qadağaları haqqında təlim.* Yəhudilərdən dinin tələblərindən irəli gələrək müəyyən qida qadağalarını gözləmək tələb olunur. Onlar içərisində üçü əsasdır:

birincisi, Tövrətdə murdar hesab edilən heyvanların (donuz, dovşan, at, dəvə, yengəc, omar və s.) ətini yemək qadağandır;

ikincisi, qidaya qan qatmaq olmaz;

üçüncüsü, ət və süd məhsullarını eyni vaxtda qəbul etmək qadağandır.

*Şənbə haqqında təlim.* Yəhudi təliminə görə, şənbəyə ("şabbat") müqəddəs gün kimi ehtiram göstərilməlidir, bu o deməkdir ki, həmin günü Allaha həsr etməli və hər cür əmək fəaliyyətindən çəkinilməlidir. Yalnız təxirəsalınmaz fəaliyyət formalarına (təcili yardım, polis, yanğınsöndürmə və s.) icazə verilir. Evdə təsərrüfat işləri ilə məşğul olmaq, məsələn, paltar yumaq, yemək hazırlamaq, süpürmək də qadağandır. Həmin gün maşın sürməyə, ölüləri dəfn etməyə və s. işlərə də icazə verilmir.

## §7. Xristianlıq



Xristianlıq dünyanın ən iri dini hesab olunur. Hazırda dünyada 2 milyarda qədər xristian yaşayır. Xristianlıq I əsrdə Fələstin torpağında İlahi zühur - Həzrət İsa Məsihin Allah tərəfindən insanlara göndərilməsi və İlahi həqiqətin insanlara çatdırılması ilə nazil olmuşdur.

Qədim eradan yeni eraya keçid dövründə özünün tənəzzül mərhələsinə qədəm qoymuş yəhudilik dərin böhran içində idi. Hamı öz gəlişi ilə yəhudiləri bu böhrandan xilas edəcək bir peyğəmbər gözləyirdi. Bu vaxt Fələstin torpağında yeni bir Peyğəmbər zühur edir. Xristianlıq öz adını həmin Peyğəmbərin – İsa Məsihin adından alır ki, bu da "seçilmiş", "məsh edilmiş", "kamil", "nurlanmış" mənasındadır. İsa Məsih qanını və canını insanların xilası naminə qurban vermiş Xilaskardır. Onun zühurundan bəhs edən Yazı – "İncil" xristianların ən müqəddəs

kitabı sayılır. İlk xristianlar milliyətcə yəhudi olmuşlar. Xristianlıq yəhudi mühitində yarandığına görə bu din xristianlığın bir çox təlimlərində öz təsirini göstərmişdir. Artıq I əsrin ortalarında xristianlıq Fələstin torpağından kənara çıxaraq, Roma imperiyasının hər yerinə və ondan kənar ərazilərə yayılmışdır. Xristianlığın teoloji əsaslarının formalaşmasında sələfi İudaizmin böyük rolu olmuşdur.

Xristianlığın tarixini dörd dövrə bölmək mümkündür:

-antik xristianlıq (I – V əsrlər);

-orta əsrlər xristianlığı (VI – XV əsrlər);

-yeni dövrün xristianlığı (XVI – XX əsrin birinci yarısı);

-müasir dövrün xristianlığı (XX əsrin ikinci yarısı – XXI əsr)

Antik xristianlığın tarixində beş əsas əlamətdar hadisə - mərhələ, beş əsas dönüş nöqtəsi ayrılır.

*Birinci mərhələ* – 325-ci ildə Nikeyada I Ümumdünya Kilsə məclisinin keçirilməsi oldu. Həmin məclisdə "Dinin rəmzləri" adlı sənədin qəbulu ilə xristianlığın (vahid, bölünməmiş xristianlığın) həm dini təlim, həm də təşkilatı baxımdam formalaşması sona yetdi. Digər tərəfdən bu Məclisin İmperator Konstantin tərəfindən təşkil edilməsi və məclisin qərarına uyğun olaraq, imperator hakimiyyəti tərəfindən bidətçilik yolunu tutmuş xristian icma başçılarının – Ariya və onun ardıcıllarının təqibinə göstəriş verilməsi Xristianlığın dövlət dininə və ya rəsmi dinə çevrilməsindən xəbər verirdi.

*İkinci mərhələ* - 381-ci ildə Kostantinopolda II Ümumdünya Kilsə Məclisinin keçirilməsi, Dini rəmzlərə əlavələrin edilməsi və yeni ortaya çıxmış bidətçilərin pislənməsi ilə səciyyələnir. Bu məclis xristianlığın bir təlim kimi hələ də formalaşmaqda olduğunu göstərirdi.

*Üçüncü mərhələ* - 419-cu ildə Karfagen şəhərində məhəlli Kilsə məclisinin kecirilməsi ilə əlamətdir. Bu məclis "məhəlli" adı altında tanınsa da xristianlığın sonrakı inkişafı üçün böyük əhəmiyyət kəsb edirdi. Bu məclisdə "Əhdi-Cədid"ə daxil olan kitabların dəqiq siyahısı təsdiq olunmuşdur.

*Dördüncü mərhələ* - 431-ci ildə Efesdə III Ümumdünya kilsə məclisi keçirilir. Məclis nestorianların (Nestoriy, Konstantinopol patriarxı) baxışlarını tənqid edib, onları kafir elan edir. Bu da V əsrdə Xristianlıq daxilində ilk parçalanmanın əsasını qoyur. Həmin əsrin əvvələrində rəsmi Xristianlıq daxilində İsa Məsihin təbiəti ilə bağlı sual ortaya çıxmışdı: O, kimdir? Allah, yoxsa insan. Patriarx Nestoriy və onun tərəfdarları Onun insan olduğunu deyirdilər. Lakin əksər xristian ruhaniləri bu suala başqa cür cavab verirdilər: İsa Məsih eyni zamanda həm Allah, həm də insandır. Bu cavab Efes məclisinin rəsmi qərarı oldu. Məclis qərarından sonra nestorianlar imperiyanın ucqarlarına qaçırlar. Nestorianlıq bizim dövrdə də mövcuddur. Onların icmalarına Hindistan, İraq, İran, Suriya və Türkiyədə rast gəlinir. Onların sayı 200 min nəfərdən çox deyildir.

*Beşinci mərhələ* - 451-ci ildə Halkidonda IV Ümumdünya kilsə məclisi keçirilir. Məclis bu dəfə monofizitləri (yun. "birtəbiətlilər", "mono"-bir, "fizik" –təbiət) pisləyir. Monofizitlər İsa Məsihin bir təbiətli – Allah olduğunu iddia edirdilər. Onların təliminə görə, İsa Məsih birinci Zühuru zamanı zahirən insana bənzəsə də, mahiyyətcə insan olmamışdır. Lakin kilsə başçıları və əksər keşişlər o fikirdə qaldılar ki, İsa Məsihin ikili təbiəti olmuşdur: Allah və insan. Məclis monofizitləri rədd edir və lənətləyir. Onlar imperiyanın ucqarlarına qaçmaq məcburiyyətində qalırlar. Efiopiya, Erməni və Misir (kopt) kilsələri monofizit kilsələri hesab olunur. Halkidon məclisi ilə antik xristianlığın formalaşması qismən başa çatır.

Tədricən vahid dini təlimin formalaşması və təşkilatı formanın yaranması ümumi dini təlimi və xristian kilsəsini formalaşdırır. Xristian ilahiyyatçılarının nəzərincə, kilsə tarixi təşkilat deyildir, o İsa Məsihin mövcudluğunun mistik, yerdəki maddi, cismani formasıdır. Bununla əlaqədar, pravoslav və katolik ilahiyyatçıları kilsənin spesifikliyini, onun sosial təşkilatlanmanın istənilən formasından fərqli olduğunu göstərirlər.

Tarixi faktların və yazılı mənbələrin təhlili göstərir ki, kilsənin formalaşması birdən birə baş verməmişdir. Onun tarixi zəruriliyi, yəni belə bir sosial təşkilatlanmanın ortaya çıxması xristian icmaları daxilində gedən proseslərlə əlaqədar olmuşdur. Müqəddəs həvarilərin, Peter və Pavelin xristian icmalarına yazdıqları məktublardan göründüyü kimi, həmin icmalarda dini təlimlərin şərhi və mülkiyyətin bölüşdürülməsi ilə bağlı tez-tez ziddiyyətlər yaranırdı. Mübahisələrin yaranması, icmalarda münasibətlərin tənzimlənməsi, iyanələrin yığılması, ehtiyacı olanlara köməyin çatdırılması, xəstələrə və həbsdə olan din qardaşlarına yardım göstərilməsi xüsusi vəzifəli şəxslərin ortaya çıxmasını zəruri edirdi. Tarixçilər təsdiq edir ki, artıq bizim eranın II əsrində icmalarda ağsaqqallar-keşişlər yaranmağa başlayır. İlk əvvəllər onların vəzifəsi təşkilati-təsərrüfat işlərindən ibarət idi. Hərdən bu keşişlərə episkoplar da deyirdilər. Keşiş-yepiskoplar (onlar ancaq kişilərdən ibarət idi) icmanın öz üzvləri arasından seçilirdi. Onlara köməkçi kimi rütbəcən kiçik olan diakonlar da seçirdilər. Diakonlar arasında qadınlar da var idi. II əsr ərzində keşişlər arasından yüksək rütbəli vəzifəli şəxslər – yepiskoplar ayrılmağa başlayır. Bununla da xristianlıqda xüsusi sosial qrup – ruhanilərin formalaşması prosesi başlayır.

**Antik xristianlığın teoloji əsasları**. Antik xristianlığın rəsmi dini təlimi V əsrdə təşəkkül tapmışdır. O, Bibliya və Ümumdünya Məclislərinin qərarlarına əsaslanır. Antik xristianlığın rəsmi dini təlimi sonradan yaranmış xristian məzhəbləri tərəfindən tam və qismən qəbul olunmuşdur. Bu məzhəblərin antik xristianlıq təliminə etdikləri əlavələrə gəldikdə isə bu əlavələr xüsusi teoloji qatlar olub, onları bir-birindən fərqləndirir, bəzən isə bir-birinə qarşı qoyur. Antik xristianlıqda müasir xristian məzhəbləri tərəfindən qəbul olunmuş doqquz əsas təlimi ayırmaq mümkündür. Bunlar aşağıdakılardır:

- Bibliya haqqında təlim;
- Fövqəltəbii varlıqlar haqqında təlim;
- Peyğəmbərlər haqqında təlim;

- Ruh haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- İsa Məsihin ikili təbiəti haqqında təlim;
- İsa Məsihin birinci gəlişi haqqında təlim;
- İsa Məsihin ikinci gəlişi haqqında təlim;
- Günahların satın alınması haqqında təlim.

*Bibliya haqqında təlim.* Bibliyanın əsas müəllifi Allahdır. Onun qələmə alınmasında 40 insan iştirak edib. Allah Vəhy və ilham vasitəsilə onlara qələmə alacaqları məlumatları çatdırıb. Bibliyanı Müqəddəs Kitab və Allah Kəlamı da adlandırırlar. Bibliya iki hissədən ibarətdir: Əhdi-Ətiq (Köhnə Əhd) və Əhdi-Cədid (Yeni Əhd). Əhdi-Ətiq Müqəddəs Yazı kimi həm yəhudilər, həm də xristianlar tərəfindən, Əhdi –Cədid isə yalnız xristianlar tərəfindən qəbul edilir. Əhdi-Cədid dörd İncildən (Yevangeliyadan) ibarətdir. "Yevangeliya" yunan dilində "Xoş müjdə" mənasını bildirir. İncillərin ikisi İsa Məsihin bilavasitə şagirdləri Matta və Yəhya, ikisi isə şagirdlərinin şagirdləri – Mark və Luka tərəfindən yazılmışdır. İncillərdən başqa Əhdi-Cədidə "Həvarilərin işləri", İsa Məsihin həvarilərinin xristian icmalarına məktubları və nəhayət Allahkəlamçısı Yəhyanın Vəhy kitabı daxildir.

*Fövqəltəbii varlıqlar haqqında təlim (Üçlük).* Antik xristianlığın rəsmi təliminə uyğun olaraq dünyada üç qrup fövqəltəbii varlıqlar vardır: Üçlük; mələklər; murdar ruhlar. Üçlük haqqında təlimin əsas ideyası odur ki, Tək Allah eyni zamanda üç sifətdə mövcuddur: Allah-Ata, Allah-Oğul və Allah-Müqəddəs Ruh. Burada "sifət" dedikdə ruhi bədən nəzərdə tutulur. Bu o deməkdir ki, Tək olan Allahın üç müxtəlif ruhi bədəni vardır. Üçlüyün bütün sifətləri insanların yanına fiziki və ya maddi bədəndə gələ bilər və Onlar ən mükəmməl keyfiyyətlərə malikdirlər: Əbədilik, Qüdrətlilik, Hər yerdə var olan və s.

Allah-Ata dünyanı Üçlüyün digər sifətlərinin köməyi ilə xəlq etmişdir, lakin bu sifətlərin xəlqetmədə iştirak forması insan üçün dərk edilməzdir. Xristian ilahiyyatçıları hesab edir ki, Üçlük

haqqında təlim insanın əqli üçün ən dərkolunmaz məsələlərdən biridir.

Nə üçün üç ayrı bədəni təsəvvür etmək, lakin bunun üç allah deyil, bir Allah hesab etmək lazımdır? Xristian ilahiyyatçıları bunun Allahın insanlardan gizlətdiyi sirr olduğunu bildirirlər.

*Fövqəltəbii varlıqlar haqqında təlim (mələklər).* "Yəhudilik" bölməsində mələklər haqqında təlimlə tanış olduq. Xristianlıqda mələklər haqqında təlim İudaizmdən demək olar ki, fərqlənmir. Lakin xristianlıqda onları həmçinin "pak ruhlar" və "xeyirxah ruhlar" adlandırırlar. Mələklər Allahın Özünə köməkçi və xeyirxah işlər görməkdən ötrü yaratdığı gözəgörünməz, bədənsiz, cinsi olmayan varlıqlardır. Onların sayı milyardlarladır. Mələklər ölümsüzdürlər (İudaizmdə onlar iki qrupa – ölümlü və ölümsüzlərə bölünürlər). Mələklər öz məqamlarına görə böyük və kiçik mələklərə bölünürlər. Böyük mələkləri Serafimlər adlandırırlar. Mələklər içərisində ən böyüyü Mikayıl hesab olunur (yəhudilər onu Metatron adlandırırlar). Xristianların dini təsəvvürlərinə görə kiçik mələklərin iki, böyük mələklərin – Serafimlərin altı qanadı vardır.

*Fövqəltəbii varlıqlar haqqında təlim (murdar ruhlar).* Murdar ruhları bəzən yunan dilindən götürülmüş "demon" və ya rus dilindən götürülmüş "bes" də adlandırırlar. Bu varlıqların əsas funksiyası Allaha qarşı çıxmaq və şər işlər törətməkdir. Mələklər kimi onların da sayı çoxdur, lakin mələklərdən iki dəfə azdırlar. İudaizimdə olduğu kimi, Xristianlıqda da onlar bədənsiz və ölümsüz hesab olunurlar. Murdar ruhların mənşəyi daha maraqlıdır. Yəhudilər hesab edir ki, murdar ruhların bir hissəsini Allah yaradıb, qalanları isə öz aralarında və insanlarla cinsi əlaqədən törəmişlər. Antik xristian təliminə görə murdar ruhlar özlərini mələklərdən törətmişlər. Belə ki, günah etmiş mələk pak ruh statusundan murdar ruh statusuna düşür. Ona görə də murdar ruhları çox vaxt "keçmiş mələklər" və ya "yıxılmış mələklər" adlandırırlar.

Antik xristianlıq təliminə görə İblis (Şeytan) murdar ruhların başında durur. İblis ("Dyavol" – yun. şərçi) də keçmişdə mələk olub. O, Allahın ilk xəlq etdiyi varlıq hesab olunur. İlk vaxtlar o

Lütsifer adını daşıyırmış. Günah etdikdən sonra İblis və ya Şeytan (Satan – ivrit. düşmən) adlandırılmışdır.

*Peyğəmbərlər haqqında təlim*. Bu təlimin əsas ideyası odur ki, insanlar peyğəmbərlərə ehtiramla yanaşmalıdırlar. Peyğəmbərlər insanlara İlahi həqiqətləri və göstərişləri çatdırırlar. Onların gətirdiyi həqiqətlər üç hissədən ibarətdir:

-haqq din haqqında həqiqət (Allaha necə inanmaq və ibadət etmək lazımdır);

-mömin həyatı haqqında həqiqət ( həyat tərzi);

-gələcək haqqında həqiqət (insanları gələcəkdə nə gözləyir).

Xristianlar Əhdi-Ətiqdəki bütün peyğəmbərlərə, həmçinin Əhdi-Cədiddəki Vəftizçi Yəhya və Allahkəlamçısı Yəhyaya ehtiram göstərirlər.

*Ruh haqqında təlim*. Antik xristian təliminə görə ruh insanın fövqəltəbii hissəsidir, yəni bədəndən fərqli olaraq o, təbiətin qanunlarına tabe deyildir. O, bədəndən asılı olmayıb, ondan kənarda yaşaya bilər. Hər bir insanın ruhunu Allah xəlq etmişdir və o ölümsüzdür.

*Axirət həyatı haqqında təlim*. Bu təlimin əsas ideyası odur ki, axirət həyatında Cənnət və Cəhənnəm vardır. Onlar insanlar üçün əlçatmaz xüsusi fövqəltəbii məkanda yerləşmişlər. Cənnət möminlərin, Cəhənnəm isə günahkarların göndərildiyi yerdir. Xristian təliminə görə, Adəm və Həvvanın səhvi ucbatından bütün insan nəsli (İsa Məshin anası Məryəmdəm başqa) ilkin günahın daşıyıcısıdır. İsa Məsihə iman gətirib, tövbə etməklə ilkin günahdan qismən qurtulmaq mümkündür.Lakin bu hələ tam qurtuluş deyildir. Ona görə də xristianların təsəvvürünə görə möminlər günahkarların tam əksi deyillər, onların yalnız tövbə etmiş hissəsidirlər.

Antik xristian təliminə görə, axirət həyatı iki mərhələdən ibarətdir: birinci mərhələ - bədənin ölümündən İsa Məsihin İkinci zühuruna kimi, ikinci mərhələ - İsa Məsihin ikinci Zühuru ilə başlayıb, əbədiyyətə qədər davam edir, yəni sonu yoxdur. Birinci mərhələdə Cənnət və Cəhənnəmdə insanların yalnız ruhları yaşayır, ikinci mərhələdə ruhlar bədənlərlə birləşirlər. Cəhənnəm hər iki

mərhələdə eyni yerdə qalır, Cənnət isə ikinci mərhələdə göydən Yerə enir.

*İsa Məsihin ikili təbiəti haqqında təlim.* Antik xristian təliminə görə, İsa Məsih həm Allah, həm də insandır. Yahova şahidləri təlimindən başqa bütün xristian məzhəbləri – pravoslavlıq, katolisizm, lüteranlıq, baptizm, əllincilər və s. bu müddəanı qəbul etmişdir. Yahova şahidlərinin təliminə görə isə İsa Məsih, nə Allah, nə də insandır. O, yerə göndərilmiş Mikayıl adlı mələkdir.

*İsa Məsihin birinci Zühuru haqqında təlim.* Bu təlimin müddəaları aşağıdakılardan ibarətdir: İsa Məsih təqribən 2000 il əvvəl zühur etmişdir. O, Məryəm adlı bakirə qadından və Müqəddəs Ruhdan doğulmuşdur. O, insanlara həqiqi təlim gətirmiş və onların günahlarını satın almışdır ("günahların satınalınması" xüsusi təlimdir). Doğulduqdan dərhal sonra Onun İlahi məqamı üzə çıxmışdır: O, beşikdə ikən danışır; beş yaşında çay kənarındakı çamırdan 12 quş düzəldir, onlara can verir; xəstələrə şəfa verir; ölünü dirildir; suyu şəraba çevirir; suyun üstü ilə gedir; bir neçə çörəyə və balığa bərəkət verir və beş min nəfəri doyurur. İsanın seçilmiş olması Allahın oğlu olması ilə əlaqələndirilir. O, diyar-diyar gəzib yəhudiləri günahlarından tövbə etməyə, İordan çayının suyunda vəftiz olunmağa çağırırdı. Özü də 30 yaşında ikən vəftiz olunur:

" *İsa vəftiz olunub o anda sudan çıxdı və budur, göylər açıldı və Allahın Ruhunun göyərçin kimi enib Onun üzərinə gəldiyini gördü. Və budur, göylərdən bir səs dedi: Bu, Mənim sevgili Oğlumdur. Ondan çox məmnunam*" (Matta, 3:16-17).

İsa Məsih həbs edilmiş, saxta ittihamlar əsasında çarmıxa çəkilməklə edam olunmuşdur. O, ölmüş, ölümündən üç gün sonra dirilmiş, dirilmədən 40 gün sonra səmaya çəkilmişdir.

*İsa Məsihin İkinci zühuru haqqında təlim.* Bu təlim İsa Məsihin ikinci gəlişinin vaxtı, üsulu və məqsədləri ilə bağlı suallara cavab verir. İkinci zühurun vaxtı - Allahın sirridir. İsa Məsih buludlar üzərində gələcək. Onun gəlişinin məqsədi dünyanın sonunu həyata keçirməkdir. Dünyanın sonu dedikdə bura ölülərin dirilməsi,

diri bədənlərin təzələnməsi, ölülər və dirilər üçün Məhşərin qurulması, möminlər üçün Yerdə xoşbəxt həyatın qurulması, günahkarların Cəhənnəmə göndərilməsi nəzərdə tutulur.

*Günahların satın alınması haqqında təlim*. Bu təlimə görə, İsa Məsih əzabları və ölümü vasitəsilə bütün insanların günahlarını satın almışdır. O, möminlərə Cənnətə düşmək imkanı vermiş və onları Cəhənnəm təhlükəsindən qurtarmışdır. Onun ölümünə kimi Cənnət hamının üzünə bağlı olub. Bu Adəm və Həvvanın ilkin günahına (bəşəriyyətin tarixində ilk günah; onlar qadağan olunmuş bəhəri yemişlər) görə tətbiq olunan cəza idi. Cənnətə heç kim buraxılmadığına görə, həm möminlər, həm də günahkarlar Cəhənnəmə düşürdü. Cəhənnəmdə onların vəziyyəti fərqli idi: günahkarlar əzablara məruz qalır, möminlər isə Cənnətə düşmək vaxtlarını gözləyirdilər. Ölümündən sonra İsa Məsih Cəhənnəmə enmiş oradakı möminləri özü ilə Cənnətə aparmışdır. Bu hadisədən sonra möminlərin yeni dəstəsi birbaşa Cənnətə daxil olmağa başlamışlar. Xristianlıqda “Allah aqnetsi” (latın.Agnus Dei) ifadəsi işlədilir. Burada öz ölümü ilə insanların günahını satın almış İsa Məsih ifadə olunur.

Antik xristianlıq bizim dövrün əsas dünya dininin – Xristianlığın mənbəyi olmuşdur. Sonralar xristianlıq çoxsaylı məzhəblərə bölünsə də, bu məzhəblərin hamısının teoloji əsaslarında bu təlim özül qat əmələ gətirir. Xristian məzhəblərinin hər biri, istisna olmadan, antik xristianlıq dövründə xristianların Müqəddəs Yazısı kimi formalaşmış və tanınmış Bibliyaya əsaslanır və onu dini təlimlərin yeganə mənbəyi kimi qəbul edirlər.

Antik xristianlığın bütün doqquz təlimi pravoslavlar, lüteranlar, baptistlər, əllincilər tərəfindən, səkkizi katoliklər (axirət həyatı haqqında təlimdən başqa), altısı adventistlər (Bibliya, fövqəlvarlıqlar, peyğəmbərlər, İsa Məsihin təbiəti, İsa Məsihin birinci gəlişi, günahların satın alınması haqqında təlim) tərəfindən qəbul edilmişdir. Az təlim (Bibliya, peyğəmbərlər, İsanın birinci gəlişi, günahların satın alınması və qismən fövqəltəbii varlıqlar haqqında təlim) Yahova şahidlərinin təlimində öz yerini tapmışdır.

Bütün xristian məzhəbləri antik xristianlıq təliminə öz xüsusi təlimlərini əlavə etmişlər.

**Xristianlıqda ruhaniliyin yaranması**. Antik dövrün ilk xristian icmalarında ruhani təbəqə olmamışdır. Dindarların sayı çoxaldıqca və xristianlığın Roma imperiyasının dövlət dininə çevrilməsi ilə əlaqədar olaraq kilsə təşkilatı təşəkkül tapır. Yaranmış kilsə iyerarxiyasına üç əsas pillə daxil idi: yepiskopluq, presviterianlıq (keşişlər), dyakonlar. Katolisizm bu bölgünü saxlayaraq sonralar Roma papasını kilsə iyerarxasiyasında ali şəxsiyyət elan etmiş və iyerarxiya pilləkənində papadan sonra ikinci pillədə duran kardinal titulunu təyin etmişdir. Pravoslavlıq öz növbəsində patriarxı avtokefal kilsəsinin başçısı elan etmiş və miropolit rütbəsini müəyyən etmişdir. Xristian ruhaniləri sırasına daxil olan şəxsin üzərində əl vurma (əl qoyma) ayini həyata keçirilir. Xristian ruhaniləri kilsədə xüsusi mövqeyə malikdir və bir sıra funksiyaları yerinə yetirir. Bunlardan başlıcaları din təliminin təbliğ edilməsi, ayinlərin icrası, dini məsələlərdə dindarlara rəhbərlik edilməsidir.

Reformasiya hərəkatı xristian ruhaniliyinin vəziyyətini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Protestant məzhəblərinin əksəriyyəti "ümumi ruhanilik" prinsipini qəbul etmişdir. Bu məzhəblərdə ayin xidmətçiləri olan pastoru, presviteri "ruhani" hesab etmirlər.

**Azərbaycanda xristianlıq**. Azərbaycana xristianlıq Qafqaz Albaniyası vasitəsilə gəlmişdir. Müasir Azərbaycanda xristianlıq Alban-Udi xristian kilsəsindən başqa pravoslavlıq, katoliklik və protestantlığın qolları, habelə müxtəlif ayinçi (molokanlar və s.) icmalar ilə təmsil olunmuşdur. Azərbaycanda pravoslavlıq rus və gürcü pravoslav kilsələrindən ibarətdir. Ölkədəki rus pravoslav kilsələri 2000-ci ildə təsis edilmiş Bakı və Xəzəryanı Yeparxiyasında birləşmişdir. Azərbaycanda həmçinin pravoslavlıqdan çıxmış köhnə ayinçiliyə mənsub 11 molokan icması da fəaliyyət göstərir. Xristianlığın digər bir qolu –protestantlıq, müxtəlif məzhəblərdən, lüteranlıq, baptizm, yeddinci günün adventistləri, əllincilər, yahova şahidləri icmalarından ibarətdir. Sonrakı

bölmələrdə bu məzhəblər haqqında daha ətraflı məlumat veriləcəkdir.

## Alban Udi kilsəsi



**Tarixi.** Alban-Udi kilsəsi bütün xristian dünyasının ən qədim kilsələrindən biridir. Bu kilsə “sirofil” və “yunan” dövrlərini keçmişdir. Qafqaz Albaniyasının dini rəhbəri 12 həvaridən biri olmuş Varfolemey hesab olunur. Qafqaz Albaniyası ərazisində xristianlığın yayılması eramızın II əsrinə təsadüf edir. Həvari Fadeyin şagirdi Yelisey ilk Qüds patriarxı Yakovun xeyir-duası ilə Kiş kəndində ilk kilsəni tikmişdir. Hazırda da Kiş kilsəsi öz qədimliyinə görə “Xrsitian kilsələrinin anası” hesab olunur.

Qafqaz Albaniyasında xristianlığın yayılmasının ikinci “yunan” mərhələsində xristianlıq dövlət dininə çevrilir. Başda Alban hökmdarı Urnayr olmaqla kübar təbəqələr 313-cü ildə xristianlığı qəbul etmişlər. Alban hökmdarları Urnayr, II Vaçe və III Vaçaqan ölkədə xristianlığı yaymaq üçün mübarizə aparmışlar. Onların səyləri nəticəsində xristianlıq Albaniyanın hakim ideologiyası olmuşdur. Suriya və yunan dillərindən Bibliya və digər dini ədəbiyyat alban dilinə tərcümə edilmişdir. Bibliyanın belə tərcümələrindən biri artıq V əsrdə məlum idi. Lakin o tərcümə gəlib bizə çatmamışdır.

İyerarxiya baxımından Alban kilsəsi Roma kilsəsinə tabe idi, lakin xeyir-duanı Qüds iyerarxlarından alırdı və IV əsrin əvvələrində, təqribən 340-cı ildə Alban kilsəsi avtokefal kilsə olur. IV əsrin sonundan başlayaraq Alban kilsəsinə mənsub ruhanilər öz başçısını müstəqil qaydada seçməyə başladılar. Bu status 451-ci ildə keçirilmiş IV Ümumxalkidon məclisindən sonra qanuniləşdirildi. Alban çarı III Vaçaqan tərəfindən çağırılan 488-ci

ildə keçirilmiş Aquen məclisi zamanı yerli kilsənin artıq öz arxiyepiskopu və 8 yeparxiyi var idi.

Alban kilsəsi 551-ci ildə erməni kilsəsi kimi Bizansla əlaqələrini kəsir və onun başçısı katolikos adlandırılmağa başlanır. Kilsənin mərkəzi IV əsrdə Qəbələ şəhəri, V əsrdə Bərdə olur. Bizans imperatoru Mavrikiy 590-cı ildə öz ərazisində ermənilər üçün Xalkidon katolikosluğuna alternativ olan katolikosluq təsis etdiyi zaman, Alban kilsəsi erməni kilsəsi ilə əlaqələrini kəsir. Bundan əlavə Sünik kilsəsi Alban katolikosluğunun tabeliyinə keçir. Albaniya ərazisində xristianlığın yayılması prosesi VII-VIII əsrlərdə İslamın yayılması ilə əlaqədar tamam dayanır.

Katolikos Bakurun (688-704) dövründə xalkidonçuluğa keçid uğursuzluğa uğradıqdan sonra Alban kilsəsi müstəqilliyini itirir və xəlifə Əbu-al-Malik Alban kilsəsini erməni kilsəsinə tabe edir. Buna səbəb erməni katolikosunun xəlifəyə "Partavda oturan Albaniyanın hazırki katolikosunun Roma imperatoru ilə sövdələşməyə girib, onun adına dua etməsi və ölkəni onun dini və himayəsini qəbul etməyə məcbur etməsi" xəbərini verməsi olur. Erməni katolikosluğuna tabeçilik Alban kilsəsinin zəifləməsinin başlanğıcını qoyur.

Udilərin qərb qrupunun ortodoksluğu (pravoslavlığı) qəbul etməsinin son mərhələsi XI-XIII əsrdə başlamışdır. XVII əsrdən Alban kilsəsinin katolikosları Xaçendə yerləşən Yerismankas məbədində otururdular. Cənubi Qafqazın Rusiya imperiyasına ilhaq edilməsindən sonra Rusiya dövlətinin əsas məqsədlərindən biri pravoslavlığın dirçəldilməsi idi. Bununla əlaqədar pravoslav udi Pyotr Silikov Oğuz rayonunda Həvari Yelisey monastırını inşa edir, lakin sonralar bu monastr çar Nikolayın fərmanı ilə erməni kilsəsinin tabeçiliyə keçir.

İqamətgahı Qandzasarda yerləşən Alban katolikosluğu formal olaraq 1836-cı ilə qədər mövcud olmuş və I Nikolayın və Sinodun qərarı ilə ləğv edilmişdir. Bu qərar Alban kilsəsinin nominal mövcudluğuna son qoymuş və müvafiq prixodlar Eçmədzin katolikosluğuna tabe edilmişdir. 1853-cü ildə Eçimədzin

kilsəsinin təşəbbüsü ilə udilər üçün xüsusi erməni kilsəsi tikilir, lakin udilər həvari Yeliseyin adını daşyan Alban kilsəsinə getməkdən məhrum olduqlarına görə erməni kilsəsinə getməkdən imtina edirlər və xristian dininə öz evlərində etiqat göstərməkdə davam edirlər. SSRİ-nin dağılması, müstəqil Azərbaycan dövlətinin yaranması Alban-Udi kilsəsinin bərpası üçün zəmin yaradır. Yalnız 10 aprel 2003-cü il tarixində Alban-Udi Xristian İcması Dini Qurumlarla İş üzrə Dövlət komitəsi tərəfindən qeydiyyata alındıqdan sonra öz hüquqlarını bərpa edir.

**Təşkilatı**. Alban-Udi kilsəsi udilərin milli məzhəbidir. Bu məzhəbin ardıcıllarının sayı 10 min nəfərdən artıqdır. Onların ən böyük hissəsi – 6 minə yaxını Azərbaycan ərazisində Nic qəsəbəsində kompakt, Oğuz rayonu və Bakıda pərakəndə halda yaşayırlar.Udilərin həmçinin kiçik qrupu Gürcüstanın Kvareli rayonunun Zinobiani kəndində kompakt halda yaşayır. Udilərin qalan hissəsi isə pərakəndə halda Rusiyanın böyük şəhərlərində (Moskva, Sankt-Peterburq, Həştərxan, Yekaterinburq, İvanovo və s.) və Krasnodar, Rostov, Volqoqrad, Kaluqa, Tver və başqa vilayətlərində məskunlaşmışlar. Rostov vilayətinin Şaxta və Taqanroq şəhərlərində udilər qismən kompakt halda yaşayırlar. 800-ə yaxın üzvi olan udi diasporu Qazaxıstanın Aktau şəhərində yerləşir.

**Teoloji əsasları**. Erməni kilsəsindən fərqli olaraq Alban –Udi kilsəsi öz mənşəyinə görə əzəldə Yerusəlim kilsəsi və patriarxlığı ilə birbaşa bağlı olmuşdur. Bu baxımdan Alban-Udi kilsəsi Gürcü pravoslav kilsəsi ilə oxşarlıq təşkil edir. Gürcü kilsəsinin də mənşəyi Yerusəlim kilsəsinə bağlıdır. Cüzi fərqlərə baxmayaraq, dünyada mövcud olan bütün pravoslav kilsələri eyni teoloji əsaslar üzərində təşəkkül tapmışlar. Ona görə də bu kitabda pravoslavlıqla bağlı olan məzhəblərin, o cümlədən Alban-Udi kilsəsinin (məzhəbinin) teoloji əsasları növbəti bölmədə Rus pravoslav kilsəsinin nümunəsində nəzərdən keçirilmişdir.

## Pravoslavlıq



**Tarixi**. Roma imperiyası V əsrin əvvəlində iki hissəyə parçalanır.Şərqi Roma (Bizans) imperiyası mərkəzləşdirilmiş güclü dövlət olduğu halda, Qərbi Roma imperiyası (Roma) sonralar alman tayfaları tərəfindən zəbt olunmuş və kiçik knyazlıqlardan ibarət ərazi idi. Konstantipol imperatoru VI əsrdə Romanı barbarlardan azad edir. Nəticədə Roma Bizans imperatorundan asılılığa düşür. Konstantinopol patriarxı özünü hətta şərq və qərb kilsələrinin başçısı elan edir. Lakin Roma papası kilsəni güclü iqtisadi qüvvəyə çevirməyə və onun siyasi nüfuzu artırmağa nail olur. VII əsrdə Bizans Ərəb xilafətinin hücumlarına məruz qalır. Xilafətin orduları Antioxiya, İsgəndəriyyə, Yerusəlim, Suriyanı, slavyanlar isə Balkan yarımadasını səbt edirlər. Bu vəziyyət İtaliyanı Bizansın asılılığından azad edir. VIII əsrdə Roma kilsəsi Bizansın təsiri altından çıxır və müstəqil Papa vilayətini yaradır. Bu dövrdən başlayaraq, Papanın hakimiyyəti artmağa başlayır. Bu hadisələr xristianlığın iki məzhəbə - pravoslavlıq və katolisizmə bölünməsinin əsasını qoyur. Bu prosesdə Bizans imperiyasında güclü imperator hakimiyyətinin olması da mühüm rol oynamışdır. İmperator hakimiyyəti xristianlığa dövlət ideologiyası, kilsəyə isə dövlət aparatının tərkib hissəsi kimi baxırdı.

Parçalanma IX əsrin 60-cı illəri ilə XI əsrin 50-ci illəri arasında baş vermişdir. Parçalanma nəticəsində keçmiş Roma imperiyasının şərqində məzhəb yaranır ki, onu yunan dilində "ortodoksiya" (yun. "ortos" - "düz", düzgün"; "doksos" – nəzər", "baxış", təlim") və ya rus dilində "provoslavlıq" adlandırırlar.

IX əsrdə rəsmi xristian kilsəsi beş patriarxlığa bölünürdü: Roma, Konstantinopol, İsgəndəriyyə, Antioxiya və Yerusəlim.

Onların hər birinin başında patriarx dururdu. V əsrin sonlarından etibarən Roma patriarxı özünü "Papa" adlandırırdı. Patriarx kilsə strukturunda ən yüksək vəzifə idi. Ondan yüksəkdə Ümumdünya kilsə məclisi dururdu. Yalnız Ümumdünya kilsə məclisi patriarxı adi kilsə xidmətçisi statusuna sala bilərdi. Məclislər isə çox gec-gec keçirilirdi. Məclislərarası dövrdə patriarxlar üzərində Allahın hakimiyyətindən başqa heç bir hakimiyyət yox idi. Rəsmi kilsənin bu cür idarəetmə sistemi pentarxiya (beş hakimiyyətlilik) adlanırdı.

Ümumdünya kilsə məclislərinin keçirildiyi vaxt və yer haqqında məlumatlar aşağıdakılardır:

*Birinci*: 325-ci il, Nikeya şəhəri;

*İkinci*: 381-ci il, Konstantinopol şəhəri;

*Üçüncü*: 413-cü il, Efes şəhəri;

*Dördüncü*: 451-ci il, Halkidon şəhəri;

*Beşinci*: 553-cü il, Konstantinopol şəhəri;

*Altıncı*: 680-681-ci illər, Konstantinopol şəhəri;

*Beş-altıncı*: 691-692-ci illər, Konstantinopol şəhəri (məclis beşinci və altıncı məclislərin qərarlarına əlavələr etdiyinə görə bu cür qəribə sıra nömrəsi almışdır).

*Yeddinci*: 787-ci il, Nikeya və Konstantinopol şəhərləri. Bu məclis xristianlıq tarixində sonuncu Ümumdünya kilsə məclisi olmuşdur.

IX əsrin 60-cı illərində Roma papası I Nikolay və Konstantinopol patriarxı Foti arasında iki məsələ ilə bağlı mübahisə yaranır. Birinci məsələ Müqəddəs Ruhun kimdən nəşət etməsi sualı ilə əlaqədar idi. Roma Papası müqəddəs Ruhun Ata və Oğuldan nəşət etdiyini, patriarx isə yalnız Atadan nəşət etdiyini söyləyirdi. Mübahisə tərəflərin öz fikirlərində qalması ilə bitir.

İkinci məsələ sosial xarakterli idi. IX əsrdə Bolqarıstanın xristianlaşdırılması prosesi gedirdi. Bolqarıstan xristianlarının– Roma papasına, yoxsa Konstantinopol patriarxına tabe olması məsələsi imperatorun köməkliyi ilə sonuncunun xeyrinə həll olunur.

863-cü ildə yerli Roma kilsə məclisi Fotinin patriarx vəzifəsindən uzaqlaşdırılması və anafemaya (yun. "lənət") məhkum edilməsi qərarını çıxarır. Cavab olaraq Foti 867-ci ildə yerli Konstantinopol kilsə məclisini toplayaraq I Nikolay barəsində oxşar qərar qəbul edir. Bu hadisə kilsənin rəsmi parçalanmasının əsasını qoyur.

Rəsmi parçalanma və hər cür əlaqənin kəsilməsi XI əsrdə baş verir. Bu dəfə mübahisə papa IX Lev və patriarx Mixail arasında qızışır. Əvvəlcə, IX Lev Cənubi İtaliyadakı torpaqların ona verilməsini Bizans imperatorundan tələb edir. İmperator bu tələbi rədd edir. Konstantinopol patriarxı Mixail imperotoru dəstəkləyir. Sonra Roma papası Mixaildən onu bütün xristian dünyasının başçısı kimi tanımağı tələb edir. Cavabında Mixail pentarxiya sisteminin saxlanmasını müdafiə edir. Bu dəfə mübahisə kilsənin rəsmən parçalanması ilə bitir. Belə ki, 16 iyul 1054-cü ildə Mixail və onun tərəfdarları Roma papası IX Lev tərəfindən anafemaya məhkum edilir. Nəticədə Mixail və onun tərəfdarları özlərini pravoslav adlandıraraq, Roma ilə bütün əlaqələri kəsirlər. Lakin bununla kifayətlənməyən Mixail 20 iyul 1054-cü ildə IX Lev üçün anafema hökmünü çıxarır.

Bu hadisədən sonra papa və onun tərəfdarları özlərini katolik adlandırmağa başlayırlar.Hər iki kilsə arasında əlaqə yalnız XX əsrdə bərpa olunur. 1965-ci il dekabrın 7-də papa IV Pavel və Konstantinopol patriarxı Afinaqor – birincisi Romada, ikincisi isə İstanbulda eyni vaxtda 1054-cü il anafemasının qarşılıqlı götürülməsi haqqında bəyanat verirlər.

Bizans imperiyası dağıldıqca, Konstantinopol, İsgəndəriyyə, Antioxiya və Yerusəlim patriarxlarından hər biri müstəqil (abtokefal) yerli pravoslav kilsəsinə başçılıq etməyə başlayır. Nəticədə başqa ölkələrdə də müstəqil pravoslav kilsələri əmələ gəlir. İndiyədək pravoslavlıqda mövcud olan pərakəndəlik bununla izah edilir.

**Təşkilatı**. Pravoslavların dünyada ümumi sayı 150 milyon ətrafındadır. Onlar Rusiya, Ukrayna, Belarus, Moldovo, Bolqarıs-

tan, Serbiya, Yunanıstan, Rumıniya, Gürcüstan və Kipr əhalisinin böyük əksəriyyətini təşkil edirlər. Pravoslav məzhəbi yerli (regional) dini təşkilatlarla təmsil olunmuşdur. Onları həmçinin pravoslav kilsələri də adlandırırlar. Qeyd edək ki, bəzi kilsələr ölkənin adı ilə, digərləri isə yerləşdikləri şəhərlərin adı ilə adlandırılırlar. Hazırda dünyada 15 avtokefal (müstəqil) kanonik (qanuni) pravoslav kilsəsi fəaliyyət göstərir: Konstantinopol (Türkiyə), İsgəndəriyyə (Misir), Antioxiya (Suriya və Livan), Yerusəlim (İsrail), Rus, Gürcü, Serb, Rumın, Bolqar, Kipr, Ellada (Yunanıstan), Alban, Polşa, Slovakiya və Amerika. Beş pravoslav kanonik kilsə (Sinay, Finlandiya, Yaponiya, Ukrayna və Belorus) muxtar statusa malikdir. Sinay kilsəsi Yerusəlim kilsəsindən, Finlandiya Konstantinopol kilsəsindən, Yapon, Ukrayna, Belorus kilsələri isə Rus kilsəsindən qismən asılıdır.

Rus pravoslav kilsəsinin ilk özəyini dindarların icması – *prixod* təşkil edir. Prixoda adi dindarlardan ibarət icraiyyə orqanı başçılıq edir. Prixodlar *dairələrdə* (blaqoçinlərdə), dairələr isə öz növbəsində, ərazi cəhətdən vilayətlərdə, ölkələrə uyğun gələn *yeparxiyalarda* birləşdirilmişlər. Yeparxiyalara yepiskoplar, arxiyepiskoplar və ya mitropolitlər başçılıq edirlər. Yeparxiya başçılar *patriarxa* tabedirlər. Patriarx kilsə məclisi tərəfindən seçilir. Rus pravoslav kilsəsi patriarxlığı nəzdində daimi və müvəqqəti üzvlərdən ibarət "*Müqəddəs sinod*" vardır.

Hələ xristianlığın parçalanmasından əvvəl işlənib hazırlanmış etiqad simvolunun və ehkamların ümumiliyi baxımından bütün pravoslav kilsələri bir-birilə əlaqəlidir. Kilsə həyatının əsas normaları (ibadətin keçirilməsinin xarakteri və ardıcıllığı, din xadimlərinin xarici görkəmi və s.), həmçinin kultun mühüm ünsürləri (məbədlər, ayinlər, nəğmələrin musiqinin müşayiəti olmadan oxunması və s.) bunların hamısında ümumidir. Pravoslav məbədlərində ibadət milli dildə aparılır. Həmçinin ölü dillər adlanan dillərdən də (məsələn, rus pravoslav kilsəsində slavyan kilsə dilindən) istifadə olunur. Siyasi yönüm, sosial doktrinalar və müasir dövrün əsas faktlarının qiymətləndirilməsi məsələlərinə

gəldikdə isə pravoslav kilsələrinin mövqeləri fəaliyyət göstərdikləri sosial şəraitdən asılı olaraq tamamilə müxtəlifdir. Avtokefal pravoslav kilsələri ümumkilsə əhəmiyyətli olan dini məsələlərin həllində razılığa gələrək, əlaqə saxlayırlar.

Azərbaycanda Rus Pravoslav kilsəsinin fəaliyyətə başlaması XIX əsrdə rus əhalisinin bura köç etməsi ilə əlaqədar idi. Gəncə, Şamaxı və Bakıda rus pravoslav kilsələri inşa edilir. 1905-ci ildə Bakı yeparxiyası təşkil olunur. Sonralar Yeparxiya "Bakı və Xəzəryanı" titulunu alır. Yeparxiya 11 prixodu özündə birləşdirirdi. 1998-ci ildən etibarən "Bakı və Xəzəryanı" Yeparxiyasına Azərbaycan Respublikası, Dağıstan və Çeçen Respublikaları ərazisində yerləşmiş prixodlar daxildir. 1991-ci ildə Cen Mironosets kilsəsinin (1907-ci ildə Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa edilmişdir) binası Rus Pravoslav kilsəsinə verilmişdir. 2001-ci ilin may ayında Azərbaycanda səfərdə olan bütün Rusiyanın Patriarxı II Aleksi bu məbədə baş kafedral kilsə statusu vermişdir. Hazırda Bakıda 3, Gəncədə və Xaçmazda 1 rus pravoslav kilsəsi fəaliyyət göstərir.

**Teoloji əsasları**. Pravoslavlığın teoloji əsaslarını üç teoloji qata bölmək mümkündür:

*1. Antik xristianlıq qatı.* Antik xristianlığa aid edilən bütün doqquz dini təlim pravoslavlıq dini təliminə daxil olmuşdur. Bunlar aşağıdakılardır:

- Bibliya haqqında təlim;
- fövqəltəbii varlıqılar (Üçlük, mələklər, murdar ruhlar) haqqında təlim;
- peyğəmbərlər haqqında təlim (bu təlim müqəddəslərə ehtiram təliminin birhissəsinə çevrilmişdir);
- ruh haqqında təlim;
- axirət həyatı haqqında təlim;
- İsa Məsihin təbiəti haqqında təlim;
- İsa Məsihin birinci gəlişi haqqında təlim;
- İsa Məsihin ikinci gəlişi haqqında təlim;
- Günahların satın alınması haqqında təlim.

*2. Pravoslav-katolik qat.* Bu qata ilkin orta əsrlərdə formalaşmış, həm provaslav, həm də katolisizmin teoloji əsaslarına daxil olmuş dini təlimlər daxildir. Bunlar aşağıdakılardır:

- ruhanilərin vasitəçiliyi haqqında təlim;
- tövbə haqqında təlim;
- xilasolmanın əsas şərtləri haqqında təlim;
- dini təlimin mənbələri haqqında təlim;
- sıravi möminlərin Bibliyaya münasibəti haqqında təlim;
- müqəddəslərə ehtiram göstərilməsi haqqında təlim;
- xaçın müqəddəsləşdirlməsi haqqında təlim.

*Ruhanilərin vasitəçiliyi haqqında təlim.* Bu təlimin əsas ideyasına görə, ruhani təbəqənin nümayəndələri Allahla sıravi möminlər arasında vasitəçidirlər. Təlimə görə, sıravi möminləri Allaha bağlayan iki əsas proses vardır: dualarla müraciət və Allahdan hidayətin alınması (İlahi gücün hissəciyi). Sıravi insanların dualarının Allaha çatmasından ötrü bu dualar ruhanilərin duaları vasitəsilə dəstəklənməlidir. Bu dəstəyi almaqdan ötrü sıravi möminlər mütləq kilsələrə getməlidirlər. Duaların cavabında möminlər Allahdan hidayət alırlar. Hidayət hər bir möminə onun xilasından ötrü lazımdır. Lakin Allahın hidayəti yalnız ruhanilərə çatdığından, sıravi möminlər onu ruhanilərin icra etdiyi ayinlər zamanı əldə edə bilərlər.

*Tövbə haqqında təlim.* Katolik və pravoslav kilsələrində həyata keçirilir. Tövbə dindar şəxsin keşiş qarşısında öz günahlarını açıq şəkildə etiraf etməsindən və ya tövbə etməsindən (yəni günahını boynuna almaq) ibarətdir. Bundan sonra keşiş Allah adından bu günahları ona bağışlayır. Kilsə öyrədir ki, Məsih öz keşişinin vasitəsilə xristiana bağışlanma mükafatı paylayır və buna görə də tövbədən sonra ən cinayətkar adam belə xaç suyuna salındıqdan sonra körpə pak olan kimi günahlarından azad olur. Bu təlimə görə ruhun azad olması üçün (bu da xristian həyatının məqsədini təşkil edir) əxlaqi saflığa nisbətən tövbə daha əhəmiyyətlidir. İncildə deyilir:

"*Sizə deyirəm ki, beləcə də göydə, tövbə edən bir günahkar üçün, tövbəyə ehtiyacı olmayan doxsan doqquz saleh insan üçün olduğundan daha çox sevinc olacaqdır*" (Luka, 15:7).

*Xilasolmanın əsas şərtləri haqqında təlim*. Xilas olmadan ötrü, insan bir sıra şərtləri yerinə yetirməlidir. Onlar arasında iki şərt əsas hesab olunur: Allaha şəxsi inamın olması və xeyirxah işlərin görülməsi.

*Dini təlimin mənbələri haqqında təlim*. Bu təlimə görə, dini təlimin iki mənbəyi vardır. Birinci mənbə - Bibliya, ikinci mənbə isə - dini sənədlərdir. Bu təlim ruhanilərə dini məsələlərdə təkcə Bibliyaya deyil, başqa sənədlərə də müraciət etmək hüququ verir. Belə bir hüququn olması protestant məzhəbləri tərəfindən inkar edilir.

*Sıravi möminlərin Bibliyaya müraciəti haqqında təlim*. Bu təlim çərçivəsində möminlərdən Bibliyaya ehtiramla yanaşmaq tələb olunur.Sıravi möminlərə həmçinin Bibliyanı oxumaq icazəsi verilir. Lakin Bibliyanı oxumaq icazəsi katolik kilsəsində XVI əsrdə, pravoslavlıqda yalnız XIX əsrin sonlarında verilmişdir. Həmin dövrə kimi bu hüquq ruhanilərin əlində olmuşdur. Bununla belə, sıravi möminlərə Bibliyanı sərbəst şərh etmək icazəsi verilmir. Bibliyanı şərh etmək hüququ yalnız ruhanilərə məxsusdur. Sıravi möminlər isə ruhanilərin onlara öz məqalə, kitab, moizə və şifahi söhbətlərində təklif etdiyi şərhlərdən istifadə edə bilərlər.

*Müqəddəslərə ehtiram göstərilməsi haqqında təlim*. Müqəddəslər Allah yolunda xüsusi xidmətləri, xeyirxah işləri və keyfiyyətləri ilə adi möminlərdən fərqlənən şəxslər olmuşlar. Müqəddəslər möminlərin Allah qarşısında şəfaətçiləri – himayədarlarıdır. Cənnətdə onlar Allahın yanındadırlar və Allah ilk növbədə onların xahişlərinə qulaq asır. Ona görə də Allaha bilavasitə müraciətlə (ruhanilərin vasitəçiliyi ilə) yanaşı, Müqəddəslərə də müraciət etmək, onların himayədarlığına ümid bağlamaq vacib hesab olunur.

Müasir pravoslavlıq və katolisizmdə müqəddəslərin sayı artıq 150 mindən çoxdur. Müqəddəslərin bəziləri hər iki məzhəbdə, bəziləri isə yalnız pravoslavlıq və ya yalnız katolisizmdə müqəddəs hesab olunurlar. Çoxsaylı müqəddəslərdən kimə müraciət etmək lazımdır? Bunun cavabı belədir: birincisi, bütün müqəddəslərə eyni vaxtda müraciət etmək olar. Pravoslavlıqda bu adətən, Üçlük bayramından sonrakı birinci bazar günü edilir; ikincisi, xüsusi ehtiram olunan müqəddəslərə müraciət olunmalıdır. Bunlar Məryəm ana, Vəftizçi Yəhya və başqalarıdır; üçüncüsü, möminlər yaşadıqları ərazinin (regionun) müqəddəslərinə - himayədarlarına müraciət etməlidirlər. Möminlər yerli müqəddəslərə daha tez-tez müraciət etməlidirlər; dördüncüsü, hər bir mömin özünün şəxsi himayədarlarına müraciət etməlidir. Bu himayədar vəftiz zamanı möminə Allah tərəfindən təyin edilir.

Bundan əlavə, müqəddəslər arasında elələri də vardır ki, onlara xüsusi hallarda, bu və ya digər xəstəlik zamanı və ya bəlaları (yanğın, quraqlıq, zəlzələ və s.) dəf edən zaman, bu və ya digər sahədə (ticarət, balıqçılıq, əkinçilik və s.) uğur qazanmaqdan ötrü müraciət olunur.

*Xaçın müqəddəsləşdirilməsi haqqında təlim.* Bu təlimə görə, İsa Məsih insanların günahlarını satın almaqdan ötrü xaç üzərində əzabla öldürülməsinə razı olmuşdur. Xaç müqəddəs simvol kimi pravoslavlıq, katolisizm və lüteranlıqda qəbul edilmişdir. Bəzi xristian məzhəbləri, baptistlər, adventistlər, əllincilər, Yahova şahidləri xaçın müqəddəsliyini qəbul etmirlər.

*3. Pravoslavlığa məxsus xüsusi qat.* Bura yalnız pravoslavlığa məxsus təlimlər daxildir. Bunlar aşağıdakılardır:

- Müqəddəs Ruhun nəşət etməsi haqqında təlim;
- axirət həyatı haqqında təlim;
- ruhanilərin nigaha münasibəti haqqında təlim;
- Müqəddəs Rəvayətin tərkibi haqqında təlim;
- Çörək və şərab dadma haqqında təlim;

*Allah-Müqəddəs Ruhun nəşət etməsi haqqında təlim (xüsusi qat).* Bu təlimin əsas qayəsi odur ki, Allah-Müqəddəs–Ruh Allahdan nəşət edir. "Nəşət" dedikdə Üçlüyün üçüncü sifətinin birinci sifətdən insan üçün sirli olan asılılığı başa düşülür.Katolisizimdə yuxarıda qeyd edildiyi kimi, Allah-Müqəddəs Ruhun Allah-Ata və Allah-Oğuldan nəşət etməsi qəbul edilmişdir.

*Axirət həyatı haqqında təlim.* Pravoslavlıq antik xristianlığın axirət həyatı haqqında təlimini tam şəkildə qəbul etmiş və ona üç ideya əlavə etmişdir. Bu ideyalar pravoslavlıqda xüsusi qat əmələ gətirir:

Birinci əlavə ideya – *ruhun əzabları* haqqındadır. Pravoslav təlimi öyrədir ki, insanların ölümündən sonra onların ruhu Allahın Taxtına doğru uçan zaman murdar ruhların qoruduğu keşikçi məntəqələrindən keçir. Bu cür məntəqələrin sayı iyirmidən çoxdur. Ruhun səyahəti zamanı murdar ruhlar onlara mənəvi və fiziki əzablar verirlər. Lakin bu əzablar qısa müddətlidir və sonda ruhlar Allahın Taxtına çatırlar.

İkinci əlavə ideya – *Allaha üç səcdə* haqqındadır. Bədənin ölümündən və Cənnət və ya Cəhənnəmə göndərilməmişdən əvvəl dünyası dəyişmiş insanın ruhu üç dəfə Allahın Taxtına yaxınlaşır. Bu yaxınlaşma pravoslavlıqda səcdə adlandırılmışdır. Çünki o, Allah qarşısında səcdə və günahların etiraf edilməsinin zəruriliyi ilə bağlıdır. Səcdə ölümdən üç, doqquz və qırx gün sonra icra olunur. Birinci və ikinci səcdə arasında Allah mömininin ruhunu Cənnətə, ikinci və üçüncü səcdə arasında Cəhənnəmə baxmaqdan ötrü göndərir. Üçüncü səcdə zamanı ruhun üzərində birinci məhkəmə prosesi həyata keçirilir. Bundan sonra həyatdakı əməllərindən asılı olaraq, o Cənnnətə və ya Cəhənnəmə göndərilir. Səcdə günlərində qohumları və yaxınları mərhum üçün xatırlama məclisləri təşkil etməli və orada onun ruhunun rahatlığından ötrü dualar oxumalı və onun xeyirxah işlərini xatırlamalıdırlar.

Üçüncü əlavə ideya – İsanın İkinci zühuru zamanı qatı günahkarların bəzilərinin Cəhənnəm əzabından qurtulub, Cənnətə keçməsinin mümkünlüyüdür. Bundan ötrü iki şərt yerinə yetirilməlidir: birincisi, ölmüş insan pravoslav olmalıdır; ikincisi, ondan ötrü ruhanilər, qohumları və yaxınları dua oxumalıdırlar.

*Ruhanilərin nigaha münasibəti haqqında təlim (xüsusi qat).* Bu təlimdən irəli gələrək, ali ruhani təbəqənin nümayəndələri (yepiskoplar, arxiyepiskoplar, mitropolitlər, patriarxlar) rahib olmalıdırlar. Bu zaman hər bir manax nigahsızlıq əhdini üzərinə götürməlidir. Bu o deməkdir ki, pravoslavlıqda ali ruhani təbəqədən olan din xadimləri ailə həyatı qura bilməzlər. Orta təbəqənin (protoiyerilər və iyerilər) və aşağı təbəqənin (protodiakonlar və diakonlar) nümayəndələri isə həm ailəli, həm də ailəsiz ola bilərlər. Bu onların öz seçimindən asılıdır. Pravoslavlıqda ruhanilik iki qrupa bölünür: qara ruhanilik və ağ ruhanilik. Qara ruhanilik (rahiblik) özünü bütövlükdə Allaha xidmətə həsr etmək üçün bir növ dünyəvi həyatdan ayrılır. Ağ ruhanilik özünə bu qədər ciddi əhd-peyman götürmür.

*Müqəddəs Rəvayətin tərkibi haqqında təlim.* Pravoslavlıq dini təliminə uyğun olaraq, Müqəddəs Rəvayətə üç qrup sənədlər daxildir. Birinci qrup Ümudünya kilsə məclislərinin (IV-VII əsrlər) qərarlarından ibarətdir. Ikinci qrup – “kilsə atalarının” əsərləridir. “Kilsə ataları” dedikdə keçmişdə, II-VII əsrlərdə yaşamış tanınmış din xadimləridir. Üçüncü qrupa qədim ibadət kitabları daxildir. Bura VIII əsrdən sonra yazılmış kitablar aid edilir.

*Çörək və şərab dadma haqqında təlim.* Bu ayin pravoslavlıqda priçaşeniya adlanır. Ona görə də bu təlimi priçaşeniye haqqında təlim də adlandıra bilərik. Onun başqa adı da var: yevxaristiya (yunanca: şükranlıq). Bir sıra başqa xristian məzhəblərində bu ayin “çörəkbölmə”, “Rəbbin süfrəsi” adlanır. Çörək və şərabdadma təlimində dörd ideya ayırmaq müm-

kündür. Onlardan biri katolik təliminə uyğun gəlir, qalan üçü isə pravoslavlığa aiddir.

Bu ayində əsas ideya – çevrilmə ideyasıdır. Məhz o katolik təlimi ilə eyniyyət təşkil edir. Ayinin məqsədi – çörəyi Məsihin bədəninə və şərabı Məsihin qanına çevirmək vasitəsilə Allahın hissəsini dadmaqdır. Ayin keşişin xüsusi qurulmuş stolun (o qurbangah adlanır) üstünə çörək və şərab qoyması ilə başlayır. Keşiş çörək və şərabın üstündə dualar oxuyur və ayini hərəkətlər icra edir. Hesab olunur ki, bu dualar və ayini hərəkətlər nəticəsində öz xarici görünüşlərini dəyişmədən çörək Məsihin bədəninə, şərab Məsihin qanına çevrilir. Ayinin sonunda möminlər bu təamları daddıqda, onlar çörək vasitəsilə Məsihin bədənini yeyir, şərab vasitəsilə Məsihin qanını içirlər.

Birinci əlavə ideya – priçaşeniya ayinində ruhanilərlə sıravi möminlərin bərabərliyi ideyasıdır. Hesab olunur ki, Məsihin bədənindən və qanından dadmaqla onlar bərabərləşirlər.

İkinci əlavə ideya – kvaslı çörək ideyasıdır. Belə çörəyi hazırlamaqdan ötrü xəmirə maya qatılmalıdır.

Üçüncü əlavə ideya – ayində iştirak edənlərin yaşı ideyasıdır. Pravoslavlıqda bu ayində hətta südəmər uşaqların, əgər onlar vəftiz olunubsa, iştirakı mümkün hesab olunur. Lakin 7-8 yaşından etibarən priçaşeniye bütün möminlər üçün vacibat hesab olunur.

## Katolisizm



Katolisizm (yunan. katolikos, latın. cactholicismus – ümumdünya, ümumi) xristianlığın üç əsas cərəyanından biridir. Katolisizm provaslavlıqla eyni vaxtda, rəsmi dinin iki qola parçalanması nəticəsində yaranmışdır. Parşalanma IX əsrin 60-cı illəri ilə XI əsrin 50-ci illəri ara-

sında baş vermiş, 1054-cü ildə başa çataraq, nəticədə Qərbi Avropada katolisizm adlı məzhəb yaranmışdır. Lakin bu məzhəbin kilsə ehkamlarının və ruhani dəyərlərinin formalaşması daha qədim dövrləri əhatə edir. Burada ilahiyyatçı Avqust Avrelinin (354-430) insanın Allahla daxili ünsiyyəti olması və Allahın irrasional yolla dərk edilməsi haqqında fəlsəfəsinin - *avqustinizimin*, həmçinin Foma Akvinskinin (1225-1274) ilahi başlanğıcı ən ali reallıq hesab edən dini-fəlsəfi təlminin – *tomizmin* böyük rolu olmuşdur. XIX əsrdə katolik kilsəsi tomizin möhkəmləndirilməsi və modernləşdirilməsi üçün yollar axtarmağa başlamışdır. XX əsrdə yenidən dirçəldilmiş tomizim (*neotomizm*) katolisizmin fəlsəfi əsasına çevrilir.

**Tarixi məlumat.** Katolisizmin tarixində səkkiz əsas tarixi dövrə ayırmaq mümkündür:

*Birinci dövr* - 1095-ci ildə papa II Urbanın möminləri "müqəddəs Torpağı" (Fələstini) və "Rəbbin Məzarını" (Yerusəlimi) "kafirlərdən" (müsəlmanlardan) azad etmək məqsədilə səlib yürüşünə başlamaq çağırışı ilə başlamışdır. Birinci yürüş 1096-cı ildə, sonuncu, səkkizinci yürüş isə 1270-ci ildə qurtarmışdır. Şərqə səlib yürüşləri bütövlükdə 175 il davam etmişdir.

*İkinci dövr* - 1229-cu ildə papa IX Qriqorinin bulla (fərman) imzalaması ilə inkvizisiya təsis edilmişdir. İnkvizisiya 600 il fəaliyyət göstərmişdir. O, Avropada 1808-ci ildə, Amerikada 1826-cı ildə ləğv edilmişdir. İnkvizisiyadan bütövlükdə təqribi hesablamalara görə 500 min insan əziyyət çəkmişdir. Onlardan 35 min nəfəri tonqalda diri-diri yandırılmışdır.

*Üçüncü dövr* -1484-cü ildə papa VIII İnnokenti ifritələrin təqib edilməsinə sərəncam verir. XV əsrin sonlarından XVII əsrin sonuna kimi Avropa ölkələrində "ifritələrlə mübarizə" tədbirləri nəticəsində 100 min qadın öldürülür.

*Dördüncü dövr* – 1517-ci ildə papa X Levin dövründə Avropada Reformasiya hərəkatı başlayır. Reformasiya hərəkatı nəticəsində katolisizmdən protestantlıq xüsusi dini istiqamət kimi ayrılır.

*Beşinci dövr* -1559-cu ildə papa IV Pavelin göstərişi ilə katolisizmin tarixində ilk dəfə olaraq, qadağan olunmuş kitabların siyahısı (indeksi) nəşr olunur. Möminlərə bu kitabları oxumaq qəti qadağan edilir. Bu siyahıya ayrı-ayrı dövrlərdə Kopernik, Bruno, Qaliley, Volter, Didro, Russo, Stendal, Hüqo, Balzak, Frans, Heyne, Tolstoy və digər alim, filosof və yazıçıların əsərləri daxil edilmişdir. Siyahı axırıncı dəfə 1966-cı ildə nəşr olunmuşdur. Siyahının sonrakı nəşrləri VI Pavelin göstərişi ilə dayandırlımışdır.

*Altıncı dövr* – 1572-ci il avqustun 24-də Varfolomey gecəsi papa XIII Qriqorinin xeyir-duası ilə Parisdə kalvinistlər (huqenotlar) kütləvi şəkildə qətlə yetirilirlər. Kütləvi qırğınlar iki həftə ərzində bütün Fransada tüğyan edir. Ümumilikdə 30 min kalvinist məhv edilir.

*Yeddinci dövr* – 1870-ci ildə papa IX Piyin dövründə Harribaldinin komandanlığı altında İtaliya ordusu hücumla Roma şəhərini alır, bununla da İtaliyanın birləşdirilməsi başa çatdırılır və Papa dövləti ləğv edilir. Bu hadisədən kədərlənən IX Piy Vatikan sarayına çəkilərək, özünü Vatikan məhbusu elan edir. Dünyəvi hakimiyyəti qaytarılmayınca saraydan çıxmayacağına and içir. Sonrakı üç papa – XIII Lev (1878-1903), X Piy (1903-1914) və XV Benedikt (1914-1922) də saraydan çıxmırlar. Yalnız XV Piy saraydan çıxdıqdan sonra papaların məhbusluq dövrü başa çatır.

*Səkkizinci dövr* – 1929-cu ildə XI Piylə İtaliya dövlətinin başçısı Mussolina arasında papanın dünyəvi hakimiyyətinin bərpası haqda müqavilə bağlanır. Romanın mərkəzində Papa dövləti üçün yer ayrılır. Bununla da şəhər-dövlət Vatikan yaradılır .

**Təşkilatı**. Dünyada 900 milyon katolik vardır ki, bunlar da bütün xristianların 48%-ni təşkil edir. Amerikada Latın Amerikası ölkələri (Braziliya, Argentina, Meksika, Peru, Kolumbiya və s.), Avropada İtaliya, İspaniya, İrlandiya, Avstriya, Belçika, Macarıstan, Portuqaliya, Polşa, Fransa, Xorvatiya, Litva, həmçinin Vatikan, Asiyada Filippin katolik ölkələri hesab olunur. ABŞ, Kanada, Almaniya və digər bir sıra ölkələrdə katoliklər əhalinin müəyyən hissəsini təşkil edir.

Katolisizm – dünyada ən iri və ən mərkəzləşdirilmiş xristian məzhəbidir. Katoliklər Roma-katolik kilsəsi adlanan və vahid mərkəzdən idarə olunan təşkilatda (kilsədə) birləşmişlər. Bu mərkəz Vatikanda yerləşsə də, onu ənənəvi olaraq Roma kuriyası adlandırırlar. Vahid kilsə, struktur baxımdan milli katolik kilsələrdən ibarətdir. Milli katolik kilsələr Roma kuriyasına tabedirlər. Vahid kilsənin başında Roma Papası adlanan ruhani lider (mütləq monarx) durur. Papanın tam titulu aşağıdakı kimidir: Romanın yepiskopu, Həzrət İsa Məsihin canişini, həvarilər knyazının (yəni həvari Peterin) varisi, dünya kilsəsinin ali pontifiki, Qərbin patriarxı, İtaliyanın baş ruhanisi, Roma əyalətinin arxiyepiskopu və mitropoliti, şəhər-dövlət Vatikanın monarxı, Allah qullarının qulu. Papa kardinallar toplantısı (konklav) tərəfindən tutduğu vəzifəyə səsvermə (səslərin 2\3-i və əlavə 1 səs) yolu ilə ömürlük seçilir. Roma katolik kilsəsinin tarixi ərzində 283 papa olmuşdur. Birinci Papa İsa Məsihin həvarisi və canişini Peter hesab olunur. Roma papası eyni vaxtda şəhər-dövlət Vatikanın başçısı (monarxı) hesab olunur.

Vatikan dövlətinin konstitusiyasına uyğun olaraq, dövlətin Ali qanunvericilik, İcra və məhkəmə hakimiyyəti Papaya məxsusdur. Vatikan dövləti Roma şəhərinin Mərkəzində yerləşmişdir. Sahəsi 44 hektardır. Onun öz himni, bayrağı, gerbi, hərbiləşdirilmiş qvardiyası, poçtu, teleqrafı və digər atributları, həmçinin dünyanın 100 ölkəsi ilə diplomatik əlaqəsi vardır. O, radio, televiziya, kino, mətbuat kimi kütləvi informasiya vasitələrinə malikdir. Onun dünyanın müxtəlif yerlərində universitetləri, məktəbləri, xəstəxanaları və xeyriyyə müəssisələri vardır. Vatikan dövləti bir sıra beynəlxalq təşkilatlarda təmsil olunmuşdur. Onun YUNESKO, MAQATE və Avropa Şurası və digər qurumlarda nümayəndələri vardır. Bütün bunlar Vatikana yalnız dindarlara deyil, eyni zamanda bütövlükdə cəmiyyətin müxtəlif sahələrinə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı verir.

Vatikan uniyançılıq (lat.union – ittifaq) hərəkatına, yəni katolik kilsəsi ilə ittifaq (uniya) bağlamış, Roma papasının Ali

hakimiyyətinə tabe olan, katolisizmin ehkamlarını qəbul edən, öz ənənəvi ibadət və ayin praktikasını saxlayan bir sıra xristian məzhəblərinə (maronit, erməni, kopt və s.) rəhbərlik edir.

Azərbaycanda Roma katolik kilsəsinin missiyası XIX əsrdən fəaliyyət göstərir. 1999-cu ildə Azərbaycanda katolik icması qeydiyyatdan keçmişdir. 2000-ci ildə ibadətlərin yerinə yetirilməsi üçün bu icmaya xüsusi bina alınmış və kilsəyə çevrilmişdir. 2007-ci ildə Azərbaycan Hökuməti ilə Vatikan arasındakı razılığa əsasən, Bakıda Roma Katolik kilsəsinin inşası tamamlanmışdır. 2002-ci ilin may ayında Roma katolik kilsəsinin başçısı II İohann Pavel Bakıda səfərdə olmuş və dövlət rəsmiləri, ictimaiyyət nümayəndələri ilə görüşmüşdür. 2003-cü ilin aprel ayında Roma patriarxı II Varfolomey Azərbaycanda rəsmi səfərdə olmuş, dövlət rəsmiləri, din xadimləri, müsəlman, xristian, yəhudi dini icmalarının rəhbərləri ilə görüşlər keçirmiş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olunmuşdur.

**Teoloji əsasları**. Katolisizm dini təliminin teololi əsaslarını üç qata bölmək mümkündür:

- antik xristianlıq;
- pravoslav-katolik;
- katolik

Yuxarıda qeyd edildiyi kimi, *antik xristianlıq* dövründə bu dinin doqquz əsas təlimi formalaşmışdır. Bu doqquz təlimdən səkkizi katolisizmə daxil olmuşdur. Bunlar aşağıdakılardır:

- Bibliya haqqında təlim;
- Fövqəltəbii varlıqlar (Üçlük, mələklər, murdar ruhlar) haqqında;
- Ruh haqqında təlim;
- Peyğəmbərlər haqqında təlim;
- İsa Məsihin təbiəti haqqında təlim;
- İsa Məsihin birinci zühuru (gəlişi) haqqında təlim;
- İsa Məsihin ikinci zühuru (gəlişi) haqqında təlim;
- Günahların satın alınması haqqında təlim;

Katolisizmə daxil olmayan doqquzuncu təlim – axirət həyatı haqqında təlimdir. Axirət həyatı haqqında katolisizmdə fərqli baxış formalaşmışdır.

Pravoslavlıq bölməsində qeyd edildi ki, *Pravoslavlıq-katolisizm qatında* beş təlim var ki, onlar həm pravoslavlıqda, həm də katolisizmdə qəbul edilmişdir. Bunlar aşağıdakılardır:

- ruhanilərin vasitəçiliyi haqqında təlim;
- tövbə haqqında təlim;
- xilasolmanın əsas amilləri haqqında təlim;
- dini təlimin  mənbələri haqqında təlim;
- sıravi möminlərin Bibliyaya münasibəti haqında təlim;
- müqəddəslərə ehtiram haqqında təlim;
- xaçın müqəddəsləşdirilməsi haqqında təlim.

Sırf katolisizmə məxsus qatların sayı səkkizdir.Bunlar aşağıdakılardır:

- Allah – Müqəddəs Ruhun nəşət etməsi haqda təlim;
- Axirət həyatı haqqında təlim;
- Ruhanilərin nigaha münasibəti haqqında təlim;
- Müqəddəs Rəvayətin tərkibi haqqında təlim;
- Çörək və şərabdadma ayini haqqında təlim;
- Allahanası Məryəmə etiqat haqqında təlim;
- Papanın ali hakimiyyəti haqqında təlim;
- Papanın qüsursuzluğu haqqında təlim.

*Allah – Müqəddəs Ruhun nəşət etməsi haqda təlim (xüsusi qat).* Əgər pravoslavlıqda Allah-Müqəddəs Ruhun yalnız Allah-Atadan nəşət etməsi deyilirsə, katoliklər əmindirlər ki, Allah-Müqəddəs Ruh həm Allah-Ata, həm də Allah-Oğuldan nəşət edir.

*Axirət həyatı haqqında təlim (xüsusi qat).* Katolisizm təliminə görə, axirət həyatında Cənnət və Cəhənnəmdən başqa, Məhşər deyilən yer də vardır. Cəhənnəmə qatı günahkarların ruhu, Cənnətə müqəddəslərin ruhu, Məşhərə isə qalan insanların ruhu düşür. Məhşər Cəhənnəmin bir forması olub, insanlar orada müvəqqəti qalırlar. Məhşərdə qalma vaxtı insanın sağlığında etdiyi günahların

sayından və onların ağırlığından asılıdır. Onlar üçün təyin olunmuş vaxt ərzində Məhşərdə qaldıqdan sonra, günahlardan təmizlənmiş ruhlar Cənnətə göndərilir. Ruhların Məhşərdə qalma müddətini həm möminlərin özü (hələ sağ ikən), həm də onların yaxınları qısalda bilərlər. Möminlərin özləri gələcəkdə Məhşərdə qalma müddətlərini indulgensiya (lat.“mərhəmət”) əldə etməklə qısalda bilərlər. İndulgensiya Roma papasının öz dəsti-xətti ilə imzaladığı sənəd olub, orada şəxsin günahlarının bir hissəsindən azad olma hüququ verilir. Elə indulgesiya sənədləri də var ki, o fərdi Məhşər əzabından tamam azad edir. Katolik kilsəsi bu sənədləri satmaq və bağışlamaq hüququna malikdir. Orta əsrlərdə indulgensiyanı həm satır, həm də bağışlayırdılar. Bizim dövrdə indulgensiyanı daha satmır, lakin nadir hallarda bağışlayırlar.Mərhumun qohumları və dostları onun ruhunun Məşhərdə qalma müddətini dualar vasitəsilə qısalda bilərlər. Qohum və əzizləri bundan ötrü həm özləri dualar oxumalı, həm də kilsələrdə təziyyələr sifariş etməlidirlər.

*Ruhanilərin nigaha münasibəti haqqında təlim (xüsusi qat).* Katolik kilsəsində keşişlərin sayı dünya üzrə 400 min nəfərdir. Katolik kilsəsinin təliminə uyğun olaraq, bütün təbəqələrdən olan katolik ruhanilərin nigaha girmək hüquqları yoxdur. Bu qanun “selibat” adlanır (lat. “ismətlilik”). Pravoslavlıqdan fərqli olaraq, katolisizmdə diakonlar ruhani şəxslər hesab olunmurlar. Bununla belə diakonlar da selibat qanununu gözləməlidirlər.Selibat qanunu IV əsrdən tətbiq olunur. 1965-ci ilə kimi o dəyişilməz qalmışdır.Lakin katolik kilsəsinin XXI Ümumdünya məclisində (1961-1965) bəzi evli kişilərin diakon rütbəsinə keçməsinə icazə verilmişdir. Bu yeni qanun yalnız ruhanilərin çatışmadığı ölkələrdə tətbiq olunur.

*Müqəddəs Rəvayətin tərkibi haqqında təlim (xüsusi qat).* Bu təlimə görə, Müqəddəs Rəvayətin tərkibinə pravoslavlıqda olduğu kimi, ümumdünya kilsə məclislərinin qərarları, “kilsə atalarının” əsərləri və keçmiş ibadət kitabları daxildir. Lakin katolik kilsəsi daha iki qrup sənədləri Müqəddəs Rəvayətə daxil etmişdir:

1. Bütün katolik kilsə məclislərinin qərarları;

2.Roma papasının rəsmi müraciətləri.

Beləliklə, pravoslavlıq kilsəsində Müqəddəs Rəvayət bağlanmış hesab olunursa, katolik kilsəsində Müqəddəs Rəvayət həmişə açıqdır və yeni sənədlərlə daim zənginləşir.

*Çörək və şərabdadma ayini haqqında təlim (xüsusi qat).* Pravoslavlıqda olduğu kimi katolisizmdə də, həmin ayin priçaşeniye və ya yevxaristiye adlanır. Təlimin əsas ideyası – çevrilmədir, yəni ayin zamanı çörək Məsihin bədəninə, şərab Məsihin qanına çevrilir. Lakin pravoslavlıqdan fərqli olaraq katolisizmdə priçaşeniye zamanı ruhanilərlə sıravi möminlərin bərabərliyi qəbul olunmur. Bu o deməkdir ki, bu ayini icra edən ruhanilər priçaşeniyanın iki növündən (bədən və qan), sıravi möminlər isə yalnız bir növündən (yalnız Məsihin bədənindən) istifadə edirlər. Pravoslavlıqda kvaslı çörəkdən, katolik təlimində mayasız çörəkdən istifadə olunur. Yaş məsələsinə gəldikdə isə pravoslavlıqdan fərqli olaraq katolisizmdə südəmər uşaqların priçaşeniya ayinində iştirakı qəbul olunmur. İştirak həddi 7 yaşından götürülür.

*Allahanası Məryəmə etiqad haqqında təlim (xüsusi qat).* Katolisizm üçün Allahanası –Məryəm anaya yüksək etiqad səciyyəvidir. 1854-cü ildə Məryəm ananın günahsız hamiləliyi, 1950-ci ildə isə Allahanasının göyə cismani yüksəlməsi haqqında ehkam qəbul edilmişdir. Bununla əlaqədar 1954-cü ildə, “göylər kraliçası”na həsr olunmuş xüsusi bayram da təsis edilmişdir.

*Papanın ali hakimiyyəti haqqında təlim (xüsusi təlim).* Katolik təlimi öyrədir ki, papa təkcə katoliklərin deyil, bütün xristianların başçısıdır. Bu təlimdə papanın üç əsas titulunun olduğu göstərilir:

- həvari Peterin canişi;
- İsa Məsihin vikarisi;
- Allahla insan arasında birinci vasitəçi

İsa Məsih bütün xristianlar üzərində hakimiyyəti həvari Peterə vermişdir. “Vikariy”, “müavin”, “canişin” mənasında işlədilir. Papa, İsa Məsihin vikarisi kimi, bu gün təkcə xristianların

başçısı vəzifəsini tutmur, O həmçinin İsa Məsihin fikir və iradəsini insanlara çatdırır. Pravoslavlıqda olduğu kimi, katolisizimdə də ruhanilər Allahla insanlar arasında vasitəçi hesab olunurlar. Bununla belə, pravoslavlıqdan fərqli olaraq, bir nəfərin, yəni Roma papasının Allahla insanlar arasında vasitəçiliyi daha çox qabardılmışdır. Papanın hakimiyyəti kilsə məclislərinin hakimiyyətindən yüksəkdə durur. Ona görə də məclislərin bütün qərarları papa tərəfindən təsdiq edilməlidir.

*Papanın qüsursuzluğu haqqında təlim (xüsusi qat)*. I Vatikan Məclisinin 1870-ci ildə qəbul etdiyi ehkam əsasında Roma papası qüsursuz hesab olunur. Papanın qüsursuzluğunun iki cəhəti vardır:

1.Papa yalnız iki məsələdə qüsursuz hesab olunur: din və mənəviyyat. Qalan məsələlərdə onun səhvə yol verməsi mümkün hesab olunur;

2. Papa moizələrində (söhbətlərində) və ya yazılarında qüsursuzdur, davranışında və əməllərində qüsursuz deyildir. Bu o deməkdir ki, Onun dediyi və ya yazdığı sözlər tənqid oluna bilməz, lakin onun ayrı-ayrı hərəkətlərinə irad tutmaq olar.

## Protestantlıq



Xristianlıq daxilində geniş yayılmış dini məzhəblərdən biri də Protestantlıqdır. Protestantlıq Lüteranlıq və lüteranlığın təsiri altında yaranmış dini məzhəb və təriqətləri əhatə edir. Bu dini məzhəb və təriqətləri çox vaxt "protestant dinlər və ya məzhəblər" adlandırırlar. Bu məzhəbləri başqa xristianlardan fərqləndirən ümumi cəhət onların təlimləri daxilində ilk dəfə lüteranlar tərəfindən formalaşdırılmış təlimin olmasıdır. Hazırda dünyada ardıcıllarının sayı 450 milyon nəfər olan 28 protestant təmayüllü məzhəb vardır. Protestant məzhəbləri ilkin və sonrakı olmaqla iki qrupa bölünür. İlkin

protestant məzhəblərinə XVI əsrdə yaranmış üç məzhəb aid edilir:

- Lüteranlıq (XVI əsrin birinci yarısında Almaniyada yaranıb);
- Kalvinizm (XVI əsrin 30-40-cı illərində İsveçrədə yaranıb);
- Anqlikanlıq (XVI əsrin 30-70-ci illərində İngiltərədə yaranıb).

Protestantlığa aid edilən qalan məzhəb, cərəyan və təriqətlər sonrakı dövrlərə aid edilir. Protestant kilsələrinin təşəbbüsü ilə 1948-ci ildə xristianlığın müxtəlif məzhəblərini birləşdirən *Ümumdünya Kilsələr Şurası* – ekumençilik hərəkatının rəhbər orqanı yaradılmışdır. Bu bölmədə biz yalnız Azərbaycanda fəaliyyət göstərən protestant məzhəblərini nəzərdən keçirəcəyik.

## Lüteranlıq



**Tarixi məlumat.** Lüteranlığın yananma tarixi dəqiq məlumdur. Bu, 31 oktyabr 1517 –ci ildə baş vermişdir. Həmin gün AlmaniyanınVittenberq şəhərində katolik kilsəsinin baş keşişi Martin Lüter (1483-1546) katolik kilsəsinə qarşı “95 tezis” adlı sənədi öz kilsəsinin qapısına yapışdırır. Həmin sənəddə Martin Lüter katolik kilsəsini tənqid edərək, kilsə islahatı təşəbbüsü ilə çıxış edir. Həmin tezislərdə Martin Lüter papalığın və katolik ruhaniliyin etiqada və vicdana nəzarət etməkdə Allahla insanlar arasında vasitəçilik hüququna malik olmaları iddialarına qarşı çıxırdı. O, göstərirdi ki, insan öz ruhunu yalnız Allahın bilavasitə ona bəxş etdiyi öz şəxsi etiqadı vasitəsi ilə xilas edə bilər.

Bu Reformasiya Hərəkatının başlanması idi. Martin Lüter və onun tərəfdarları İncil (Yevangeliya) üzərində yeni kilsənin əsasını

qoyduqlarını (onun adı öz başlanğıcını buradan götürüb – “Yevangel”) bəyan edirlər. İlkin xristian Kilsəsi prinsiplərini bərpa etmək şüarı altında ruhaniliyin silki imtiyazının ləğv edilməsi, rahibliyin və Roma kuriyasının, yəni baha başa gələn bütün kilsə iyerarxiyalarının aradan qaldırılması tələbləri irəli sürülürdü. Katolik iyerarxiyası ilə birlikdə papanın dekret və məktublarının, dini məclis qərarlarının da (“ Müqəddəs Rəvayətlər”) nüfuzu rədd edilirdi. İlk əvvəl yevangel imanı alman şəhərlərində və ayrı-ayrı knyazlıq torpaqlarında yayılır. 1530-cu ildə Auqsburq şəhərinin reyxstağında Martin Lüterin ən yaxın silahdaşı Filip Melanxton tərəfindən hazırlanmış və Martin Lüter tərəfindən bəyənilmiş yeni məzhəbin dini təlimlərini rəsmən formalaşdıran müddəalardan ibarət sənəd oxunur. Bu sənəd tarixə “Auqsburq məzhəbi” adlı sənəd kimi daxil olmuşdur. Belə bir sənədin ortaya çıxması Lüteranlığın katolisizmdən rəsmən ayrıldığını göstərirdi. Papanın yeni təlimi aradan qaldırmağa yönəlmiş bütün cəhdləri boşa çıxır. 25 sentyabr 1555-ci ildə Auqsburq şəhərində tərəflər arasında razılaşma əldə edilir. Bağlanmış müqavilə əsasında Lüteranlıq izin verilmiş, qanuni din elan edilir. Bu müqaviləyə Avropada dini dözümlülüklə bağlı qəbul olunmuş ilk sənəd kimi də baxmaq mümkündür.

Reformasiya hərəkatının düşmənləri Martin Lüterin tərəfdarlarını “lüteranlar”, hərəkatın tərəfdarları isə özlərini “məsihçilər” və “yevangelistlər” adlandırırdılar. Martin Lüter sağlığında yeni dini istiqamətin öz adı ilə adlandırılmasınının əleyhinə olmuşdur. Yalnız Reformasiya hərəkatının başlanmasından 100 il sonra, XVII əsrdə “lüteranlar” adı lüteranların özləri tərəfindən rəsmən qəbul edilmişdir.

**Təşkilatı**. Dünyada 75 mln. lüteran və 192 lüteran kilsəsi vardır. 59 kilsə Ümumdünya Lüteran Federasiyasına (ÜLF) daxildir. ÜLF lüteran kilsələrinin beynəlxalq təşkilatıdır. Onun qərargahı Cenevrə şəhərində yerləşmişdir. Lakin bu qurumun qərarları kilsələr üçün tövsiyə xarakteri daşıyır. Lüteranlar altı ölkədə əhalinin böyük əksəriyyətini təşkil edir: İslandiya, Danimarka, Norveç,

İsveç, Finlandiya və Estoniya. Rusiyada iki Lüteran kilsəsi fəaliyyət göstərir: Yevangelist – Lüteran kilsə (YLK) və İnqriya Yevangelist-Lüteran kilsəsi (İYLK). İnqriya şimal müharibəsi zamanı (XVIII əsr) Rusiyanın İsveçdən ayırdığı ərazidir. İndi İnqriyaya Sankt-Peterburq və onu əhatə edən ərazilər daxildir. Hazırda YLK öz sıralarında 120 min, İYLK isə 10 min nəfər mömini birləşdirir.

Azərbaycana Lüteranlıq XIX əsrin ortalarında daxil olmağa başlamışdır. Lüteranların ilk nəsli alman mənşəli mühacirlər olmuşdur. Alman məskənlərinin ləğv edilməsi ilə bu məzhəbin tərəfdarlarının sayı azalmışdır. Bakının mərkəzi küçələrinin birində vaxtilə Lüteran kilsəsi ucaldılmışdır ki, bu kilsə hazırda da möminlərin həftədə bir gün 2 saat ərzində xidmətindədir. Müasir Azərbaycanda məzhəbin rəsmi adı "Xilaskar Yevangelik-Lüteran kilsəsi" olub, Bakı və Sumqayıtda kiçik icmalar şəklində təmsil olunmuşlar.

**Teoloji əsasları**. Lüteranlığın teoloji əsasları bir neçə tarixi sənədə Martin Lüterin "95 tezis" (1517), "Qısa Katexizis", "Böyük Katexizis", "Şmalkalden məqalələri" və Filip Melanxtonun "Auqsburq məzhəbi" sənədinə (1530) əsaslanır. Lüteranlığın teoloji əsaslarını da pravoslavlıq və katolisizmdə olduğu kimi üç qata ayırmaq mümkündür. Birinci qat antik xristianlıq qatıdır. Bu qata antik xristianların formalaşdırdığı bütün doqquz əsas dini təlim daxildir:

- Bibliya haqqında təlim;
- Fövqəltəbii varlıqlar (Üçlük, mələklər, murdar ruhlar) haqqında təlim;
- Peyğəmbərlər haqqında təlim (bu təlim pravoslavlıq və katolisizmdə olduğu kimi müqəddəslərə ehtiramın bir hissəsinə çevrilmişdir);
- Ruh haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- İsa Məsihin təbiəti haqqında təlim;
- İsa Məsihin birinci gəlişi haqqında təlim;

- İsa Məsihin ikinci gəlişi haqqında təlim;
- Günahların satın alınması haqqında təlim.

Lakin qeyd etmək lazımdır ki, Lüteranlıqda axirət həyatı, ruhun neçənci gün Cənnət və ya Cəhənnəmə düşməsi haqda baxışlar pravoslavlıq və katolisizmdən fərqlənir. Pravoslavlar hesab edir ki, Allah bu qərarı insanın ölümündən 40 gün sonra qəbul edir, katoliklər bu qərarın həmin gün qəbul olunduğunu düşünürlər. Lüteranlıq təliminə görə Allah tərəfindən belə bir qərarın qəbul olunduğu vaxt insanlara məlum deyildir.

İkinci qat – katolik qatdır. Bu qatda yalnız iki dini təlim vardır: birincisi, Müqəddəs Ruhun təkcə Allah-Atadan deyil, Allah - Oğuldan da nəşət etməsi; ikincisi, xaçın müqəddəsləşdirilməsi.

Üçüncü qat – xüsusi Lüteran qatdır. Lüteranlıq dini təlimində xüsusi qata o dini təlimlər daxil edilmişdir ki, onlar nə antik-xristianlıq (V əsr), nə də katolisizmdə yoxdur. Bu təlimlər lüteran din xadimləri, ilk növbədə Martin Lüter tərəfindən işlənmişdir. Lakin Martin Lüterdən başlayaraq, bizim günlərin ruhanilərinə kimi, lüteran din xadimləri lüteranlığa həvarilərin dini təliminə qayıdış kimi baxırlar.

Lüteranlığın xüsusi teoloji qatında 7 əsas dini təlim ayırmaq mümkündür:

ümumi ruhanilik haqqında təlim;

- tək imanla bəraət qazanmaq haqqında təlim;;
- dini təlimin yeganə mənbəyi haqqında təlim;
- çörək və şərabdadma ayini haqqında təlim;
- müqəddəslərə ehtiram haqqında təlim;
- əlqoyma haqqında təlim.

Bu təlimlərin bəziləri (xüsusən də birinci dördü) sonralar yaranmış xristian məzhəbləri tərəfindən qəbul edilmişdir. Məhz bu məzhəblər protestant məzhəbləri adlandırılmışlar. Lakin həmin dini təlimlər xristianlığın inkişafı prosesində ilk dəfə məhz lüteranlar tərəfindən əsaslandırıldığına görə onlar Lüteranlığın xüsusi teoloji qatına aid edilmişlər.

Xüsusi qatın birinci beş təlimi pravoslavlıq və katolisizimdəki pravoslavlıq-katolik qatın beş təlimi ilə ziddiyyət təşkil edir. Bunları nəzərdən keçirək.

*Ümumi ruhanilik haqqında təlim (xüsusi qat).* Bu təlim ruhanilərin vasitəçiliyi haqda pravoslavlıq-katolik təlimi ilə ziddiyyət təşkil edir. Pravoslav-katolik təlimində, yuxarıda qeyd edildiyi kimi, əsas ideya ondan ibarətdir ki, ruhanilər və sıravi möminlər Allahla münasibətdə qeyri-bərabər vəziyyətdədirlər: ruhanilər ən yüksək – ruhaniyyət məqamında (yəni Allahla bilavasitə rabitədə), sıravi möminlər isə aşağı – qeyri-ruhaniyyət məqamdadırlar (yəni Allahla bilavasitə deyil, ruhanilərin vasitəçiliyi ilə rabitədədirlər).

Ümumi ruhanilik haqda Lüteran təliminin əsas ideyası odur ki, ruhanilər və sıravi möminlər Allahla bərabər hüquqlu rabitədədirlər, yəni hər ikisi ruhaniyyət məqamdadırlar. Bu səbəbdən, ruhani vəzifənin alınması ilə bağlı ayin lüteranlıqda, pravoslavlıq və katolisizmdə olduğu kimi "ruhanilik" adlanmır. Pravoslavlar və katoliklər hesab edirlər ki, ayin zamanı insan qeyri-ruhani məqamdan ruhani məqama qədəm qoyur. Lakin lüteranların əqidəsinə görə, istənilən mömin vəftizolunma anında ruhani məqama qədəm qoyur. Ona görə həmin ayini onlar "əlqoyma" (yepiskop əlini ruhani təbəqəyə qoşulmaq istəyən şəxsin başına qoyur) adlandırırlar.

*Tək imanla bəraət qazanmaq haqqında təlim (xüsusi qat).* Bu təlim xilasolmanın iki amili haqqında pravoslav-katolik təlimi ilə ziddiyyət təşkil edir. Pravoslav-katolik təlimə görə, Allaha inam və xeyirxah işlər xilasolmanın amilləridir. Bu zaman xeyirxah işlər içərisindən ruhani xeyirxah işlərə daha çox üstünlük verilir. Bunlar aşağıdakılardır: kilsə ibadətlərində, tövbə, priçaseniyada iştirak və s.

Xilasolmanın yeganə amili haqqında lüteran təliminin əsas ideyası ondan ibarətdir ki, insanları yeganə amil – Allaha inam xilas edir. Ona görə də Lüteran kilsə terminologiyasında "xilas-olmaya" sinonim kimi "bəraət qazanma" anlayışından istifadə

olunur. Xilasolmanın yeganə amil olması ideyası, adətən, belə ifadə olunur: “insan tək imanla bəraət qazanır”. Bu anlayış xeyirxah işlərin görülməsini inkar etmir. Sadəcə, ona Allaha inamın zəruri davamı kimi baxılır, yəni Allaha həqiqi inam varsa, xeyirxah işlər özü-özlüyündə yaranacaqdır. İnsan həyatında xeyirxah işlərin olub – olmaması, onun ruhunda Allaha inamın olub-olmamasını göstərir. İnam özünü təkcə Allaha (məhəbbət, heyrət, qorxu və s.) və fövqəltəbii dünyaya (Cənnət həyatının intizarından doğan sevinc, İblis və murdar ruhlara nifrət) yönəlmiş hisslərdə və ayinlərin səylə icrasında deyil, insanların xeyirxah işlərində də göstərir. Allaha inam dar mənada dərk ediləndə - o, Allaha inamın nəticəsidir, geniş mənada dərk ediləndə isə o Allaha inamın bir hissəsidir.

*Dini təlimin yeganə mənbəyi haqqında təlim (xüsusi qat).* Bu təlim dini təlimin iki mənbəyi haqqında pravoslavlıq-katolik təlimi ilə ziddiyyət təşkil edir. Həm pravoslavlıq, həm də katolisizimdə Bibliya və Müqəddəs Rəvayət xristian dini təliminin mənbəyi kimi götürülür. Lakin Lüteranlıq bu cür yanaşmanı inkar edir. Bu dini təlimə görə, Bibliyadan başqa dini təlimin başqa mənbələri yoxdur və ola da bilməz.

*Sıravi möminlərin Bibliyaya münasibəti haqqında təlim (xüsusi qat).* Bu təlim pravoslavlıq və katolisizmdəki eyni təlimlə ziddiyyət təşkil edir. XVI əsrdə Lüteranlıq yarananda həm pravoslavlıq, həm də katolisizmdə hələ də sıravi möminlərə Bibliyanı oxumaq və ona şərh vermək qadağan idi. Lüteranlığın təsiri altında hər iki məzhəb möminlərə Bibliyanı oxumaq icazəsini verməli olur. Lakin oxuduqlarını şərh etmək qadağası indi də qalmaqdadır. Lüteranlıq nəinki sıravi möminlərə Bibliyanı oxumaq icazəsini vermişdir, bunu onlara hətta vacibat etmişdir. Lüteranlıq möminlərə oxuduqları Bibliya mətnlərini şərh etmək hüququnu da vermişdir.

*Müqəddəslərə ehtiram haqqında təlim (xüsusi qat).* Bu təlim pravoslavlıq və katolisizmdəki eyni təlimlə ziddiyyət təşkil edir. Pravoslavlar və katoliklər hesab edir ki, müqəddəslərə ehtiram

onların şərəfinə ucadılmış kilsə və taxtın adının çəkilməsi ilə bitməməlidir. Müqəddəslərə mütləq müraciət olunmalı, onların şəkilləri və ikonaları qarşısında şamlar yandırılmalıdır. Lüteranların əqidəsinə görə, müqəddəslərə ehtiram onların şərəfinə ucaldılmış məbədlərin adının çəkilməsi ilə bitməlidir. Dua və müraciətlər yalnız Allaha yönəlməlidir. İkonalara gəldikdə isə, lüteranlar onları qəbul etmirlər, yəni müqəddəslərin ikonalarını rədd edirlər.

*Çörək və şərabdadma ayini (priçaşeniye) haqqında təlim (xüsusi qat)*. Pravoslavlıq və katolisizmdə priçaşeniya ayini bir-birindən fərqlənir. Lüteran təlimi onların hər ikisi ilə ziddiyyət təşkil edir. Lüteranlıq çörək və şərabın İsa Məsihin bədəninə və qanına çevrilməsi ideyasını inkar edir. Bu təlimə görə, çörək və şərabdadma ayinində İsa Məsihin yalnız iştirakından söhbət gedə bilər. Bununla belə, Lüteranlıq pravoslavlığın o təlimi ilə razıdır ki, sıravi möminlər və ruhanilər priçaşeniya məsələsində bərabərdirlər. Eyni zamanda katolisizmin o təlimi ilə razıdırlar ki, priçaşeniyada mayasız çörəkdən istifadə olunmalıdır. Priçaşeniya məshsürtmə ayinindən sonra 13-14 yaşından etibarən həyata keçirilməlidir.

*Əlqoyma ayini haqqında təlim (xüsusi qat)*. Bu təlim XX əsrin ikinci yarısında yaranmışdır. Bu təlimin Lüteranlıqda mahiyyəti ondan ibarətdir ki, əlqoymanı tək kişilər deyil, qadınlar da həyata keçirə bilər. Lakin bu təlimlə bütün Lüteran kilsələri razı deyildir.

## Baptizm



**Tarixi məlumat.** İlk baptist icmasının əsası 1609-cu ildə Hollandiyanın Amsterdam şəhərində İngiltərədən mühacirət etmiş kalvinistlər tərəfindən qoyulmuşdur. Baptist icmasını yaradan və onun ilk rəhbəri Con Smit olmuşdur. Üç il sonra, 1612-ci ildə İngiltərədə ikinci baptist icması yaradılır. Məhz İngiltərədə bu yeni məzhəbin dini

təlimləri və ayinləri formalaşır. Məhz bu ölkədə onlar özlərini baptist ("baptist" yunan dilində "vəftiz edən") adlandırmağa başlamışlar. Yarandığı vaxtdan baptizmdə iki istiqamət fərqlənmişdir: ümumi baptistlər və xüsusi baptistlər. Onları bir-birindən "günahlardan təmizlənmə" anlayışına münasibət ayırır. Ümumi baptistlər hesab edir ki, İsa Məsih bütün insanları, xüsusi baptistlər isə İsa Məsihin bəşəriyyətin yalnız seçilmiş hissəsini günahlardan təmizləmişdir.

Con Smitin icması ümumi baptistlərə aid idi. İlk xüsusi baptistlər icması 1638-ci ildə İngiltərənin Sosvork şəhərində, bir il sonra 1639-cu ildə ABŞ-da yaradılmışdır. XVIII əsrin sonlarından etibarən, bir sıra Avropa ölkələrində, xüsusən də ən iri baptist kilsəsinin təşəkkül tapdığı ABŞ-da, bu məzhəbin coşğun inkişafı başlayır.

Rusiyada ilk baptistlər icmasının əsası 1863-cü il Tiflis şəhərində mühacir almanlar tərəfindən qoyulur. Bu icma xüsusi baptistlərdən ibarət idi. XIX əsrin 60-cı illərində xüsusi baptist icmaları Cənubi və Şimali Qafqaz və Ukraynada yaranır. Həmin əsrin 70-ci illərinin sonunda Sankt-Peterburqda ümumi baptist icmasının əsası qoyulur. Ümumi baptistlər 1884-cü ildə "Rus baptistləri İttifaqında", xüsusi baptistlər isə 1909-cu ildə "Yevangel xristianları İttifaqında" birləşirlər. 1944-cü ilin oktyabrında SSRİ daxilində bütün baptist və yevangel xristianlar vahid qurumda "Yevangel xristian-baptistlər İttifaqı"nda (YXB) birləşirlər. "Günahlardan təmizlənmə" məsələsində yevangel xristianlar və baptistlər arasında bir müddət anlayış fərqi qorunub saxlanılır. Lakin sonralar bütün icmalar İsa Məshin günahı ümumi təmizləməsi fikrinə gəlirlər. Bu müddəa yevangel xristian baptistlərin 43-cü qurultayında (1985) öz ümumi təsdiqini tapır.

**Təşkilatı**. Baptistlər ən böyük protestant məzhəbidir. Təqribi hesablamalara görə dünyada baptistlərin ümumi sayı 100 milyon nəfərə qədərdir. Baptist icmalarının 80%-i Amerika Birləşmiş Ştatlarındadır. Dünya üzrə əksər milli baptist kilsə-

ləri “Baptistlərin ümumdünya İttifaqında” birləşmişdir. İttifaqın mərkəzi – Ümumdünya Şurası – Vaşinqtonda yerləşmişdir. Ümumdünya Şurasının qərarları tövsiyə xarakteri daşıyır. Ona görə də bütün milli baptist dini təşkilatları tam müstəqil hesab olunurlar.

SSRİ –nin dağılması ilə YXB İttifaqı öz fəaliyyətini dayandırmışdır. Lakin 1996-cı ildə 10 ölkənin – Rusiya, Ukrayna, Belarus, Moldova, Gürcüstan, Ermənistan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Orta Asiyanın baptist kilsələri “Yevangel xristian – baptistlər İttifaqının Avro-Asiya Federasiyasında” birləşirlər.

Azərbaycana baptist məzhəbi “Yevangel xristian baptist icması” və müxtəlif adda başqa icmalarla təmsil olunmuşdur.

**Teoloji əsasları**. Baptist dini təlimində teoloji qatların sayı üçdür. Birinci qat antik dövrün xristianları tərəfindən formalaşdırılmış qatdır. Bu qata daxildir:

- Bibliya haqqında təlim;
- Fövqəltəbiii qüvvələr (Üçlük, mələklər, şeytanlar – murdar ruhlar) haqqında təlim;
- Peyğəmbərlər haqqında təlim;
- Ruh haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- İsa Məsihin təbiəti haqqında təlim;
- İsa Məsihin birinci gəlişi haqqında təlim;
- İsa Məsihin ikinci gəlişi haqqında təlim;
- Günahların satın alınması haqqında təlim.

Baptist dini təlimində ikinci teoloji qat protestantlıq (lüteranlıq) qatıdır. Bu qatda lüteranlıqdan dörd təlim qalmışdır:

- ümumi ruhanilik haqqında təlim;
- tək imanla bəraət qazanmaq haqqında təlim;
- Bibliyanın dini təlimin yeganə mənbəyi olması haqqında təlim;

- Bibliyanı oxumaq vəzifəsi və onu şərh etmək hüququ haqqında təlim.

Üçuncü qat spesifik, baptistlərə məxsus qatdır ki, bura baptistlərə məxsus üç dini təlim daxildir:

- vəftiz haqqında təlim;
- Allah haqqında təlim;
- çörəkbölmə haqqında təlim.

*Vəftiz haqqında təlim (xüsusi qat)*. Bu təlimin əsas ideyası vəftiz olunmanın üç vacib şərtindən ibarətdir:

Birinci vacib şərt, uşaqların vəftiz olunması qəbul edilmir. Yalnız yaşlılar vəftiz oluna bilərlər. Bəzi ölkələrdə bu 18 yaş, Rusiya və Azərbaycanda 16 yaşdan götürülür.

İkinci vacib şərt, yalnız könüllü razılıq vermiş şəxs, vəftiz oluna bilər. Bu şərti baptistlər "imanın şüurlu qəbulu" adlandırırlar.

Üçüncü vacib şərt, vəftiz olunmaqdan ötrü şəxsin imanlı olmasıdır. Çünki vəftiz imanlı olmayan şəxsi möminə çevirmir. Vəftiz olunmaqdan ötrü öncədən imanlı olmaq gərəkdir. Vəftiz həm də möminin dini təşkilata, yəni icmaya rəsmən qəbul edilməsi deməkdir.

Vəftiz ya təbii su mənbələrində (göl, çay, su anbarı), ya da xüsusi hovuzlarda həyata keçirilə bilər. Vəftiz olunan adamın bədəni bütünlüklə suyun altına salınır, sonra sudan çıxardılır. Bunun rəmzi mənası odur ki, o indiyə qədər özü üçün yaşadığı həyatının üstündən suyun içinə bütünlüklə girməklə xətt çəkir. Bu həm də Məsihin çarmıxa çəkilməsinin, öldürülməsinin, basdırılmasının və təzədən dirilməsinin rəmzidir.

*Allah haqqında təlim (xüsusi qat)*. Allah haqqında xüsusi baptist təlimi Üçlük haqqında ümumxristian təliminə əlavədir. Üçlüyü qəbul edən bütün xristianlar, eyni zamanda üç mahiyyətli Allahın ruh və Hər yerdə Var olmasını da qəbul edirlər. Lakin baptistlər bu iki xassəni başqa xristian məzhəblərindən fərqli şəkildə izah edirlər. Pravoslav, katolik, lüteran və digər xristian məzhəblərindən fərqli olaraq, baptistlər hesab edir ki, Allah-Ata yalnız ruhani mahiyyətə malikdir və O, insanlara heç vaxt insan

qiyafəsində görünməyib. Allah-Oğulu (insan qiyafəsində) və Allah-Müqəddəs Ruhu (göyərçin qiyafəsində) fiziki bədəndə təsvir etməyin mümkünlüyünü inkar etməyən baptistlər Allah-Atanın istənilən təsvirinə qəti şəkildə etiraz edirlər. Pravoslavlar və katoliklərdə Allah-Atanın ikonalarda təsviri verilirsə, baptist kilsələrində və dini kitablarda bu cür təsvirləri görmək mümkün deyildir.

Başqa dini məzhəblərdə Allah ruhani mahiyyət kimi qəbul edilsə də müəyyən məkana bağlı kimi təsvir edilir, lakin baptistlərə görə Allah hər yerdədir, yəni Hər yerdə Varolandır.

*Çörəkbölmə haqqında təlim (xüsusi qat).* Baptistlər çörək və çaxırdadma ayinini həm "Rəbbin Axşamı", həm də "çörəkbölmə" adlandırırlar. Lakin şifahi ünsiyyətdə onlar çox vaxt "çörəkbölmə" terminindən də istifadə edirlər.

Matta Müjdəsi 26-cı fəsildə İsa Məsihin həvariləri birgə keçirdiyi vida şam məclisindən söhbət açılır. Həmin fəsildə bir hadisə var ki, xristian məzhəbləri onu müxtəlif cür yozurlar. "*Onlar yemək yedikləri vaxt, İsa çörək götürdü, şükran duası edib onu parçaladı, şagirdlərə verib dedi: "Alın yeyin. Bu Mənim bədənimdir. Bir kasa götürüb şükr etdi və onlara verərək dedi: "Bundan hamınız için, çünki bu, Mənim qanım, günahların bağışlanması üçün bir çoxları uğrunda tökülən Əhdi-Cədidin qanıdır*" (Matta, 26, 26-28). Luka Müjdəsində İsa Məsihin sözlərinə çox əhəmiyyətli əlavələr vardır. Əvvəlcə içində şərab olan kasanı, sonra çörəyi həvarilərinə uzadaraq, O, buyurur "*...bunu, Məni yada salmaq üçün edin..*" (Luka 22:19).

Bütün xristianlar Luka Müjdəsindəki sözlərə çörək və şərabdadma ayinin keçirilməsinə göstəriş kimi qəbul edirlər. Lakin Məsihin, "çörək – Onun bədəni, şərab Onun qanıdır" sözlərini necə anlamaq olar? Pravoslavlara və katoliklərə görə bu sözlər "çevrilməyə" işarədir, yəni ayin zamanı çörək Məsihin bədəninə, şərab isə Məsihin Qanına çevrilir. Lüteranlara görə isə bu sözlər "iştiraketməni" göstərir, yəni ayin zamanı çörəkdə Məsihin bədəni, şərabda Məsihin qanı iştirak edir.

Baptistlərin irəli sürdüyü üçüncü versiyada isə “yadasalma” ideyası irəli sürülür, yəni çörəyi dadarkən möminlər Məsihin bədənini, şərabı dadarkən Məsihin qanını xatırlamalıdırlar. Baptistlər çörəkbölmə ayinini ildə 13 dəfə, hər ayın birinci həftəsi və pasxa ərəfəsi cümə axşamları icra edirlər.

## Yeddinci günün adventistləri



**Tarixi məlumat.** Adventizm XIX əsrin 30-40-cı illərində ABŞ –da yaranmışdır. O, baptizmdən ilk iri ayrılma hesab olunur. Adventizmin banisi keçmiş baptist keşişi Vilyam Miller (1782-1849) Bibliyanın tədqiqi əsasında 1831-ci ildə belə bir nəticəyə gəlir ki, İsa Məsihin ikinci zühuru və Dünyanın Sonu tezliklə baş verəcəkdir. O bildirirdi ki, özü ilə bacarmır və səmadan gələn səs ona rahatlıq vermir. O səs deyir: “get və dünyaya çatdır”. 1832-ci ildə o yazmışdır: “ Bu haqda dəlillər hər tərəfdən daxil olur...Budur Xilaskar gəlməkdədir!” Bundan əlavə, o hesab edirdi ki, İsa Məsihin zühuru və Dünyanın Sonu hadisəsi, konkret vaxtda, yəni 21 mart 1843-cü ildə baş verməlidir. Vilyam Miller araşdırmalar nəticəsində gəldiyi nəticəni 1831-ci ilin yayında Nyu-York ştatının Aşağı Xempton şəhərciyində baptistlərin toplantısında bəyan edir. Lakin vaxtın tamam olması və zühurun baş verməməsi Vilyam Millerin ardıcılları arasında narahatçılığa səbəb olur.

Bundan sonra Vilyam Millerin sədaqətli ardıcıllarından biri Yelena Uayt (1827-1915) möminlərə (dünyanın bütün adventistləri onu gələcəkdən xəbər verən dahi öncəgörən hesab edir) izah edir ki, Vilyam Miller əsas məsələdə haqlıdır, yəni İsa Məsih tezliklə gələcək, lakin o, ikinci dərəcəli məsələdə yanılmışdır, - insanlar Onun ikinci zühurunun vaxtını bilə bilməzlər. Keşiş Ceyms Uaytın həyat yoldaşı olan Yelena Uayt din xadimi deyildi. Lakin bununla

belə, XIX əsrin 40-cı illərinin adventistləri Onu özlərinin qeyd-şərtsiz ruhani rəhbəri hesab edirdilər.Yelena Uayt ardıcıllarına Allahdan aldığı görmələr vasitəsilə ruhani həqiqətlər aşkarladığını söyləyir və Öz görmələrini çoxsaylı əsərlərində təsvir edirdi. Onun görmələri adventistlər tərəfindən Bibliyanın həqiqi şərhinə rəhbərlik kimi qəbul edilirdi. Y.Uayt bu ruhani vergi ilə 1844-cü ildən 1915-ci ilə kimi 70 il ərzində xidmət etmiş, Onun vasitəsilə Allahdan 2000-ə qədər görmələr alınmışdır. Y.Uayt 80 kitabın, 200 traktat və kitabçanın, 4600 məqalənin müəllifidir.

1863-cü ildə Betl-Krik şəhərində ABŞ adventistlərinin birinci qurultayı keçirilir. Həmin qurultayda onlar öz məzhəblərinin adını-"Yeddinci günün adventistləri" (YGA) adını, nizamnaməsini, ehkamlarını qəbul edirlər. "Yeddinci günün adventistləri" adı adventistlərin həftənin şənbə adlanan yeddinci gününə xüsusi əhəmiyyət verməsini özündə əks etdirirdi. Qurultay başa çatdıqdan sonra ABŞ adventistləri öz təlimlərini dünya xalqlarına çatdırmaqdan ötrü Avropa, Asiya və Afrika ölkələrinə müəllimlər göndərirlər.

Rusiyada YGA birinci icması Berdebulat (Krım) kəndində 1886-cı il iyulun axırında təşkil olunur. Bu icmanın təşkilatçıları Lui Konradi (ABŞ-dan gəlmiş keşiş) və Qerxard Perk (alman mənşəli Rusiya vətəndaşı) idi. Azərbaycan ərazisində də ilk adventist icması XIX əsrin sonlarında yaranmışdır. Bu icmanın da 1886-cı ildə yaradıldığı güman edilir.

**Təşkilatı**. Yeddinci günün adventistləri, katoliklər və yahova şahidləri kimi təşkilatı baxımdan dünya miqyasında birləşmişlər. Onların Beynəlxalq təşkilatı "Yeddinci Gün Adventistlərinin Ümumdünya Kilsəsi", onun mərkəzi isə Yeddinci Gün Adventistlərinin Baş Konfransı adlanır. Güman edilir ki, dünyada 13 milyon nəfərə qədər adventist vardır. Adventist icmaları 206 ölkədə mövcuddur. Adventistlər 4598 ibtidai, 1153 orta məktəbə, 95 kollec və universitetə, həmçinin 3283 radiostansiyaya və 1681 telekanala nəzarət edirlər.

Adventist icmaları keçmiş SSRİ ərazisində 1933-1947 və 1960-1985-ci illər ərzində təşkilatlanmamış şəkildə fəaliyyət göstərmişlər. Buna səbəb sovet hakimiyyətinin qoyduğu qadağalar idi. Yalnız 1985-ci ildə Adventistlərin Tula konfransında ölkə müqyasında məzhəbin Ali qurumu formalaşdırılır. Yeddinci Gün adventistlərinin 1990-cı ildə keçirilən Beynəlxalq qurultayında SSRİ YGA kilsəsinə dünya divizionu statusu verilir. Sovet divizionu o zaman beş uniondan ibarət idi: Rusiya, Baltikyanı, Ukrayna, Moldova və Cənub. SSRİ dağıldıqdan sonra YGA təşkilatında dəyişikliklər baş verdi. Belə ki, 1994-cü ildən Rusiyada iki union təşkil edilib: Qərbi-Rusiya və Şərqi-Rusiya. Hər iki union Avro-Aziya diviziona daxildir. Bu divizionun tərkibində Ukrayna, Moldovo və həmçinin Belarus və Cənubi Qafqaz (o cümlədən Azərbaycan) missiyaları da vardır. Missiya uniondan onunla fərqlənir ki, onun rəhbərliyi seçilmir, təyin edilir. Güman edilir ki, Rusiyada adventistlərin sayı 60 min nəfər, Azərbaycanda isə təqribən 600 nəfərdir. Respublikamızda yeddinci günün adventistləri Bakı, Gəncə, Naxçıvan məntəqələrində icma və kiçik qruplar şəklində təmsil olunmuşlar.

**Teoloji əsasları**. Adventist dini təliminin əsas müddəalarını üç teoloji qata bölmək mümkündür. Birinci teoloji qata – adventistləri başqa xristian məzhəbləri ilə birləşdirən antik xristian qata aşağıdakı təlimlər daxildir:

- Bibliya haqqında təlim;
- Fövqəltəbii varlıqlar (Üçlük, mələklər, murdar ruhlar) haqqında təlim;
- Peyğəmbərlər haqqında təlim;
- İsa Məsihin birinci gəlişi haqqında təlim;
- Günahların satın alınması haqqında təlim.

Qeyd edək ki, fövqəltəbii varlıqlar haqqında təlimdə, təşəkkül tapmış ənənəyə uyğun olaraq, adventistlər İblisin xidmətçilərini ifadə etməkdən ötrü nadir hallarda "şeytan", "murdar ruh" anlayışlarından istifadə edirlər, onlar tərəfindən çox vaxt "yıxılmış mələklər", "İblisin mələkləri" və s. ifadələrdən istifadə olunur.

Adventislər təlimində ikinci qat protestantlıq qatıdır. Bu qat onları digər protestant məzhəbləri ilə birləşdirir. Bu qata aşağıdakı təlimlər daxildir:

- ümumi ruhanilik haqqında təlim;
- tək imanla bəraət qazanmaq haqqında təlim;
- Bibliyanın dini təlimin yeganə mənbəyi olması haqqında təlim;
- Bibliyanı oxumaq vəzifəsi və onu şərh etmək hüququ haqqında təlim.

Üçüncü qat xüsusi adventist təlimlərindən ibarət qatdır. Bu qata daxil olan təlimlər Vilyam Miller, Yelena Uayt və digər tanınmış adventist din xadimləri tərəfindən işlənmişdir. Bu təlimlərin ümumi sayı yeddidir:

- İsa Məsihin ikinci gəlişi (zühuru) haqqında təlim;
- vəftiz haqqında təlim;
- ruh haqqında təlim;
- axirət həyatı haqqında təlim;
- şənbə haqqında təlim;
- sanitar islahatı haqqında təlim;
- Rəbbin süfrəsi haqqında təlim;
- İctimai xidmət haqqında təlim.

*İsa Məsihin ikinci gəlişi (zühuru) haqqında təlim (xüsusi qat).* Başqa xristian məzhəblərindən fərqli olaraq, adventizmdə İsa Məsihin ikinci gəlişi və ya zühuru haqqında fərqli baxışlar vardır. Pravoslav, katolik, lüteran və başqa xristian məzhəbləri hesab edir ki, İkinci Zühurun baş verəcəyi zaman bəlli deyil, nəinki Gəlişin baş verəcəyi il, ay gün və ya saat. Onun hətta tezliklə və ya milyon ildən sonra baş verəcəyi insanlar üçün Allahın yanında saxlanılan sirrdir. Adventistlər İsa Məsihin gəlişinin baş verəcəyi gün və saatın insanlar üçün qapalı olması fikri ilə razılaşsalar da, onlar əmindirlər ki, insan cəmiyyəti özünün "son günlərini", yəni "axır-zamanı" yaşamaqdadır. Dünyada baş verən proseslər bəşəriyyətin son günlərinə yaxınlaşmasından xəbər verir. Başqa sözlə, adventistlərin əqidəsincə,

İsa Məsihin İkinci Zühuru tezliklə baş verməlidir. Təlimin xüsusiyyətindən irəli gələrək, məzhəbin adının birinci hissəsi yaranmışdır. “Adventus” latınca “Zühur” deməkdir.

*Vəftiz haqqında təlim (xüsusi qat).* Bu təlim bir çox cəhətlərinə görə baptizm təlimi ilə üst-üstə düşür: 1) iman şüurlu şəkildə qəbul edilməlidir; 2) yalnız mömin şəxs vəftiz oluna bilər; 3) vəftiz suya tam batırılmaqla həyata keçirilir. Lakin baptistlər vəftiz üçün yaş həddini 16 -18 yaşından götürürlərsə, adventistlər yeniyetmələrin (12 yaşından) vəftiz olunmasını mümkün hesab edirlər. Bu xüsusiyyət bu təlimi xüsusi adventist qatı kimi ayırmağa imkan verir. Baptistlərdə olduğu kimi, burada da vəftizi həyata keçirməkdən ötrü təbii su mənbələrindən və ya bundan ötrü xüsusi hovuzlardan istifadə olunur.

*Ruh haqqında təlim (xüsusi qat).* Bu təlim bir çox xristian məzhəblərində ruh haqqında mövcud təlimə alternativdir. Əgər pravoslavlıq, katolisizm, lüteranlıq, baptizm və digər məzhəblərdə ruh bədəndən ayrı sərbəst substansiya hesab olunursa, adventistlər əmindirlər ki, ruh bədəndən asılıdır və bədənsiz mövcud ola bilməz. Əgər başqa məzhəblərdə ruh ölməz hesab olunursa, adventistlər inanırlar ki, bədənlə birgə ruh da ölür. Ruh və bədən Dirilmə Günü bir vaxtda diriləcəklər.

*Axirət həyatı haqqında təlim (xüsusi qat).* Adventizmdə axirət həyatı haqqında təlim digər xristian məzhəblərinin analoji təlimindən kəskin şəkildə fərqlənir və özünün orjinallığı ilə seçilir. Onu dörd hissəyə bölmək olar:

Təlimin birinci hissəsində söhbət axirət həyatının başlanma vaxtından gedir. Başqa xristian məzhəblərində axirət həyatının Adəm və Həvvanın oğlu Avelin (Habilin) ölümü ilə başladığını düşünürlər. Avel (Habil) ilk bəşər övladıdır ki, ölmüş (qardaşı tərəfindən öldürülmüş) və ruhunu Allaha təslim etmişdir (yəni ruhu bədənindən ayrılmışdır). Adventizm təliminə görə axirət həyatı yalnız İsa Məsihin ikinci zühuru ilə başlayacaqdır.

Təlimin ikinci hissəsində söhbət axirət həyatının hissələrindən gedir. Əksər xristianlar (pravoslavlar, lüteranlar, baptistlər, əllincilər və s.) əmindirlər ki, axirət həyatı iki hissəyə bölünür: Cənnət və Cəhənnəm. Katoliklərin əqidəsinə görə bu iki hissə arasında hətta üçüncü hissə, Məhşər (Əraf) deyilən hissə də vardır. Adventistlərə görə axirət həyatında yalnız Cənnət vardır. "Cəhənnəm"ə gəldikdə bu sözün mənası ivrit dilində "şeol" və ya yunanca "qades" , qəbir deməkdir. Lakin bu o demək deyildir ki, Allah hamını Cənnətdə yerləşdirəcəkdir. Əlbəttə, Allah günahkarları cəzalandıracaqdır. Əgər Cəhənnəm yoxdursa, bu cəzalandırma necə baş verəcək? Bu sualın cavabı təlimin dördüncü hissəsindədir.

Təlimin üçüncü hissəsində söhbət möminləri gözləyən mükafatdan gedir. İsa Məsihin İkinci zühuru zamanı əvvəlki zamanlarda ölmüş möminlər dirildiləcək, Məsihin yolunu gözləyən dirilər isə ölümdən azad ediləcək. Əvvəlcə bütün möminlər səmaya qaldırılacaq və onlar orada min il ərzində Səma Cənnətində xoşbəxtlik içində olacaqlar. Sonra cənnət xoşbəxtliyi Yerdə - Yer Cənnətində əbədi davam edəcək.

Təlimin dördüncü hissəsində İblis, onun mələkləri və islah olunmaz günahkarları gözləyən cəzadan söhbət açılır. Onlar əvvəlcə min il ərzində boş və kimsəsiz Yerdə məhbus ediləcək, sonra isə məhv ediləcəklər. İsa Məsihin ikinci zühuruna kimi ölmüş günahkarlar ayağa qaldırılmayacaqlar, qalan günahkarlar isə zühur anında öləcəklər. Min ildən sonra bütün günahkarlar dirildiləcək və onlara əbədi həyata layiq olmadıqları elan ediləcək. Onlar ikinci dəfə, lakin bu dəfə əbədi olaraq öləcəklər.

*Şənbə haqqında təlim (xüsusi qat).* Adventist təliminə görə şənbə Allahla ünsiyyət günüdür. Həmin gün işləmək Allah qarşısında böyük günah hesab olunur. Bu qat adventist təlimini Yəhudi təliminə yaxınlaşdırır. Başqa xristian məzhəblərində bu qat yoxdur.

*Sanitar islahatı haqqında təlim (xüsusi qat).* Bu təlimi Yelena Uayt işləmişdir. Bu təlim çərçivəsində adventistlərə fəal fiziki işlə məşğul olmaq, təmiz havada olmaq, tez-tez yuyunmaq, narkotik maddələrdən, tütün və alkoqollu içkilərdən istifadə etməmək tövsiyə olunur, qəhvə, pulcuqsuz balıq və donuz ətindən istifadəyə icazə verilmir. Dindarlardan bir desyatin torpaq sahəsi (və ya gəlirlərinin onda birini kilsənin xeyrinə) ayırmaq və faydalı əmək fəaliyyəti ilə məşğul olmaq tələb olunur.

*Rəbbin süfrəsi haqqında təlim (xüsusi qat).* Bu xüsusi ayin olub, bəzi xristian məzhəbləri onu "priçaşeniye", bəziləri isə "çörəkbölmə" adlandırırlar. Bu ayinin əsas ideyası, yeddinci günün adventistlərində, baptistlərdə olduğu kimi, yada salmadır. Bununla belə adventistlərdə bu ayinin keçirilməsinin özünəməxsus cəhətləri vardır: birincisi, adventistlər şərab yerinə üzüm şirəsindən istifadə edirlər; ikincisi, adventistlərdə çörək və şirədadma mərasimi baptistlərdə olduğu kimi ildə 13 dəfə deyil, 4 dəfə həyata keçirilir; üçüncüsü, adventistlərdə çörək və şirədadma ayinindən əvvəl ayaqlar yuyulur. Bəzən möminlər ehtiram və məhəbbət ifadəsi olaraq bir birilərinin ayaqlarını yuyurlar.

*İctimai xidmət haqqında təlim.* Digər xristian məzhəbləri kimi adventistlər də ictimai xidmətə böyük diqqət yetirirlər. Bu özünü iki istiqamətdə göstərir: birincisi, xeyriyyəçilikdə (kimsəsizlərə yardım göstərilməsi, pulsuz yeməkxanaların və xəstəxanaların təşkili və s). Hazırda planet üzrə adventistlərin nəzarəti altında 7 tibbi mərkəz, 700 xəstəxana və klinika fəaliyyət göstərir; ikincisi, dünyanın bir çox ölkələrində adventistlər, kənd təsərrüfatı fermaları, kooperativlər, kənd təsərrüfatı mütəxəssislərini hazırlamaqdan ötrü kurslar təşkil etməklə yaşadıqları ölkələrin ərzaq problemlərinə kömək etməyə çalışırlar.

## Əllincilər



“Əllincilər” termini altında bir sıra xristian dini təriqətləri anlaşılır. Bu təriqətlər arasında bəzən kəskin fərqlərin olmasına baxmayaraq, onları bir ümumi inam birləşdirir ki, “hər bir mömin su ilə vəftiz olunmaqla yanaşı, Müqəddəs Ruhla da vəftiz olmalıdır”. Bu da həmin təriqətləri “əllincilər” xristian dini məzhəbində birləşdirməyə imkan verir.Məzhəbin möminləri özlərini “Pentikostçular” adlandırırlar, bu da yunan dilindən tərcümədə “Əllinci gün” deməkdir.

**Tarixi məlumat**. Əllincilik XIX əsrin sonlarında ABŞ-da baptizm daxilində ikinci böyük ayrılma nəticəsində yaranmışdır (yada salaq ki, baptizm daxilində birinci parçalanmadan adventizm ortaya çıxmışdır). Tenessi ştatında 1896-cı ildə keşiş Spellinqin başçılıq etdiyi baptist icmalarının birində sürəkli və gərgin dualardan sonra möminlər, özlərinə də məlum olmayan dildə, anlaşılmayan sözlər söyləyirlər. Onlar bunu Müqədəs Ruhla vəftizin möcüzəsi kimi qəbul edirlər. Çünki oxşar hadisə İsa Məsihin həvariləri ilə yəhudilərin “əllinci gün” bayramında baş vermişdi. Yəhudilər həmin gün Tövrətin Musa peyğəmbərə nazil olmasının ildönümünü qeyd edirlər. Həvarilərin möcüzəsi baş verən zaman yəhudilərin əllinci günü ilə Məsihin dirilməsindən keçən əllinci gün üst-üstə düşübmüş. İncildə bu hadisə aşağıdakı kimi təsvir olunmuşdur:

“*PENTİKOST günü gəldikdə, onların hamısı bir yerə toplaşdı. Qəflətən, güclü bir külək əsirmiş kimi göydən bir səs gəldi və oturduqları evin hər tərəfini doldurdu. Və atəşdənmiş kimi bölünən dillər onlara görünüb hər birinin üzərinə qondular. Hamısı Müqəddəs Ruhla doldu və Ruhun onlara verdiyi danışma tərzinə uyğun olaraq başqa-başqa dillərdə danışmağa başladılar*” (Həvarilərin əməlləri, 2:1-4)

Spellinqin icmasındakı "möcüzə" xəbəri ölkəyə yayılır və əllincilər hərəkatının əsasını qoyur. Əllinciliyin tarixi formal olaraq 1 yanvar 1901-ci ildən başlayır. Həmin gün Tonekedəki (Kanzas) Bibliya məktəbində dua məclislərinin birində keşiş Parxemin şagirdlərindən biri Aqnessa Ozman "üçüncü xeyir- duanı" alaraq, çin dilində danışmağa başlayır. Aqnessanın ardınca məktəbin qalan şagirdləri də "xarici dillərdə" danışmağa başlayırlar. Bu hadisədən sonra Parxem öz şagirdləri ilə birlikdə ABŞ-ın cənub ştatlarında əllinciliyi təbliğ etməyə başlayır. Parxemin şagirdlərindən biri qara dərili C.Seymur Los-Ancelesdə üç il ərzində fasiləsiz dua məclisləri təşkil edərək, minlərlə insanı hərəkata cəlb edir. Bu insanların çoxu təkcə ABŞ-da deyil, Skandinaviya ölkələrində, İngiltərə, Hindistan və Çilidə əllincilər kilsələrini yaradırlar.

Keçmiş SSRİ ərazisində ilk əllincilər icması 1921-ci ildə İ.Y.Voronayev tərəfindən Odessa şəhərində yaradılıb. Sonrakı illər bütün ölkə ərazisində belə icmaların əsası qoyulur. XX əsrin 30-cu illərində ölkə miqyasında dini icmalara qarşı təqib kampaniyası əllinciləri də qeyri-leqal fəaliyyətə keçməyə məcbur edir. 1944-cü ildə əllincilər və baptist icmaları "yevangelist məsihçiləri-baptistlər İttifaqında" birləşirlər. Əllincilər icmalarının baptist birliklərinə daxil olması onlara leqal fəaliyyət göstərmək imkanı yaradır. 1990-cı ildə sərt sovet rejiminin zəifləməsi və dini icmaların açıq fəaliyyətinə icazə verilməsi əllincilərə baptist birliklərindən çıxmaq və sərbəst fəaliyyət göstərmək imkanı verir.

**Təşkilatı**. Təqribi hesablamalara görə hazırda dünyada əllincilərin ümumi sayı 55 milyondur. Əllincilər mütəmadi olaraq hər 2-3 ildən bir beynəlxalq konfranslarını keçirirlər. Əllincilərin vahid mərkəzi yoxdur və onlar çoxlu qrup və cərəyanlara bölünmüşlər. Bunlardan ən böyükləri ABŞ-dadır ("Allah kilsəsi", "Allahın məclisi", "Birləşmiş əllincilər kilsəsi" və s.). Ayrı-ayrı ölkələrdə əllincilər icmaları ittifaqlarda birləşmişlər. Məsələn, Rusiyada əllincilərin iki ittifaqı mövcuddur: "Rusiya yevangelist-əllinci məsihçilərin Rusiya İttifaqı" və "Yevangelist-əllinci məsihçilərin Rusiya İttifaqı". Hər bir İttifaqa 1000 icma daxildir.

Azərbaycanda da əllincilər müxtəlif adlar altında yaradılmış icmalarda birləşmişlər. Onlardan ən tanınmışları “Şərqdə ulduz”, “Nehemiya”, “Mədh kilsəsi”, “Yeni həyat”, “Diri daşlar”, “Rəbbin cəmiyyəti”dir.

**Teoloji əsasları.** Əllincilərin dini təlimində dörd teoloji qat müşahidə edilir. Birinci qat – antik xristian qatıdır. Bu qatda antik dövr xristianlarının formalaşdırdığı bütün doqquz dini təlim vardır. Bunlar aşağıdakılardır:

- Bibliya haqqında təlim;
- Fövqəltəbii varlıqlar (Üçlük, mələklər, şeytanlar) haqqında təlim;
- Peyğəmbərlər haqqında təlim;
- Ruh haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- İsa Məsihin təbiəti haqqında təlim;
- İsa Məsihin birinci gəlişi haqqında təlim;
- İsa Məsihin ikinci gəlişi haqqında təlim;
- Günahların satın alınması haqqında təlim.

Əllincilik təlimində ikinci qat – protestantlıq (lüteranlıq) qatıdır. Bu qatda lüteranlıqdan qalma dörd dini təlim vardır:

- ümumi ruhanilik haqqında təlim;
- tək imanla bəraət qazanmaq haqqında təlim;
- Bibliyanın dini təlimin yeganə mənbəyi olması haqqında təlim;
- Bibliyanı oxumaq vəzifəsi və onu şərh etmək hüququ haqqında təlim.

Üçüncü qat baptist qatıdır ki, ora baptistlərə məxsus üç dini təlim daxil olmuşdur:

- vəftiz haqqında təlim;
- Allah haqqında təlim;
- Çörəkbölmə haqqında təlim.

Buradan görünür ki, baptistlərə məxsus bütün dini təlimlər əllincilərdə də vardır. Lakin əllincilərdə digər protestant cərəyan-

larında müşahidə edilməyən, yalnız onlara məxsus olan iki təlim vardır. Bu təlim əllincilikdə xüsusi teoloji qat əmələ gətirir. Bunlar aşağıdakılardır:

- Müqəddəs Ruhun bədənə daxil olması haqqında təlim;
- Müqəddəs Ruhun ənamları haqqında təlim.

*Müqəddəs Ruhun bədənə daxil olması haqqında təlim (xüsusi qat).* Müqəddəs Ruhun bədənə daxil olması haqqında təlimin əsas ideyası aşağıdakılardan ibarətdir: hər bir mömin öz bədəninə Müqəddəs Ruhu daxil edə bilər və etməlidir. Bundan ötrü o, sadəcə əllinci gün İsa Məsihin həvariləri etdiyi kimi şövq və inadla dualar oxumalıdır. Müqəddəs Ruhun həyatda ilk dəfə bədənə daxil olmasını əllincilər Müqəddəs Ruhla vəftiz olunma adlandırırlar. Beləliklə, əllincilər hesab edir ki, möminlər öz xilaslarından ötrü iki cür vəftizdən – su vəftizindən (onu Yəhya vəftizi də adlandırırlar) və Müqəddəs Ruhla vəftiz olunmadan keçməlidirlər. Su vəftizi gününü (iman gətirdiyi gün) insanlar, Müqəddəs Ruhla vəftizin gün və anını Allah müəyyən edir. İnsanlar isə inadla dualar oxumalı və Müqəddəs Ruhdan onlara daxil olmalarını xahiş etməlidirlər. Müqəddəs Ruhla vəftiz fərdin xilasından ötrü vacib ayinlərdən biri hesab olunur. Ona görə də əllincilərin dini baxışlarına görə Müqəddəs Ruhun həyatda azı bir dəfə insana daxil olması xilasolmanın əsas şərtidir. Lakin mömin Müqəddəs Ruhun onun bədəninə daxil olub və ya olmadığını necə müəyyən edə bilər? Bu suala əllincilərə məxsus ikinci xüsusi təlim cavab verir.

*Müqəddəs Ruhun ənamları haqqında təlim (xüsusi qat).* Bu təlimin əsas ideyasına görə, möminin bədəninə daxil olmuş Müqəddəs Ruh öz ənamlarını onun bədəninə qoyur. Bu ənamlar eyni zamanda Müqəddəs Ruhun bədənə daxil olmasına sübut kimi qiymətləndirilir. Bu ənamlar aşağıdakılardır (I.Korinflilərə 12:8-10):

- hikmət və bilik;
- iman;
- şəfavericilik;
- möcüzələr yaratmaq məharəti;

- peyğəmbərlik;
- ruhları ayırd etmək məharəti;
- müxtəlif dillərdə danışmaq;
- dilləri izah etmək məharəti.

Bu ənamlar içərisində başqa dillərdə danışmaq (qlossolaliya) daha əhəmiyyətlisi (arzuolunanı) hesab olunur. Başqa dillərdə danışmaq dedikdə nə anlaşılır? Əllincilərin nəzərincə, bu Yerdə analoqu olmayan və yalnız Allahla söhbət etməkdən ötrü bir neçə saat gərgin və inadlı duaların nəticəsi kimi möminin qeyri-ixtiyari çıxardığı səslər Allahın ona verdiyi möcüzəli psixi vəziyyətdir. Möminin ekstaz halında danışdıqlarının Yerdəki hansısa dillərə uyğun olması fikirləri də vardır.

Müqəddəs Ruhun möminin bədəninə qoyduğu əhəmiyyətli ənamlardan biri də peyğəmbərlikdir. "Peyğəmbərlik" adı altında ilk növbədə gələcəkdən xəbərvermə qabiliyyəti anlaşılır. Lakin bununla onun qabiliyyəti bitmir. Bu ənamı almış kəs keçmiş və indiki dövrün hadisələrini izah edir, insanların gizli qüsurlarını üzə çıxarır.

Şəfavericilik ənamı almış mömin o kəsdir ki, dərman və digər müalicə üsullarından istifadə etmədən, yalnız duaların köməyi ilə xəstələri sağaldır.

Müqəddəs Ruhun möminin bədəninə qoyduğu digər ənam dilləri izah etmək məharətidir. Bu ənamı qazanmış kəs çətinlik çəkmədən möminlərin ekstaz halında danışdığı "xarici dilləri" və gördükləri "görüntüləri" izah edir.

## Yahova şahidləri

**Tarixi məlumat**. Yahova şahidləri dini məzhəbi XIX əsrin 70-80-ci illərində ABŞ-da yaranmışdır. Bir çox xristian məzhəbləri ayrılmalar (məsələn, lüteranlıq – katolisizmdən, baptizm – kalvinizmdən, adventistlər və əllincilər basptizmdən) yarandığı halda, Yahova şahidləri məzhəbi belə yaranmamışdır. Bu məzhəbə o zaman ABŞ-da mövcud xristian məzhə-



blərinə ümidlərini itirmiş insanlar qoşulmuşdu. Onun əsası Çarlz Rassel (1852-1916) tərəfindən qoyulmuşdur. O, öz dini ideyalarını ilk dəfə 1874-cü ildə nəşrdən çıxmış "Allahın qayıtmasının məqsəd və qaydası" adlı kitabçasında şərh etmişdir. Rasselin ətrafina ardıcıllarından ibarət bir qrup toplanaraq, özlərini "Bibliya tədqiqatçıları" dərnəyi adlandırırlar. Rassel 1884-cü ildə öz dini təşkilatını Pittsburq (Pensilvaniya ştatı) şəhərində "Keşikçi qülləsi, Bibliya və kitabçalar cəmiyyəti" adı ilə qeydiyyatdan keçirir. Rassel bu cəmiyyətin ilk prezidenti olur. İkinci prezident İosif Ruterfordun zamanında, 1931-ci ildə cəmiyyətin adı dəyişdirilərək, "Yahova şahidləri cəmiyyəti" adlandırılır. Hazırda məzhəb bu ad altında tanınır.

Keçmiş SSRİ ərazisində ilk Yahova şahidləri icması 1927-ci ildə təşkil olunmuşdur. İkinci dünya müharibəsi ərəfəsində Yahova şahidləri icmaları əsasən Ukrayna, Belorus, Moldovo, Baltikyanı respublikalarda cəmləşmişdi. Müharibədən sonra bu məzhəbin ardıcıllarına qarşı geniş təqib kampaniyası aparılır. Onlar ölkə ucqarlarına sürgün olunurlar. Nəticədə yuxarıda adı çəkilən ərazilərlə yanaşı Rusiyanın Avropa hissəsində, Qazaxıstan, Sibir və Uzaq Şərqdə və hətta Kamçatka yarımadası və Saxalin adasında Yahova şahidləri icmaları yaranır. Əgər 1946-cı ildə bütün SSRİ ərazisində Yahova şahidlərinin toplantılarına 8633 nəfər gəlirdisə, 1956-cı ildə onların sayı artıq 17 min nəfərdən çox idi. Cəmiyyət 1989-cu ildən açıq fəaliyyətə keçmişdir.

**Təşkilatı**. Cəmiyyət üzvlərinin məlumatına görə dünyada Yahova şahidləri cəmiyyəti üzvlərinin sayı 14 milyondan çoxdur. Dünyanın 230 ölkəsində bu məzhəbin ardıcılları yaşayır.

Yahova şahidləri icmaları beynəlxalq miqyasda vahid dini təşkilatda birləşmişlər. Bu təşkilat "Yahova şahidlərinin Beynəlxalq cəmiyyəti" adlanır. Onun Ali orqanı – "Rəhbərlik Şurası" Nyu-Yorkda, Bruklində yerləşmişdir. Rəhbərlik şurası dünya üzrə

Yahova şahidləri icmalarına “Keşikçi Qülləsi” və “Oyanın!” jurnalları vasitəsilə rəhbərlik edir. “Keşikçi qülləsi” 125 (20 milyon tiraj), “Oyanın!” (13 milyon tiraj) 80 dildə nəşr olunur. Rəhbərlik Şurasının qərarları möminlər üçün qanun hesab olunur.

Ayrı-ayrı ölkələrdə icmalara “Rəhbərlik Komitəsi” başçılıq edir. Komitəyə sədr rəhbərlik edir. Sədr icmalarda seçki yolu ilə deyil, ali təsisat tərəfindən təyin edilir.

**Teoloji əsasları**. Yahova şahidləri dini təlimini dörd teoloji qata bölmək mümkündür. Birinci qat – antik xristian qatıdır. Digər xristian məzhəblərindən fərqli olaraq, Yahova şahidləri məzhəbində antik xristian qatından az təlim qalmışdır. Bu məzhəbdə xristianlığın təməlini təşkil edən Üçlük, ruhun ölməzliyi, axirət həyatının Cənnət və Cəhənnəmə bölünməsi, İsa Məsihin Allah-İnsan olması, İsa Məsihin fiziki bədəndə ikinci zühuru və Onun qeyri-müəyyən vaxtda gəlməsi ideyası inkar edilir. Bununla belə, Yahova şahidləri digər xristianlar kimi Bibliyanı yeganə Müqəddəs Kitab hesab edir, mələklər və iblislərin (Yahova şahidləri yeganə xristian məzhəbidir ki, İblisin adını böyük həriflərlə yazırlar) mövcudluğunu, peyğəmbərlər haqqında təlimi təsdiq edir, İsa Məsihin birinci zühuruna və Onun qurbanlıq quzutək bəşəriyyəti günahlardan təmizləməsinə inanırlar.

Yahova şahidləri təlimində ikinci teoloji qat – protestant qatıdır. Yahova şahidləri özlərini protestantlığa aid etməsələr də, onun izlərini təlimlərində görmək mümkündür. Bunlar aşağıdakılardır:

- ümumi ruhanilik haqqında təlim;
- tək imanla bəraət qazanmaq haqqında təlim;
- Bibliyanın dini təlimin yeganə mənbəyi olması haqqında təlim;
- Bibliyanı oxumaq vəzifəsi.

Lakin sonuncuda Bibliyanı şərh etmək hüququ hamıya deyil, şahidlərin səma sinfinə, yəni “Rəhbərlik Şurasına” verilmişdir.

Yahova şahidləri dini təlimində üçüncü teoloji qat – adventist qatıdır. Bura aşağıdakılar daxildir:

- yeniyetmələrin vəftiz olunmasının mümkünlüyü;

- Ruh haqqında təlim (ruh bədəndən ayrı mövcud ola bilməz və o bədənlə birgə ölür);

Yahova şahidləri dini təlimində başqa xristian məzhəblərində müşahidə edilməyən təlimlər vardır ki, onlar dördüncü – xüsusi teoloji qatı əmələ gətirir. Bunlar aşağıdakılardır:

- Allah haqqında təlim;
- İsa Məsih haqqında təlim;
- İsa Məsihin ikinci gəlişi (zühuru) haqqında təlim;
- Armagedon haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- Rəbbin süfrəsi haqqında təlim;
- 1914-cü il haqqında təlim.

*Allah haqqında təlim (xüsusi qat).* Bu təlimin əsas ideyası – Üçlüyün inkarıdır. Allah təkdir və O, vahid Ruhi Şəxsiyyət kimi mövcuddur. Başqa xristian məzhəblərinin Allah-Ata adlandırdıqları məbud – Tək vahid Allahdır. Allah Xaliq və dünyanın hökmdarıdır. "Müqəddəs Ruh" və ya "Allahın Ruhu" ifadələri Vahid Allahın başqa hissələrini deyil, Tək Allahın gücünü göstərir. İsa Məsihə gəldikdə isə O Allah deyildir. Bəs onda O kimdir? Bu xüsusi təlim olub, onun haqqında bir qədər sonra.

Allaha Onun adı ilə müraciət edilməlidir. Onun adı – Yahovadır. Baptistlər kimi Yahova şahidləri də Allahı bədənsiz hesab edirlər və O heç vaxt insan qiyafəsində insanların yanına gəlməmişdir. Ona görə də Onun təsviri yoxdur və ola da bilməz.

*İsa Məsih haqqında təlim (xüsusi qat).* Öz təbiətinə görə İsa Məsih nə Allah, nə Allah-İnsan, nə də İnsandır. Əgər O Allah və ya insan deyilsə, bəs onda O, kimdir və ya nədir? O – mələkdir. Lakin O sıravi mələk deyildir. İsa Məsih - ən Ali mələkdir. Bütün mələklər Allahın xəlq etdikləridir. Ona görə də İsa Məsihi Allahın oğlu adlandırmaq olar. Lakin Allah-Oğul adlandırmaq olmaz. İsa Məsihin ikinci adı Söz (başqa xristian məzhəbləri də bunu qəbul edir), üçüncü adı – Mikayıldır. 1914-

cü ildə İsa Məsih Yahovadan “səma sultanı” titulunu almış və Yahovanın göstərişi ilə İblisi və şeytanları göydən Yerə qovmuşdur. Onlar indi orada yaşayır və fitnə-fəsad törətməklə məşğuldurlar.

Möminlər İsa Məsihə ehtiram göstərməlidirlər, amma bu ehtiram həddi aşmamalıdır. İsa Məsihlə bağlı moizə və söhbətlərdə Onun haqqında hörmətlə danışılmalıdır. Onun adı dualarda səsləndirilməlidir. Lakin İsa Məsihə yalvarmaq və Ondan kömək istəmək olmaz. Yalnız Yahovaya dua etmək və Ondan kömək diləmək lazımdır.

Yahova şahidləri bütün xristianların İsa Məsihin şərəfinə qeyd etdikləri Milad, Pasxa və digər bayramları və çarmıxa və ikonaya ehtiramı bütpərəstlik adətləri hesab edirlər. Bunu onunla əsaslandırırlar ki, Bibliyada onlar haqqında göstərişlər yoxdur.

*İsa Məsihin ikinci iştirakı haqqında təlim (xüsusi qat).* Bu təlimin qayəsi odur ki, İsa Məsihin insanlarla birinci rabitəsini Onun Gəlişi və ya Zühuru adlandırmaq mümkündür. Onun insanlarla ikinci rabitəsini Gəliş və ya Zühur adlandırmaq düzgün deyildir, bu yalnız “iştirak” adlandırıla bilər. Çünki zühur – eyni zamanda həm fiziki, həm də ruhani rabitədir, iştirak isə yalnız ruhani rabitədir. Yahova şahidlərinin nəzərincə, başqa xristian məzhəbləri İsa Məsihin İkinci Zühurunu yanlış olaraq gözləyirlər. Bu hadisə baş verməyəcəkdir. İsa Məsihin İkinci iştirakına gəldikdə isə o artıq 1914-cü ildə başlamışdır. İsa Məsih ruhani iştirak etdiyinə görə gözəgörünməzdir. Yerdə xristian qaydalarının bərqərar olması Onun ruhani iştirakının ifadəsidir. “Xristian qaydalarının bərqərar olması” dedikdə isə Yahova şahidlərinin Beynəlxalq cəmiyyətinin mövcudluğu başa düşülür.

Başqa dini məzhəblərin “Dünyanın axırı” adlandırdığı hadisəni, Yahova şahidləri “cisimlər sisteminin axırı” adlandırırlar. İsa Məsihin İkinci iştirakının başlanğıcı ilə “cisimlər sisteminin axırı”nın başlanğıcı arasında “hazırlıq dövrü”

adlanan zaman kəsiyi keçməlidir. Hazırlıq dövrünün sonunu Yahova şahidləri “Son günlər” adlandırırlar. Biz məhz indi həmin dövrü, yəni “son günlər”i yaşayırıq.

*Armagedon haqqında təlim (xüsusi qat).* Bu təlimə görə cisimlərin bu sisteminin sonu işıq qüvvələri ilə zülmət qüvvələri arasında Müqəddəs Müharibə - Armagedon nəticəsində gələcək. Armagedon dövrünü Yahavo şahidləri “Böyük hüzn zamanı” adlandırırlar. İşıq qüvvələri – Məsih və mələklər, zülmət qüvvələri – İblis, şeytanlar və kafirlərdir. Bu müharibədə zülmət qüvvələri məğlub ediləcəklər. Kafirlər həmin an məhv ediləcək. İblis və şeytanlar əsir ediləcək və 1000 il ərzində Dibsiz Cəhənnəm quyusuna salınacaq və sonra məhv ediləcəklər.

“Armagedon” sözünün tərcüməsi yoxdur. Bu söz Bibliyada yalnız bir yerdə işlədilmişdir: “*Və onları, ibranicə Har Megidon adlanan yerə topladılar...*” (Vəhy 16:16). Armegedon nə vaxt baş verəcək? Cavab: Tezliklə. Lakin onun günü və saatını Yahovadan başqa heç kim bilmir. Son illərə kimi deyilirdi ki, 1914-cü il ətrafında doğulmuş insanların həyatı ərzində bu hadisə baş verəcəkdir.

*Axirət həyatı haqqında təlim (xüsusi qat).* Bir çox cəhətlərinə görə Yahova şahidlərinin axirət həyatı haqqında baxışları adventistlərə uyğun gəlir. Lakin o bütövlükdə orjinallığı ilə seçilir. Bu təlimin birinci hissəsində, adventistlərin təlimində olduğu kimi, söhbət axirət həyatının başlanması vaxtından gedir. Adventistlər təlimində axirət həyatı İsa Məsihin ikinci zühuru ilə başlayacaq, Yahova şahidləri təlimində isə o, 1918-ci ildə başlamışdır, amma hələ tam gücü ilə işə düşməmişdir. İsa Məsih 1918-ci ildə görkəmli möminləri diriltmiş və onları Özünün səma səltənətində yerləşdirmişdir. İsa Məsihin səma səltənətində 144 min seçilmişin yerləşdiriləcəyi gözlənilir. Bu rəqəm Bibliyadan götürülmüşdür. Orada deyilir ki, “*İsrail oğullarının bütün qəbilələrindən yüz qırx dörd min nəfər möhürlənmişdi*” (Vəhy 7:4). Bu seçilmişlər İsa Məsihin rəhbərlik etdiyi mükəmməl səma hökumətinin üzvləridir.

Hökumət üzvlərinin çoxu artıq öz yerlərini tutmuşdur. Bəziləri isə hələ yerdədirlər.

Təlimin ikinci hissəsində, adventistlər təlimində olduğu kimi, Cəhənnəmin mövcudluğu inkar edilir. Yahova təliminə görə Cənnət iki səviyyədə olacaq: Səma və Yer. Səma Cənnəti artıq fəaliyyətdədir və orada Yahova qarşısında xüsusi xidmətləri olmuş möminlər yerləşdirilmişdir. Yer Cənnəti Armagedondan sonra yaradılacaq. Bu tədricən baş verəcəkdir. Ora qalan möminlər köçürüləcəklər. Səma Cənnətinin sakinlərini, Yahova şahidləri, "kiçik sürü" və ya möminlərin "səma sinfi" adlandırırlar. Səma sürüsü Məsihin 144 min mömindən ibarət "Nazirlər Kabineti"dir. Yer Cənnətinin sakinlərini "böyük sürü" və möminlərin "yer sinfi" adlandırırlar. Bunlar gələcək birləşmiş Səma-Yer səltənətinin sıravi vətəndaşlarıdır. Əgər Səma Cənnətində sakin olanların sayı məhduddursa (144 min nəfər), Yer Cənnətində bu məhdudiyyətlər yoxdur. Bütün Yer kürəsinin sakinləri Yer cənnətinə daxil ola bilər. Bundan ötrü onlar Yahova şahidlərinin dini təlimini qəbul etməli və ona uyğun həyat-tərzi sürməlidirlər.

Təlimin üçüncü hissəsində, adventistlərdə olduğu kimi, axirət həyatında möminləri gözləyən mükafatdan danışılır. Əgər təlimin ikinci hissəsinə uyğun olaraq, möminlər iki yerə bölünürsə, demək onları gözləyən mükafat da fərqlidir. Kiçik sürünün nümayəndələrinin böyük hissəsi 1918-ci ildə dirilib, qalanları öldükdən dərhal sonra diriləcək. Kiçik sürünün bütün nümayəndələri səma səltənətində həzzlər içində əbədi yaşayır. Böyük sürünün nümayəndələri mömin həyatlarına görə mükafatı Armagedon hadisəsindən sonra alacaqlar. Əvvəl ölmüşlər diriləcək, Armagedondan sağ çıxmışlar ölümdən azad ediləcək, onların bədənləri təzələnəcək. İsa Məsih ölüləri dirildəcək. Böyük sürünün bütün nümayəndələri yerdə əbədi həzzlər içində yaşayacaq.

Təlimin dördüncü hissəsində, adventistlərin təlimində olduğu kimi, tövbə etməmiş günahkarların və kafirlərin cəzalandırılmasından danışılır. Bu kateqoriyadan olan insanların, əvvəllər ölmüş

hissəsi dirildilməyəcək, qalanları isə Armagedon zamanı məhv ediləcək.

Bu təlimdə beşinci hissə də vardır. Söhbət burada, obyektiv səbəblərdən Yahova şahidləri təlimi haqqında eşitməmiş insanların dirildilməsindən gedir. Onlar ilk dəfə həyatlarında haqq sözü eşidəcəklər. Onların bir hissəsi Yahova şahidləri təlimini qəbul etmədiyinə görə məhv ediləcək, qalanları isə böyük sürüyə qoşularaq əbədi həzzlər içində yaşayacaqlar.

*Rəbbin süfrəsi haqqında təlim (xüsusi qat).* Yahova şahidlərində Rəbbin süfrəsi təkcə ayin deyil, həm də bayramdır. Yahova şahidləri onu ildə bir dəfə, 14 Nisanda (yəhudi pasxasının birinci günü) icra edirlər. Bu, Yahova şahidlərinin keçirdiyi yeganə bayramdır. Burada məqsəd, baptistlərdə olduğu kimi, xatırlama ideyasıdır. Başqa xristian məzhəblərinin "çörək və şərabdadma" adlandırdığı bu ayin Yahova şahidləri təlimində tamamilə dəyişdirilmişdir. Belə ki, çörək və şərabdan yalnız "məsh olunmuşlar" (səma sinfinin nümayəndələri) dada bilər. Qalanları isə onu ayin zamanı əldən-ələ ötürməlidirlər.

*1914-cü il haqqında təlim (xüsusi qat).* Yahova şahidlərinin təliminə görə dünyanı sarsıtmış 1914-cü il bəşəriyyətin taleyində dönüş ili olmuşdur. Həmin ildə aşağıdakı hadisələr baş vermişdir:

1. İsa Məsih İblisi və şeytanları göydən Yerə qovmuşdur;
2. İsa Məsih Yahovadan "Səma sultanı" titulu almışdır;
3. Yerdə İsa Məsihin ikinci iştirakı başlamışdır

Yahova şahidləri təlimində bu müddəalar Bibliya mətnlərinin təhlili əsasında çıxarılmışdır. Bunların məntiqi ardıcıllığı aşağıdakılardır:

*Birincisi,* Zəburda (109:1) deyilir ki, Rəbb, yəni İsa Məsihin səma hökmranlığı, Onun səmaya çəkilmə anından başlanır. O, bir müddət Allahın sağ tərəfində əyləşib, Rəbbin düşmənlərinin məhv ediləcəyi zamanın gəlişini gözləyəcək. İbranilərə Məktubda da (10:12-13) İsa Məsihin Allahın sağ tərəfində oturduğu və düşmənlərin məhv ediləcəyi zamanı gözləməsi təsdiq edilir.

*İkincisi*, “Gözlənilən zaman” İsa Məsihin edam anından deyil, Yerusəlim məbədinin babillilər tərəfindən dağıdıldığı ildən, yəni b.e.ə.607-ci ildən götürülür. Hökmdarlar Kitabı (3) 11-ci surə 36-cı ayədə Yahova Yerusəlim şəhəri haqqında deyir ki, “ ......*Mənim adımım orada qalmasından ötrü seçdim”.*

*Üçüncüsü*, Daniel peyğəmbər demişdir ki, Yerusəlimin məhvi “yeddi zaman” davam edəcək (Daniel, 4:20).

## § 8. İslam



**Tarixi.** “İslam” sözünün lüğəti mənası “təslim olmaq”dır. İslam dini insandan Allahın iradəsinə və qanunlarına qeydsiz-şərtsiz təslim olmağı tələb etdiyi üçün ona bu ad verilmişdir. İslam dini VII əsrin əvvəllərində Ərəbistan yarımadasının qərbində Həzrət Məhəmməd (s) peyğəmbərə (571-632) nazil olmuşdur. Həzrət Məhəmməd (s) Məkkə şəhərində, Qüreyş qəbiləsinin Haşim soyunda doğulmuşdur. Valideynləri o hələ uşaq ikən vəfat etdiyindən əvvəlcə babası Əbdülmüttəllibin, sonra isə əmisi Əbu Talibin himayəsi altında böyümüşdür. On iki yaşına çatanda əmisi ilə Suriyaya ticarət səfərinə getmişdir. Bu səfər zamanı xristian rahibi Bəhirə onu görüb peyğəmbər olacağını xəbər vermişdir. Həzrət Məhəmməd (s) peyğəmbər 610-cu ildən etibarən Allahdan göstərişlər, yəni Vəhylər almağa başlamışdır. Cəbrail vasitəsi ilə Allahdan aldığı ilk ayədə deyilirdi:

“*Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir. O Rəbbin ki, qələmlə öyrətdi. İnsana bilmədiklərini öyrətdi*” (əl-Ələq, 1-5).

Qeybdən gələn səs 23 il ərzində Ona Müqəddəs Kitabın – Quranın məzmununu çatdırmışdır. 632-ci ildə Peyğəmbər

Məkkəyə “vida həccinə” yollanır. Bu səfər zamanı Ona Quranın sonuncu ayəsi nazil olur. Orada deyilirdi:

“*Bu gün dininizi sizin üçün tamamladım və sizin üçün bir din olaraq İslamı bəyənib seçdim*” (əl-Maidə, 3).

Ziyarətdən qayıtdıqdan bir müddət sonra Həzrət Məhəmməd (s) peyğəmbər 63 yaşında vəfat edir. Onun vəfatından sonra ərəb ordularının hərbi yürüşləri nəticəsində İslam dini Afrikanın şimalından Çinin şərqinə kimi böyük ərazilərə yayılır.

İslamda VII əsrin ikinci yarısında ilk ayrılma baş verir. Bu ayrılma nəticəsində İslam iki məzhəbə bölünür: sünnülik və şiəlik. VIII əsrdə bu dəfə şiəlikdə məzhəb ayrılması İsmailiyin yaranmasına gətirib çıxarır. Hazırda İslam daxilində onlarca məzhəb və təriqətlərin olmasına baxmayaraq, İsmailik istisna olmaqla, onların arasında dini təlimlərin teoloji əsaslarında xristianlıqda müşahidə edilən kəskin fərqlər yoxdur. Beləliklə, İslam daxilində üç məzhəb – sünnülik, şiəlik və İsmailik mövcuddur. Bunlar içərisində ən geniş yayılmış sünnülikdir (80%).

**Təşkilatı**. Dünyada İslam ölkələrinin sayı 44-dür: Avropada 1 (Albaniya), Afrikada 16 (Misir, Əlcəzair, Sudan, Mərakeş və s), Asiyada 26 (İran, İraq, Əfqanıstan və s.). Bir ölkə həm Asiyada, həm də Avropada yerləşmişdir. Bu Türkiyədir. Qırx müsəlman ölkəsində sünnilər, yalnıs dördündə (İran, İraq, Azərbaycan, Bəhreyn) şiələr əhalinin böyük hissəsini təşkil edir. Təqribi hesablamalara görə müsəlmanların sayı 1,2 milyarddan çoxdur. Qitələr üzrə bu göstərici aşağıdakı kimidir:Asiya - 800 milyon; Afrika - 350 milyon; Avropa - 40 milyon; Amerika - 7,5 milyon; Avstraliya və Okeaniya - 500 min nəfər.

**Teoloji əsasları**. Biz burada İslamın teoloji əsaslarını ümumi şəkildə, əvvəlki dinlərə tətbiq etdiyimiz metodlardan istifadə etməklə, lakin sünnülik və şiəlikdəki məzhəb fərqlərini xüsusi vurğulamadan nəzərdən keçirəcəyik. İslamda yalnız İsmailik məzhəbinin teoloji əsasları qalan iki məzhəbdən fərqli cəhətlərə (məsələn, Allahdan başqa dünyada “dünya zəkasının olması” haqqında təlim, ruhun bir bədəndən başqasına köçürülməsi və s.)

malikdir. Azərbaycanda İsmailik məzhəbinin ardıcılları olmadığına görə bu bölmədə onun teoloji əsasları təhlil edilməyəcək.

İslamın (sünnülik və şiəlik) teoloji əsaslarını təşkil edən təlimlər aşağıdakılardan ibarətdir:

- Allah haqqında təlim;
- fövqəltəbii varlıqlar (mələklər, hurilər, cinlər, İblis, Bürak) haqqında təlim;
- Müqəddəs kitablar haqqında təlim;
- Peyğəmbərlər haqqında təlim;
- Ruh haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- Dua haqqında təlim;
- Oruc haqqında təlim;
- Cihad haqqında təlim;
- Həcc haqqında təlim;
- İmamət haqqında təlim;
- Mehdinin gəlişi haqqında təlim.

*Allah haqqında təlim*. İslam təlimində Allah Tək, Şəriksiz, Birinci, Axırıncı, Gözə görünməyən, Misilsiz və Tayı olmayan bir zat kimi qəbul edilir. Allah haqqında bu baxış Tövhid adlanır. Tövhid – vahidlik, təklik, bir olmaq deməkdir. Xristianlıq təlimindən fərqli olaraq, İslamda Allah bir sifətli zat kimi qəbul edilir. Allah dünyanı, canlıları, insanı, Cənnət və Cəhənnəmi xəlq etmişdir. Ən gözəl 99 ad Allaha məxsusdur: Vahid, Əbədi, Əzəli, Böyük, Qüdrətli, Aqil, Adil, Rəhman və s. Qurani-Kərimdə deyilir:

"*Ən gözəl adlar Allahındır, onu bu adlarla çağırın, onun adlarını dananlardan əl çəkin; tezliklə öz əməllərinin cəzasına yetəcəklər*" (Əraf, 180).

İnsanın məhdud düşüncəsi Allahın zatını (vücüdunu) anlamağa qadir deyildir. Allah elə mücərrəd və mütləq sifətlərə malikdir ki, ya insan ümumiyyətlə bu sifətlərə malik ola bilməz, yaxud da bu sifətlər insanda, Allahda olduğu səviyyədə mövcud ola bilməz. Deməli, insan Allahın özünü deyil, onun sifətlərini tanımağa çalışmalı, bu sifətlər əsasında özündə Allah barədə təsəv-

vür yaratmalıdır. Allahın sifətləri Onun zatı ilə eynidir və onunla vəhdət əmələ gətirir. Sifətlər Allahdan ayrılmazdır. Allah heç zaman bu sifətlərsiz olmayıb və olmayacaq. Allahın sifətləri iki qrupa ayrılır:

1.*Səlbiyyə sifətləri* – onların Allahda olması qeyri- mümkündür, yəni bu sifətlər (məsələn, mürəkkəb, cism, görünən və s.) Allaha əskiklik və nöqsan gətirir, buna görə də onlar Allahda yoxdur.

2. *Sübutiyyə sifətləri* – onların Allahda olması vacibdir; Allah sübutiyyə sifətlərsiz (məsələn, qadır, alim, qədim və əzəli və s.) mövcud ola bilməz.

*Fövqəltəbii varlıqlar haqqında təlim (mələklər).* Mələklərin əsas funksiyası Allaha köməkçi olmaq və xeyirxah işlər görməkdir. Onların sayı milyardlarladır. Allah onları işıqdan yaratmışdır. Onlar ölümsüz, bədənsiz və cinssiz varlıqlardır. Mələklər içində dörd mələk Allaha daha yaxın hesab olunurlar:

Cəbrail
İsrafil
Mikayıl
Əzrail

Cəbrail – Allahla peyğəmbərlər arasında, İsrafil – Allahla mələklər arasında vasitəçidirlər. İsrafilin ikinci funksiyası Qiyamətin carçısı olmaqdır. O, əlində sur hazır vəziyyətdə duraraq, Allahın təyin etdiyi gündə onu çalmalı və dünyaya Qiyamətin gəldiyini çatdırmalıdır. Mikayıl Kainatda nizamın saxlanmasına cavabdehdir. Əzrail – ölüm mələyidir. O, insanların ruhunu ölüm anında bədənlərindən ayırır. Allaha yaxın bu mələklərdən başqa hər bir insanı qoruyan iki mələk (katib mələklər) vardır ki, bunlar insanın yaxşı və pis əməllərini yazırlar. Nəkir və Münkər qəbirdə ölüləri sorğu-suala tutacaq iki mələkdir. Rizvan cənnətin, Malik isə Cəhənnəmin keşiyini çəkən mələklərin adıdır.

*Fövqəltəbii varlıqlar haqqında təlim (cinlər).* Cinlər Allahın oddan xəlq etdiyi xüsusi fövqəltəbii varlıqlardır. Onlar iki qrupa

bölünürlər: şər cinlər və xeyirxah cinlər. Şər cinlərin funksiyası adlarından göründüyü kimi şər işlər törətmək, xeyirxah cinlərin funksiyası isə xeyirxah işlər görməkdir. Allah tərəfindən xəlq ediləndə onların hamısı şər cinlərdən ibarət idi. Lakin Məhəmməd (s) peyğəmbərin gəlişi ilə vəziyyət dəyişmişdir. Quranda həm insanlar, həm də cinlər haqq dinə dəvət olunurlar. İlahi Vəhyin təsiri altında cinlərin bir hissəsi İslamı qəbul etmiş, Məhəmməd (s) peyğəmbərin ardıcıllarına çevrilmiş və İslamın yayılmasında iştirak etmişlər.

Bütün şər cinlər insanlara ziyan vurmağa çalışırlar. Onlar arasında ən qəddarları "şeytanlar" adlanır. Cinlərin sayı haqda məlumat yoxdur. Lakin onların çox olması məlumdur. Cinlərin bədəni vardır. Görkəminə görə onlar çox eybəcərdirlər, amma onlar insan görkəminə də girə bilirlər. Cinlər cinsə malikdir və öz aralarında və insanlarla intim münasibətə girə bilirlər. Onlar ölümsüzdürlər.

Şər cinlər içərisində, İslam təlimində Şeytan və ya İblis adlanan cinə xüsusi yer verilmişdir. O, Allah tərəfindən mələk kimi yaradılmışdır. Lakin Allahın insana səcdə etmək əmrini yerinə yetirməkdən imtina etmiş və bu səbəbdən də şər cinə çevrilmişdir. Əgər xristianlıq təlimində bütün cinlərin (murdar ruhların) əvvəlcə mələk olması iddia edilirsə, İslamda yalnız bir cin, yəni İblis və ya Şeytan keçmişdə mələk olmuşdur.

*Fövqəltəbii varlıqlar haqqında təlim (hurilər).*Hurilər (ərəb. "qaragöz") Allahın xəlq etdiyi xüsusi Cənnət qadınlarıdır. Onların əsas vəzifəsi Cənnətdə yerləşmiş möminlərə intim və digər xidmətlər göstərməkdir. Ona görə də hurilər haqqında təlim axirət həyatı haqqında təlimin bir hissəsi kimi çıxış edir.

İslam təliminə görə, hər bir mömin kişi Cənnətdə iki qrup qadına sahib olacaq. Birinci qrup qadınlar onun yerdəki həyat yoldaşlarıdır ki, Cənnətdə də onun yanında olacaq; ikinci qrup qadınlar hurilərdir ki, onlar möminlərə mükafat olaraq verilir.

*Fövqəltəbii varlıqlar haqqında təlim (Büraq).* "Büraq" ərəb dilində "İldırım", "Şimşək" mənasındadır. Büraq at bədənli, insan

başlı, qartal qanadlı xüsusi fövqəltəbii varlıq kimi Həzrət Məhəmməd (s) peyğəmbər haqqında təlimin hissəsi kimi çıxış edir. O, bir gecə, dəqiq desək, peyğəmbərliyin 10-cu ilində (619-cu il) rəcəb ayının 27-də Həzrət Məhəmməd (s) peyğəmbəri bir göz qırpımında Məkkədən Yerusəlimə, oradan da Allahla söhbətdən ötrü göyün yeddinci qatına qaldırmışdır. Bu hadisə İslam mənbələrinə Merac hadisəsi adı altında daxil olmuşdur.

*Müqəddəs Kitablar haqqında təlim.* İslamda Müqəddəs Kitablar üç qrupa bölünür: birinci qrupa, yalnız bir kitab daxildir – Allahın mələk Cəbrail vasitəsilə Həzrət Məhəmməd (s) peyğəmbərə çatdırdığı "Qurani-Kərim". Quranın müəllifi Allahdır. Ərəb dilindən tərcümədə "Quran" – "qiraət olunan, oxunan kitab" mənasını verir. Quranda 114 surə vardır. Bunlardan ən uzunu 286 ayədən ibarət əl-Bəqərə surəsi, ən qısaları isə 3 ayədən ibarət əl-Kəusər, ən-Nəsr və əl-Əsr surələridir. 90 surə Məkkədə, 24 surə Mədinədə nazil olmuşdur; ikinci qrupa, "Sünnə" adı altında Həzrət Məhəmməd (s) peyğəmbərin nitqlərindən, Onun həyatı, davranışı və hərəkətləri haqqında söhbətlərdən (hədislərdən) ibarət toplum daxildir. Bütün hədislər uzun illər şifahi şəkildə ötürülmüşdür. IX-X əsrlərdə onlar tanınmış din xadimləri tərəfindən qələmə alınmışdır. Həmin xadimlərdən ən məşhurları Buxari, Nişapuri, Tirmizi və digərləri olmuşdur. Əbu Abdullah əl- Buxari 600 min hədisi tədqiq edib, onlardan yalnız 7250 hədisin səhih (düz) olduğunu müəyyən etmişdir; üçüncü qrupa, Qurani-Kərim mətnlərində adı çəkilən və müsəlmanların ehtiramla yanaşdığı Kitablar daxildir. Xronologiya üzrə bunlar aşağıdakılardır:

Davudun Zəburu
Musanın Tövrəti
İsanın İncili

Lakin İslam təliminə görə, hazırda yəhudilərin və xristianların əlində olan həmin kitabların mətnləri insan əli ilə o qədər dəyişdirilmiş və təhrif olunmuşdur ki, öz ilahi mahiyyətini itirmişdir. Bu səbəbdən Allah Qurani-Kərimi yerə endirmiş və bütün həqiqətləri orada açıqlamışdır.

*Peyğəmbərlər haqqında təlim*. Bu təlimin əsas ideyası Yəhudilik və Xristianlıqda olduğu kimidir. İslam təliminə görə, Peyğəmbər Allahın adından və Onun xüsusi göstərişi ilə göndərilmiş şəxslərdir. Onların əsas funksiyası İlahi həqiqətləri insanlara çatdırmaqdır. Onların gətirdikləri həqiqətlər üç hissədən ibarətdir:

- Haqq din haqqında həqiqət (Allaha necə inanmaq);
- Mömin həyatı haqqında həqiqət (necə yaşamalı);
- Gələcək haqqında həqiqət (insanları gələcəkdə nələr gözləyir).

"Peyğəmbər" fars sözüdür. Qurani-Kərimdə "nəbi" və "rəsul" ifadələrindən istifadə olunur. Nəbi Allahdan xəbər gətirən, Rəsul isə Allahın elçisidir. Nəbilərin sayı 124 mindir. Nəbilər arasında 313 nəfər ayrılır ki, onlar həm də "rəsuldurlar". Bu Allah Elçiləri Allahdan həm şifahi, həm də yazılı Vəhylər almışlar. Beləliklə, bütün rəsullar həm də nəbilərdir, amma bütün nəbilər rəsul deyillər. Quranda cəmi 27 peyğəmbərin (nəbi və rəsulun) adı çəkilmişdir. Peyğəmbərlər içərisində 9 peyğəmbərin məqamı daha yüksək tutulur. Bunlar aşağıdakılardır: Nuh, İbrahim, Yaqub, Yusif, Musa, Əyyub, Davud, İsa Məsih, Məhəmməd (s). Həzrət İsa Məsih Allahın böyük nəbisi və rəsuludur. Lakin xristianların iddia etdiyi kimi, O Allah deyildir. Bu haqda bir qədər sonra.

*Peyğəmbərlər haqqında təlim (İsa Məsih).* Həzrət İsa Məsih məqamına görə Məhəmməddən (s) sonra ikinci hesab olunur. Qurani-Kərimdə O, "Məryəm oğlu İsa" adıilə verilmişdir. O, Allahın rəsulu olub, insanlara İncili nazil etmişdir. O, Allaha daha yaxın peyğəmbərlərdəndir. Ona görə də Allah Ona gildən quş yaratmaq, xəstələrə şəfa verməк və hətta ölüləri diriltmək qabliyyəti vermişdir.

İsanın anası Məryəm, atası Allahın İradəsi olmuşdur. Quranda deyilir ki, Məryəm insanlardan uzaqlaşıb səhraya çəkiləndə ona mələk nazil olur və ona bildirir ki, o, dünyaya oğlan uşağı gətirəcək ki, həmin uşaq insanlara "əlamət" olacaq. Sonra Qurani-Kərim buyurur:

"*O, dedi: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm" dedi: "Elədir, lakin Rəbbin buyurdu ki, bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə, dərgahımızdan olan bir mərhəmət kimi edəcəyik. Bu, əzəldən tədqir olunmuş bir hökmdür!" Artıq hamilə oldu və onunla birlikdə bir yerə çəkildi*" (Məryəm, 19/20-21).

Məryəm yeni doğulmuş körpəsi ilə insanların yanına qayıdır, onlar onu zinakarlıqda ittiham edirlər. Bu zaman beşikdə uzanmış İsa şəhadət verir:

*"...İsa dedi: "Mən həqiqətən Allahın quluyam. O, mənə Kitab verdi, özümü də peyğəmbər etdi..."* (Məryəm, 19/29-33).

Müsəlmanlar xristianların Həzrət İsa Məsihin çarmıxda ölməsi fikrini səhv hesab edirlər. Onların nəzərincə, hadisələr başqa cür cərəyan etmişdir: düşmənləri Həzrət İsa Məsihi öldürmək istəyəndə, Allah Onu sağ ikən səmaya, Öz yanına aparmışdır. Səmada Allah Ondan soruşmuşdur:

*"...Ya Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin" – demişdin?"* (Maidə, 166).

Cavabında Həzrət İsa Məsih Allahı əmin edir ki, o insanları yalnız Tək olan Allaha ibadət etməyi öyrətmişdir.

İslam təliminə görə, Həzrət İsa Məsih ikinci dəfə Yerə Həzrət Mehdi ilə birgə qayıdacaq və Ona Yerdə Ədalət cəmiyyətini qurmaqda yardımçı olacaqdır. Sonra Həzrət İsa Məsih öləcək. O, Mədinə şəhərində Həzrət Məhəmməd (s) peyğəmbərin yanında dəfn olunacaqdır. O, bir də Qiyamət Günü bütün ölülərlə bir yerdə diriləcək.

*Peyğəmbərlər haqqında təlim (Həzrət Məhəmməd (s)).* Yalnız Həzrət Məhəmməd (s) peyğəmbər "Peyğəmbərlərin möhürü" titulunu daşıyır. Bu o deməkdir ki, Həzrət Məhəmməd (s) peyğəmbərlərin ən böyüyü və sonuncusu hesab olunur. Qurani-Kərimdə deyilir:

"*Məhəmməd sizlərdən heç kimin atası deyildir. O, Allahın rəsulu, nəbilərin sonuncusudur*" (Əhzab, 40).

Allah məhz Həzrət Məhəmmədə (s) əsas və tamamlanmış yazılı Vəhyini – Qurani Kərimi nazil etmişdir. İki müsəlman bayramı – Mövlud (Peyğəmbərin ad günü) və Merac (Peyğəmbərin Büraqın belində göyə qalxıb Allahla söhbət etdiyi gün) bayramları Onun həyatı ilə bağlıdır.

*Ruh haqqında təlim.* Ruh haqqında İslam təlimi antik xristianların, həmçinin müasir pravoslavlıq, katolisizm, lüteranlıq, baptizm və digər xristian məzhəblərin təliminə tamamilə uyğundur.İslam təlimində də ruha – insanın fövqəltəbii hissəsi kimi baxılır. Ruh bədəndən asılı deyildir, yəni o, bədəndən kənarda da yaşamağa qabildir və o tam törəmədir. Bütün insanların ruhunu Allah xəlq etmişdir və bütün insanların ruhu ölməzdir. Bununla belə, İslam təliminə görə, ruhun əsil mahiyyəti barədə dəqiq məlumatı bəşəriyyət hələ əldə etməmişdir. Çünki Allah özü ruh haqqında ətraflı məlumat verməyi məsləhət görməmişdir.

"*Səndən ruh barəsində soruşurlar. Onlara de ki, ruh Allaha aid olan şeylərdəndir. Onun barəsində sizə çox az bilgi verilmişdir*" (İsra, 85).

*Axirət həyatı haqqında təlim.* Axirət dünyası iki hissədən ibarətdir: Cənnət və Cəhənnəm. Mömin müsəlmanlar Cənnətə, günahkarlar Cəhənnəmə göndərilir. Xristianlıqdan fərqli olaraq insanların möminlərə və günahkarlara bölünməsi başqa meyarlar əsasında aparılır. Əgər xristianlıqda bütün insanlar (Həzrət İsa Məsihin anası Məryəmdən başqa) günahkar, möminlər isə günahkarların xüsusi hissəsidirsə, İslamda möminlər və günahkarlar tam əks tərəflərdir. Möminlərin həyatında xeyirxah işlər, günahkarların həyatında pis işlər üstünlük təşkil edir. Əgər antik xristianlıq təlimində Cənnət və ya Cəhənnəm həyatı ora düşənlər üçün əbədi məskən yeri sayılırsa, İslamda bu baxış bir qədər fərqlidir. Belə ki, Cənnətdə hamı əbədi qalır, lakin Cəhənnəm əhli iki qrupa - əbədi və müvəqqəti qalanlara bölü-

nürlər. Cəhənnəmdə müvəqqəti qalanlar günahkar müsəlmanlardır: bu dünyada törətdikləri cinayətdən asılıı olmayaraq, Allah əvvəl-axır onları Cəhənnəmdən çıxarıb Cənnətdə yerləşdirir. Əgər xristianlıq təlimində Cənnətdə intim münasibətlərin olması inkar edilirsə, İslamda bu cür münasibətlər mümkün hesab olunur. Yuxarıda qeyd edildiyi kimi, hurilərin mövcudluğu və onların mömin müsəlmanları seksual həzzlərlə təmin etməsi bunu təsdiq edir.

Axirət həyatı iki mərhələdən ibarətdir:

- Qiyamət Gününə kimi olan mərhələ (bu mərhələdə ruhlar Bərzəx deyilən yerdə bədənsiz qalırlar);
- Qiyamətdən sonrakı mərhələ - Məad hadisəsi (bu mərhələdə ruhlar bədənləri ilə birləşib, Cənnət və Cəhənnəmdə bədənləri ilə bir yerdə olurlar).

Qiyamət Günü İsrafil mələyin sur çalması ilə başlayacaq. Onun səsinin dəhşətindən bütün canlılar həlak olacaq. Sur ikinci dəfə çalınanda dünyanın əvvəlindən Qiyamətə qədər dünyaya gəlmiş adamların hamısı diriləcək, ruhlar bədənləri ilə qovuşacaq və Allah qarşısında cəm olub, dünyada etdikləri işlər barəsində hesabat verəcəklər. Qiyamət Günü qurtardıqdan sonra insanlar iki qrupa bölünəcək: kafirlər, yəni İslam dinini qəbul etməyənlər Cəhənnəmdə əbədi yanacaq, lakin yanıb ölməyəcək, çünki ölüm insan üçün bir dəfədir, ondan sonra ölüm yoxdur. Günahkar müsəlmanlar da günahları qədər Cəhənnəmdə yanıb əzab çəkəndən sonra Cənnətə göndəriləcəklər. Bu aşağıdakı şəkildə baş verəcək: bütün insanlar Cəhənnəmin üstündən salınmış və Cənnətə uzanmış tük kimi nazik və ülgüc kimi iti Sirat körpüsündən keçməli olacaqlar. Möminlər uğurla Cənnətə çatacaq, günahkarlar isə körpüdən keçə bilməyib Cəhənnəmə düşəcəklər.

*Dua haqqında təlim*. Duanın üç forması vardır:

- Kəlmeyi-Şəhadət;
- Namaz;
- Əlavə dualar;

Kəlmeyi-Şəhadət duanın ən qısa formasıdır: “*La ilahə illəllah, Mühəmmədün rəsulullah*” (Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın rəsuludur). Şiələr bu formula daha bir sətir əlavə edirlər: “*Əliyyən vəliyullah*” (yəni Əli Allahın vəlisi, peyğəmbərin naibidir). Müsəlmanlar bu sətirləri gün ərzində bir neçə dəfə təkrar edə bilərlər.

Kəlmeyi –Şəhadətin dua funksiyası ilə yanaşı, onun insanı İslama mənsub etmə funksiyası da vardır. Belə ki, əgər qeyri-müsəlman onu iki müsəlman (kişi) qarşısında təkrar edirsə, o, İslam dinini qəbul etmiş hesab olunur.

Namaz- gündəlik beş dəfə oxunan (qılınan) duadır. Namazların qılınma vaxtı və rükətlərin sayı aşağıdakı kimidir:

Sübh namazı – iki rükət
Zührnamazı – dörd rükət
Əsr namazı – dörd rükət
Şam namazı – üç rükət
Xüftəm namazı – dörd rükət

Namaz kollektiv və fərdi şəkildə, məsciddə və ya ondan kənarda qılına bilər. Namazdan əvvəl dəstəmaz alınması vacib hesab olunur. İslam təliminə görə, namaz insanın hər cür halında ona vacibdir; mümkün olarsa, ayaq üstə, olmasa oturan yerdə (xəstəlik və ya digər hallarda), olmasa uzanan halda, o da olmasa işarə ilə hətta ürəyindən keçirməklə namazı qılmaq lazım və vacibdir. Namazı qılmaq, Allahın varlığını etiraf və təsdiq etmək, onu qılmamaq, Allahı saymamaq, Onu inkar etmək deməkdir.

Kəlmeyi-Şəhadət və namaz ərəb dilində oxunur. Əlavə dualar müsəlmanların öz ana dillərində və günün istənilən vaxtı oxuna bilər.

*Oruc haqqında təlim*. Ay təqviminin doqquzuncu ayı (ayın adı – ramazan) həddi-buluğa çatmış müsəlmanlara oruc tutmaq vacib hesab olunur. Oruc tutmaqdan aşağıdakı adamlar azad olunurlar: əqildən məhrum olanlar, həddi-buluğa çatma-

mışlar, səfərdə olanlar, naxoşlar, heyz və nifas halında olan qadınlar.

Oruc müddətində möminlər özlərini aşağıdakı şeylərdən saxlayırlar: yemək və içməkdən, siqarət çəkməkdən, yalan danışmaqdan, suya baş vurmaqdan, cinsi əlaqədə olmaqdan, qusmaqdan, imalə etməkdən, özündən məni çıxarmaqdan. Əgər bu işlər qəsdən baş verərsə, oruc batil hesab olunur, lakin qeyri-ixtiyarı olarsa, batil hesab olunmaz.

*Həcc haqqında təlim.* Bu təlimin əsas ideyası odur ki, həddi-buluğa çatmış, özünün və ailəsinin 1 illik dolanacağı olan, fiziki cəhətdən sağlam və ağlı başında olan, mənəvi cəhətdən həcc etməyə hazır olan hər bir müsəlmana vacibdir ki, ömründə bir dəfə Məkkə şəhərindəki Kəbənin ziyarətinə getsin və bu ziyarət əsnasında müəyyən əməlləri yerinə yetirsin. Qurani-Kərimdə həccin vacibliyi barəsində buyurulur:

"*Getməyə imkanı olan şəxslərə Allahın evini həcc etmək Allah tərəfindən vacib bilinmişdir*" (Ali-İmran, 97).

Kəbəyə ziyarətin iki növü məlumdur: həcc (böyük ziyarət) və ümrə (kiçik ziyarət). Kiçik ziyarəti ilboyu etmək olar, həcc ziyarəti isə ancaq həcc aylarında (şəvval, zilqədə və zilhiccənin əvvəli) yerinə yetirilməlidir: hacı ehram bağlayır, Məkkəyə yetişir, Məscidül-hərama gəlir, Kəbəni yeddi dəfə təvaf edir - ətrafına dövrə vurur, məqami-İbrahimdə iki rəkət təvaf namazı qılır, Zəmzəm quyusunun suyundan içir, Səfa ilə Mərvə təpələri arasında səy edir – yeddi dəfə iti addımlarla o baş-bu başa gedib-gəlir, saçını-saqqalını qısaldır. Bununla ümrəni başa vurmuş olur və ehramdan çıxır. Zilhiccə ayının 8-də yenidən həcc ziyarəti üçün ehram bağlayır, gün batandan sonra Mina vadisinə gedir, gecəni orada qalır, zilhiccənin 9-da Ərafat dağına yollanır, orada vüquf edir, yəni Allahın qarşısında durur, dua edir, namaz qılır, gün batandan sonra Müzdəlifə vadisinə enir, gecəni Məşərülhəramda keçirir, şeytana daş atmaq üçün 49 ədəd xırda daş yığır. Zilhiccənin 10-da Minaya gedir, cəmrətül-əqəbədə şeytana yeddi daş atır.

Həccin əsas ayini – qurban kəsilməsi – həccin son üç günü yerinə yetirilir. Bu gün bayram günləri hesab olunur və dünyanın bütün müsəlmanları tərəfindən qeyd edilir.

Şiə məzhəbində Məkkə və Mədinə şəhərlərinə həcc ziyarətilə yanaşı imamların məqamlarına ziyarət də savab əməllərdən hesab olunur. Bu yerlər aşağıdakılardır:

- Nəcəf (imam Əlinin məqamı);
- Kərbala (İmam Hüseynin məqamı);
- Kazimeyn (7 və 8-ci imamların məqamları);
- Samirə (10, 11, 12-ci imamların məqamları);
- Məşhəd (İmam Rzanın məqamı);
- Qum (İmam Rzanın bacısı Fatimənin məqamı).

*Cihad haqqında təlim.* İslam təlimində cihadın iki növü fərqləndirilir:

- Kiçik cihad;
- Böyük cihad;

Kiçik cihad İslamın düşmənlərinə və ya kafirlərə qarşı silahlı mübarizəni nəzərdə tutur. Müsəlman şəxsin borcudur ki, dini dəyərlər, müsəlman torpaqları düşmən təcavüzünə məruz qalarsa, silaha sarılıb, müqəddəs müharibəyə - cihada getsin. Yetkinlik yaşına çatmış kəs cihada getməkdən qaçarsa, yaxud cihad meydanını buraxıb fərarilik edərsə, Allahın qəzəbini qazanar. Quranda deyilir:

"*Allah möminlərin canını və malını cənnətə əvəz olaraq almışdır. Bu möminlər Allah yolunda vuruşurlar ki, ya düşməni məhv etsinlər, ya da özləri şəhid olsunlar*" (Tövbə, 111).

Böyük cihad isə insanın öz nəfsi ilə mübarizəsidir. İnsanın nəfsi həmişə onu müxtəlif günahlara, pis əməllərə dəvət edir. İnsan öz nəfsini cilovlayıb, belə günahlardan özünü saxlasa Böyük cihad etmiş olur.

*İmamət haqqında təlim.* Bu təlim sırf şiəliyə məxsus qatdır. Həzrət Məhəmməd (s) peyğəmbərin vəfatından dərhal sonra müsəlmanlara kimin başçılıq etməsi məsələsi qaldırıldı. Bu barədə müsəlmanlar arasında iki baxış ortaya çıxdı. Birinci

baxışa görə, Peyğəmbərin canişini və İslam ümmətinin rəhbəri camaat arasından seçilə bilər. O biri baxışa görə insanlar bu səlahiyyətə malik deyillər, canişin mütləq Allahın əmri və Peyğəmbərin elanı ilə təyin olunmalıdır. Bu gün "əhli-sünnə" adlanan müsəlmanlar birinci nəzəriyyəni, "şiə" adlanan müsəlmanlar isə ikinci nəzəriyyəni müdafiə edirlər.

Şiə məzhəbində imamların sayı 12-dir. Bunların hamısı Həzrət Məhəmməd peyğəmbərin (s) qızı Fatimənin nəslindəndir. Şiə əqidəsinə görə, 12 imamın hər biri Allah tərəfindən imamlığa təyin olunmuşdur. Həzrət Məhəmməd peyğəmbər (s) 23 illik peyğəmbərlik fəaliyyəti boyunca dəfələrlə Həzrət Əlinin (ə) üstünlüyünü bəyan etmiş, müsəlmanları Əlini sevməyə çağırmışdır. Ona görə də şiələr Həzrət Əlini ilk imam və Məhəmməd peyğəmbərin canişini hesab edirlər. Onlar bunun sübutu üçün Peyğəmbərin buyurduğu "Qədir-Xum", "Səqəleyn", "Məzilət" hədislərini əsas götürürlər. On iki imamın adları belədir:

1. İmam həzrət Əli (ə)
2. İmam Həsən (ə)
3. İmam Hüseyn (ə)
4. İmam Əli Zeynül-Abidin (ə)
5. İmam Məhəmməd Baqir (ə)
6. İmam Cəfər Sadiq (ə)
7. İmam Musa Kazim (ə)
8. İmam Əli Rza (ə)
9. İmam Məhəmməd Təqi (ə)
10. İmam Əli Nəqi (ə)
11. İmam Həsən Əsgəri (ə)
12. İmam Mehdi Sahib -əz- Zaman (ə).

*Mehdinin gəlişi haqqında təlim.* İslam dini İslamı sonuncu din və Həzrət Məhəmməd (s) peyğəmbəri "peyğəmbərlərin möhürü", yəni sonuncusu hesab etsə də, Allah tərəfindən "axırzamanda" Xilaskarın – Mehdinin (şiələrdə Mehdi Sahib -əz-Zaman) göndəriləcəyini inkar etmir. Mehdi qarşısına qoyduğu

vəzifələrinə görə bizə yəhudilərin Maşiahını xatırladır. Həm Mehdi, həm də Maşiax qüdrətli fövqəltəbii imkanları olan və Allahın adından və Allahın xüsusi göstərişi ilə Yerə göndərilmiş Kəslərdir. Həm Mehdinin, həm də Maşiahın bir əsas vəzifəsi vardır: Yerdə Ədalət Səltənətini qurmaq və Ona rəhbərlik etmək. Bununla belə Mehdi ilə Maşiahın fərqli cəhətləri də vardır. Yəhudilikdə Maşiahın digər vəzifəsi "Dünyanın Sonu"nun həyata keçirilməsidir. İslam təliminə görə, Dünyanın Sonunu Allah həyata keçirəcəkdir. Allahın təyin etdiyi vaxtda Mehdi və İsa Yerə gələcək və İblisin köməkçisi Dəccəlin qurduğu ədalətsizlik cəmiyyətini və onun özünü məhv edəcəklər. Mehdinin Ədalət Səltənəti Qiyamətə qədər davam edəcəkdir. Ondan sonra Axirət aləminin ikinci mərhələsi (İsrafilin sur çalması, ölülərin qəbirlərdən qalxması, ruhların bədənlərinə qovuşması, Günəşin sönməsi, Ayın parçalanması ulduzların yerə tökülməsi və s.) başlayacaqdır.

Mehdi haqqında təlim şiələrdə sünnülərdən bir qədər fərqli şəkildədir. Şiələrdə Mehdi Sahib-əz Zaman on ikinci İmamdır. O, İmam Həsən Əsgərinin (ə) oğludur. Samirə şəhərində doğulmuşdur. Hələ Həzrət Məhəmməd peyğəmbər (s) tərəfindən xəbər verilmişdi ki, imamların sonuncusu uzun müddət gözlərdən qeyb olaraq, gizli yerdə yaşayacaq. Dünyanın sonuna yaxın bir dövrdə, zülm çoxalıb hər yeri bürüyəndə İmam zühür edib, zalımları məğlubiyyətə uğradacaq və ədalətli hökumət quracaq. On birinci İmamın şəhadətindən dərhal sonra 5 yaşlı İmam Mehdi (ə) qeyb olur. O, təqribən 70 il ərzində bəzi şəxslər vasitəsilə müsəlmanlarla əlaqə saxlayır (həmin dövrə "kiçik qeybolma" dövrü deyilir). Bundan sonra İmam Mehdi (ə) vasitəçilərdən imtina edərək, hicri təqvimi ilə 260-cı ildə tamam qeybə çəkilir (həmin dövr "böyük qeybolma" dövrü deyilir). Şiələr qəti olaraq inanırlar ki, O, hal-hazırda sağ və diridir, lakin insanların nəzərlərində qayibdir. Yalnız Allaha məlum olan bir gündə İmam Mehdi (ə) bir qrup silahdaşı ilə zühur edəcək, zalımlarla mübarizəyə başlayıb, ədaləti dirildəcək. Dünya əhli başdan –başa müsəlman olacaq, zülm və fəsaddan Yer üzündə əsər qalmayacaq.

## § 9. Bəhai dini



**Tarixi məlumat**. 1844-ci il mayın 23-də İranın Şiraz şəhərində Seyid Əli Məhəmməd adlı gənc Özünü şiələrin on ikinci imamı Mehdi Sahib-əz-Zaman elan edərək "Bab" (ərəbcə "qapı" deməkdir) adlandırır. Bildirir ki, Onun əsas məqsədi insanları Allahın tezliklə zühur etdirəcəyi Kəsi qəbul etməyə hazırlamaqdır. Bununla belə, Babın bərabərlik, ədalət, qadınları əsarətdən azad etmək çağırışları bütün Yaxın və Orta Şərqi lərzəyə gətirmiş babilər hərəkatına səbəb olur. Hərəkat səkkiz il sonra çətinliklə yatırılır. Bab edam edilir. Hərəkatın fəal üzvi Mirzə Hüseyn Əli - Bəhaullah (ərəbcə "Allahın Nuru" deməkdir) həbsxanaya salınır. Sonra həbsxana İraqa sürgün ilə əvəz olunur. Bağdadda 1863-cü ilin baharında Bəhaullah Özünü Babın vəd etdiyi İlahi Zühur elan edir. Bəşəriyyətə Allahdan Yeni İlahi təlimin nazil olduğunu bildirir. Ədirnədə və sonralar Əkkada O, Avropa hökmdarlarına məktub yazaraq, onları Yeni Dini tanımağa çağırır.

Həzrət Bəhaullah 40 il məhbəs və sürgün həyatını yaşadıqdan sonra 1892-ci ildə dünyasını dəyişir. Ölümündən əvvəl O, böyük oğlu Həzrət Əbdül-Bəhanı Əhdin Mərkəzi təyin edir. Həzrət Əbdül-Bəhanın dövründə Bəhai dininin ardıcılları artıq dünyanın 37 ölkəsində var idi. Həzrət Əbdül-Bəha 1921-ci ildə dünyasını dəyişir. Həzrət Əbdül-Bəhanın Vəsiyyətinə uyğun olaraq Dinin rəhbərliyi nəvəsi Həzrət Şövqi Əfəndiyə (1897-1957), 1963-cü ildən isə Həzrət Bəhaullahın Yazılarına uyğun olaraq "Uca Ədalət Evinə" verilmişdir.

Azərbaycanda artıq XIX əsrin 60-70-ci illərində Bakı, Gəncə, Naxçıvan, Balaxanı, Salyan, Bərdə, Şamaxı və digər yaşayış məntəqələrində bəhai icmaları fəaliyyət göstərirdi.

Stalin rejımı dövründə bəhai dini ardıcıllarına qarşı aparılan təqiblər yüzlərlə fəal üzvün öldürülməsi, minlərlə insanın həbsxanalara salınması və sürgünə göndərilməsi ilə nəticələndi. Bəhai icmalarının fəaliyyətinə qoyulmuş qadağalar XX əsrin 90-cı illərinə kimi qüvvədə qalmışdı.

**Təşkilatı**. Bəhai dini dünya dinləri arasında ən cavanıdır. O, bu gün dünyanın 234 ölkəsində yaşayan 2100-ə qədər millət, xalq və etnik qrupa mənsub 7 milyondan çox insanı birləşdirir. Onlar vahid təşkilatda - Bəhailərin Beynəlxalq Birliyində birləşmişlər. Bu Birlik planetimizdə sülhü, qlobal ekologiyanı və insan haqlarını qorumaq, xalqların iqtisadi, sosial və mədəni inkişafına nail olmaq yollarında BMT-nin bir sıra orqanları- EKOSOS, YUNİSEF, YUNEP ilə əməkdaşlıq edir. Birliyin BMT-nin Nyu-York və Cenevrədəki qərargahlarında, o cümlədən Nayrobidəki Ətraf mühitə dair Proqramında nümayəndəlikləri fəaliyyət göstərir.

Bəhai dininin inzibati quruluşunda Ali İnzibati və Ruhani orqan "Uca Ədalət Evi"dir. Bu Ali orqanın iqamətgahı və mərkəzi təsisatları İsrailin Hayfa şəhərində yerləşmişdir. Uca Ədalət Evinin 9 nəfərdən ibarət tərkibi hər 5 ildən bir keçirilən Bəhailərin Beynəlxalq Qurultayında Milli Şuraların üzvləri tərəfindən seçilir. Uca Ədalət Evi Milli Şuralar vasitəsilə Bəhai icmalarına rəhbərlik edir, bütün planet üzrə bəhai prinsiplərinin və qanunlarının həyata keçirilməsinə dair tövsiyyələr verir.

Bəhailərin Beynəlxalq və Milli təsisatları ilə yanaşı, onların yerli səviyyələrdə fəaliyyət göstərən və ildə bir dəfə (aprel ayında) seçkilər vasitəsilə formalaşdırılan (üzvlərinin sayı 9 nəfərlən ibarət) yerli Şuraları da vardır.

Bəhai dinində peşəkar ruhanilik qadağandır. Ruhani təbəqənin (molla, keşiş və s.) olmaması, yerli, milli və beynəlxalq səviyyələrdə inzibati qurumların ən mükəmməl demokratik qaydalarla seçilməsi və hər bir bəhainin bu qurumlarda iştirakı üçün imkanların açıq olması, başqa dinlərdən fərqli olaraq Bəhai dinində təriqətçilik və parçalanma imkanlarını heçə endirmişdir.

Dinlərin tarixində analoqu olmayan belə monolit beynəlxalq dini ruhani-inzibati sistemin yaradılması Həzrət Bəhaullahın tarixdə ilk dəfə olaraq dini-ruhani təlim ilə forma və məzmunca yeni tipli inzibati idarəetmə və demokratik seçki sistemini birləşdirməsi hesabına mümkün olmuşdur. Bəhai ruhani-inzibati sisteminin möhkəmliyinə təsir göstərən ən əhəmiyyətli amil isə hər bir möminin bu qurumların nüfuzuna ehtiramla yanaşması, müqəddəs sayması və danışıqsız tabe olmasıdır.

**Teoloji əsasları**. Bəhai dininin teoloji əsaslarını təşkil edən təlimlər aşağıdakılardan ibarətdir:

- Allah və fövqəltəbii varlıqlar haqqında təlim;
- Dünyanın və insanın yaradılışı haqqında təlim
- Müqəddəs kitablar haqqında təlim;
- Dinlərin (Bir Ümumi Din) və Peyğəmbərlərin birliyi haqqında təlim;
- İlahi Vəhyin ardıcıllığı və sonsuzluğu təlimi;
- Bəşəriyyətin Birliyi haqqında təlim
- Ruh haqqında təlim;
- İbadət haqqında təlim;
- Axirət həyatı haqqında təlim;
- Bəşəriyyətə xidmət haqqında təlim.

*Allah və fövqəltəbii varlıqlar haqqında təlim*. Bəhai təliminə görə, Allah – Kainatda yeganə fövqəltəbii varlıqdır. Allahdan başqa heç bir fövqəltəbii varlıq yoxdur. Allah görünən və görünməz dünyaların Xaliqidir. Mütləq Xeyir, Ədalət, Mərhəmət və Məhəbbət və digər keyfiyyətlərin daşıyıcısı kimi Allah "İblis və ya Şeytan", "cinlər və ya murdar ruhlar" adlı varlıqları yaratmayıbdır. Onlar mövcud deyillər. Mülk (maddi dünya) və Mələkut (ruhani dünya) dünyasında yalnız bir qüvvə, Allahın yaradıcı qüvvəsi vardır. Bəhai təlimində İblis və cinlərin varlığı inkar edilsə də, "şeytan", "iblis", "cin" anlayışlarından insanın aşağı fiziki mahiyyəti və ya nəfsi ilə bağlı məsələləri ifadə etməkdən ötrü istifadə olunur. Həzrət Bəhaullah buyurur:

"*Şeytan o kəsdir ki, insan övladının ruhani tərəqqisinin yüksəlişinə mane olur və onu saxlayır*"

"Mələk" anlayışı da Bəhai təlimində rəmzi mənada, yəni dünyası dəyişmiş və ruhani dünyalarda yaşayan pak və kamil ruhları ifadə edir.

Allah – fövqəltəbii varlıq kimi, bütün kamilliklərə və məziyyətlərə malikdir: O, təkcə dünyanı yaratmayıb, həm də onu idarə edir. Bəhai təliminə görə, insanın məhdud şüuru Allahı heç zaman dərk edə bilməz. Allahın mahiyyəti insan təfəkkürü üçün əlçatmazdır. Lakin insan Allahın keyfiyyətləri və atributlarını Onun peyğəmbərlərinin sözləri və əməlləri vasitəsilə öyrənə bilər.

Allahın adları çoxdur. Onu həmçinin Vişna, Yahova da adlandırmaq olar. Lakin ona peyğəmbərlərin adı ilə, Krişna, Budda, İsa deyə müraciət etmək olmaz. Allaha həmçinin Rəbb, Xaliq, Sultan, Pərvərdigar, Rəhman, Mərhəmətli, Ata və s. adlar ilə də müraciət edilə bilər.

*Dünyanın və insanın yaradılışı haqqında təlim.* Bəhai təliminə görə maddi dünya (materiya) məkanca sonsuz, zaman etibarilə əbədidir. Onun nə vaxtsa "yoxluqda yaradılması" və ya nə vaxtsa zamanın sonunda "yox edilməsi" anlayışı yalnış təsəvvürdür. Allah Əbədi və Əzəli olduğu kimi, Onun xilqəti də əbədi və əzəlidir. Həzrət Bəhaullah yazır:

" *Bil ki, xilqət əzəldən olub və həmişə də olacaq. Onun əvvəlinin başlanğıcı və axırının sonu yoxdur... Allah əzəldən olub və həmişə də olacaq. Xilqət də həmçinin..."Xaliq" adı özlüyündə "məxluq"un olmasını tələb edir...".*

Həzrət Əbdül-Bəha materiyanın əbədi və əzəli olmasına aşağıdakı açıqlamanı vermişdir:

"*Bilin ki, xilqətsiz Xaliq qeyri-mümkündür və qəyyumluq altında olan olmasa, Qəyyum da olmaz, çünki Allahın bütün adları və atributları varlıqların olmasını tələb edir. Əgər heç bir məxluqatın mövcud olmadığı bir zamanı təsəvvür etmək mümkün olsaydı, onda belə təsəvvür Allahın Özünü inkar etmək olardı...Tək olan Allahın Mahiyyəti, yaxud Xaliqin mövcud-*

*luğu əbədi və əzəlidir, yəni Onun nə əvvəli, nə də sonu vardır, deməli, varlıq aləminin də nə əvvəli, nə sonu var...".*

Bəhai təlimində Allahın insanı xəlq etməsi anlayışı da Yəhudi, Xristian və İslam dinlərindən fərqlənir. Təbiətdəki digər canlılar kimi insan növü də Allahın İradəsi ilə milyon-milyon illər ərzində çox bəsit formadan inkişaf edərək mürəkkəbləşmiş və müasir insan formasına düşmüşdür. İnsan embrionu ana bətnində, özünün ilkin inkişaf mərhələlərində balıq və ya sürünən canlının əlamətlərini daşısa da, o balıq və ya sürünən deyil, insan olduğu kimi, insan növü də miyon-milyon illər ərzində inkişafının müxtəlif dövrlərində zahirən başqa canlılara bənzəsə də, Allahın İradəsi ilə anlaşılmaz gizli qüvvəyə malik xüsusi növ idi. Bəhai təlimindəki bu müddəa Darvinin insanın təbii seçmə yolu ilə meymundan yaranması nəzəriyyəsindən əsaslı şəkildə fərqlənir. Bu məsələyə açıqlıq gətirən Həzrət Əbdül-Bəha yazır:

*"İnsan öz mənşəyinin başlanğıcında Yer bətnində, ana bətnindəki embrion kimi yavaş-yavaş böyümüş və inkişaf etmiş, bir formadan başqa formaya keçərək, indiki gözəlliyinə və kamilliyinə, indiki quruluşuna və qüdrətinə gəlib çatmışdır. İnsanın Yer üzündə mövcud olduğu ən ilkin vaxtlardan onun müasir vəziyyətinə, quruluşuna və formasına çatana qədər, şübhəsiz ki, uzun müddət lazım olmuşdur. Lakin öz mənşəyinin lap başlanğıcında da insan xüsusi növ olmuşdur ".*

İnsanın yaradılışı ilə bağlı əvvəlki dinlərin teoloji əsaslarında xüsusi yeri olan Adəm və Həvva hekayətinə Həzrət Əbdül-Bəha belə izahat vermişdir:

*"Əgər biz bu hekayəni camaatın anladığı hərfi mənada qəbul etsək, onda bu son dərəcə qeyri-adi hekayədir. Ağıl onu nə anlaya, nə təsdiq edə, nə də təsəvvür edə bilər, çünki məsələnin belə qoyuluşu, bu cür təfərrüat, belə davranış və məzəmmət düşüncəli adama, xüsusilə də bu sonsuz Kainatı belə mükəmməl formada və bu ucsuz-bucaqsız dünyanı belə mütləq qanunauyğunluqda, belə ciddi nizamla və mükəmməlliklə*

*yaradan Allah-taalaya xas deyildir. Buna görə də qadağan olmuş ağacın meyvəsini yeyib Cənnətdən qovulan Adəm və Həvva haqqında hekayəni rəmzi mənada qəbul etmək lazımdır. İlahi sirləri özündə saxlayan bu hekayənin böyük mənası var və o, heyrətamiz şərhlərə malik ola bilər".*

*Müqəddəs Kitablar haqqında təlim.* Bəhai Dinində Müqəddəs Yazılar dörq qrupa bölünür:

Birinci qrupa Həzrət Bəhaullah və Həzrət Babın Yazıları daxildir. Bu qrupdan olan Yazılar Vəhylə bağlı olduğundan daha əhəmiyyətli, mükəmməl, səhvsiz və qüsursuz sayılırlar;

İkinci qrupa Həzrət Əbdül-Bəha və Şövqi Əfəndinin Yazıları aid edilir. Bu qrupdan olan Yazılar Vəhy daşıyıcısı olmasa da, İlahi İlhamdan qaynaqlandığına görə səhvsiz və qüsursuz hesab olunurlar;

Üçüncü qrup Uca Ədalət Evinin Yazılarıdır (müraciətləri və şərhləri). Bu qrupdan olan Yazılar da İlahi İlhamdan qaynaqlandığına görə qüsursuz və səhvsiz sayılırlar;

Dördüncü qrupa başqa dinlərin Müqəddəs kitabları (Qurani-Kərim, Bibliya, Bhaqavat- Qita, Avesta və s.) daxildir. Bu kitablar Vəhy kitabları hesab olunsa da, onlara dini hökmlərin mənbəyi kimi müraciət olunmur. Dini hökmlərin mənbəyi kimi Həzrət Bəhaullahın nazil etdiyi "Kitab-Əqdəs" və digər Yazılar hesab olunur.

*Dinlərin (Bir Ümumi Din) və Peyğəmbərlər birliyi haqqında təlim.* Bəhai təliminə görə, dünyanın böyük dinləri ilahi mənşəyə malikdirlər. Onların hamısı müxtəlif yerlərdə və vaxtlarda xalqların ehtiyac və imkanlarına uyğun olaraq Allahın Vəhy vasitəsilə çatdırılmışdır. Heç bir dövr İlahi rəhbərliksiz qalmamışdır və Bəşəriyyət durduqca bu rəhbərlik də davam edəcəkdir. Yerdə Allahın bir Dini mövcuddur, bütün dinlər Onun tarixi mərhələləridir. Bu Din tarix boyu kamilləşmə yolu ilə inkişaf etmişdir. Peyğəmbərlərin gətirdikləri Müqəddəs Kitablar (Bhaqavat-Qita, Avesta, Tövrət, İncil, Qurani –Kərim və s.) isə bir İlahi Kitabın səhifələridir. Bu Din daim

inkişafdadır. Həzrət Krişna və Musanın təlimində tumurcuğu, Həzrət İsa və Məhəmmədin təlimində çiçəyi görürüksə, Həzrət Bəhaullahın təlimində o, artıq yetişmiş meyvədir. Tumurcuq düşməlidir ki, çiçək açsın, çiçək tökülməlidir ki, meyvə yetişsin. Onların hər biri öz dövründə zəruri və faydalı idi, onlarsız meyvə yetişə bilməzdi. Eyni proseslər Peyğəmbərlərin təlimlərində də baş verir; onların xarici forması əsrdən-əsrə dəyişir, hər yeni Vəhy əvvəlkini tamamlayır. Onlar arasında fikir ayrılığı və uyğunsuzluq yoxdur, onlar Vahid Dinin müxtəlif tarixi mərhələləridir.

Allah bəşəriyyəti kamil və qüsursuz şəxslər olan Peyğəmbərlər vasitəsilə idarə edir. Peyğəmbərlərə Allahın zühurları kimi də baxmaq mümkündür. Onlar Allah deyillər, lakin mükəmməl güzgütək Onun işığını insanlara əks etdirirlər. Peyğəmbərlər Allahla Bəşəriyyət arasında vasitəçidirlər. Peyğəmbərlərin Yerdə görünməsi çox nadir hadisə olduğu üçün bəşəriyyətə din gətirmiş bir neçə Peyğəmbərin adı məlumdur: Krişna, İbrahim, Zərdüşt, Musa, Budda, İsa, Məhəmməd, Bab və Bəhaullah. Onların hər biri yeni Dinin əsasını qoymuş və müstəqil mədəniyyətlərin inkişafına təkan vermişlər.

Bəhai təliminə görə, hər bir din iki hissədən ibarətdir: ruhani təlim və sosial təlim. Ən yüksək ruhani səviyyədə bütün dinlər arasında tam harmoniya mövcuddur. Fərq yalnız sosial qanunlarda, dini mərasim və ayinlərdə müşahidə olunur. Dinin sosial qanunları əbədi ola bilməz, cəmiyyət dəyişdikcə, onlar da dəyişməlidir.

Bütün Peyğəmbərlər bir Dinə xidmət edir və Bir İlahi Planı mərhələ-mərhələ həyata keçirdikləri üçün onların təlimlərindəki ardıcıllığı görməmək mümkün deyildir. Ona görə də dinləri birindən ayırıb qarşı-qarşıya qoymaq, həqiqi və saf, digərini səhv və natəmiz hesab etmək yanlışdır. Bütün dinlər və müqəddəs Yazılar öz əsaslarında həqiqi, bütün Peyğəmbərlər Allahın Zühurlarıdırlar. Həzrət Bəhaullah buyurur: "*Əgər onlara diqqətlə baxsan, görərsən ki, onların hamısı eyni çadırda yaşayır, eyni taxtda oturur, eyni nitqi söyləyir və bir dini elan edirlər*".

*İlahi Vəhyin ardıcıllığı və sonsuzluğu təlimi*. Bu təlim əvvəlki təlimin davamı kimi çıxış edir. Bəhai təlimi Vəhy və Peyğəmbərlərin gəlişinin sonsuzluğu mövqeyindən çıxış edir. "Bəhaullah Əhdi" də Onun Öz sözlərinə görə Bəşəriyyətin ruhani təkamül prosesində yekunlaşdırıcı və yaxud sonuncu mərhələ deyildir. Həzrət Bəhaullah bildirir ki, Allah Elçilərinin ardıcıl sırası dünya durduqca davam edəcəkdir: "*Allah öz Müjdəçilərini Musa və İsanın ardınca getməyə göndərmişdir və bu Onun tərəfindən sonu olmayanın sonunadək davam edəcəkdir...*".

İlahi Əhdlər ardıcıldır və onları təmsil edən Peyğəmbərlər Allah tərəfindən müəyyənləşdirilmiş dövrlərdə zühur etmiş və bu gələcəkdə də baş verəcəkdir. Allah Kainatı Nəhəng Vəhy Tsiklləri vasitəsilə idarə edir. Artıq bir tsikl ("Adəm" tsiklı) başa çatmış, ikinci tsikl ("Bəha" tsikli) Həzrət Bəhaullahın zühuru ilə Öz tarixi missiyasına başlamışdır. "Adəm" tsikli Adəm Peyğəmbərin zühuru ilə başlamış və Həzrət Məhəmməd (s) ilə sona yetmişdir. Bu dövr ərzində Yerə çoxlu sayda (124 min) Peyğəmbərlər (nəbilər və rəsullar) göndərilmiş, Müqəddəs Kitablar nazil olmuşdur. Bu tsikl dövründə Bəşəriyyət bir-birilə rəqabət aparan dinlərə, millətlərə, dövlətlərə parçalanmışdır.

"Bəha" tsikli Həzrət Bab və Bəhaullahın zühuru ilə başlamışdır. Bu tsikldə, 500 min il ərzində çoxlu sayda Peyğəmbərlərin gəlişi gözlənilir. Həzrət Bəhaullah Ondan sonrakı növbəti Peyğəmbərin 1000 ildən tez olmayaraq gələcəyini müjdələmişdir. O, yazırdı: "*Düz min il tamam olmamışdan qabaq bir Əmr iddiasında olan kəs yalançı və iftiraçıdır...*" "Bəha" tsiklinda Yerdə İlahi Sivilizasiyanın qurulmasından ötrü insan cəmiyyətində dərin ruhani, ictimai, siyasi, iqtisadi, mədəni və psixoloji dəyişikliklər baş verəcək. Həzrət Bəhaullah bildirir ki, Onun Əhdinin təsiri altında hərəkətə gətirilmiş qüvvələr köhnə Sivilizasiyanı dağıtmağa və yerində Ədalət və Sülh cəmiyyəti olan İlahi Sivilizasiyanı yaratmağa başlamışdır.

*Bəşəriyyətin Birliyi haqqında təlim*. Bəhai dini təlimində Bəşəriyyətin Birliyi prinsipi mərkəzi mövqedə durur. Həzrət

Bəhaullah yazır: "*Şübhəsiz ki, irqindən və dinindən asılı olmayaraq dünyanın bütün insanları Vahid səma mənbəyindən ilham alırlar və onların hamısı Tək olan Allahın təəbələridir"*

İnsan bədəni təkamül prosesində fiziki inkişafın müxtəlif mərhələlərindən keçdiyi kimi Bəşəriyyət də özünün sosial inkişafı prosesində müxtəlif mərhələlərdən keçir. Qədim dövrlərdə adamlar ayrı-ayrı ailə qrupları halında yaşamışlar, sonradan bu qruplar qəbilələrə çevrilmiş, daha sonralar şəhər- dövlətlər, xalqlar və nəhayət XIX-XX əsrlərdə müasir millətlər və dövlətlər yaranmışdır. Həzrət Bəhaullah öyrədir ki, Bəşəriyyətin Birliyi kamillik yolunda sonuncu sosial mərhələdir. O, izah edirdi ki, Onun gəlişində əsas məqsəd insanların birliyini mümkün etməkdir. O, yazırdı: "*Həqiqətən, Biz Yerdə yaşayanların hamısını birləşdirməkdən və ayrılmaz etməkdən ötrü gəlmişik*" .

Həqiqi birlik, hər bir insan ayrılıqda Bəşəriyyətin Birliyini əsas ruhani prinsip kimi qəbul etdiyi zaman əldə ediləcəkdir. Bəşəri Birlik hansısa qüdrətli qruplaşma tərəfindən yuxarıdan tətbiq edilməyəcəkdir. Hər yerdə insanlar "*Dünya bir vətən və bütün insanların onun vətəndaşı*" olmasını dərk edənə kimi o insan şüurunda tədricən inkişaf edəcəkdir. Şüurdakı bu dəyişikliklər cəmiyyətdə görünməmiş dəyişikliklərə səbəb olacaqdır. Belə birliyin əsası ruhani olsa da, Bəhai təlimində dünya xalqlarının bu istiqamətdə atacağı bəzi konkret addımlar da göstərilmişdir. Bunlar aşağıdakılardır:

- Bütün dünya xalqlarının ədalətlə təmsil olunduğu, onların ümumi mənafeyini qorumaq, planetdə əmin-amanlığı və sülhü təmin etmək məqsədilə Dünya Parlamentinin və Dünya Federativ Dövlətinin yaradılması, Dünya vətəndaşlığının təsis edilməsi;
- Dünyanın təbii sərvətlərindən Dünya Federativ Dövlətinin nəzarəti altında Bəşəriyyətin xeyrinə birgə istifadə edilməsi;
- Dünya xalqlarının öz aralarında əlaqə və ünsiyyətini və millətlərin inteqrasiyasını asanlaşdırmaq məqsədilə vahid yazı, ümumi pul, ölçü və çəki sisteminə keçilməsi;

- Dünyanın bütün məktəblərində uşaqlara ana dili ilə yanaşı Beynəlxalq dilin öyrədilməsi;

- Həm millətlər daxilində, həm də onlar arasındakı hədsiz varlanma və yoxsulluğun aradan qaldırılması.

Həzrət Əbdül-Bəha yazır: *"Bəşər ailəsinin bütün üzvləri, istər millətlər olsun və ya hökumətlər, onlar getdikcə daha çox bir-biri ilə qarşılıqlı surətdə bağlanırlar. Ona görə ki, heç kim müstəqil və sərbəst qala bilməz və xüsusilə də ona görə ki, siyasi münasibətlər bütün xalqları və millətləri birləşdirməyə başlamışdır, ticarət, sənaye, kənd təsərrüfatı və mədəniyyət əlaqələri isə gündən-günə möhkəmlənməyə başlamışdır. Deməli, bütün Bəşəriyyətin Birliyinin həyata keçirilməsi indi mümkün olmuşdur..."*.

İlahi Sivilizasiyanın Yerdə qurulması və Kainata yayılması təkcə Bəşəriyyətin deyil, bütün Kainatın inkişafında yeni Tarixi mərhələ olacaqdır. İlahi Sivilizasiyada bütün bəlaların, xəstəlik və təbii fəlakətlərin, yoxsulluq və səfalətin, zülm və haqsızlığın sonu çatacaqdır. Hər yerdə məhəbbət, xoşbəxtlik, sağlamlıq, firavanlıq, azadlıq, yüksək ruhanilik və əxlaqi paklıq bərqərar olacaqdır. Yer Kürəsi Cənnətə çevriləcək və çiçəklənən bağa bənzəyəcəkdir. Həzrət Əbdül-Bəha buyurur:

*"Əməkdaşlıq və birlik bərqərar olacaq və sonda müharibənin tamamilə qarşısı alınacaq. Dünyanın beş qitəsi bir qitə kimi olacaq, çoxsaylı millətlər bir millətə çevriləcək. Ölkələr arasında münasibətlər – xalqların və icmaların qarışması, birləşməsi və dostluğu – elə bir səviyyəyə çatacaq ki, insan nəsli bir ailə və qohum kimi olacaq. Güclü və zəif, varlı və yoxsul, qarşı-qarşıya duran təriqət və ədavət aparan millətlər bir-birinə qarşı tam məhəbbətlə, dostluqla, ədalət və bərabərliklə rəftar edəcəklər, dünya elmlərlə və Allahın biliyilə dolacaq"*.

*Ruh haqqında təlim*. Bu təlim ruh haqqında Yəhudi, Xristian və İslam təlimlərindən fərqlənmir. Bu təlim daxilində ruh haqqında həmin beş ideya durur: ruh – insanın mahiyyətini təşkil edən fövqəltəbii hissəsidir, ruh bədəndən asılı deyildir, ruh tam törəmədir, hər bir insanın ruhunu Allah xəlq etmişdir, bütün

insanların ruhu ölməzdir. Bununla belə, ruhun mahiyyəti insan üçün dərk edilməzdir. Həzrət Bəhaullah yazır:

"*...ruh Allahın əlamətidir və elə bir səmavi cövhərdir ki, bütün elm sahibləri onun mahiyyətini dərk etməkdə və bütün irfan əhli onun sirrini anlamaqda acizdir.Ruh –yaradıcısı olan Allahın ucalığından söz açan, Onun cəlalını etiraf edən, Onun həqiqətindən yapışan və Ona səcdə edən ilk şeydir*".

"*Ruh mahiyyəti etibarilə Allahın əlamətlərindən biri və Onun sirləri içərisində bir sirrdir. Onda elə bir şey gizlənib ki, hazırki aləm onu dərk etmək qabiliyyətinə malik deyildir*".

*İbadət haqqında təlim.* Bəhai təlimində Allaha ibadət daha daha geniş anlamdadır. Bəşəriyyətə xidmət, cəmiyyətdə saf əxlaq və xeyirxahlıqlar nümayiş etdirmək, uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq, hətta gündəlik adi işlərin (həkimlik, müəllimlik, elmi tədqiqat və s.) vicdan və fədakarlıqla yerinə yetirilməsi də Allaha ibadət hesab olunur. Bununla belə fərdin Allaha ibadətinin aşağıdakı formaları da müəyyən olunmuşdur:

- Həzrət Bəhaullah, Həzrət Bab və Həzrət Əbdül-Bəhanın nazil etdiyi duaların gündəlik oxunması;
- Müqəddəs Yazıların səhər və axşam oxunması;
- Namaz;
- "Allahu-Əbha" ifadəsinin 95 dəfə zikri;
- Oruc

Gündəlik dualara (şəfa, ehtiyac, kömək, bağışlanma və s.) sərf edilən vaxt, oxunan duaların sayı fərdin ehtiyacından və ruhani yanğısından asılıdır. Bəhai dinində namazların sayı üçdür. Ən qısa bir ayədən ibarətdir və günorta vaxtı, orta namaz gündə üç dəfə, səhər, günorta və axşam, böyük namaz isə 24 saatda bir dəfə qılınmalıdır. Mömin bu üç namazdan istənilən birini seçməkdə tamamilə azaddır, lakin onlardan hər hansı birini qılmağa borcludur.

*Axirət həyatı haqqında təlim.* Bu orginal təlimdir. Mövcud dinlərin təlimlərindən fərqlənir. Dinlərin teoloji əsaslarında "Zamanın Sonu", "Qiyamət" və "Dirilmə" ilə bağlı təsəvvür-

lərin xüsusi yeri vardır. Həzrət Bəhaullah "İqan" kitabında izah edir ki, "Günəşin qaralması", "Ayın parçalanması", "ulduzların tökülməsi", göydə və yerdə baş verən digər əlamətlər haqqında söylənmiş bu xəbərlər rəmzi məna daşıyırlar. Peyğəmbərlər ilk növbədə bunları fiziki deyil, ruhani anlamlara aid etmişlər. Onlar Qiyamət Günü ilə əlaqədar olaraq Günəş barəsində danışarkən Həqiqət Günəşini, yəni Peyğəmbəri nəzərdə tuturlar. Günəş ən böyük işıq mənbəyidir. Həzrət İsa xristianlar üçün və Həzrət Məhəmməd müsəlmanlar üçün belə Günəş olmuşdur. Allahın hər bir Zühurunun gəlişi Qiyamət Günüdür. "Dünyanın Sonu" ifadəsi Qiyamət Günü gələn kimi dünyanın dağılması demək deyildir. Bu ifadənin düzgün tərcüməsi "Əsrin başa çatması və ya Dövrün sonu" deməkdir. Bəhai təliminə görə Həzrət Bəhaullahın gəlişi bizim yaşadığımız bütün dünya üçün ən böyük Qiyamət Günüdür.

Peyğəmbərlər deyəndə ki, Günəş qaralacaq, bu, o deməkdir ki, bu Mənəvi Günəşlərin saf təlimləri yalançı təsəvvürlərlə, yanlış anlayışlar və xurafatlarla bulandırılacaqdır. Dini rəhbərlər və ruhanilər kiçik işıq mənbəyi olan Ay və ulduzlar kimi adamları ruhlandırmalı və onlara düzgün yol göstərməlidirlər. Deyəndə ki, Ay işığını itirəcək və qana dönəcək və ulduzlar göydən yerə töküləcəklər, bu, o deməkdir ki, ruhanilər – mollalar, kilsə başçıları hörmətdən düşəcək, dini və siyasi çəkişmə və münaqişələrə qoşulacaq, ruhani niyyətlərdən uzaqlaşaraq, dünyəvi qayğılarla məşğul olcaqlar.

Qiyamət Günü, həm də Dirilmə Günüdür- ölülərin diriləcəyi gündür. Bəhai təliminə görə, "Dirilmənin" kobud fiziki bədənlə heç bir əlaqəsi yoxdur. Əgər bədən ölmüşsə, deməli, artıq onun işi bitmişdir. Dirilmə- Peyğəmbərlər vasitəsilə nazil olmuş İlahi Kəlam sayəsində insanın mənəvi həyata doğulmasıdır. Onun dirilib ayağa qalxdığı qəbir – nadanlıq və Allaha etinasızlıq, cəhalət qəbridir. Dirilmə Günü iyirmi dörd saatdan ibarət olan gün deyil, o Həzrət Bəhaullahın gəlişi ilə başlamış və hal-hazırkı dünya dövrünün bitəcəyi vaxtadək davam edən

bütöv bir eradır. O indiki sivilizasiyanın bütün izlərinin Yer üzündən silinməsinə və İlahi Sivilizasiyanın qurulmasına qədər davam edəcəkdir. Həzrət Bəhaullah buyurur:

"*Qəbirlərdən qalxın, nə vaxta qədər yatacaqsınız? Bu, ikinci Sur səsidir, kimi gözləyirsiniz? Bu sizin mərhəmətli Rəbbinizdir, siz isə Ondan üz döndərirsiniz...*"

Cənnət və Cəhənnəm yer, məkan deyil, haldır. Cənnət Allaha yaxınlıq, Cəhənnəm isə Ondan uzaqlıqdır. Bu hal Yerdəki və ölümdən sonrakı o biri həyatda da mövcuddur. İnsanın ana bətnindəki həyatı doğumdan sonrakı həyatından fərqləndiyi kimi, axirətdə də (ruhani dünyalarda) ruhun həyatı da bu dünyadakı həyatından kəskin şəkildə fərqlənir. Bədəndən azad olmuş ruh qəfəsdən azad olmuş quş kimi öz inkişafını və Allaha doğru hərəkətini davam etdirir. Bizim o biri dünyadakı inkişafımız bizim indi ruhani yüksəliş üçün sərf etdiyimiz cəhdlərdən asılıdır.

*Bəşəriyyətə xidmət haqqında təlim*. Bu təlim Həzrət Bəhaullah və Həzrət Əbdül-Bəha tərəfindən formalaşdırılmış bəhainin ailə və cəmiyyətdə bir sıra əxlaq və davranış qaydalarından ibarətdir. Həzrət Bəhaullah buyurur: "*Dünyəvi arzuların arxasınca düşən və bu dünyanın şeylərindən yapışan kəs Bəha əhlindən deyil. Mənim həqiqi bəndəm o kəsdir ki, əgər qızılla dolu vadiyə daxil olsa, ondan bulud kimi yan ötüb keçər və dönüb arxaya baxar, nə də dayanar. Bilin ki, o mütləq Mənə mənsubdur. Səma sakinləri onun libasından müqəddəslik ətri duyar...*" Bəhai etikasının və davranış qaydasının prinsipləri aşağıdakılardan ibarətdir:

bəhai öz həyatından hər cür milli, irqi, etnik, dini və sosial mövhumat və xurafatı silib atmağa çalışır – "*Özünüzə rəva görmədiyinizi insanlara rəva görməyin və özünüz üçün istəmədiyiniz şeyi başqası üçün istəməyin*". O, bütün bəşəriyyəti sevir – "*O kəs fəxr etməsin ki, vətənini sevir, fəxr etsin o kəs ki, dünyanı sevir*", Dinin əsas prinsipini – Bəşəriyyətin Birliyi prinsipini uca tutur və Ümumdünya

sülhünə çalışır – “*Ey Allah adamları, öz hayınızda olmayın, dünyanı islah etmək və insanları paklaşdırmaq barədə düşünün. Dünyanın yaxşılasması pak və xeyrxah əməllər, təqdirəlayiq və layiqli davranış sayəsində əldə oluna bilər. Əməllər - əmrin köməkçisi, əxlaq isə onun yardımçısıdır. Ey Bəha əhli! Paklıq yolu ilə gedin!*”. Hər cür dini, siyası, milli, iqri təəsübkeşliklər ona yaddır – “*İnsana layiq olan işlər mərhəmət, məhəbbət, şəfqət və bütün aləm əhlinə qarşı dözümlü olmaqdır*”;

bəhai hər hansı bir formada siyasi hərəkatlara qoşulmur. O, yaşadığı ölkənin hökumətinə və dövlətin konstitusiyasına sidq ürəklə itaət edir və ona səmimi hörmət bəsləyir – “*Bu gün insanlara lazım olan şey hökumətə itaət etmək və hikmətdən yapışmaqdır*”;

bəhai əxlaqi saflıq prinsipini gösləyir – “*Biz, həqiqətən, Öz Kitabımızda əxlaqsızlıqdan üz döndərib paklıq yolunu tutanlara çoxlu mükafat müəyyən etdik. Həqiqətən, O, mükafatlandıran və səxavətlidir.* O, nigahdan əvvəl və nigahda ismətliliyi qoruyub saxlayır – “*Paklıq və ismət Allahın kənizləri üçün ən böyük bəzək olub və olacaq. Allah Mənə şahiddir! İsmət nurunun parıltısı öz işığını ruh dünyalarına səpir və onun ətri hətta Ən Yüksək Cənnətə yayılır. Allah isməti, həqiqətən, Öz kənizlərinin başlarına tac etmişdir. Bu böyük məqama çatan kənizin xeyir-duası böyükdür”*, hamı ilə nəzakətli, hörmətcil və qonaqpərvərdir – “*Allahın bütün dostlarına bu sözləri vəsiyyət etmişik: müqəddəs ətəyi qadağan olunan əməllərin palçığına və bəyənilməyən xasiyyətlərin tozuna bulaşdırmayın. Ey Haqqın dostları, nəfs və ehtirasın dar biyabanından çıxıb müqəddəs Birlik fəzalarına tələsin və paklıq və qüdsiyyət bağçasında məskən salın1 Qoy sizin əməllərinizin ətrindən bütün yer üzərində olanlar şərəfli Birlik dənizinə üz tutsunlar*”;

bəhai cəmiyyətdə və ailədə kişi və qadın bərabərliyini tanıyır – “*Qadınlar yer üzündə kişi ilə bərabər hüquqa*

*malikdirlər; dində və cəmiyyətdə onlar çox vacib ünsürlərdir. Nə qədər ki, qadınların öz yüksək imkanlarını əldə etməsinin qarşısı alınır, kişilər də özlərinin çata biləcəyi böyüklüyə yetişə bilməyəcəklər"*, təknigahlıqdan başqa heç bir nigah formasını qəbul etmir – "*Allahın qanunu altında izdivac sualına dair: əvvəlcə sən könlünə yatan birisini seçməlisən və sonra bu məsələyə görə ata və ananın razılığı alınmalıdır. Sən seçim etməmişdən əvvəl onların müdaxilə etmək hüququ yoxdur"*;

bəhai təhsil alır, peşə öyrənir, dolanışıq üçün vəsait qazanır və bəşəriyyətə xidmət edir – "*bundan qəbahətli bir iş ola bilməz ki, Haqqın adından insanlar arasında dilənçilik edəsən. Xoş o yoxsulun halına ki, səbr edər və öz yoxsulluğunu gizli saxlar və o varlının halına ki, varını möhtaca verər və onları özündən üstün tutar. Allahınköməkliyi ilə yoxsullar da çalışmalı və həyatları üçün ruzi qazanmalıdırlar...*";

bəhai Bir Ümumi Din konsepsiyasını təbliğ etməklə dinlər və məzhəblər arasında dostluq, əməkdaşlıq və birliyin yaradılmasına çalışır - "*Bütün dinlərin ardıcılları ilə dostluq və yoldaşlıq ruhunda ünsiyyətdə olun*";

bəhai qeybətdən, mübahisədən, yalan, ixtilaf və narazılıqdan uzaqdır – "*Dostlara dönə-dönə tövsiyə etmişik və edirik ki, fəsad qoxusu gələn şeylərdən uzaqlaşsınlar, xeyr, qaçsınlar. Biz bir tərəfdən insan övladları arasında ixtilaf, fəsad və nifaq doğuran şeyləri Allahın müqəddəs Kitabından sildik, digər tərəfdən isə ora ülfətə, anlayışa və birliyə səbəb olan şeyləri təsbit etdik"*

# IV FƏSİL. DİNLƏRİN ƏZƏLİ BİRLİYİ VƏ BİR ÜMUMİ DİN KONSEPSİYASI

*"Bütün dinlərdə həqiqət birdir və onun vasitəsi ilə bəşəriyyətin birliyi mümkündür. O zaman ki, insanlar həqiqəti axtarmağa başladılar, aşkar edəcəklər ki, birləşmişlər"*

***Həzrət Əbdül-Bəha***

Dinşünaslığın ən əhəmiyyətli problemlərindən biri *Dinlərin Əzəli Birliyi və Bir Ümumi Din* konsepsiyasını həm elmi, həm də teoloji faktlarla sübuta yetirməkdir. Şübhə yoxdur ki, Dünyada hazırda mövcud olan dinlər İlahi mənşəyə malikdirlər və Bir Mənbədən qaynaqlanırlar. Buradan belə bir nəticəyə gəlmək olar ki, Yerdə Allahın bir Dini mövcuddur, bütün dinlər bu Dinin tarixi mərhələləridir. Bu Din tarix boyu kamilləşmək yolu ilə inkişaf etmişdir. Peyğəmbərlərin gətirdikləri Müqəddəs Kitablar (Bhaqavat-Qita, Tövrət, Avesta, İncil, Qurani-Kərim, Kitabi–Əqdəs) isə bir İlahi Kitabın səhifələridir. Bu Din cansız deyildir. Əksinə, o daim inkişafdadır. Həzrət Krişna və Musanın təlimində tumurcuğu, Həzrət İsa və Məhəmmədin təlimində çiçəyi görürüksə, Həzrət Bəhaullahın təlimində o, artıq yetişmiş meyvədir. Tumurcuq düşməlidir ki, çiçək açsın, çiçək tökülməlidir ki, meyvə yetişsin. Tumurcuq və çiçək töküldükləri üçün faydasız sayılmamalıdırlar. Onların hər biri öz dövründə zəruri və faydalı idi, onlarsız meyvə yetişə bilməzdi. Əslində "tökülən" dinin zahiri (sosial qaydalar, mərasimlər və s) cəhətləridir. Onun ruhani əsasları qalır və növbəti dinə "ötürülür". Həzrət Bəhaullah yazır: "*Bu, Allahın dəyişməz Dinidir, keçmişdə əzəli, gələcəkdə əbədi*".

Beləliklə, Peyğəmbərlərin gətirdikləri təlimlərin xarici forması əsrdən-əsrə dəyişir, hər yeni Vəhy əvvəlkini tamamlayır. Belə söyləmək olar ki, onlar arasında fikir ayrılığı və uyğunsuzluq yoxdur. Allahın dini yerdə təkamül etdikcə, onun cəmiyyətin sosial quruluşu, insanlararası münasibətlər və digər sosial qanunlarla bağlı

qaydaları da dəyişir, kamilləşir və insanın ruhani mahiyyətinə, maddi və mənəvi ehtiyaclarına daha çox cavab verir.

Bir Ümumi Din konsepsiyasının təhlilinə keçməzdən öncə biz "Əhd" anlayışı üzərində bir qədər düşünməliyik. "Əhd" anlayışı bütün dinlərdə, xüsusən də İbrahimi dinlərdə ön planda görünür. Bibliya və Qurani-Kərim mətnlərinə istinad etsək, Əhd – iki tərəfin, Allah və insanın (bəşəriyyətin) öz üzərlərinə götürdükləri öhdəliklərdən ibarət razılaşma və ya müqavilədir. Allah Yaradan, Qüdrətli və Müdrik olub, Əhdin müəllifidir. O, Əhdin şərtlərini insanın köməyi olmadan müəyyən etmişdir. Əhdə Allahın rolu insanınkından fərqlənir. Allah həyatın həyatverici qüvvələrini və Vəhyi azad edir, insan isə onları könüllü surətdə qəbul edir və sidqi-ürəklə Onun Əhdinin arxasınca gedir. Əhdin şərtlərinə görə Allah yerdə və Göydəki sərvətləri insanın sərəncamına verməklə onun fiziki tələbatını ödəməli, digər tərəfdən isə Öz Peyğəmbərlərini (Zühurlarını) göndərməklə onun ruhani inkişafını təmin etməlidir.

Beləliklə, Əhdin şərtlərinə uyğun olaraq, Allah insanın həm maddi rifahını təmin edəcəyinə, həm də Peyğəmbərləri vasitəsilə onu ruhani kamilliyə çatdıracağına zəmanət verir. İnsanlar isə öz növbəsində iki şərtə əməl edəcəklərinə, birincisi, təlimlərini qəbul etməklə İlahi Zühurları tanımağa və ikincisi, Onların qanun və hökmlərinə uyğun olaraq öz həyatlarını qurmağa söz verirlər.

Allahın təyin etdiyi bu iki şərtə əməl etməklə insanlıq özünün ruhani inkişafına və həqiqi maddi tərəqqiyə nail olur. Deməli, Əhddə Allahın ali məqsədi bəşəriyyəti ən yüksək kamilliyə çatdırmaqdır. Kamilləşmənin yeganə yolu isə "Bəşəriyyətin Müəllimləri" vəzifəsini yerinə yetirən Peyğəmbərlərin insanlara çatdırdıqları Müqəddəs Yazılara əməl etməkdir.

Əhdlə bağlı diqqəti cəlb edən cəhət, Allahın insanlar tərəfindən Peyğəmbərlərin qəbul edilməsi məsələsinə çox böyük tələbkarlıqla yanaşmasıdır. Bu şərtə görə Elçilərini tanımaqla insanlar Allahın özünü tanımış olurlar. "Kitabi-Əqdəsdə" (Bəhai Dini) buyurulur:

*"Allahın bəndələr üçün yazdığı birinci vəzifə - Onun Vəhyinin məşriqini və Əmrinin Şəfəqini (yəni Onun göndərdiyi Peyğəmbərləri – qeyd müəlliflər) tanımaqdır ki, bu Kəs əmr və xilqət aləmlərində Onun Özü məqamındadaır. Buna nail olan kəs bütün xeyirlərə yetişər, bundan məhrum olan kəs isə bütün yaxşı əməllərə sahib olsa belə, yolunu azmışlardan sayılar. Bu yüksək məqama və uca üfüqə yetişən hər bir kəs Məqsud tərəfindən əmr edilənlərə tabe olmalıdır. Bu iki vəzifə bir-birindən ayrılmazdır və biri digərsiz qəbul olunmaz. İlham mənbəyinin hökmü belədir..."*

Allahın insan üzərinə qoyduğu bu hökm Qurani-Kərim və İncil Yazılarında da aşkar görünür:

*"Mənim tərəfimdən sizə doğru bir yol göstərən gəldiyi zaman Mənim yol göstərənimə tabe olanlara heç bir qorxu yoxdur və onlar qəmgin olmazlar" (Əl-Bəqərə, 38) ."O kəslər ki, Allahla Əhd bağladıqdan sonra onu pozur, məhz belələri ziyana uğrayanlardır" (Əl-Bəqərə, 27) ."Peyğəmbərə itaət edən şəxs, şübhəsiz ki, Allaha itaət etmiş olur" (Ən-Nisa, 80)."Mənə iman edən, Mənə yox, Məni Göndərənə iman edir" (Yəhya Müjdəsi, 12:44)*

Əhdin şərtlərinə uyğun olaraq, Allah Öz Peyğəmbərlərini bir-birinin ardınca yerə göndərərək, Onların vasitəçiliyi ilə insanlarla Əhd ("İbrahim Əhdi", "Musa Əhdi", "İsa Əhdi", "Məhəmməd Əhdi", "Bəhaullah Əhdi" və s.) bağlayaraq, bəşəriyyəti sonu görünməyən gələcəyə doğru aparır. Əhd haqqında Tövrət, İncil və Qurani-Kərim Yazılarında da məlumat verilmişdir. Qurani-Kərimdə deyilir:

"*Xatırla ki, Biz bir zaman Peyğəmbərlərdən Əhd almışdıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da. Biz Onlardan möhkəm bir Əhd almışdıq"(Əl-Əhzab,7)*

Allahın Tövrətdə Nuh, İbrahim, Musa və başqa peyğəmbərlər, İncildə isə İsa Məsih ilə bağladığı Əhddən danışılır. Nuh Əhdində bütün canlıları məhv etmiş daşqın qurtardıqdan sonra Allah Nuha və Onun oğullarına xeyir-dua verib deyir:

"*Mən sizinlə və sizdən sonra gələn nəslinizlə sabit bir Əhd kəsirəm; bir daha tufanla bütün canlılar məhv edilməyəcək, yer*

*üzünü viran qoyan tufan olmayacaqdır. Mən göy qurşağımı buludların arasına qoyuram və o, Mənimlə yer arasındakı Əhdin bir rəmzi olacaqdır. Mən ona baxıb, yer üzündə yaşayan bütün canlılarla kəsdiyim əbədi Əhdi xatırlayacağam. Budur, mənim yer üzündəki bütün canlılarla kəsdiyim Əhdin rəmzi" ( Varlıq, 8:18-22).*

Allah Elçilərinin gətirdikləri Əhdlər dörd əsas tərkib hissədən ibarətdir:

**I.** Yeni İlahi Əhdin məqsədlərini insanlara bəyan etmək və öncə göndərilmiş Peyğəmbərlərin və Müqəddəs Kitabların həqiqiliyini təsdiq etmək;

**II.** Unudulmuş Allah həqiqətlərini və ruhani prinsipləri bərpa etmək, insanları yeni İlahi biliklərlə zənginləşdirmək və Dinin dövrün tələblərinə cavab verməyən sosial qanunlarını yeniləri ilə əvəzləmək;

**III**. Gələcək Peyğəmbərin müjdəsini insanlara çatdırmaq;

**IV.** Peyğəmbərin öz canişinin təyin etməsi, yəni Kiçik Əhdi bağlanması;

İstənilən Əhdin bu tərkibdə insanlara çatdırılması bütün Vəhy dövrlərində olmuş və gələcəkdə də belə olacaqdır. Əhdin ən əhəmiyyətli tərkib hissəsi və ya İlahi Zühura tapşırılmış ən məsul vəzifə- gələcək Peyğəmbər və ya Zühur haqda müjdənin insanlara çatdırılmasıdır. Həzrət Bab yazır:

"*Aləmlərin Rəbbi olan Allah bütün insanlarla qabaqcadan Əhd bağlamadan, onları növbəti Vəhyi və növbəti Kitabı qəbul etməyə çağırmadan öz tərəfindən Peyğəmbər göndərməmiş və Kitab açmamışdır".*

Həzrət Babın sitatından məlum olur ki, İlahi Zühurların özlərindən sonrakı Zühurların gəlişini müjdələməsi Əhdin ən əsas şərtidir. Həzrət Əbdül-Bəha bu haqda yazır:

"*Həzrət İbrahim Həzrət Musa haqqında Əhdi təyin etdi və Onun Zühurunun xoş müjdəsini gətirdi. Həzrət Musa Vəd olunmuş Həzrət İsa Məsih haqqında Əhdi təyin etdi və Onun Zühurunun xoş xəbərini dünyaya çatdırdı. Həzrət İsa Məsih*

*Həzrət Məhəmməd ə.s. haqqında Əhdi təyin etdi və Onun Zühurunu xəbər etdi. Həzrət Məhəmməd ə.s. Həzrət Bab haqqında Əhdi təyin etdiyi üçün Həzrət Bab Həzrət Məhəmmədin Vəd etdiyi Kəsdir, çünki Həzrət Məhəmməd ə.s. Onun haqqında xəbər gətirmişdi. Həzrət Bab Həzrət Bəhaullah haqqında Əhdi təyin etdi və Onun Zühurunun xoş müjdəsini verdi, çünki Həzrət Bəhaullah Həzrət Babın Vəd etdiyidir. Həzrət Bəhaullah min və ya çox min illər sonra Zühur edəcək Kəs haqqında xəbəri çatdırdı. Bu Zühur Həzrət Bəhaullahın Vəd etdiyi Kəs olacaq və O, min və ya çox min illər sonra gələcək..."* .

"Bəhaullah Əhdi" də Onun Öz sözlərinə görə Bəşəriyyətin ruhani təkamül prosesində yekunlaşdırıcı və yaxud sonuncu mərhələ deyildir. Həzrət Bəhaullah bildirir ki, Allah Elçilərinin ardıcıl sırası dünya durduqca davam edəcəkdir:

"*Allah öz Müjdəçilərini Musa və İsanın ardınca getməyə göndərmişdir və bu Onun tərəfindən sonu olmayanın sonunadək davam edəcəkdir...*".

Allah Elçisinin Yerdə görünməsi çox nadir hadisə olduğu üçün bəşəriyyətə din gətirmiş və müstəqil mədəniyyətlərin inkişafına təkan vermiş yalnız bir neçə İlahi Zühurun adı məlumdur: Krişna, İbrahim, Zərdüşt, Musa, Budda, İsa, Məhəmməd, Bəhaullah. Onlar bəşəriyyətin həqiqi müəllimləri idilər. Onların məqsədi insanları bir-birinə yaxınlaşdırmaq, insan sivilizasiyasının tərəqqisinə nail olmaq idi. Əgər Allah dünyanı vahid Vəhy konsepsiyası əsasında idarə edirsə və vaxtaşırı yerə peyğəmbərlər göndərməklə Bəşəriyyəti gələcəyə doğru aparırsa, bəs nə üçün Dini təlimlər bu qədər bir-birindən fərqlənir və bəzən tamam ziddiyyət təşkil edir ? Bunu bir qədər araşdırmağa çalışaq.

Hər bir din iki hissədən ibarətdir: ruhani təlim və sosial təlim. Ən yüksək ruhani səviyyədə bütün dünya dinləri arasında tam harmoniya mövcuddur. Fərq yalnız sosial səviyyədə müşahidə edilir. Bu özünü dini mərasim və ayinlərdə, qanun və sərəncamlarda göstərir. Dinin sosial cəhətləri əbədi ola bilməz, dövrdən dövrə

cəmiyyət dəyişdikcə, onlar da dəyişməlidirlər. Həzrət Əbdül-Bəha yazır:

*"Hər İlahi Vəhy iki hissədən ibarətdir. Birincisi əsas olub əbədidir. O İlahi həqiqətlərin və başlıca prinsiplərin şərhidir. O, bütün dinlərdə vahid və dəyişməzdir. İkinci hissə praktiki həyata, qarşılıqlı və işgüzar münasibətlərə aid olub, onun məzmunu insanın təkamülünə və Peyğəmbərin dövrünün tələblərinə uyğun şəkildə dəyişir. Məsələn, Həzrət Musanın dövründə ən adi oğurluğa görə əli kəsirdilər. Lakin bu qanunlar İsanın dövrünə uyğun gəlmirdi və O onları ləğv etdi. Eynilə boşanmaların geniş hal alması, nigah qanununun laxlaması səbəbindən İsa boşanmanı da qadağan etdi.*

*Dövrünün tələblərinə uyğun olaraq Musa ağır cinayətlərə görə "On qanun" müəyyən etdi. O zamanlar bu kəskin qanunlar olmadan icmanı müdafiə etmək, onun ictimai təhlükəsizliyini qorumaq mümkün deyildi, çünki İsrail övladları Tih səhrasında yaşayırdılar. Orada nə məhkəmə, nə də həbsxanalar var idi. Lakin İsanın dövründə bu qanunlara ehtiyac olmadı. Beləliklə, yerin və zamanın adət-ənənələrinə aid edilən dinin ikinci hissəsi o qədər də əhəmiyyətli deyildir, lakin Allah Dininin əsasını təşkil edən birinci hissə isə vahiddir və Həzrət Bəhaullah onu bərpa etdi..."*

Dinlər arasında fərq insanların İlahi təlimlərə süni əlavələr etməsi nəticəsində də yaranır. Beləliklə, təlimlərin saflığı ardıcılları tərəfindən zaman - zaman təhrif olunur. Hər dinin zahiri, maddi cəhətləri - yaranma, yüksəlmə və tənəzzül mərhələlərindən keçir. Zaman keçdikcə insanlar dinin ruhaniyyətilə bağlı hissəsini unudub, onun zahiri, maddi cəhətlərindən (ayin, mərasim və s.) möhkəm yapışır, onları mütləq həqiqətə çevirirlər. Lakin insan cəmiyyəti bir yerdə durmur, o daim inkişafdadır. Biliklər artdıqca və ictimai-iqtisadi münasibətlər təkmilləşdikcə, insanların dünyagörüşü dəyişir və kamilləşir. Bu zaman inkişaf etmiş cəmiyyət dinin dondurulmuş sosial qanunlarına sığmır. Bu da fərdlərin və bütövlükdə cəmiyyətin

dindən uzaqlaşmasına, ruhaniyyətin və əxlaqın aşağı düşməsinə səbəb olur. Tənəzzül mərhələsi yüksək həddə çatanda Allah Yerə yeni Peyğəmbər göndərir, insanların ürəyinə yeni inam toxumu atılır, unudulmuş ruhani prinsiplər yenidən bərpa edilir, inkişaf etmiş yeni cəmiyyətin tələblərinə uyğun qanun və hökmlər elan edilir və bununla da növbəti yüksəliş başlayır. Həzrət Bəhaullah yazır:

*"Yenə də dinlərin mahiyyəti barədə yazmışdınız. Müdriklər dünyanı insan bədəninə bənzətmişlər. İnsan bədəninə geyim lazım olduğu kimi, dünyanın bədəninə də ədalət və bilik libası gərəkdir. Deməli, Allahın dini dünyanın libasıdır, elə ki, köhnəldi, Allah onu təzə libasla bəzəyir. Hər dövr ayrıca bir rəftar tələb edir və Allahın dini həmişə həmin dövrə uyğun şəkildə zahir və aşkar olur.."*

Həzrət Krişna "Bhaqavat-Qita"da deyir: *"Din tənəzzülə uğradıqda, dinsizliksə artaraq üstünlük təşkil etdikdə, Mən Özüm zahir oluram... Möminləri xilas, cinayətkarları məhv, dini prinsipləri bərpa etmək üçün Mən hər minillikdən-minilliyə zühur edirəm*".

Beləliklə, Dini yaranma, yüksəliş və tənəzzül mərhələlərindən keçən, yəni təkamül həyatını yaşayan istənilən maddi obyekt və ya proseslə müqayisə etmək mümkündür. Dinləri tədqiq edərkən onların müxtəlif inkişaf mərhələlərində yaranma, yüksəliş və ya tənəzzülə uyğun olaraq onun müəyyən cəhətlərinin üzə çıxmasının şahidi oluruq. Əgər dinin yaranma mərhələsində ruhani cəhətlər–birlik, qardaşlıq, əxlaq və mənəviyat, xeyirxahlıqlar daha çox qabarırsa (bu mərhələdə əksər dinlərdə ayinçilik demək olar ki, nəzərə çarpmır), yüksəliş mərhələsində fəlsəfi, mədəniyyətyaradıcılıq (incəsənət, memarlıq və s.) cəhətləri, sönmə mərhələsində ayinçilik, mərasimçilik, möcüzə axtarışına və mistikaya meyllilik özünü daha çox göstərir.

Bütün peyğəmbərlər bir Dinə xidmət etdir və bir İlahi Planı mərhələ - mərhələ həyata keçirdikləri üçün onların təlimlərindəki ardıcıllığı görməmək mümkün deyildir. Ona görə də dinləri bir-birindən ayırıb qarşı-qarşıya qoymaq, birini həqiqi, saf, digərini

səhv və natəmiz hesab etmək səhvdir. Bütün dinlər və müqəddəs Yazılar öz əsaslarında həqiqidirlər və bütün Peyğəmbərlər isə Allahın zühurlarıdırlar. Həzrət Bəhaullah yazır: "*Əgər onlara diqqətlə baxsan, görərsən ki, onların hamısı eyni çadrda yaşayır, eyni taxtda oturur, eyni nitqi söyləyir və bir dini elan edirlər*".

Qurani-Kərimdə deyilir: *"Allahı və peyğəmbərlərini inkar edənlər, Allahı peyğəmbərlərindən ayırmaq istəyənlər, "Biz peyğəmbərlərdən bəzisinə inanır, bəzilərinə isə inanmırıq", - deyənlər və bunun arasında bir yol tapmaq istəyənlər – bütün bunlar, həqiqətən, kafirdirlər. Biz kafirlərdən ötrü rüsvayedici əzab hazırlamışıq ! Lakin Allaha və peyğəmbərlərinə iman gətirən və onların heç birini digərindən ayırmayan şəxslərə Allah Öz mükafatlarını verəcəkdir. Şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir !" (Ən-Nisa, 150-152)*

Hər dəfə Peyğəmbər gələndə, Ondan əvvəlkilər tərəfindən başlanmış təlimin qurulması prosesi davam etdirilir, yeni Müjdə gətirilir və gələcək Zühurun gəlişi üçün əsas qoyulur. Peyğəmbərlər Öz mahiyyətlərinə görə bir-birindən fərqlənmirlər. Lakin Allahın Onlara tapşırdığı vəzifələrdən, İlahi yükün ağırlığından və məsuliyyətindən asılı olaraq onlar fərdi məqamlara malikdirlər. Həzrət Bəhaullah yazır: "*Əlbəttə Allahın bütün Peyğəmbərləri Onun sevimliləridirlər, Onun Müqəddəsləri və Onun seçilmiş Müjdəçiləridir, hamısı bir nəfər kimi Onun adını daşıyır və Onun mükəmməlliyini təcəssüm etdirirlər. Onları bir-birindən ancaq Onların Vəhylərinin gücü və Onların halələrinin saçdığı nurun parlaqlığı fərqləndirir"* .

Bir Ümumi Din konsepsiyasının əleyhinə səslənən arqumentlərdən biri də odur ki, Vəhylə gəlmiş dinlər arasındakı fərqlər o qədər fundamentaldır ki, onları həqiqətin vahid bir sisteminin mərhələləri kimi təqdim etmək faktlara zidd görünə bilər. Göstərilən faktlar ayin və ehkam kateqoriyalarına aiddir. Həzrət Bəhaullah təsdiq edir: *"Bu prinsiplər və qanunlar, bu möhkəm bərqərar olmuş və qüdrətli sistemlər, bir Mənbədən gəlmişdir və bir İşığın şüalarıdır. Onların birinin digərindən fərq-lənməsi onların bəyan edildikləri dövrün müxtəlif tələbatlarına görədir."*

Ona görə də, tənzimləyici qaydaların, ayinlərin və başqa dini ibadətlərin fərqlərinin, nazil olmuş dinlərin mahiyyət etibarilə birliyinə əhəmiyyətli bir əks arqument olmasını sübut etməyə çalışmaq, bu qanunların xidmət etdiyi məqsədi yaddan çıxarmaq deməkdir. Bu cür baxış dinin funksiyasının əbədi və müvəqqəti elementləri arasındakı fundamental fərqləri nəzərə almır. Dinin əsl missiyası dəyişməzdir. Bu, Həzrət Bəhaullahın sözləri ilə desək, "*Allahın dəyişməz dinidir, keçmişdə əzəli və gələcəkdə əbədi*".

Dinin sosial rolunu başa düşmək üçün bu prinsip çox fundamental prinsipdir. Həzrət Bəhaullah göstərir: "*Dünyanın bu günkü xəstəlikləri üçün lazım olan dərman heç vaxt sonrakı dövrün tələb etdiyi ilə eyni ola bilməz,*" "*Yaşadığınız dövrün ehtiyaclarının qayğısına qalın, öz fikirlərinizi onun kəskin ehtiyacları və tələbləri üzərində cəmləşdirin.*"

Bu mənada, bütün yazılar bir səslə danışır: dinin hədəfi bəşərin "*bir yerə toplanacağı*", "*bir sürü, bir çoban*" olacağı günə çatmaqdır.

Şübhəsiz ki, Allahın hər bir Zühurunun işi hər hansı qiymətləndirmədən yüksəkdə duran müstəqilliyə və səlahiyyətə malikdir. Hər Allah Elçisinin gəlişi Gerçəkliyin sonsuz açılışının bir mərhələsidir. Bu proses sadəcə təkrarlama deyil, hər dəfə artan istiqamətdə gedir və yalnız bu kontekstdə baxıldıqda tam başa düşülə bilər.

İnsan irqi bütün müxtəlifliyinə rəğmən vahid növ olduğu üçün, Allahın müdaxiləsi də vahid bir prosesdir. Bu prosesin bütün qəhrəmanları və övliyaları bu mübarizənin bütün mərhələlərinin qəhrəmanları və müqəddəsləridir. Geniş mənada, bəşəriyyətin geniş dini tarixi salnaməsi "Əhd"in yerinə yetməsini göstərir.

Dinlərin birliyindən danışmaq vacibdir, lakin bu anlayışın başa düşülməsi daha mühümdür. Ən dərin səviyyədə, Həzrət Bəhaullahın vurğuladığı kimi, Yer kürəsində ancaq Bir Ümumi Din var.



*Rəbbin bütün dünyanın sağalması üçün müəyyən etdiyi ən təsirli dərman və ən güclü vasitə - bütün dünya xalqlarının bir ümumi Əmrdə, Vahid bir Dində birləşməsidir.*

*Həzrət Bəhaullah*

*Sən Ey Mehriban Allah! Bütün insanları birləşdir. Qoy dinlər razılığa nail olsunlar, millətləri bir millət eylə, ta ki, onlar bir-birlərinə bir ailə kimi baxsınlar və bütün yer üzünü bir vətən saysınlar. Qoy onların hamısı ən mükəmməl uyğunluq içərisində birgə yaşasınlar. Ey Allah! Bəşərin birlik bayrağını ucalt. Ey Allah! Ən Böyük Sülhü bərqərar elə. Ey Allah! Ürəkləri bir-birinə möhkəm bağla.*

*Həzrət Əbdül-Bəha*

## ƏDƏBİYYAT SİYAHISI


1. Din əxlaqa aparan yol. Bakı, 2004.
2. Fəridə Məmmədova. Qafqaz Albaniyasında xristianlıq. Bakı, 2003.
3. Əsgərov E.M., Rəhimov N.Ə. İslamın əsasları: fəlsəfə, tarix və əxlaq baxımından. Bakı. 2007.
4. Qurana dair 101 sual. Bakı, 1992.
5. Masse A. İslam. Bakı, 1992.
6. Surə Rzayeva. Panteizm. (www.edebiyyat.az)
7. Əhmədov Ə. İslamın əsasları. Bakı, 1996.
8. Elmi ateizm. Bakı, 1978.
9. Quliyev Şahlar.İsa: İnamın yolu açıqdır. Bakı, 2009.
10. Həzrət Bəhaullah. Yazılarından seçmələr. Bakı. 2009.
11. Həzrət Bəhaullah. Kəlimət- i Məknunə, Bakı. 2000.88 s.
12. Bahà'u'llah. *Gleanings from the Writings of Bahà'u'llah*. Wilmette, III.:Baha'i Publishing Trust.1976, p.254.
13. Bahà'u'llah. The book of Certitude. Wilmette, III.: Baha'i Publishing Trust.1985.
14. Bahà'u'llah. Tablets of Bahà'u'llah Revealed after the Kitab-I Aqdas. Haifa:Baha'I World Centre, 1982.
15. Abdul-Baha'. Selections from the Writings of 'Abdul-Baha'. Haifa: Baha'I Wold Centre, 1978,p.291.
16. Shoghi Effendi. Baha'i Administration: Selected Messaqes 1922-1932.Wilmette, III.:Baha'i Publishing Trust.1972.
17. Baha'i Edication (A Compilation from Baha'i Writings). London: Baha'I Publishing Trust, 1976.
18. Lights of Guidance. A Baha'I Reference File. New Delhi: Baha'i Publishing Trust.1988.
19. Ateistin cib lüğəti. Bakı. Azərnəşr. 1987.
20. Həzrət Əbdül-Bəha. Bəzi suallara cavablar. Bakı, 2005.
21. Con Ebenezer Esslemont. Bəhaullah və Yeni Era. Bakı, 2000.

22. Католицизм (словарь атеиста). М. 1991.
23. Протестантизм (словарь атеиста). М. 1991.
24. Никитин В.Н.,Обухов В.Л. Религиоведение. Санкт-Петербург.1999.
25. Библия. Книги Ветхого и Нового Заветов. М., 1980. Донини А. У истоков христианства. М., 1979.
26. Крывелев И. История религий. Т. 1, 2. М., 1975.
27. Мень А. История религии. М., 1992. Т. 1.
28. Мень А. Сын человеческий. М., 1992.
29. Энгельс Ф. Бруно Бауэр и первоначальное христианство Энгельс Ф. Книга откровения //Маркс К, Энгельс Ф. Соч. Т. 21.
30. Uca Ədalət Evi. Bir Ümumi Din. Bakı, 2005.
31. Uca Ədalət Evi. Dini liderlərə müraciət. (www. bahai.az).

## MÜNDƏRİCAT

Сящ.

**MÜQƏDDİMƏ……………………………………….** 3

**I FƏSİL. DİN ÜÇ TƏLİMİN PREDMETİ KİMİ……..** 11

§ 1. Cəmiyyətdə ilahiyyat, ateizm və dinşünaslığın rolu….. 11

§ 2. İlahiyyat…………………………………………… 22

§ 3. Ateizm……………………………………………. 27

§ 4. Dinşünaslıq……………………………………….. 41

**II FƏSİL. AZƏRBAYCANDA DİNLƏR VƏ DİNİ MƏZHƏBLƏRİN BİR ÜMUMİ DİN PRİZMASINDAN TƏSNİFATI…………………………..…………..** 47

**III FƏSİL. AZƏRBAYCANDA DİNLƏR VƏ DİNİ MƏZHƏBLƏR……………………………………….** 61

§5. Krişna şüuru cəmiyyəti……………………..……….. 61

§6. Yəhudilik………………………………………… 69

§7. Xristianliq……………………………………….. 79

Alban-Udi килсяси……………………………………….. 89

Pravoslavlıq………………………………………… 92

Katolisizm……………………………………..……. 102

Protestantlıq…………………………………….… 110

Lüteranlıq…………………………………….…… 111

Baptizm………………………………………..…..…… 117
Yeddinci günün adventistləri…………………………..... 122
Əllincilər………………………………………………. 129
Yahova şahidləri……………………………………... 133
§8.Islam………………………………………………. 141
§9.Bəhai Dini……………………………………... 156

**IV FƏSİL. DİNLƏRİN ƏZƏLİ BİRLİYİ VƏ BİR ÜMUMİ DİN KONSEPSİYASI…………………..…** 171
**Ədəbiyyat siyahısı……………………………………..** 181

ЖЯФЯРОВ АЗЯР БЯЩЛУЛ оьлу
ЩЦСЕЙНОВ ЩЦСЕЙН ИСЭЯНДЯР оьлу

Йыьылмаьа верилиб: 20.10.11. Чапа имзаланыб: 26.10.11
Формат 60x84 $^{1}/_{16}$. Ф.ч.в. 11,5. Сифариш №103.
Каьыз яла нюв. Тираъ 200 нцсхя. Гиймяти мцгавиля иля

***“ТИ-МЕДИА” ширкятинин мятбяяси***